Faiq Abdullayev

# Zəngəzur aslanı – Aslan bəy Sultanov



Faiq Abdullayev
*(tədqiqatçı-hüquqşünas)*

# ZƏNGƏZUR ASLANI-
# Aslan Bəy Sultanov

**Bakı-2012**

**Elmi redaktor:** ***Şahsuvar Həşimov***
*Respublika Baş Milli Arxiv İdarəsinin elm və texnika sənədləri arxivinin direktoru, əməkdar mədəniyyət işçisi*

**Nəşriyyat redaktoru:** ***İbrahim İlyaslı***

***Faiq Abdullayev. Zəngəzur aslanı – Aslan bəy Sultanov.***
*(Sənədli-tarixi-publisistik monoqrafiya)*
*Bakı, «Bilik» nəşriyyatı. 2012. 352 səhifə*

*«Zəngəzur aslanı–Aslan bəy Sultanov» sənədli-tarixi-publisistik monoqrafiyası tədqiqatçı-hüquqşünas Faiq Abdullayevin uzun sürən istintaq tədqiqatlarının və gərgin axtarışlarının bəhrəsi olaraq oxuculara təqdim olunur. Müəllif bu əsərdə arxiv sənədlərinə istinadən XX əsrin əvvəllərində Azərbaycanın Zəngəzur mahalında baş verən hadisələrin əsl mahiyyətini açıb oxuculara çatdırır, bu hadisələrin fonunda tarixi şəxsiyyət, milli sərkərdə Aslan bəy Sultanovun şərəfli ömür yoluna ayna tutur.*

*İnanırıq ki, kitab tarixçilər və eyni zamanda geniş oxucu kütləsi tərəfindən böyük maraqla qarşılanacaq.*

$$D\frac{525000-185}{235-09}M$$

© *"Bilik" nəşriyyatı, 2012*



**Aslan bəy Sultanov**
**Qarabağın və Zəngəzurun fövqəladə komissarı olmuşdur.**

*Öz keçmişini, tarixini bilməyən millətlər başqa millətlərin yeminə çevrilir.*

***Mustafa Kamal Atatürk***

*Azərbaycan xalqının çox qədim və şərəfli bir tarixi var. Hər bir azərbaycanlı bu tarixi bilməli, tarixdə baş verən hadisələri öyrənməli və o tarixə hörmətlə yanaşmalıdır.*
*...Biz elə etməliyik ki, tarixdə baş verən səhvlər bir daha təkrarlanmasın.*

***Heydər Əliyev,***
***Azərbaycan xalqının ümummilli lideri***

## Ön Söz Əvəzi

XX əsrin əvvəlləri Azərbaycan tarixinin ən qarışıq və ən şərəfli dövrlərindən birinə təsadüf edir. Ona görə qarışıq dövrünə təsadüf edir ki, bu dövrdə Azərbaycanın başına gətirilən bəlalar, daxili və xarici çəkişmələr, üsyanlar, inqilablar, vətəndaş müharibələri, Rusiyadan gələn bolşevik dalğası, erməni daşnaklarının məkrli və iyrənc hərəkətləri həmin dövrün əsas mənzərəsini təşkil edir...

Ona görə şərəfli tarixdir ki, məhz XX əsrin əvvəllərində Azərbaycan xalqı şərqdə ilk dəfə özünün dünyəvi, demokratik cumhuriyyətini yaratmış, iyirmi üç aylıq bir zaman kəsiyində xalqımız müstəqillik və demokratiya şərbətini dadaraq azadlıq, hürriyyət barədə olan təsəvvürlərini əyani şəkildə yaşaya bilmişdi.

Çox təəssüf ki, həmin dövr daha çox qarışıqlığı ilə yadda qalıb.

Məqsədimiz həmin dövrlərdə bütövlükdə ölkənin siyasi mənzərəsini vermək olmadığı üçün məqsəddən yayınmaq istəmirik. Hədəfimiz konkret olaraq Zəngəzur və onun ətrafında baş verən siyasi, hərbi və iqtisadi mənzərəyə aydınlıq gətirmək, illər uzunu arxivlərdə saxlanılan, nə üçünsə üzə çıxarılması "unudulan" hadisələr haqqında söz açmaqdır.

****

Azərbaycanın yenidən müstəqilliyini əldə etməsi bir çox qaranlıq mətləblərə işıq saldı. Arxivlərin açılması ilə uzun illər xalqdan gizli saxlanılan faktlar və tarixi hadisələr üzə çıxdı. Sovet hökumətinin nə vaxtsa dağılacağını yuxusunda belə təsəvvür edə bilməyən yalançı xalq qəhrəmanlarının, həqiqətdə isə xalqına və millətinə öz şəxsi məqsədləri naminə xəyanət edənlərin maskası yırtıldı. Ölməz azadlıq aşiqi Məmmədəmin Rəsulzadənin bir vaxtlar dediyi sözlər:- "Bir kərə ucalan bayraq bir daha enməz", - fikirləri həqiqətə çevrildi, tarix təkrar olundu, tarixin təkrar olunması ilə də XX əsrin əvvəllərində baş verən hadisələrin gercək mənzərəsi görünməyə başladı, o dövrdə baş verən xəyanətlərin üstünə çəkilmiş qaranlıq pərdələrin götürülməsinə münbit şərait yarandı.

Həmin dövrün hadisələrini diqqətlə, soyuqqanlıqla analiz etdikdə məntiqi bir sual yaranır; Nədən məhz Zəngəzur? Nəyə görə düşmən ilk olaraq Zəngəzurun Azərbaycandan ayrılmasını seçdi və bu fakta önəm verdi? Bu suala cavab tapmaq o qədər çətin olmasa da, sarsıdıcıdır. Təbii ki, hədə-

fində yüz illik bir plan olan düşmənin məkrli niyyəti Zəngəzuru Azərbaycanın tərkibindən çıxarmağa nail olmaqla bərabər, eyni zamanda bütövlükdə türk dünyasını coğrafi cəhətdən bir-birindən ayrı salmaq niyyətini güdürdü. Bununla da düşmən gələcək planlarına yol açmış olurdu. Bu addımın atılması, Zəngəzurun ermənilərə verilməsi ilə Türkiyə, Azərbaycan və Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan coğrafi cəhətdən bir-birindən ayrı düşdü...

Əldə etdiyimiz arxiv materiallarından, görüşdüyümüz və söhbətlər apardığımız insanların xatirələrindən məlum olur ki, uzun illər Azərbaycan tarixinin ayrılmaz bir parçası hesab edilən, xəyanət və nüfuz savaşında erməni daşnaklarına güzəşt olunan, uğrunda hələ də qanlar tökülən doğma Zəngəzur qəzasının tarixində xüsusi əhəmiyyət kəsb edən şəxsiyyətlər az olmayıb. Tarix məhz o şəxsiyyətlərin hesabına yazılıb, tarixi məhz o şəxsiyyətlər yazıblar.

Həmin insanların mübariz həyat yollarını, düşmənlə barışmazlıq, dosta sədaqət andı içən, ölümün gözünə dik baxa bilən, vətən, torpaq sevgisini həyatından üstün tutan qəhrəmanların həyat tarixlərini öyrənmək, onlar barədə gələcək nəsilləri məlumatlandırmaq şərəf və insanlıq borcudur.

Həmin dövr haqqında müxtəlif müəlliflərin, tarixçilərin, o dövrdə yaşayan insanların elmi əsərləri, bədii yazıları, xatirələri olsa belə, çox şeylər bəzən təhrif olunmuş, son dərəcə vacib olan tarixi faktların üstündən sükutla keçilmiş, bəzən isə hətta həmin tarixə qarşı ədalətsizlik, xəyanət edilmişdir.

Bu kitab janr etibarilə sənədli-tarixi-publisistik nəşr olmaqla yanaşı, həm də hüquqi terminologiya ilə işlənmiş bir

tədqiqat işidir. Kitabın müxtəilif fəsillərində haqqında ümumilikdə danışdığımız bir çox mətləblərə ayrı-ayrılıqda toxunacaq, fikirlərimiz barədə ədalətli qərar verməyi sizin ixtiyarınıza buraxmağa çalışacağıq. Amma elə bəri başdan nəzərinizə çatdırmaq istəyirik ki, bu yazı Azərbaycanın ayrılmaz bir parçası olan Zəngəzur mahalının igid oğlu, əfsanəvi sərkərdə, unudulmaz tarixi şəxsiyyət, savadlı və uzaqgörən lider, əhali arasında böyük nüfuz sahibi olan Aslan bəy Sultanova həsr edilir. Aslan bəy Sultanovun yaşadığı ömür, keçdiyi şərəfli həyat yolu isə hər bir azərbaycanlıya örnək və nümunədir.

**Haşiyə:** *Aslan bəy zadəgan nəslindəndir. Professor Ədalət Tahirzadənin araşdırmalarının birində deyilir: Görkəmli tədqiqatçı Ənvər Çingizoğlu özəlliklə Qarabağın əksər soylarının tarixini arxiv bəlgələrinə əsasən incəliklə öyrənərək ortaya qırxdan artıq sanballı kitab qoymuşdur. O, Sultanovların da kökünü öyrənərək dəqiqləşdirmişdir. Ənvər bəyin "Püsyan eli" (tarixi genealoji tədqiqat) adlı dəyərli yazısında Sultanovlar nəsli haqqında geniş bilgi verilir. Ənvər bəy yazır ki, Sultanovlar soyunun ulu babası XVII yüzilin sonlarında yaşamış, şahdan sultan rütbəsi almış Hacı Məhəmməd bəy Püsyandır. Hacı Məhəmməd sultanın törəmələri bəylərbəylik və xanlıq dönəmində Püsyan, rus üsuli-idarəsi dövründə Sultanov soyadı daşıyıblar. Aslan bəy Sultanov Hacı Məhəmməd sultanın oğlu, İbrahim sultanın oğlu, Pənah sultanın oğlu, Xanəmir sultanın oğlu, İbrahim sultanın oğlu, Həsən sultanın oğlu, Nəsir sultanın oğlu, Məhəmmədəli bəy sultanın oğlu, Abdulla sultanın oğlu Kərbəlayı Hüseyn bəy Sultanovun oğludur.*

## *Birinci fəsil*

## Zəngəzur Aslanı - Aslan Bəy Sultanov

Aslan bəy Kərbəlayi Hüseyn oğlu Sultanov 1888-cu ildə Zəngəzur qəzasının Qubadlı rayonunun Hacılı kəndində anadan olmuş, ilk təhsilini doğma kəndində–əmisi oğlu Həsən bəyin müdir olduğu ikisinifli dördillik təhsil müddəti olan rus məktəbində almışdır. Daha sonrakı təhsilini isə Azərbaycanın bir sıra ziyalılarının yetişməsində xüsusi rolu olan Qori seminariyasında davam etdirmiş, daha sonra isə ali hərbi məktəbi bitirmişdir.

1920-ci ilin aprelində Azərbaycan Demokratik Respublikası Hökuməti bolşevik xəyanəti nəticəsində hakimiyyəti heç bir müqavimət göstərmədən bolşeviklərin ixtiyarına buraxdıqdan sonra Zəngəzur qəzası demək olar ki, tamamilə hərbi qüvvələrin nəzarəti altına keçmişdi. Azərbaycan Demokratik Respublikası hakimiyyəti dövründə Zəngəzur qəzasında qəza mahal pristavı vəzifəsində işləyən və eyni zamanda yerli hərbi qüvvələrə rəhbərlik edən Aslan bəy Sultanov müsavat hakimiyyəti devrildikdən sonra başqa xəyanətlər və məğlubiyyətlər baş verməsin deyə, qəzadakı bütün hərbi qüvvələri birləşdirməyi qərara alır. Bu addımı atmaqla Aslan bəy Sultanov tarixi məsuliyyəti öz üzərinə götürür.

Aslan bəy Sultanov tarixi məsuliyyəti öz üzərinə götürməklə həmin dövrlərdə daşnak generalı Andronikə, onun yaratdığı daşnak hökumətinə, həmin hökumətin başçısı general Nijdeyə, müdafiə naziri general Droya və qeyrilərinə qarşı yaratdığı böyük bir hərbi qüvvə ilə vuruşur, mübarizə aparır.

Burada bir faktı qeyd etmək lazımdır ki, Azərbaycan Demokratik Respublikası hakimiyyəti dövründə qəzada böyük hörmət və nüfuz sahibi olan Aslan bəy Sultanovun tövsiyyəsi ilə, onun əmisi oğlu Cəlil bəy Sultanov Zəngəzur qəzasından Azərbaycan Demokratik Respublikası parlamentinə üzv seçilmiş, siyasi fəaliyyətini şərəflə və vicdanla yerinə yetirmişdir. Onun parlamentdə qaldırdığı taleyüklü məsələ Cəlil bəyin kim olduğunu bir daha təsdiq edir.

**Azərbaycan Respublikasının baş Milli Dövlət Arxivi, fond 894, siyahı 1, iş 119**

**Копия с телеграммы из Карягино в Баку**

**Председателю Парламента за №240/107**

**От 21 января 1920 года.**

Зангезурском уезде чертвертый день идеть наступление армянских банды совместно регулярными войсками при артиллерийском и пулемётном огне точке фронт на протяжением 50 весрть от Кубатлов до Ходжагана точка жертвы колосальныя население бежит панике и напрасно просить о помощи точка Убедитель нейше прошу срочных мерь высылки большого количества войске патронов точка от имени несчастнаго неселения уезда умоляю перейти от бумажных протестов активным действиям и спасти лучший уголок Азербайджана от окончательной гибели точка за Зангезуромь очередь Карабаху точка потерю всего этого ответствуете передь тюркскимь народом и Азербайджаном вы.

***Член парламента Джалиль Султанов.***

***С подлинным верно.***

***Делопроизводитель.***



10

Копія съ телеграммы изъ Карягино въ Баку

Предсѣдателю Парламента за № 240/107

отъ 21 января 1920 года.

Зангезурскомъ уѣздѣ четвертый день идетъ наступ-
леніе армянскихъ бандъ совмѣстно регулярными вой-
сками при артиллерійскомъ и пулеметномъ огнѣ точка
фронтъ протяженіемъ 50 верстъ отъ Кубатлловъ до
Ходжагана точка жертвы колосальныя населеніе бѣжит
паникѣ и напрасно проситъ о помощи точка Убѣдитель
нѣйше прошу срочныхъ мѣръ высылки большого количе-
ства войскъ патроновъ точка отъ имени несчастнаго
населенія уѣзда умоляю перейти отъ бумажныхъ про-
тестовъ къ активнымъ дѣйствіямъ и спасти лучшій
уголокъ Азербайджана отъ окончательной гибели точ-
ка За зангезуромъ очередь Карабаху точка Потерю
всего этого отвѣтствуете передъ тюркскимъ народомъ
и Азербайджаномъ вы.

Членъ Парламента Джалилъ Султановъ.

Съ подлиннымъ вѣрно

Дѣлопроизводитель:

Diqqəti çəkən arxiv sənədlərindən biri də Cəlil Sultanovun 1920-ci ilin 21 yanvarından mərkəzə, parlamentin sədrinə ünvanladığı həyəcan təbili çalan məlumatıdır. Məlumatda bildirilir: Zəngəzur qəzası dördüncü gündür hücuma məruz qalır. Erməni banditləri və erməni qoşunları tərəfindən. Toplardan və pulemyotlardan müntəzəm olaraq atəşə tutulur Zəngəzur qəzası. Cəbhə uzanır 50 verst Qubadlıdan Xocahan kəndinə qədər. Külli miqdarda qurbanlar var. əhali şaiyələrə uyur, nahaq yerə kömək üçün xahiş edir. Çox xahiş edirəm təcili tədbirlər görəsiniz. Zəngəzur qəzasının bədbəxt əhalisi adından yalvarıram. Kağız üzərindəki etirazlardan nəhayət ki, keçin aktiv fəaliyyətə və s. Xilas edin Azərbaycanın ən gözəl guşəsini tamamilə məhv olma təhlükəsindən. Zəngəzura, sonra növbə Qarabağa gəlir. Bütün bu itkilərə görə siz məsuliyyət daşıyırsınız bütün türk xalqları və Azərbaycan xalqları qarşısında.

**Parlamentin üzvü Cəlil Sultanov.**

Bu arxiv sənədini təhlil etdikdə aşıq-aydın Cəlil Sultanovun parlamenti ittiham etdiyini görürük. Belə ki, o, öz deputat mandatını deyil, birbaşa onu seçən insanların mənafeyini ön plana şəkir. Mərkəzdən təcili kömək göndərilməsini xahiş edir. Cəlil bəy axırda ürək yanğısı ilə bildirir ki, bədbəxt Zəngəzur əhalisinin adından sizdən xahiş edirəm Azərbaycanın ən gözəl guşələrindən biri olan Zəngəzuru tamamilə məhv olma təhlükəsindən xilas edəsiniz. Həyəcanla bildirir ki, kağız üzərində yazılan qəti etirazlardan artıq əməli fəaliyyətə keçmək lazımdır. Əvvəl Zəngəzur, sonra isə Qarabağın itirilməsinə görə bütün türk və

Azərbaycan xalqının qarşısında siz tarixi məsuliyyət daşıyırsınız.

Yerli sərkərdə Aslan bəyin tövsiyyəsi ilə seçilən Cəlil bəy (Aslan bəyin əmisi oğlu) millətinin mənafeyini hər şeydən üstün tutaraq parlamentin sədrini ittiham edir.

Onu öz deputat mandatını itirmək maraqlandırmır. Burada sərkərdənin və ona sadiq əqidə qardaşlarının milli mənafeyə nə qədar sadiq olduqları açıq-aydın görünür.

Cəlil Sultanov sonda bildirir ki, əvvəl Zəngəzur, sonra növbə Qarabağa gəlir. Bütün bu itkilərə görə türk və Azərbaycan xalqı qarşısında parlament məsuliyyət daşıyır. Bu ittihamedici çağırışı ilə Cəlil bəy parlamentarları ayıltmağa, onların  məsuliyyət hissini artırmağa çalışır. Bu günün prizmasından baxdıqda Aslan bəyin, Cəlil bəyin, Xudabaxış bəyin və onların əqidə qardaşlarının nə qədər haqlı olduqlarını zaman təsdiq edir. Doğrudan da əvvəl Zəngəzur verildi. Sonra Zəngəzurdan başlanan qaçaqçılıq hərəkatı hökumətə qarşı silahlı müqavimət. Bu yolda tökülən saysiz-hesabsız şəhid qanları Qarabağın o vaxt verilməsi planının qarşısını aldı. Arxiv sənədlərindən məlum olduğu kimi Nəriman Nərimanov Zəngəzurla birlikdə Qarabağın da ermənilərə verilməsinə razılıq vermişdir. Çox təəssüflər olsun ki, Cəlil bəyin əvvəl Zəngəzur, sonra isə Qarabağın gedəcəyi proqnozu təsdiqini tapdı. 1925-ci ilin əksinqilabçılar sayılan bir arxiv sənədi var. Orada Aslan bəyin, Cəlil bəyin, Xudabaxış bəyin və qeyrilərinin adları var.

Cəlil bəy Sultanov parlamentdəki çıxışlarında birmənalı olaraq, kəskin şəkildə hökumətdən tələb edirdi: -“Nijdenin rəhbərlik etdiyi daşnak hökuməti ilə sərhəddə yerləşən və hər

gün daşnak təcavüzü ilə üz-üzə dayanan Zəngəzur qəzasının əhalisinə tezliklə dövlət tərəfindən kömək göstərilməzsə, biz parlamentarilər tarix və zaman qarşısında cavab verməli olacağıq”. Cəlil bəy Sultanov əlavə olaraq onu da qeyd etmişdi ki: -“Hazırkı şəraitdə daşnak təcavüzünə qarşı mübarizəni qəzadakı yerli hərbi qüvvələr təkbaşına aparırlar”.

Cəlil bəy Sultanov parlamentdə yerli hərbi qüvvələr dedikdə daşnak ordusu ilə birbaşa vuruşan və müqavimət hərəkatına rəhbərlik edən Aslan bəy Sultanovu və onun rəhbərlik etdiyi hərbi qüvvələri nəzərdə tuturdu. Həmin dövrlərdə Aslan bəyin hərbi istedadı və sərkərdəlik bacarığı daşnak generalları Nijdeni və Dronu bir-birinin ardınca ağır məğlubiyyətlərə uğratmışdı. Öz dövrünün hərbi standartlarına cavab verən yerli hərbi qüvvələrdən təşkil edilmiş ordu və onun sərkərdəsi Aslan bəy Zəngəzur əhalisini daşnak təcavüzündən qoruya bilirdi.

Müsavat Hakimiyyəti süqut etdikdən sonra da öz missiyasını böyük qəhrəmanlıqla yerinə yetirən Aslan bəy Sultanovun keyfiyyətləri XI ordu komandanlığını və mərkəzi hakimiyyəti onunla hesablaşmaq zorunda saxlamışdı. Mərkəzi hakimiyyət daşnak hökumətinə qarşı mübarizədə Aslan bəy Sultanov kimi real qüvvəyə arxalanmağın, daşnakların ürəyində yaranmış Aslan bəy xofundan istifadə etməyin qaçılmaz olduğunu anlamış və qəbul etmişdi.

****

Daşnakların ürəyində bəs Aslan bəy xofu haradan yaranmış, haradan qaynaqlanmışdı? O xofun yaranmasının maraqlı bir tarixçəsi var...

Hələ bu hadisələrə qədər Andronik daşnak hökumətinin başçısı Nijdeni daha da gücləndirmək üçün özünün sağ əli olan general Manuku hər cür hərbi sursatla təchiz olunmuş böyük bir ordu ilə Zəngəzura göndərir. O hadisələrin real şahidlərinin xatirələrinə görə böyük bir daşnak ordusunun Zəngəzura göndərilməsi Türk ordusunun generalı Nuru Paşanı da son dərəcə narahat edirmiş. Çünki Nuru Paşa qəddarlıqda və zalımlıqda Andronikdən və Nijdedən heç də geri qalmayan Manukun Zəngəzura gedib Nijde ilə birləşməsindən sonra Zəngəzur əhalisinin qan içində boğulacağını düşünür, narahatlıq hissi keçirirdi. Ancaq Andronikin bu arzusu ürəyində qaldı.

Manukun ordusu Gorusa getmək üçün Laçının Zabux dərəsi deyilən yerinə yaxınlaşırdı... Bunun necə böyük bir təhlükə olduğunu bilən Laçınlı Sultan bəy təcili olaraq Aslan bəy Sultanovun yanına adamlarını göndərir və ona belə bir məktub yazır: -"Sayca bizim qüvvələrdən xeyli üstün, təpədən-dırnağadək silahlanmış Manuk öz ordusu ilə başımızın üstünü kəsdirib. Əmioğlu, bütün qüvvələrini yığ, özünü bizə çatdır. Yoxsa bu qeyri-bərabər döyüşdə biz hamımız məhv olarıq".

Bu xəbəri eşidən Aslan bəy Sultanov vaxt itirmədən bütün hərbi qüvvələri ayağa qaldıraraq Zabux istiqamətinə hərəkət edir və tezliklə özünü Sultan bəyin qüvvələrinə çatdırır. Təşviş içində olan yerli hərbi qüvvələr qeyri-adi sərkərdəlik istedadı olan Aslan bəyin belə ağır bir şəraitdə hansı qərarı qəbul edəcəyi barədə müxtəlif fikirlər yürüdürmüş. Hər kəs vəziyyətin son dərəcə ağır olduğunu dərk etmiş, səhər açılar-açılmaz say və hərbi texnika cəhət-

dən özlərindən qat-qat üstün olan bir daşnak ordusu ilə vuruacağını yəqinləşdirmişdi.

Təşviş içində olan hərbçilərə, yerli camaatın nümayəndələrinə təsəlli verən Aslan bəy bildirir ki, döyüşün hərbi planını hazırlayıb, sabahkı döyüş barədə sizə əlavə məlumat verəcəyəm.

Şahidlərin dediyinə görə Aslan bəy Sultanov vaxt itirmədən Zabux dərəsində onun üçün hazırlanan xüsusi çadıra girərək döyüş planını hazırlamağa başlayır. Bir müddətdən sonra Aslan bəy təşviş içində olan döyüşçülərə bildirir ki, sabahkı döyüşün planı hazırdır, taktika seçilib, seçilmiş taktika barədə sabah səhər hər kəsə məlumat veriləcək.

...Günəşin göy üzünə boylandığı sübh çağının sükutunu qəfildən atılan atəş səsləri pozur. Hər kəs bir anlıq yerindəcə donub qalır. Heç kəs nə baş verdiyini dərk edə bilmir. Heyrət içində olan döyüşçülər bir-birlərinə baxır, vəziyyəti aydınlaşdırmağa çalışırlar. Bu zaman Sultan bəy öz çadırından çıxaraq sürətlə Aslan bəyin çadırına doğru gedir, çadırdan içəri girib o andaca geri dönür və çaşqınlıq içində döyüşçülərə: “Aslan bəy çadırında yoxdur”,- deyir...

O anlarda Zabux dərəsinə toplaşan hər kəsin içindən bir fikir keçirdi, Aslan bəy çadırında yoxdursa və atəş səsləri eşidildisə o mütləq nəsə vurub. Hamı bilirdi ki, Aslan bəy sərrast atıcıdır, o gözlə görmədiyi, lakin səslə təyin etdiyi hədəfi belə asanlıqla vura bilir.

Bir qədər sonra Aslan bəy geri qayıdır. Onun üzündə xoşbəxt bir təbəssüm varmış. Nə baş verdiyini isə ondan və Manukun ordusunun adamlarından başqa heç kəs bilmirdi.

Azacıq vaxt keçdiukdən sonra daşnak ordusunun mövqeyi tərəfdəki qayalıqların birinin üstündən üzü dərə aşağı iri bir qaraltının yumalandığı görünür. Aslan bəy və onun ətrafına toplaşanlar həmin qaraltıya tərəf baxırlar. Qaraltı daşlara və qayalara dəyə-dəyə şappıltı ilə gəlib dərənin dibinə düşür. Bu vaxt Aslan bəy xüsusi kəşfiyyat qrupunu həmin qaraltını gətirmək üçün göndərir...

Hər kəs heyrət və maraq içində o qaraltının nə olduğunu bilmək istəyirdi. Kimi bunu ayıya, kimi də iri bir heyvana bənzədirdi. Kəşfiyyat qrupu qayıtdıqda isə bütün tərəddüdlərə son qoyuldu. Səhərin ilk gün işığının parlaq şəfəqləri ilə bərabər çadırından çıxaraq döyüş mövqelərini yoxlamaq üçün ətrafda kəşfiyyat aparan Aslan bəy qarşı tərəfdən parlayan işığın əksini biganəliklə seyr edə bilməmişdi. Diqqət yetirdikdə gün işığının durbin şüşəsindən əks etdiyini yəqinləşdirmişdi. Onu tanıyanlar əminliklə deyirlər ki, Aslan bəyin xüsusi sərkərdəlik qabiliyyətindən, döyüş bacarığından, mahir atıcılığından başqa, güclü hissiyyat sahibi, fəhmli insan olması da bir həqiqət idi. Tanrının ona verdiyi fitri hərbi istedadı ilə bərabər dəqiqliklə, operativ olaraq analiz etməyi bacaran bir şəxsiyyət olub. Elə o anlarda da, qarşı mövqedən parlayaraq onun gözünü qamaşdıran işığın döyüş meydanını nəzərdən keçirmək üçün mövqelərə durbinlə nəzarət edən quldurbaşı Manukun

durbininə düşən gün işığı olduğunu qətiləşdirir və Manuk ikinci dəfə durbini qaldırıb ətrafa baxdığı zaman Aslan bəy məsafənin ağlagəlməz dərəcədə uzaqlığına baxmayaraq sərrast atəşlə Manukun alnının ortasından ***(yerli camaatın dediyi kimi, qaşqasından)*** bir-neçə güllə vurur. Kəşfiyyat qrupu Manukun cəsədini gətirdikdə isə mənzərə tam aydınlaşır...

Döyüşçülər sevindiklərindən yerə-göyə sığmırlar. Komandirlər isə Aslan bəyi əllərinin içində tutaraq başlarının üstünə qaldırırlar.

Daşnak ordusu bu itkinin şokundan çıxa bilmir. Aslan bəy bir an içində döyüşçülərə hansı istiqamətlərdən hücum edəcəyi barədə döyüş tapşırığı verir və taktikanı düzgün seçərək başsız qalan daşnak ordusunu çətinlik çəkmədən pərən-pərən salır.

Aslan bəyin başçılıq etdiyi qüvvələr Zabux dərəsindəki qeyri-bərabər döyüşdə daşnak ordusunu tamailə darmadağın edirlər. Qələbənin nəticəsi olaraq Aslan bəyin ordusu çoxlu sayda hərbi qənimət – pulemyotlar, tüfənglər, patronlar və başqa hərbi ləvazimatlar əldə edir. Manuk üçün xüsusi dəridən son dərəcə keyfiyyətlə hazırlanmış tapança kaburası tapança ilə birlikdə Aslan bəyə təqdim edilir...

Aslan bəyin belə bir qeyri-bərabər döyüşdə qazandığı böyük qələbənin sorağı daşnak ordusunu son dərəcə sarsıdır. Bütün ermənistan Manukun belə biabırçı ölümünə üç gün üç gecə yas saxlayır. Aslan bəy xofu da o günlərdə yaranır...

****

Qələbə xəbəri tezliklə Zəngəzura, bütün Azərbaycana yayıldı və ölkənin sərhədlərini yarıb keçərək, hadisələrin gedişatından böyük narahatlıq hissi keçirən, hadisələri anbaan təqib edən qardaş Türkiyəyə və türk ordusunun komandanı Nuru Paşaya da çatmışdı. Nuru Paşa Aslan bəyin daşnak generalı Manuku durbinə düşən gün işığı vasitəsilə təyin edərək hansı məsafədən vurub öldürdüyünü eşitdikdə heyrətini gizlədə bilməmişdi.

Aslan bəyin bu qəhrəmanlıqları, bölgədəki nüfuzu, hərbi bacarığı və qeyri-adi sərkərdəlik məharəti XI Qızıl ordu komandanlığına və mərkəzi bolşevik hökumətinə də yaxşı məlum idi. Elə ona görə də XI Qızıl Ordu komandanlığı və mərkəzi bolşevik hökumətinin rəhbərliyi daşnaklara qarşı mübarizədə Aslan bəy Sultanovun alternativsiz bir qüvvə olduğunu qəbul etmişdi. Mərkəz yaxşı bilirdi ki, bu dağlıq və keçilməz meşələri olan ərazilərdə düzgün kəşfiyyat taktikasının qurulması qələbəni təmin edən əsas amillərdən biridir. Belə bir kəşfiyyatı isə o yerlərə beş barmağı kimi bələd olan, daşnaklarla döyüş təcrübəsi olan, onların psixologiyasını bilən bir sərkərdə qura bilərdi. O sərkərdə isə birmənalı olaraq dövrünün yüksək ali hərbi təhsilini almış, fitri hərbi istedada malik Aslan bəy Sultanov idi.

### *İkinci fəsil*

## Aslan Bəy Sultanov- Zəngəzur Qəzasında Alternativsiz Güc Sahibi

Aslan bəy Sultanovun mərkəzi bolşevik hakimiyyətinə nə qədər lazım olduğunu təsdiq etmək üçün bəzi arxiv sənədlərinə üz tutmağı vacib hesab edirəm.

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi sənədlər arxivində ***fond 1, siyahı 1, saxlama vahidi 24*** qrifi ilə qorunan bir arxiv sənədinə istinad etmək yerinə düşər. Adı çəkilən sənəd 18 sentyabr 1920-ci il tarixində Kommunist Partiyasının Mərkəzi Komitəsinin və Təşkilat Komitəsinin birgə iclasında çıxarılan qərarın surətidir. Həmin iclasda bir sıra bolşevik rəhbərlərlə yanaşı Nəriman Nərimanov, Dadaş Bünyadzadə və qeyriləri də iştirak ediblər. Sənəd onu da təsdiq edir ki, iclasın işində o vaxtın müdafiə və dəniz komissarı vəzifəni tutan Əliheydər Qarayev də iştirak edib.

Müzakirələr zamanı çıxışçılar birmənalı olaraq qeyd ediblər ki, daşnak hökuməti ilə müharibədə laçınlı Sultan bəylə birgə mübarizə aparmaq siyasəti heç bir nəticə verməyib. Əslində isə bu siyasət əhali arasında böyük narazılığa səbəb olub. Ona görə də iclasda qərar çıxarıb müdafiə və dəniz komissarına tapşırılır ki, Sultan bəyi və onun bandasını zərərsizləşdirmək üçün təcili tədbirlər görsün. Burada bir məsələni də xüsusi olaraq qeyd etmək lazımdır ki, o zaman Sultan bəyin qardaşı Xosrov bəy Sultanov həbs olunmuşdu. Mərkəzi hökümət onu həbsdən azad edib asanlıqla Zəngəzurda yerli sərkərdə kimi istifadə edə bilərdi. Burada bir məntiqi sual meydana çıxır: Nə üçün XI Ordunun

komandanlığı və mərkəzi hakimiyyət daşnak hökümətinə qarşı müharibədə Sultan bəydən, Xosrov bəydən, əslən Zəngəzurlu, Azərbaycan İnqilab Komitəsinin üzvü olan Çingiz İldırımdan***(Aslan bəy Sultanovun əmisi oğlu)***, onun himayə etdiyi yerli kommunistlərdən və qeyrilərindən yerli sərkərdə kimi istifadə etmədi? Bütün təhlil və götür-qoydan sonra mərkəz və XI ordu komandanlığı bu ağır və mürəkkəb tarixi şəraitdə alternativsiz olaraq indiyə qədər daşnakların ürəyində xof yaratmış, onun generallarını şəxsən məhv etmiş Aslan bəylə birləşmək qərarını qəbul edir. Bundan sonra mərkəzi hakimiyyət ona fövqəladə səlahiyyətlər verir. Bunu arxiv sənədi də təsdiq edir.

**Azərbaycan Respublikası Baş Milli Arxivi, fond 410, siyahı 1, iş 205.**

Nəyə görə yerli qəza hökumətini təşkil etmək üçün mərkəzdən verilən fövqəladə səlahiyyət Çingiz İldırıma yox, kommunist partiyasının üzvü olmayan Aslan bəyə verilir? Aslan bəy də ona verilən səlahiyyətdən istifadə edərək ətrafına inandığı, etibar etdiyi əqidə sahiblərini, kommunist partiyasının üzvü olmayan adamlardan yerli qəza hökumətini təşkil edir. Aslan bəy çox gözəl başa düşürdü ki, kommunist partiyası yeni qurulmuş bolşevik hökumətinin hakim partiyasıdır və yüksək vəzifəyə də yalnız o partiyanın üzvü olanlar irəli çəkilməlidir. Həmin dövrə nəzər salsaq başqa heç bir yerdə görə bilmərik ki, kommunist partiyası üzvü olmayanlar rəhbər vəzifələrə irəli çəkilsinlər.

Mərkəz çox gözəl bilirdi ki, təpədən-dırnağadək silahlanmış daşnak hökuməti ilə müharibəni ancaq xalq içində böyük nüfuzu olan bir qəhrəman sərkərdə ilə birləşib aparmaq mümkündür. Elə ona görə də XI Qızıl Ordunun 28-

ci diviziyasının komandanı, general Semyonov ***(müəllif: XI Qızıl Ordu tərəfindən Zəngəzurda daşnak hökumətinə qarşı müharibə aparmaq missiyasını yerinə yetirirdi)*** və onunla birlikdə mərkəzdən Zəngəzura ezam olunmuş digər yüksək vəzifəli şəxslər Aslan bəy Sultanovla görüşlərində ona bildirdilər ki, yeni yaranmış Sovet Hökuməti fəhlə-kəndli hökumətidir, ADR hökumətindən daha da demokratik bir hökumətdir. Sübut üçün də onu əsas götürmüşdülər ki, müsavat hökuməti dövründə yerli hakimiyyət mərkəzdən təyin edilirdisə, sovetlərdə ***(fəhlə-kəndli hökumətində)*** isə yerli hakimiyyəti qurmaq yerli əhalinin özünə həvalə olunur. Belə bir demokratiya, sərbəst seçim ixtiyarı əldə etmək Azərbaycanın dövlətçilik tarixi boyu heç bir vaxt olmamışdı. Lakin tarix onu göstərdi ki, sovet hökuməti və demokratiya fikirləri bir-birinə zidd olan iki qütbə bənzəyir. Bu tezislər yalnız sadə xalqı aldatmaq və yeni yaranmış hakimiyyət möhkəmlənənədək əhalinin müqavimətinin qarşısını almaq üçün imiş. Xalq içində belə bir məsəl var; - Avazın yaxşı gəlir, oxuduğun Quran olsa... Bolşevik hökuməti də bu fikirləri ortaya atmaqla gözdən pərdə asmaq istəyirdi və buna da nail oldu.

Bir məsələni də qeyd etməyi vacib bilirik ki, bir çoxları Aslan bəyin XI ordu ilə birləşməsinə başqa cür don geyindirməyə çalışırlar. Əvvəla onu bildirək ki, kimin kimlə birləşməsi barədə bir az əvvəl məlumat vermişdik. Həmin məlumatdan göründüyü kimi birləşmək təşəbbüsü XI ordu tərəfindən irəli sürülmüşdür. Çünki, mürəkkəb dağlıq relyefə və keçilməz meşələrə malik olan Zəngəzurda daşnak höküməti ilə müharibə aparmaq üçün kəşfiyyatın düzgün qurulması ən başlıca şərt idi. Bu kəşfiyyatı o yerlərin hər

qarışına bələd olan fitri hərbi istedada malik bir qəhrəman sərkərdə qura bilərdi. Ona görə də XI ordu bu müharibəni udmaq üçün Alan bəylə birləşməyin labüd olduğu qərarına gəlmişdi.

Mərkəzdən gələn qüvvələrlə Aslan bəyin komandiri olduğu Zəngəzur igidlərinin məqsədləri, yəni XI Qızıl Ordunun 28-ci diviziyasının komandanlığının Zəngəzurda daşnak hökumətunə qarşı vuruşma niyyətiylə Aslan bəyin daşnak hökumtinə qarşı hazırladığı müharibə planı üst-üstə düşürdü. Bu yerdə "düşmənimin düşməni mənim dostumdur" fikrini xatırlamaq yerinə düşür. Ona görə də heç bir müqavimət göstərmədən XI qızıl ordunun 28-ci diviziyasının komandanlığı ilə birləşən Aslan bəy Sultanov onların təbirincə desək, son dərəcə demokratik olan fəhlə-kəndli hökumətinin qəzadakı yerli hökumətini qurdu. Yuxarıda da qeyd etmişdik ki, qəzada Aslan bəyin etibar etdiyi doğma adamlardan ibarət qurduğu yeni hökumətdə təmsil olunan rəhbər vəzifəli şəxslərin heç biri hakim kommunist partiyasının üzvləri deyildilər. Bu da onların heç bir siyasi məqsəd güdmədiklərinə tutarlı sübutdur. Bunu arxiv sənədləri də təsdiq edir.

Zəngəzur Qəzası yerli kommunist partiyasının məsul katibi olan Nəzər Heydərov mərkəzə ünvanladığı ***28 aprel 1921-ci il*** tarixli məktubunda qeyd edir ki, "...qəza hakimiyyətinin başında kommunist partiyasının üzvü olmayan Sultanovlar dayanırsa, o zaman qəza hakimiyyətinin idarə olunmasında başıpozuqluq və hərc-mərclik yaranır, kommunistləri isə tezliklə ölüm gözləyir. Mərkəzdən təcili kömək gəlməzsə qəzada sovet hökumətinin sonu olacaq!"

***(Azərbaycan Respublikası Prezidenti Aparatının İşlər İdarəsinin, Siyasi sənədlər arxivi, fond 1, siyahı 2, saxlama vahidi 96).***

Nəzər Heydərovun nədən mərkəzi bu fikirlərlə qızışdırmaq niyyətində olduğuna sonrakı fəsillərdə aydınlıq gətirəcəyik. Lakin fəxrlə demək lazımdır ki, XI Qızıl Ordunun Zəngəzurdakı ordu komandanlığı ilə yerli hökumətin sədaqətli birliyi tezliklə öz müsbət nəticəsini verdi. Razılaşmaya əsasən Aslan bəy XI Qızıl Ordunun Zəngəzurdakı 28-ci diviziyasının kəşfiyyatına rəhbərliyi öz üzərinə götürdü. O dövrdə Aslan bəy eyni zamanda özünün yaratdığı yerli özünümüdafiə qüvvələrinin də komandiri idi və bu qüvvələr "Zəngəzurun partizan hərəkatı" adı ilə tanınırdı.

Semyonovun komandanlığı altında daşnak hökumətinə qarşı müharibəyə hazırlaşan 28-ci diviziya ciddi kəşfiyyat əməliyyatlarından sonra birgə müharibə planını, hərbi əməliyyatların sxemini hazırlamağa başlayır. Bu vaxt kəşfiyyata rəhbərlik edən və o yerləri zərgər dəqiqliyilə tanıyan Aslan bəy özünün şəxsən əldə etdiyi kəşfiyyat məlumatlarına əsaslanaraq təklif edir ki, ordu dağ yolunun üstündə yerləşən Kəki, Təpəsər və Gəzbeldən keçərək Gecəlanda qərarlaşsın. Ona görə ki, Aslan bəyin təklif etdiyi yer daşnak hökumətinin başçısı, quldurbaşı general Nijdenin qərargahını mühasirəyə almaq üçün çox münasib yer idi.

Bu plandan xəbər tutan Nijde XI Qızıl Ordunun 28-ci diviziyasının Aslan bəyin qüvvələri ilə birləşməsindən təşvişə düşür və hiyləyə əl atmağı qərara alır. Belə ki, Nijde xüsusi öyrədilmiş yaşlı kişilərlə qadınları duz-çörəklə, gül-çiçəklə, ağ bayraqlarla Semyonovun qərargahına göndərir.

Bir xeyli adamlardan ibarət olan dəstənin üzvləri Semyonovun qərargahına gəlir, təslim olduqlarını, sovet hökumətini böyük məmnuniyyətlə qəbul etdiklərini və heç bir silahlı müqavimət göstərilməyəcəyini bəyan edirlər. Bu mehriban münasibət Semyonovu öz planının doğruluğuna inandırır və arxayınlaşan Semyonov sayıqlığını tamamilə itirir. Bunu görən Aslan bəy Semyonova bildirir ki, baş verənlər daşnak məkrindən baqa bir şey deyil, heç şübhəsiz ki, onlar sizi aldadırlar və mühasirəyə salıb məhv edəcəklər. Semyonov ondan əldə etdiyi kəşfiyyat məlumatlarını haradan aldığını xəbər aldıqda, Aslan bəy: "Bu məlumatları mənə xüsusi agentim olan erməni keşişi çatdırır",- deyərək cavab verir.

Semyonov Aslan bəyin bu məlumatını da tərəddüdlə qarşılayır və yenə öz planına əsasən Qafana tərəf irəliləməyə davam edir. Rus dilində sərbəst danışa və yaza bilən Aslan bəy Semyonova bildirir ki: "Mən bu məsuliyyətin altına girib bu qədər insanın taleyinə biganə qala bilmərəm. Ona görə yollarımız ayrılır."

Beləliklə, Aslan bəy özünün dəstəsi ilə birlikdə Semyonovdan ayrılır və özünün yeni əks əməliyyat planını hazırlayır. Semyonov isə ordusu ilə bərabər bir qədər də irəliləyir və erməni kəndləri olan Zeyvə və İrsəvənlikdə onu duz-çörəklə qarşılayan Nijde əsgərləri ilə qarşılaşır. Bu səmimi, isti münasibət Semyonovu bir daha öz planının doğruluğuna inandırır və onu qürrələndirir. Kəşfiyyat xəbərləri Nijdeyə çatan kimi artıq o bir güllə ilə iki dovşan vurduğunu qət edir və şadyanalıqla 28-ci diviziyanı mühasirəyə aldığının ləzzətini yaşamağa başlayır. Ancaq daşnak generalı Nijde bunu bayram etməyə çox tələsmişdi. Onu qarşıda nələrin gözlədiyini hələ ki, bilmirdi.

Bütün bu hadisələri zərgər dəqiqliyi və fitri sərkərdəlik məharəti, kəşfiyyat analizləri ilə hesablayan Aslan bəy Sultanovun əks hərbi planı çoxdan hazır idi. Aslan bəy mühasirəni hansı istiqamətlərdən yaracağını öz yaxın ətrafına bildirmişdi. Plana əsasən hücum səhər açılmadan, alaqaranlıqda baş verməliydi. Onun sadiq agenti olan erməni keşişi Aslan bəyə əvvəlcədən xəbər çatdırmışdı ki, Nijdenin planına əsasən Semyonovun ordusu İrsəvənlikdə mühasirəyə alınaraq məhv ediləcək.

Təmtəraqlı qarşılanma mərasimindən sonra tam arxayınlaşan Semyonov əmr verir ki, əsgərlər Kirmın dərəsində yerləşib dincəlsinlər.

Gecənin düşməsini və ordunun tam arxayınlıq içində yuxuya getməsini gözləyən daşnaklar Nijdenin əmrinə əsasən Kirmın dərəsində olan 28-ci diviziyanı bütünlüklə mühasirəyə alırlar. Bu qısa vaxt kəsiyində Nijdenin planını əvvəlcədən bilən Aslan bəy özünün qurduğu əks plan əsasında hücuma keçir. Səhərin alatoranında 28-ci ordunu üzük qaşı kimi mühasirəyə alan daşnak orudusu gözlənilmədən bir-neçə istiqamətdən başlayan hücumdan pərən-pərən düşür. Aslan bəyin özünün başçılıq etdiyi dəstə isə mühasirənin içindən keçərək birbaşa Semyonovun yanına çatır, özünü təqdim edir və deyir ki, mahasirə yarılmışdır, ardımca gəlin. Bir az əvvəl tam olaraq məğlubiyyətini dərk edən və ölüm xofuyla yaşayan Semyonov öz qəfil xilaskarının dediyi sözləri qeyd-şərtsiz qəbul edir və tabeçiliyində olan orduya Aslan bəyin əmrlərinə tabe olmaq əmri verir.

Aslan bəyin əmri ilə müxtəlif istiqamətlərdən hücum edən dəstələr daşnak ordusunu darmadağın edir. Bu zaman adı dillər əzbəri olan igid dəstə komandirləri, xalqımızın

qəhrəman oğulları Lətif və Kərim böyük şücaət göstərirlər. Bu müharibədə Aslan bəyin partizan dəstəsindən dörd igid də şəhid olur. Aslan bəyin Semyonovla birləşən hərbi qüvvələri daşnak generalı Nijdenin ordusuna dağıdıcı zərbələr endirir, Nijde qələbə sevincini yaşadığı anlarda gözlənilməz məğlubiyyətə düçar olur. Bu zaman başından yaralanan Aslan bəyi görən Semyonov təşviş içində qaçaraq özünü ona yetirir, öz əlləri ilə xilaskarının yarasını sarıyır, böyük sevinc içində onu bağrına sıxaraq qucaqlayır və üzünü bütün ordu qüvvələrinə tərəf tutaraq fəxrlə deyir: “Budur Zəngəzurun qartalı!”

Bu hadisədən sonra Aslan bəyin fitri hərbi istedadının təsiri altına düşən Semyonov növbəti döyüş planını hazırlamağı Aslan bəydən xahiş edir. Qısa bir vaxt ərzində tam düşünülmüş, mükəmməl döyüş planı hazırlanır və qərargahda təsdiq olunur.

Yuxarıda qeyd etdiyimiz kimi, Aslan bəy öz mövqeyindən dönmədən çətin də olsa ordunu dağ yolu ilə aparmağı təklif edir. Onun planı bu dəfə müzakirə olunmadan qəbul edilir. Birləşmiş hərbi qüvvələr Təpəsərə qədər irəliləyib yaxınlıqdakı meşədə gecələyirlər. Təhlükənin yaxınlaşdığını görən quldurlar vahiməyə düşürlər. Bu ordunun qarşısını kəsmək üçün təcili tədbirlər görməyə başlayırlar. Daşnak generalı Nijdenin müavini Gerasim təklif edir ki, ilk növbədə Aslan bəyi aradan götürmək lazımdır, ordunun döyüş planını hazırlayan və ona bələdçilik edən odur, bu yerləri ondan yaxşı tanıyan yoxdur, bütün kəşfiyyatı quran odur, özü də mahir atıcıdır. Aslan Sultanovun başı üçün çoxlu pul mükafatı vəd edilir. Bu murdar niyyəti yerinə yetirmək birləşmiş ordunun sıralarına soxulmuş daşnaklara tapşırılır.

## *Üçüncü fəsil*

# Qarabağın Və Zəngəzurun Fövqəladə Komissarı

Gecələrin birində Aslan bəy hazırladığı döyüş planının detallarını dəqiqləşdirmək üçün kəndin ətrafını bir daha nəzərdən keçirir, sabahkı günün planını götür-qoy edirdi. Bu zaman arxa tərəfdən iki nəfər əsgər geyimli daşnak ona "əllər yuxarı" komandası verdi. Çox güman ki, başqası olsaydı, bəlkə də o an hər şeyin bitdiyini güman edər, təslim olmaqdan başqa bir şey fikirləşə bilməzdi. Lakin şərəfli və mübarizələrdə keçən ömründə dəfələrlə ölümlə üz-üzə gələn Aslan bəy bu dəfə də özünü itirmədi. Belə vəziyyətlərdə onu həmişə bir an ərzində düzgün qərar qəbul etməyi və qeyri-adi hissetmə qabiliyyəti xilas etmişdi. Yenə də fənd işlətdi, əllərini qaldırıb elə bir hərəkət etdi ki, guya daşnakların arxasından gələnlərə nəsə işarə edir ki, onları vurun. Onun bu hərəkətindən çaşbaş düşən daşnaklar bircə anlıq dönüb arxaya baxdılar və bu bir an bəs etdi ki, Aslan bəy onları açdığı sərrast atəşlərlə yerə sərsin.

Aslan bəyi əsir tutmaq niyyətləri boşa çıxan daşnaklar birləşmiş ordunun fikirləşdiyi kimi Qafanda deyil, bir qədər də irəlidə, Təpəsərdə döyüşə girməyi qərara aldılar. Əvvəlcədən mövqelərini möhkəmlədə bildilər, daşların və iri qaya parçalarının arxasında gizləndilər. Azacıq itki verən birləşmiş ordu hissələri də öz döyüş mövqelərini tutmağa nail oldular.

Aslan bəy özünü qayalardan birinin arxasına verdi. Burada qorunmaq rahat olsa da döyüşmək çox çətin idi. İrəlidən iri-iri daş-qaya parçalarından başqa bir şey görünmürdü.

Düşmənsə çox əlverişli mövqe tutmuş, yaxşıca gizlənə bilmişdi. Döyüş başlanmışdı...

Aslan bəyin bütün diqqəti əks tərəfin hərəkətlərinə yönəlmişdi. Bu zaman mövqe tutduğu uzaq məsafədən düşmən ordusunun başında dayanaraq müxtəlif əl hərəkətləri ilə komandalar verən adam onun gözlərindən yayınmadı. Aslan bəy durbinini götürüb həmin adamın hərəkətlərini diqqətlə izlədi və az sonra onun beşaçılanından açılan atəş səsi daşlarda, qayalarda əks-səda verdi. Aslan bəyin açdığı atəş səsləri erməni ordusunu çaşqınlıq içində saxlamışdı, daşnaklar "keçisi ölmüş qoyun sürüsü" kimi pərən-pərən düşmüşdülər. Aslan bəyin yenə uzaq məsafədən vuraraq öldürdüyü adam isə Gorusun komendantı, daşnak generalı Andronikin köməkçisi, qəddarlıqda Andronikdən də betər ad çıxarmış daşnak ordusunun baş komandanı Sumbat idi. ***(Bu barədə faktları əldə etdiyimiz arxiv sənədləri də təsdiq edir).***

Aslan bəyin general Sumbatı uzaq məsafədən vurub öldürməyi bu döyüşün taleyini həll etdi. Bu həlledici və tarixi baxımdan məsuliyyətli döyüşdə Qarabağdan Nijdeyə köməyə gələn general Dronun da ordusu məhv edildi və daşnaklar üzərində tam qələbə qazanıldı. Döyüşün əsas qəhrəmanları olan Aslan bəy Sultanov, XI Qızıl Ordunun 28-ci diviziyasının komandanı general Semyonov və onun alay komandiri polkovnik Çelov mərkəz tərəfindən qızıl medalla təltif olundular. Döyüşün və daşnak hökumətinin dağıdılması planının əsas müəllifi olan Aslan bəy Sultanovun igidliyi haqqında isə yeni əfsanələr və dastanlar Azərbaycan və erməni tərəfində yayılaraq dillər əzbəri oldu.

Belə ağır və həlledici döyüşdən, XI Qızıl Ordunun 28-ci diviziyasını daşnak xəyanətindən xilas etdiyindən sonra

Aslan bəy Sultanova daha böyük etimad göstərildi. Mərkəz bu yerli qəhrəman sərkərdənin alternativi olmadığını birmənalı qəbul etdi. Bundan sonra XI Qızıl Ordu komandanlığının Azərbaycanın o vaxtkı kommunist rəhbərinə- Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanova birbaşa diqtəsilə kommunist partiyasının üzvü olmayan Aslan bəy Sultanov general səlahiyyətli bir vəzifəyə irəli çəkilir. XI Ordu komandanlığı 28-ci diviziyanı daşnak xəyanətindən məhz Aslan bəyin xilas edtiyini bəyan etmiş, onun daşnak hökumətinin məhv edilmə hərbi planının birbaşa müəllifi olduğunu, Qarabagdakı daşnakların da kökünü kəsməkdə onun gücünə arxalanmağın qaçılmaz olduğunu Nəriman Nərimanova anlatmış və onun bu vəzifəyə təyin olunmasına nail olmuşdu. Bu təkid və təkliflərdən sonra məhz Nəriman Nərimanovun imzası ilə Aslan bəy Sultanov Qarabağın və Zəngəzurun Fövqəladə Komissarı təyin olunmuşdur. Ona xüsusi mandat verilmişdi. Həmin mandatın mətni ilə sizi tanış etməyi özümə borc bilirəm. O zaman siz də əmin olacaqsınız ki, Aslan bəy Sultanov Zəngəzurda və Qarabağda hansı səlahiyyətin və gücün sahibi olmuşdur. Onu da qeyd etmək lazımdır ki, həmin dövrdə belə fövqəladə səlahiyyətlər hər kəsə verilmirdi. Aslan bəyin fitri sərkərdəlik bacarığı, hərbi və siyasi savadı, ən əsası isə bölgədə yeganə, alternativsiz söz sahibi olmağı hər şeyi həll edirdi. Birdə onu qeyd etmək lazımdır ki, Aslan bəyin fəaliyyətlərini siyasiləşdirməyə çalışıblar. Aslan bəy bütün şüurlu həyatı boyu hərbi vəzifələr tutaraq xalqının daxildəki və xaricdəki düşmənlərinə qarşı amansız mübarizə aparmışdır.

## Fövqəladə Komissarin Mandatı

**МАНДАТ**

**ЧРЕЗВЫЧАЙНЫМ КОМИССАРАМ**

Предявитель сего тов. А. Султанов назначается Чрезвычайным комиссаром Карабаха и Зангезура.

Ему как представителю Центральной власти Азербайджанской Республики предоставляются Чрезвычайные и неограниченные права на территории этих уездов. А именно производство арестов и дазнание лич не зависмо от занимаемой должности, реорганизация утреждений и тд.

Предлагается всем партийным учреждениам и должносным лицам, военным учреждениям беспрекословно исполнять все распоряжения и требования тов. А. Султанова.

Лица кои будут учинять противодействие его распоряжениям подлежать немедленному аресту и преданию суду революционного Трибунала.

ПРЕДСЕДАТЕЛЬ РЕВКОМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СЕКРЕТАРЬ РЕВКОМА АЗ. РЕСПУБЛИКИ

***Предявитель сего тов. А.Султанов назначается Чрезвычайным комиссаром Карабаха и Зангезура.***

***Ему как представителю Центральной власти Азербайджанской Республики предоставляются Чревычайные и неограниченные права на территории этих уездов. А именно произвадство арестов и дазнание лич не зависмо от занимаемой должности, реорганизация утреждений и тд.***

***Предлагается всем партийным учреждениам и должносным лицам, военным учреждениям беспрекословно исполнять все распоряжения и требования тов. А.Султанова.***

***Лица кои будут учинять противодействие его распоряжениям подлежать немедленному аресту и преданию суду ревалюционного Трибунала.***

**Председатель Ревком Азербайджанской Республики**
**Секретарь Ревкома Аз. Республики**

Aslan Sultanovun Qarabağın və Zəngəzurun fövqəladə komissarı təyin edilməsinin tərcüməsini sizə təqdim edirik.

***Aslan bəy Sultanov Qarabağın və Zəngəzurun fövqəladə komissarı təyin edilsin.***

***Ona Azərbaycan Respublikası mərkəzi hakimiyyətinin nümayəndəsi olaraq bu qəzaların ərazisində fövqəladə və məhdudiyyətsiz səlahiyyətlər verilir. Vəzifəsindən və kimliyindən asılı olmayaraq həbs etmək və istintaqa cəlb etmək, eyni zamanda zərurət olarsa yeni qurumlar və təşkilatlar yaratmaq hüququ verilir.***

***Bütün partiya təşkilatlarına, idarə və müəssisələrə, hərbi təşkilatlara göstəriş verilir ki, Aslan Sulatanovun əmr və göstərişlərini sözsüz olaraq yerinə yetirsinlər.***

***Onun əmr və göstərişlərinə əməl etmək istəməyən hər kəs dərhal həbs olunaraq hərbi tribunala verilsin.***

**Aərbaycan Respublikasının İnqilab Komitəsinin sədri**
**N.Nərimanov**

**Azərbaycan Respublikası İnqilab Komitəsinin katibi**

Göründüyü kimi bu mandat vasitəsilə Aslan bəy Sultanovun səlahiyyətləri birbaşa mərkəzi hökumət tərəfindən təsdiq edilmişdi. Onsuz da Aslan bəy Sultanova bu mandat və səlahiyyətlər verilənə qədər də onun əlində xüsusi səlahiyyətlər və güc vardı, mərkəz sadəcə olaraq bu gücü və səlahiyyətləri rəsmiləşdirdi.

****

Zəngəzur kommunistlərindən biri, Aslan bəy Sultanovun həmyerlisi və həmin dövrün qırmızı “qəhrəman”larından biri olan Nəzər Heydərov **“Zəngəzur Dağlarında”** adlı kitabında o dövrdəki hadisələrə dəfələrlə bu və ya başqa şəkildə toxunmuş, Aslan bəy Sultanovun Azərbaycan Demokratik Respublikası dövründə Zəngəzur qəzasının qəza mahal pristavı ***(yəni baş pristavı, bu da o deməkdir qəzanın tərkibinə daxil olan rayonların da pristavları onun tabeliyində olublar),*** eyni zamanda qəza rəisi Sərməstbəyovun hərbi məsələlər üzrə müavini vəzifələrində olduğunu qeyd etmişdir. Bu vəzifəni tutmaq da o demək idi ki, qəzadakı pristavlardan başqa yerdə qalan bütün hərbi qurumlar da onun tabeliyinə daxil olublar.

Nəzər Heydərov Aslan bəy Sultanovun müsavat hakimiyyəti dövründəki fəaliyyətindən yazaraq onu müsavatçı, bəy oğlu, sinfi düşmən damğaları ilə damğalasa da, Sovet hakimiyyəti dövrünün ilk quruculuq illərində Aslan bəyin yeni quruluşun fəhlə-kəndli hökuməti olduğuna inanmasından, ona görə də bütün gücünü və qüvvəsini yenə də öz xalqına sərf etməsindən, onun xalqının daxildəki və xaricdəki düşmənlərinə qarşı barışmaz mübarizə aparmasından, dəfələrlə real ölüm təhlükəsi ilə üz-üzə qalmasından, XI ordunun 28-ci diviziyasını necə xilas etməsindən, daşnak hökumətinin baş komandanı general Sumbatı, general Manuku necə böyük

məharətlə uzaq məsafələrdən atəş açaraq öldürməsindən bir kəlmə də olsa söz açmır. Buradan da belə bir nəticə çıxır ki, Nəzər Heydərov öz kitabında yazdığı kimi hər zaman hadisələrin önündə deyil, heç arxasında da getmirmiş... Bunu əlimizdə olan arxiv sənədləri bir daha təsdiq edir.

Görəsən bütün ömrünü şərəfli və əqidəli insanlara qara yaxmağa sərf edən Nəzər Heydərov və onun əqidə qardaşları bu faktları - əqidəli və şərəfli ömür yolu keçən insanlar barədə danışmağı, onların etdikləri qəhrəmanlıqları nədən xalqdan gizlətmiş, belə faktların üstündən sükutla ötüb keçmişlər? Bu sualların cavabını özünüz tapacaqsınız...

Nəzər Heydərov kitabında öz uşaqlıq və gənclik illəri barəsində ürək ağrısı ilə söz açır, çətin şəraitdə yaşadığını, heyvanlarla bir damın altında qaldığını qeyd edir, gecələri səhərə qədər malın-heyvanın yaş peyininin qoxusundan yata bilmədiyini yazır. ***(N.Heydərov, "Zəngəzur dağlarında" kitabı Azərbaycan Dövlət Nəşriyyatı, 1989-ci il. səh 126).***

Qaçılmaz həqiqətdir ki, o dövrdə Nəzər Heydərov kimi ağır şəraitdə yaşayan minlərlə insan olub, lakin onların çox az bir qismi keçmişindən, yaşadığı acılardan intiqam almaq üçün yalnız xəyanət yolunu seçib. Nə qədər acınacaqlı da olsa bu faktdır.

## Xəyanətin Başlanğıcını Təsdiq Edən İlk Sənəd

**Azərbaycan Respublikası Baş Milli Dövlət arxivi**
**FOND: 410**
**SİYAHI: 1**
**İŞ: 130**

Сводка № 116 от 12-го декабря.

**ЗАНГЕЗУР.** На съезде ответственных работников Зангезура о присоединении Мусульманской части к армянской из общих докладов вытекало следующее: Двухлетняя национальная война истощила Зангезур до крайности. Как мусульманские так армянские посевы почти уничтожены, крестьяне наги и особенно страдают ввиду наступления ранней зимы. Земля давно покрыта снегом, солнца не видно. Край переполнен беженцам которое спят под открытым небом, не имеют ни откуда помощи. Сознавая что Красная Армия стоит на защите интересов их , крестьяне отдают все что имеют. В отношении внутреннего порядка чувствуется отсутствие работников: везде организованы Ревком, школ нет так как отсутствуют постройки, учебники бумаги и пр. канцелярские принадлежности.

Bu arxiv sənədinin tərcüməsi aşağıdakı kimidir:

*12 dekabr 1920-ci il.*
*N 5564 \ 12487*

***Azərbaycan İnqilab Komitəsinə***

***MƏLUMAT***

**Zəngəzur**

***Zəngəzur qəzasının məsul işçilərinin Zəngəzurun müsəlman ərazilərinin ermənilərə birləşdirilməsi ilə bağlı çağırılmış qurultayındakı nümayəndələrin çoxsaylı çıxışlarından aşağıdakı nəticəyə gəlmək olar: Milli münaqişələr zəminində iki ilə yaxın davam edən müharibə Zəngəzurdakı vəziyyəti son həddə gətirib çıxarıb. Müsəlman kəndlərində olduğu kimi erməni kəndlərində olan torpaqlar da demək olar ki, zəbt olunub. Kəndlilər qapını kəsdirən qışın gəlişindən daha çox narahatdırlar. Torpaq çoxdandır ki, qar altında qalıb, günəş görsənmir. Hər tərəf açıq səma altında gecələməli olan, heç bir yerdən yardım gözləməyən qaçqınlarla doludur. Qızıl Ordunun onlara kömək edəcəyini dərk edən kəndlilər son tikələrini də onlara verməyə hazırdır. Daxili nizam-intizamın bərqərar olmasında dövlət qulluqçularının iştirakı nəzərə çarpmır. Hər yerdə inqilab komitələri təşkil olunub. Tikinti işləri getmir, məktəblər yoxdur, quruculuq işləri aparılmır, dərsliklər, kağız, bir sıra dəftərxana ləvazimatları çatışmır.***

***Azərbaycan Respublikası Baş Milli Arxiv idarəsinin 410-cu fondu. Siyahı 1, iş 130***

***Eyni sənəd AKP MK-nə göndərilmiş və Azərbaycan Respublikası Prezident Aparatının siyasi sənədlər arxivində Fond 1. Siyahı 1. İş 110 qrifi ilə saxlanılır.***

İnqilab Komitəsinə verilən məlumatla tanış olduqda insanın qanını donduracaq bir fakt, o faktın arxasında isə

В уезде милиции абсолютно не имеется. Милиционеры не получая за 10 месяцев жалованья, принуждены были продать своих коней, домашний скарб и превратились форменно и босую команду. Представители милиции заявляли мне, что подобное положение заставляет их самых заниматься грабежом и разбоем. В милицию записались почти все беки и кулаки ясно для того, чтобы беречь от «подводной» повинности своих коней и называться советскими работниками. Начальник уездной милиции, **Аслан бек Султанов лихой стрелок и враг армян.** Начальником участковой милиции назначен Исфандяр Бек Ходжаганский, бывший беглец. Предревкомом состоял Худабахыш Бек Султанов, по профессии учитель. Помощником начальника милиции 4-го участка тоже уезда Али Бек Хораманский. Руководителем партийных работ в уезде был одно время Мухтар Байрамов, взяточник, интригант, не имеющий партийного стажа и даже не зачисленный в партию.

Вот, в общем характерная картина, представляющая советское и партийное строительство. Худабахыш-Бек Султанов, по рассказам партийных товарищей был арестован по наговору Мухтара Байрамова за то что, услышав о прибытии в село армян и подозревая в них дашнаков, потребовал у них предьявления мандатов. Был отпущен через полтора месяца по требованию комитета партии Кубатлинского уезда и по выяснении не виновности. Контрреволюционером его назвать нельзя. Он без условно не коммунист, но из него может выйти хороший работник.

## Azərbaycan Respublikası Baş Milli Dövlət Arxivi, Fond 410, siyahı 1, iş 98, vərəqə 5



Сов. секретно.

Приложение к протоколу № 6.

Постановление Кавбюро ЦК Р.К.П. по Зангезурскому вопросу.

1. Зангезур ликвидировать в конце июня.
2. Немедленно приступить к подготовке военных действий.
3. Одновременно с подготовкой, правительству Армении отправить свою декларацию в Зангезур в ответ на занятие представителей Закавказского правительства.
4. Вместе с отправкой декларации принять меры к немедленному [illegible]
5. Указать в декларации Армянского правительства о принадлежности Нагорного Карабаха к Армении.
6. В промежуток между предъявлением декларации и началом военных действий, Грузинскому и Азербайджанскому правительствам послать своих представителей в Зангезур для посредничества.
7. Ликвидировать одновременно с Зангезуром и Курдистан.-

фонд 410 сиjаһи 1 иш 98 вәрәгә 5

Aşağıdakı sənədin təhlili göstərir ki, akademik Püstə xanım Əzizbəyovanın "Ailə şərəfi" kitabında 12-ci səhifəsində göstərdiyi kimi Lenin Nərimanovu hələ Bakını XI ordu işğal etməmişdən bir neçə gün əvvəl qəbul edərək onu qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin sədri təyin etmişdir. Bu zaman Nərimanov öz üzərinə Zəngəzurun, Qarabağın və Naxçıvanın ermənilərə verilməsi kimi cinayətkar öhdəlik götürmüşdür. əks halda ona bu vəzifəni verməzdilər. Nərimanovun da içərisindəki hakimiyyət ehtirasını söndürmək üçün başqa yolu yox idi.

Sənəddə göstərilir ki, Zəngəzuru iyunun axırında ləğv etmək, təcili hərbi əməliyyata başlamaq, Meqrinin tutulması üçün təcili tədbirlər görmək. Bəyannamədə Dağlıq Qarabağın erməni hökumətinə mənsub olduğunu göstərmək. Zəngəzuru və Kürdüstanı ləğv etmək.

Sənədin tərcüməsi aşağıdakı kimidir:

***Azərbaycan Respublikası Prezident Aparatının İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi.***

***Fond 1, siyahı 2, iş 105. vərəq 48-51***

*Partiyanın Mərkəzi Komitəsinə*

**Surəti:**

***Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanova***

***Kommunist Partiyası Ali İqtisad Şurasının sədri yoldaş Mirzə Davud Hüseynova***

29 may 1921-ci il.

**Məlumat Qeydləri**

Ümumazərbaycan Sovetlər Qurultayına seçki keçirmək üçün mənə tapşırılan Qaryagin, Şuşa və Qubadlı qəzalarını gəzib dolanarkən partiya sovet quruculuğu ilə bağlı aşağıdakıları müəyyənləşdirdim:

Bir sözlə demək olar ki, bu qəzaların heç birində sovet hakimiyyəti tam olaraq bərqərar olmayıb. Azacıq da olsa Qaryagin və Şuşa qəzalarında sovet hakimiyyətinin mövcudluğu hiss olunsa da Qubadlı qəzasında sovet hakimiyyətinin varlığından söhbət belə gedə bilməz. Qubadlı qəzası daşnaklarla həmsərhəd bir yerdə olduğundan tam olaraq unudulmuş bir yer təsiri bağışlayır. Soyuq camaatı dəhşətli dərəcədə sınağa çəkir, aclıq və səfalət hökm sürür. Ərzaq və çörək tapılmır, manufaktura, neft, duz və başqa şeylər yox-

dur. Hakimiyyətsizlik qəzadakı həyatı dəhşətli bir vəziyyətə gətirib çıxarıb. Soyğunçuluq, qulldurluq və başqa cinayət hallarının həddi-hüdudu yoxdur. Bu vəziyyətdə yaşayan əhali hər an daşnaklara və ya İran xanlarına sığınmağa hazırdır. Hər iki tərəfdən də bu barədə təkliflər alınıb. Daşnakların birləşmə təklifini düşmən olduqları üçün birmənalı olaraq rədd ediblər. Lakin İran xanları ilə hələlik geniş ticarət əlaqələri etməkdədirlər.

Sovet Hakimiyyətinin tam olaraq bərpa olunması üçün təcili tədbirlər görmək lazımdır. Yerli əhalinin nəzərində Sovet Hakimiyyəti Qızıl Ordunun xüsusi şöbələrinin işi təsəvvüründən uzağa getmir. Xüsusi şöbələrin əhaliyə "əks-inqilabçı" hədə-qorxusunun nəticəsi olaraq yerli camaatın əksər hissəsi qaçağa, quldura çevrilib. Əksinqilabçı adlandırılanlar İrana keçirlər və tez-tez qaçaq yolla öz kəndlərinə baş çəkirlər. Yerli mülkədarların və bəylərin çoxu Qızıl Ordunun daşnak Ermənistanına qarşı hücumuna bələdçilik edərək özlərinə yaxşı hörmət, ad-san, etibarlı işçi və yaxşı kommunist imici qazana biliblər. Rus dilində sərbəst danışa bilən bu adamlar özləri üçün bu imici çox asanlıqla qazana biliblər. Ermənilərlə qatı düşmən olan bu bəylər böyük məmnuniyyətlə qızıl ordunun erməni kəndlərinə hücum etməsinə bələdçilik ediblər. Qızıl Ordu aldıqları yerlərdən çəkildikdən

sonra onlara bələdçilik edən adamlar kəndləri qarət və talan etməklə kasıb erməni kəndlərinin əhalisi hesabına varlanırdılar.

Qızıl Ordu hissələri Zəngəzurun ərazilərini tərk etdikdən sonra bu adamlar mərkəzdən göndərilən hərbi komissarların və məsul şəxslərin etibarını qazanaraq qəzada rəhbər vəzifələri tutublar. Bununla da qəzadakı sovet hakimiyyəti yerli bəylərdən və mülkədarlardan (müsavat hakimiyyəti dövründə olduğu kimi) ibarət adamlardan təşkil olundu. Nəticədə partiya işçiləri və kasıb kəndlilər böyük təhlükə altında qalmışlar. Qəza kommunist partiyasının hazırkı məsul katibi Nəzər Heydərovun dediklərinə görə bütün partiya işçiləri birneçə dəfə başqa yerə köçmək və gizli fəaliyyətə keçmək məcburiyyətində qalıblar. Daşnakların və Sovet hakimiyyətinin düşmənləri tərəfindən yayılan təxribat xarakterli şaiyələrin yayılması məcbur edirdi ki, talan olaraq müflis olmuş əhali var-yoxunu ataraq qonşu qəzalara köçsün, mənim Qubadlı qəzasına gəlməyimin nəticəsi olaraq vəziyyət sabitləşdi və əhalinin köçünün qarşısı alındı, əhali öz əvvəlki yurd-yuvasına qayıtdı.

Qəzada milisin fəaliyyəti demək olar ki, görünmür. Son on ay ərzində əmək haqqı almayan milis işçiləri atlarını, ev əşyalarını satmağa məcbur olur, müflis olmuş bir komandaya

çevrilirdilər. Milis işçilərinin nümayəndələri mənə bildirdilər ki, yaranmış vəziyyət onların özünü də soyğunçuluq və talançılıq etməyə vadar edir. Milis orqanlarına qəbul olunanlar demək olar ki, bəylərdən və mülkədarlardan ibarətdir. Bununla da onlar sudan duru çıxmaq və özlərini sovet işçiləri kimi qələmə vermək məqsədi güdürlər. Qəza milis idarəsinin rəisi Aslan bəy Sultanov, sərrast atıcı və ermənilərin düşmənidir. Qəza milis idarəsinin sahə müvəkkiləri şöbəsinin rəisi vəzifəsinə İsfəndiyar bəy Hocaxanski təyin edilmişdir, o, keçmiş qaçaqdır. Qəza inqilab komitəsinin sədri Xudabaxış bəy Sultanov təyin edilmişdir, peşəsi müəllimdir. Qəza milis idarəsini rəisinin köməkçisi, 4-cü sahənin rəisi Əli bəy Xoramanskidir.

Rüşvətxor, araqarışdıran, partiya stajı olmayan, hətta partiya sıralarına daxil olmayan (müəl: Mirzə Muxtar Bayramov bir müddət Qəza kommunist Partiyasına rəhbərlik etmişdir. Partiya üzvü olmaya-olmaya).

Partiya və sovet quruculuğunun qısa mənzərəsi belədir: Mirzə Muxtar Bayramovun böhtanı ilə həbs olunan Xudabaxış bəy Sultanov Partiya yoldaşlarımızın dediklərinə görə ermənilərin kəndə gəlməsindən xəbur tutub, onların arasında daşnakların ola biləcəyindən şübhələnərək onlardan mandat tələb edib, mandatları aldıqdan və gələnlərin şəxsiyyəti

müəyyən edildikdən sonra isə onların fəaliyyətinə maneçilik törədilməyib. Ay yarımdan sonra Mirzə Muxtar Bayramovun və ona sadiq qüvvələrin şəri və böhtanı üzə çıxıb, Xudabaxış bəy Sultanovun günahsızlığı sübuta yetirilib və Qubadlı qəzası partiya komitəsinin tələbi ilə həbsdən azad edilib. Onu əksinqilabçı adlandırmaq olmaz. Sözsüz ki, o kommunist partiyasının üzvü deyil, ancaq ondan yaxşı işçi çıxar...

Bu oyunların və təşkil edilmiş donos kampaniyasının haradan və nə üçün təşkil olunduğunu dəqiqləşdirmək üçün gəlin hadisələrin xronoloji ardıcıllığına bir daha nəzər yetirək;

**1.**1920-ci ilin dekabr ayında Gorusda keçirilən qurultay. Xəyanətin başlanğıcı və satılmış yerli kommunistlərin Zəngəzurun ermənilərə verilməsi zəruriliyini ortaya atmaları və sənədi imzalamaları. **Fond 410, siyahı 1, iş 130**.

**2.**1921-ci ilin yanvar ayında Erməni məxfi işçilərinin Zəngəzura göndərilməsi və yerli hakimiyyətin rəhbərlərini ləkələmək üçün mərkəzə göndərilən böhtan dolu məlumat. **Fond 1, siyahı 2, iş 136.**

**3.**1921-ci ilin mart ayında Erməni kommunist partiyasının sədrinin N.Nərimanova göndərdiyi Zəngəzurun satılmasında birbaşça iştirak edən kommunist xainlərin siyahısı. Onların rəhbər vəzifələrə irəli çəkilməsi tələbi. Nəriman Nərimanov

tərəfindən bu tələbin qeyd-şərtsiz yerinə yetirilməsi. **Fond 27, siyahı 1, iş 150.**

**4.**1921-il aprel ayının 4-də Ç.İldırımın himayə etdiyi yerli xainlərin yerli hökumətin rəhbərlərini ləkləməyə və məhv etməyə yönəldilmiş, qəza kommunist partiyasının üzlərinin nümayəndə kimi seçib mərkəzə göndərdikləri Savalan Şirinovun Bakıya gələrək Az. KPMK də məruzəsi. **Fond 1, siyahı 2, iş 139.**

**5.**1921-ci ilin 10 aprelində, hadisələrdən dərhal xəbər tutan Aslan bəyin mərkəzə göndərdiyi ittihamedici məruzəsi. Həmin məruzədəki tezislər, Aslan bəyin analizləri və onun son dərəcə haqlı olduğunu isbat edən sonrakı hadisələr. **Fond 410, siyahı 1, iş 205.**

**6.**1921-ci ilin aprel ayının 28-də Nəzər Heydərovun mərkəzə göndərdiyi danoc və yerli hökumətin üzvlərinin heç birinin Kompartiya üzvü olmamaqla suçlaması və yerli hakimiyyətə qara yaxaraq yerli hakimiyyətin kommunustləri məhv etmək niyyətində olmalarını bildirməsi. **Fond 1, siyahı 2, iş 96.**

**7.** Həmin ilin may ayında Nəriman Nərimanovun göndərdiyi komissiyanın məruzəsi. Məruzədəki yerli hakimiyyətlə bağlı ləkələmə kampaniyasının davamı və daha əvvəlki danoslardan fərqli olaraq ictimai rəyin təzyiqi qarşısında aciz-

liyin hiss olunması, daha öncəki ittihamların təkzibi, Aslan bəyin ermənilərin düşməni və sərrast atıcı damğası ilə damğalanması. **Fond 1. Siyahı 2. İş 105.**

**Бак–рабочи 1920, 4 декабря, стр. 4**

**Советская Армения и Советский Азербайджан.**

**Декларициа Правительства А ССР**

**О Сов. Армении.**

1-го декабря на торжественной заседании Бак Совета тов. Нариманов от имени А ССР огласил нижеследующую декларацию. Обьявляеть что отныне никакие территориальные вопросы не могут стать причиной взаимного кравопускание двух вековых соседних народов: армян и мусульман.

Территории Зангезурского и Нахчиванского уездов являются нераздельной частью Советской Армении, а трудовому крестьянсву нагорного Карабаха предоставляется полное право самаопредельяться;

**Декларации Нариман Нариманова.**

*1920-ci ilin 4 dekabrında «Bakı fəhləsi» qəzetində Nərimanov bildirir ki, Zəngəzur və Naxçıvanın ərazisi Ermənistanın ayrılmaz hissəsidir və Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratlarını həll etmək üçün tam hüquq verilir.*

Бак.-рабочий 1920, 4 декабря № 4

# Советская Армения и Советский Азербайджан.

## Декларация Правительства А. С. С. Р. о Сов. Армении.

1-го декабря на торжественном заседании Бак. Совета тов. Нариманов от имени А. С. С. Р. огласил нижеследующую декларацию.

„Правительство Советского Азербайджана с чувством глубокой радости приветствует те героические усилия, которые проявляет в данный момент трудовой армянский народ в борьбе с ненавистным игом дашнакского правительства, в течение 2 с лишним лет доведшего Армению до полного разорения и страдания.

Период господства дашнаков—это период кровавой вакханалии, межнациональной бойни, во время которой истекали кровью армянский и мусульманский народы. Правительства „мусавата“ и дашнаков, продавшись Антанте, превратили народы в слепое орудие в руках последней и в своих империалистических вожделениях натравливали один народ на другой, создав карабахский, зангезурский, нахичеванский и другие территориальные вопросы, которые не могли быть разрешены усилиями дашнако-мусаватской реакции.

Сотни разрушенных сел и деревень, десятки и сотни тысяч голых, голодных, лишенных своих родных очагов людей—вот живые свидетели недавнего прошлого, показывающего, что кучка авантюристов, лакеев мировой буржуазии, из за личных своих интересов обрекала десятки и сотни тысяч ...

... против власти дашнаков, проливающих и проливавших невинную кровь наших лучших товарищей коммунистов в пределах Армении и Зангезура, объявляет, что отныне никакие территориальные вопросы не могут стать причиной взаимного кровопускания двух вековых соседних народов: армян и мусульман; территории Зангезурского и Нахичеванского уездов являются неразделимой частью Советской Армении, а трудовому крестьянству нагорного Карабаха предоставляется полное право самоопределиться; все военные действия в пределах Зангезура приостанавливаются, а войска Советского Азербайджана выводятся.

Кроме того, Советский Азербайджан широко раскрывает свои ворота перед Советской Арменией к неисчерпаемым богатствам: нефти, керосину и др. продуктам, которыми обладает Советский Азербайджан.

Богатства эти, которые извлекались хищниками мирового империализма, ради которых устраивались кровавые оргии на территории Закавказья, отныне становятся достоянием трудящихся России, Советского Азербайджана и Советской Армении, которые, сплотившись, тесными рядами пойдут на окончательный разгром ига мирового капитала.

Да здравствует братский союз трудящихся Советской Армении и Азербайджана!

**Коммунист 1921 января стр. 2**

В Советской Армении

*Прекрашение Армяно–Азербайджанских разногласий.*

*Тиялис 28 декабря «Мшак» 28 декабря по поводу москвоской конференции пишет каждый занитересованный миром востока приветствует конференцию созывающую в Москве.*

*После обьявления деклариции Нариман Нариманова по которой уступается Армении Карабах и Зенгезур. Армянский народ не может иметь сушественных разногласий с Азербайджанским народом.*

*Этой декларацией кончаются армяно–Азербайджанская вражда.*

Sənəddən göründüyü kimi, 21-ci ilin yanvar ayında Moskvada çağırılan konfransda Nərimanovun bəyənatı səslənmiş və burada göstərilir ki, Qarabağ və Zəngəzur ermənistana verilir. Axırıncı cümlədə göstərilir ki, Qarabağın və Zəngəzurun ermənilərə verilməsi ilə bu iki xalqın arasında düşmənçiliyə son qoyulur.

Yuxarıda göstərilən qəzet yazılarını Azərbaycan Respublikasının Prezident aparatının siyasi sənədlər arxivində **fond 1, siyahı 1, iş 24** qrifi ilə saxlanılan arxiv sənədi təsdiq edir.

папка 142 № 57

Протокол № 8

объединенного заседания Полит. и Оргбюро от 30 ноября 1920 г.

Присутствуют: т.т. Нариманов, Каминский, Стасова, Орджоникидзе, Саркис, Егоров, Гусейнов, Касумов, Караев, Серебровский.

Порядок дня

1 - О Советской Армении
2 - О Кюлярской жел-дороге и Алагезской ветке
3 - О Нахичевани
4 - О Зангезурских беженцах
5 - О заместителе т. Серебровскому
6 - Об экономическом совещании.

| Слушали | Постановили |
|---|---|
| 1 - О Кюлярской жел. дор. Алагезской ветке. Доклад т. Домбровского | 1 - Заслушав сообщение т. Домбровского, ЦК считает, что ~~[illegible]~~ в постройке Кюлярской и Алагезской ж. дор. со стороны местных организаций должно быть оказано полное содействие. Поручить практическое проведение этого Азревкому. |
| 2 - О заместителе т. Серебровскому по А.С.Н.Х. в связи с его отъездом временно в Москву | 2 - Утвердить заместителем тов. Серебровского по А.С.Н.Х. тов. Нурида. В случае невозможности совместить его работу с работой Цеоснабарма - заместителем утвердить т. Задара. |

3 - Телеграмма Армянского Ревкома о провозглашении Советвласти в Армении.

3. а) Аппарат закавказского посольства переходит к советскому представительству через Ц.К. Армении и от Армянского Ревкома. Конкретно провести эту директиву поручается т. Гусейнову.

б) От имени Совета и Ревкома обратиться с декларацией к Армянскому правительству. Послать [illegible]

в) в ней указать, что между Советским Азербайджаном и Советской Арменией никаких границ не

г) существует. Зангезур и Нахичевань отходят к Армении

д) Нагорной части Карабаха предоставляется право ~~[illegible]~~ ~~[illegible]~~ определения.

е) Сов. Азербайджан заключает с Сов. Арменией нерасрывный военный и хозяйственный союз (в частности указать о нефти)

ж) т. Нариманову поручить составление этой декларации

з) Наркомвоенмору отдать приказ по фронту о прекращ[ении]

Bu sənədlərin ardıcıllıqla təhlili bir daha göstərir ki, millətimizin mənafeyi yolunda canından belə keçməyə hazır olan qəhrəman insanları aradan götürmədən Zəngəzurun verilməsi kimi məkrli və xəyanət dolu bir planı həyata keçirmək mümkün olmayacaqdı. Ona görə də lap əvvəldən başlayaraq planlı şəkildə həmin vətənpərvər insanları ləkələmək, onlara qara yaxmaq kimi iyrənc metodlardan istifadə edərək, onları öz yollarından götürmək üçün hər cür çirkin vasitələrə əl atmışlar.

Bu xronologiyanı ardıcıl olaraq oxuculara çatdırmaqda məqsədimiz arxiv sənədləri əldə olunana qədər qaranlıq qalan və bir çox müəlliflərin təhrif edərək xalqa çatdırdıqları Zəngəzur həqiqətlərini üzə çıxarmaqdır.

****

Azərbaycan Respublikası Prezidenti Aparatının Siyasi Sənədlər Arxivində **fond 1, siyahı 1, saxlama vahidi 24** qrifi ilə saxlanan sənəddə aşağıdakı faktlar diqqəti çəkir.

“Protokol N8

Siyasi və Təşkilat bürosunun birgə iclasının Protokolu

30 noyabr 1920-ci il

İştirak edirlər: N.Nərimanov, Kaminskiy, Stasova, Orcenikidze, Sarkis, Yeqorov, Hüseynov, Qasımov,Qarayev, Serebrovski”.

Bu iclasda gündəlik məsələ olaraq altı məsələ müzakirə edilsə də, ən çox bizim diqqətimizi çəkən bir məsələyə sizin də fikrinizi yönəltmək istəyirik.

“Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur. Zəngəzurla Naxçıvan Ermənistana aiddir. Dağlıq Qarabağa isə öz müqəddəratını təyin etmək hüququ verilir. Və s. və ilx.”

Bu da bu vaxta qədər milli qəhrəman edərək heykəlini başımız üstə qaldırdığımız Nərimanovun xalqımıza etdiyi

xəyanət. Gəlin açıq etiraf edək ki, bu gün bizim nəslimiz o dövrdəki xəyanətlərin acısını hələ də çəkir.

1920-ci illərə aid edilən sənədlərdən biri diqqəti çəkir. Həmin sənəd Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivində **fond 1, siyahı 2, saxlama vahidi 18** qrifi ilə qorunur. Sənədin məzmunu ilə sizi qısaca tanış etmək istəyirik. Sənəddə göstərilir ki, Qubadlı qəzasında Partiyanın vəziyyəti yaxşı deyil, yerli ilk partiya təşkilatı yaradılaraq yoldaş Sailyan onun məsul katibi seçilmişdir. Yoldaş Sailyan Bakıya gedərkən yerinə müavini Nəzər Heyədərovu təyin edib.

Bu sənəddən açıq aydın görünür ki, Qubadlı qəzasının ilk partiya təşkilatının məsul katibi erməni Sailyan, onun müavini isə Nəzər Heydərov olmuşdur. Ermənilərin Nəzər Heydərova bəslədikləri xüsusi rəğbətin arxasında hansı niyyətlərin dayanmasını sonrakı arxiv sənədləri göstərəcək.

****

Azərbaycan Respublikası Milli Dövlət arxivi **410-cu fond siyahı 1, iş 73** qrifi ilə saxlanan arxiv sənədlərin arasında 1920-ci ilin dekabrında bir erməni tərəfindən yazılan məktub diqqəti cəlb edir. Erməni ümumi məsələlərdən və öz problemlərindən, planlarından bəhs etdikdən sonra sevinclə məlumat verir ki, Nərimanovun teleqramını aldıq. Yoldaşlar, Zəngəzur və Naxçıvan Yeni Ermənistana verildi”.

Bu sadəlövh məktubdan da məlum olur ki, Zəngəzuru və Naxçıvanı ermənilərə bağışlayan Nərimanov erməniləri hədsiz dərəcədə sevindirə bilib.

Zəngəzurun verilməsi ilə bağlı çoxsaylı arxiv sənədləri var. Bu işlərdə xüsusi fəallıq göstərənlərdən biri də əslən Zəngəzurdan olan və gizli fəaliyyət göstərən xəyanətkar kommunistləri himayə edən Çingiz İldırım olmuşdur. Bu da onun imzaladığı sənəd:

**Azərbaycan Respublikası Baş Milli Dövlət Arxivi:**
**Fond: 410**
**Siyahı: 1**
**İş: 114**

А.С.С.Р
Народный Комиссариат Путей Сообщения
Отдел ОБЩЕ-АДМ.
«___» Декабря 1920 г.
№ 19/сек. Г. Баку

В Азревком

В ночь с 27 на 28 Апреля сего года, в целях свержения Мусаватскому Правительству и установления диктатуры пролетариата, принимая вместе со мной деятельное участие в подготовке к выступлению флота и отправки ультиматума Мусаватскому Правительству о сдаче власти тов. Владимир Хутулошвили.

Отмечая с удовольствием революционную энергию тов. Хутулошвили завершившуюся свержением гнета мусаватистов и торжеством советской власти в Азербайджане, прошу о награждении его орденом Красного Знамени А.С.С.Р.

НАРКОМПУТЬ

**Xalq Yollar və Rabitə Komissarı Çingiz İldırım.**

**Azərbaycan İnqilab Komitəsinə.**

Bu ilin 27 apreldən 28 aprelinə keçən gecədə Musavat Hökumətinin devrilməsi və proletariatın diktarurasını qurmaq məqsədi ilə mənimlə birlikdə fəaliyyət göstərən, hərbi dəniz qüvvələrinin hücumunu təşkil edən ultimatumu Müsavat hökumətinə təqdim edən və hakimiyyətin alınmasını tələb edən – yoldaş Vladimir Xutuloşvili.

Yoldaş Xutulaşvilinin inqilabi enerjisinin böyük ruh yüksəkliyi ilə qeyd etməklə nəzərinizə çatdırmaq istəyirəm

ki, musavat hakimiyyətinin devrilməsi və sovet hakimiyyətinin bərqərar olmasında onun xüsusi xidmətlərini nəzərə alıb yoldaş Xutulaşvilini Az. SSR-nin Qırmızı Bayraq Ordeni ilə təltif edəsiniz.



07

А.И. 6 экз.

Копия.

Секретно.

Д О К Л А Д.

В дополнение к имеющимся у нас сведениям о серьезной затеи братьев Султановых в пределах Карабаха, а если удасться и в соседних уездах, за пределы, необходимо указать, что разные источники /безусловно заслуживающие доверия/ говорят о том, что за последние 5-6 месяцев к стыду нашим карательным органам и местным парт. и советским организациям, под носом у последних - братьям Султановым удалось через своих агентов, распространяя разные ложные слухи - под присягой над кораном, завербовать порядочное число людей не только среди бывших полицейских, помещиков, духовенства, кулаков, но и среди некоторой части середняков и не только в забытых Алиянлинских лесах и Курдистанских горах, но и по всему низменному Карабаху и даже за пределами Карабаха. Насколько среди массы придавалось серьезное значение пущенным аавнтюристами слухам, что даже родной брат нашего Ильдрима - Джамиль Бек Султанов и двоюродный брат Искендер Бек Султанов - специально раз"езжая среди кочевников при Араксинской полосе, а именно среди керимбеклинцев, ахмедалярцев и других, предупреждали последних о том, что якобы при аресте известных бандитов Дунияма Али и Салмана - обнаружен список всех записавшихся в партию Иттихад, как именовалась организация Султановых, почему необходимо избегать показываться властям - устроить совещания собравшимся всем вместе, - в эти же дни распространяются слухи о взятии Нахичевани турками, об убийстве Багирова, о захвате в плен Караева. Последствием этих слухов явилось то, что мало мальский недовольный и сомнительный элемент начал стягиваться в Алиянлинские леса и почуяв на самом деле

## Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, fond 1, siyahı 74, saxlama vahidi 146

Н.Г./3 экз./ 100

Копия.

Секретно.

Доклад Председателя Карягинского Уисполкома
тов. МАМЕДХАНОВА.

от 13 октября 1925г.

Докладываю Вам о положении нашего уезда после от"езда Вашего из Карягино. Точно установлено, что Бахлул Эфенди скрывается в районе Сирик. Против него открытых мер не принимается, так как он по достоверным сведениям, намерен явиться добровольно в не далеком будущем. Шамиль Султанов задержан Погранотрядом. Имеющийся на него материал, а именно письмо Ахмеда Гаджиева и заявление Шехтиля Мансум Оглы при сем препровождаю на Ваше распоряжение. Мною командирован в Персию хороший агент, который должен разузнать о положении Алиянлинских бандитов в Персии и о намерении их персидских властей по отношению к ним. Член партии "Эттихадт" жит.с.л. Сардарлу Ахмед Ибадула оглы, о котором Вам известно, мною задержан и заключен под стражу. Установлено, что он имеет связь с алиянлинскими бандитами. Названный Ахмед вместе с материалом будет представлен лично Вам, согласно наших личных переговоров. После от"езда Вашего из Шахсавана, я был в сел. Ахмедаллан, где установил, что Джанали Бахиш Оглы, Алибек и Агабек, находятся в Персии. Последние два, т.е. Алибек и Агабек на днях задержаны персидской властью, а Джанали успел скрыться. Сегодня выезжаю в Худаферин для переговоров с Персвластями по поводу Алибека и Агабека. Бейк-хан, который еще раньше хотел переговорить со мною и который после снятия перскозаков с персидских пограничных постов, добивался стать хозяином положения, обещал во что бы то ни стало выдать нам Джанали, живым или мертвым. В бытность мою в Ахмедали, там мною задержан Баладжа в тот момент, когда он возвращался из Персии и имел намерение вновь переехать туда и соединиться с Джаналием. Задержан также брат Джанали-Мамед Али, в качестве заложника за своего брата, который такой же вредный элемент,

102

Копия.

Сов.секретно.
Лично.

Тов.МАМЕДХАНОВУ.

В бытность мою над эйлаге когда были арестованы Халафлинец Салман и Машанлинец Дуннмали, замечалось, что некоторые неблагонадежные элементы в связи с этим арестами подняли голову и хотят скрыться от власти в том числе и Ахмедалларцы Агабек, Алибек и др. Я поинтересовался узнать причину этого явления и выяснил следующее: ж.с. Кубатлу Шамиль-бек Ильдрым бек оглы после ареста вышеназванных лиц, приехал на кочевку Ахмедаллар на местности "Шеки-Эйлаги" и распространил слух такого содержания: якобы в руки советской власти попал один список мусаватской организации и что в этом списке имеются имена тех Ахмедалларцев и, кроме них около 170 человек от кочевников, которые на днях будут арестованы по тому списку. Оказывается Шамил-бек приехал в Ахмедаллар ни один, а два раза. Сведением это мне передал ж.с. Усублу Мехти Мансум оглы, который на эйлаге жил в соседстве с Ахмедалларцами.

Озабочиваясь порядком и спокойствием среди трудового населения и беднейшего класса своей родины, я считаю своим гражданским долгом сообщить Вам это сведение.

/Ахмед ГАДЖИЕВ/

20/УШ- 925г.

Birinci sənəddə Çingiz İldırım göstərir ki, mənimlə birlikdə fəaliyyət göstərən Xutulaşvili Müsavat hökumətinin devrilməsi və hərbi dəniz qüvvələrinin hücumunu təşkil edən ultimatumu Müsavat hökumətinə təqdim edən Xutulaşvili "Qırmızı bayraq" ordeni ilə təltif edilsin.

İkinci sənəddə, yəni **fond 1, siyahı 74, iş 146** qrifi ilə qorunan sənəddə Çingiz İldırımın qardaşı Çingiz İldırımın üzvü olduğu hökumət tərəfindən həbs olunduğu göstərilir. Şamil bəy Sultanovun antisovet mövqedə və eyni zamanda bəy olduğu göstərilir.

Sənəddə xüsusi pafosla göstərilir ki, Qubadlı kəndinin sakini olan Şamil bəy İldırım bəy oğlu həbs olunub. Buradan açıq-aydın görünür ki, Çingiz İldırımın xeyir –duası olmasa onun qardaşı Şamil bəy Sultanovu həbs edib, sonra da bəyan etməzdilər ki, bizim İldırımın qardaşı Şamil bəy Sultanovu həbs etdik. Bu sənəd özü-özlüyündə Çingiz İldırımın hansı mənəviyyatın sahibi olduğunu açıq-aydın göstərir. Şahidlərin dediyinə görə, Çingiz İldırımın atası İldırım bəy oğlu Çingizlə küsülü olaraq dünyasını dəyişib. İldırım bəyin ittihamı o olub ki, sən bizi kafirlərə satdın. Göründüyü kimi, Çingiz İldırımın həm atası, həm də qardaşı Şamil bəy onunla tamamilə əks mövqedə olub. Bu günün prizmasindan baxdıqda isə kimin milli, kimin antimilli mövqedə olmağı tam çılpaqlığı ilə görünür.

**Yollar və rabitə komissarı: Çingiz İldırım.**

Bəli, Nəriman Nərimanovlar, Çingiz İldırımlar xalqın hakimiyyətini, xalqın dövlətini devirənlərə, millətin qanını tökənlərə ordenlərin verilməsini tələb edənlər, o ordenləri təqdim edənlərdir.

O zaman 1920-ci ilin dekabr ayında çağrılan qurultayın çıxardığı qərar Nəriman Nərimanova göndərilmişdi və (1921-ci ilin martın 28-də Erməni rəhbərlərinin göndərdiyi siyahı) ona məlum idi ki, bu siyahı Zəngəzurun ermənilərə verilməsində birbaşa iştirak edən yerli xainlərin siyahısı idi. Buradan da belə nəticə çıxarmaq olur ki, Nəriman Nərimanov bu işlərdən bilavasitə xəbadar imiş və bu məslələrin bilavasitə təşkilatçısıymış. O, həmin dövrdə Azərbaycan İnqilab komitəsinin sədri idi. Bu da o demək idi ki, Nəriman Nərimanov Azərbaycanın ən ali hakimiyyətinə rəhbərlik edirdi. Onun icazəsi və xəbəri olmadan belə taleyüklü bir məsələ kimlərsə tərəfindən həll oluna bilməzdi.

****

1920-ci ilə aid sənədlərin birindən (Siyasi Sənədlər Arxivi. **fond 1, siyahı 1, saxlama vahidi 126**) məlum olur ki, 1933-1953-cü illərdə Azərbaycan Kommunist partiyası MK birinci katibi olmuş Mir Cəfər Bağırov Qarabağ inqilab komitəsi sədrinin müavini, daxili işlər şöbəsinin müdiri, təşkilat və təbliğat şöbəsinin rəhbəri olub. Bu sənəd təsdiq edir ki, Mir Cəfər Bağırov həmin dövrlərdə Qarabağda işləyib, Aslan bəy Sultanovla yaxın münasibətləri olub. Aslan bəy Sultanov Qarabağın və Zəngəzurun fövqəladə komissarı olduğu dövrlərdə Mir Cəfər Bağırov da Qarabağda tutduğu vəzifələrə görə Aslan bəy Sultanovun tabeçiliyi altında çalışmışdır. O özü dəfələrlə şahid olmuşdur ki, Aslan bəy Sultanov daşnaklara qarşı müharibədə necə qəhrəmanlıqlar göstərir.

Sonrakı dövrlərdə Bağırov AzÇK-nın sədri olanda Zəngəzura gələrkən onu banditlər mühasirəyə alıb məhv etmək istədikdə, onu müşayət edənlərdən biri qaçmağa imkan taparaq Aslan bəyə müraciət edir və vəziyyəti ona izah edərək deyir:

-Aslan bəy, banditlər bizi mühasirəyə alıblar, bizi öldürəcəklər.

Nədən məhz Aslan bəyə xəbər göndərilir? Çünki Bağırov artıq yaxşı bilirdi ki, onları belə bir vəziyyətdə xilas edə biləcək yeganə adam Aslan bəydir. Çünki, Bağırov Aslan bəyin bütün şücaətlərindən xəbərdar idi və o yaxşı bilirdi ki, 28-ci diviziyanı daşnak təcavüzündən də məhz Aslan bəy xilas etmişdi.

Eyni zamanda bir vaxtlar 1920-ci ildə Mircəfər Bağırov Qarabağda inqilab komitəsinin müavini işləyərkən, Aslan bəy isə bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı olmuşdur. Bu da o deməkdir ki, Mircəfər Bağırov Aslan bəyin tabeçiliyində işləmiş və onun bütün fəaliyyətini şəxsən özü görmüşdür. Bundan sonra Mircəfər Bağırov mərkəzə yüksək vəzifəyə irəli çəriləndən sonra da Aslan bəyin necə qəhrəman olması barədə ətrafdakılara ağızdolusu danışırmış.

Bu fikirləri Azərbaycan Respublikası Siyasi Sənədlər Arxivində **fond 1, siyahı 1, saxlama vahidi 126** qrifi ilə qorunub saxlanılan arxiv sənədi təsdiq edir.

# Fond 1, siyahı 1, saxlama vahidi 126



В Ц К Коммунистическрй партии

1920 il may 27

ДОКЛАД

...мунистическая партия Шушинскаго уездах работает в центре Караб... не имея ни какого успеха в партинной работе в уездах , ...ия Шушинскаго уезда досих пор имеет с приезжими трварищами 32 членов на лицо 14, 10 в уездах и вново прибывших по делам ... Навроста Итипографии и т.д.

Сочувствующих Коммунистической Партии 17.

1/ Велибеков Багатур ------- а/ Председатель Партии Уезд кома
в/ Предревком Карабаха.
с/ Звед. отделом Земледели...
д/Руководитель Имформацион ным отделом.

2/ Багиров Мир Джафар--------- а/ Заместител Предсвкома
б/ Заведующий внутренным о делом
с/ Руководитель Организаци онным и огитационным отд.
д/ Председатель Ч.К.

3/ ГусиГаджиев---------------- а/ Секретарь Уездкома Парт...
б/ Заведующий Огитационным и Организационным отделом
с/ Заведующий оружейным ск. дом
д/ Членом коллегии продовс... ствия
е/ Заместитель Пред. Област... кома Молодежи

4/ ВЕзиров М. Джаббар---------а/ Казначей Уездкома
б/ Завед. работой подеревн...
с/ Намечен кандидатом в на...

Aslan bəy M.C.Bağırovun xahişini alan kimi o bir an vaxt itirmədən Zəngəzur igidlərini ayağa qaldırır və dərhal Bağırovun mühasirəyə düşdüyü istiqamətə hərəkət edir, ora yetişərək bir-neçə tərəfdən mühasirəni yarır, Mir Cəfər Bağırovu xilas edir. Həmin döyüşdə Aslan bəyin dəstəsindən olan iki nəfər də düşmən gülləsindən qəhrəmanlıqla şəhid olur.

Ölüm şokundan çıxan Mir Cəfər Bağırov Aslan bəyi qucaqlayıb bağrına basıb və deyib ki:

-Aslan bəy, bizim sənə bir can borcumuz var...

Daha sonra Mir Cəfər Bağırov Bakıda işlədiyi dövrlərdə təməli Qarabağda qoyulmuş dostluğuna sadiq qalaraq Aslan bəy Sultanova olan dərin hörmət və ehtiramını qoruyub saxlayıb, onu bir sıra problemlərdən vaxtında xəbərdar etməklə kömək edib.

Bu barədə daha ətraflı sonrakı fəsillərdə məlumat verəcəyik.

## *Dördüncü fəsil*

## Zəngəzurun Ermənilərə Verilməsi Ya Da Xainin Vətəni Olmur
### *(Arxiv sənədlərinin təhlilləri)*

Əldə edilən arxiv sənədlərinin təhlili həmin sənədləri qruplaşdırmağın və qruplaşdırılmış sənədlər üzərində ayrı-ayrılıqda analizlər aparmağın zəruriliyini ortaya qoydu. Həmin sənədlərin arasında 1920-ci ilin dekabrında keçirilən qurultay, qurultayın çıxardığı qərar və mərkəzi rəhbərliyin həmin qərara münasibəti və reaksiyası diqqəti çəkir.

Zəngəzurdan olan yerli kommunistlər 1920-ci ilin dekabrında Gorusda qurultay çağırır və Zəngəzurun ermənilərə verilməsinin labüd olduğunu bəyan edirlər. Bu barədə daha ətraflı faktlar gətirməyə və təhlillər aparmağa çalışacağıq. Lakin nəzərə almaq lazımdır ki, həmin qərarın müqabilində adı məlum olan o yerli xainlərin erməni rəhbərliyi tərəfindən mükafatlandırılması birmənalı şəkildə Azərbaycanın mərkəzi hökuməti qarşısında qoyulur. Onların siyahısı tərtib edilərək Azərbaycan inqilab komitəsinə, şəxsən Nəriman Nərimanova göndərilir.

Sənəddə qeyd edilir ki, guya yerli qəza hakimiyyətinin başında duran rəhbər şəxslər qatı əksinqilabçılardırlar və təcili oaraq onların geri çağırılmaları tələb olunur, yerlərinə isə ***ermənilərə işləyən*** yerli xainlər təyin edilməsi təklif edilir.

Əslində qurultayın qərarı Nərimanova çox yaxşı məlum idi, çünki əldə etdiyimiz arxiv sənədləri təsdiq edir ki, qərarın mətni qurultay bitər-bitməz ona – yəni Azərbaycan İnqilab komitəsinin sədri Nəriman Nərimanova və Azərbay-can Kommunist partiyasının Mərkəzi Komitəsinə göndərilmişdi. Daha dərinə getdiktdə isə ortaya çıxır ki, Nəriman Nərimanov

Azərbaycan İnqilab komitəsinə sədr təyin edildikdə Zəngəzurun, Qarabağın və Naxçıvanın ermənilərə verilməsi kimi xəyanətkar bir öhdəliyi üzərinə götürmüşdü, əks halda bu vəzifə ona həvalə olunmazdı.

Birbaşa Kremldən idarə olunan bu məkrli oyunlar Kremlin müti qulu olan Nəriman Nərimanova gün işığı kimi aydın idi. Elə ona görə də heç bir araşdırma, yoxlama, təhlil aparmadan ermənilərin göndərdiyi siyahını təsdiq edir. Məhz bu hadisədən sonra onların xəyanətlərinə qarşı insanları ayağa qaldıra biləcək yerli hökumətin rəhbərlərinə və şəxsən o hökuməti quran, daşnak hökumətinin məhv edilməsi hərbi planının birbaşa müəllifi, qəhrəman Aslan bəy Sultanova qarşı Nəriman Nərimanovun xeyir-duası ilə qarayaxma kompaniyası başlayır.

****

Nəriman Nərimanov bu qarayaxma kompaniyasını təşkil etməyi birbaşa Aslan bəy Sultanovun əmisi oğlu Çingiz İldırıma həvalə etmişdi. Çingiz İldırımın himayə etdiyi yerli kommunist partiyası üzvləri və Mirzoyanın yaratdığı "Xınzirək" təşkilatının üzvləri ***(Gorus Kommunist partiyasının filialı)*** əlbir olaraq, məqsədli şəkildə böhtan və qarayaxma kompaniyasını həyata keçirdilər. Bunu əlimizdə olan arxiv sənədləri də təsdiq edir.

1921-ci ilin yanvar ayında mərkəzdən (Bakıdan) göndərilən erməni məxfi işçiləri Zəngəzur qəzasına gələrək yerli hakimiyyətin başında duranları ləkləyən və onları daşnaklarla əməkdaşlıqda ittiham edən şər və böhtan dolu məlumatları mərkəzə ötürməyə başladılar. Həmin sənəddə Azərbaycan Kommunist partiyası MK-nin mandatı ilə göndərilən (milliyətcə erməni olan) məxfi işçilər bildirirlər ki, Qəza İnqilab Komitəsinin Sədri Xudabaxış bəy Sultanov və

qəza milis idarəsinin rəisi Aslan bəy Sultanov qırx milis işçisi ilə gələrək onları tərksilah edərək həbs ediblər. Sonra onlardan mandat tələb olunub. Onları həbs etməkdə məqsəd aralarında daşnakların olub-olmamasını araşdırmaq olub. Bütün diqqəti bu məqama xüsusilə yönəltmək lazımdır- ***o adamların arasında daşnakların olub-olmamasını dəqiqləşdirmək!*** Bəli, onlar daşnak olmaqda şübhəli bilindikləri üçün həbs ediliblər. Mandatlar yoxlanıldıqdan və onların daşnak olmadıqları dəqiqləşdikdən sonra isə azad ediliblər. Bu sənədin o biri səhifəsində isə göstərilir ki, guya qəza rəhbərləri daşnaklarla birgə fəaliyyət göstərirlər. Bununla da açıq-aydın özləri-özlərini təkzib edirlər və öz ötürdükləri sənədlə təsdiq edirlər ki, onlar yalnız daşnaklara qarşı mübarizə aparırlar.

Nəzərə almaq lazımdır ki, göndərilən məxfi işçilər erməni idilər, əgər yerli hakimiyyət bütövlükdə erməniləri düşmən hesab edərək onları məhv etməyi qarşılarına məqsəd qoymuşdusa, o zaman məxfi işçilərin erməni olduqları kifayət edirdi ki, onlar yerlərindəcə güllələnsinlər. Özləri də qeyd etdikləri kimi, Aslan bəy Sultanov 40 nəfər milis işçisi ilə onları tərksilah etmişdi, bü güc bəs edirdi ki, 7-8 nəfəri bir göz qırpımında aradan götürsünlər.

Bu yerdə Aslan bəyin 1921-ci ilin aprel ayının 10-da Azərbaycan İnqilab Komitəsinə ünvanladığı ittihamedici məruzəsi diqqəti çəkir. Aslan bəy məruzəsində bildirir ki, Xudabaxış bəy Sultanov əksinqilabçı deyil və bu fikrini təsdiq edən arqumentlər də gətirir. ***(Xoşbəxtlikdən həmin o ittihamedici məruzənin əlyazması əlimizdədir və bu əlyazma Azərbaycan İnqilab Komitəsində çap olunaraq Nərimanovun iştirak etdiyi yığıncaqda dinlənilib)*** O, Xudabaxış bəyin qəza inqilab komitəsinin sədri olduğu vaxt yazılı şəkildə verdiyi əmri xatırladır. Əmrdə göstərilir ki, kim daşnaklarla

hər hansı bir əlaqəyə girsə yerindəcə güllələnsin. Bu fakt Xudabaxış bəyin əksinqilabçı olmadığını təsdiq edir.

Azərbaycan KP MK tərəfindən göndərilən ***(Mirzoyanın)*** əvvəlcədən təlimatlandırılımş erməni məxfi işçiləri məruzələrinin əvvəlində onları daşnak hesab edərək həbs edən insanları, həmin məruzənin sonunda onları himayə etdiyi daşnaklara ərzaq, silah-sursat və başqa zəruri köməklər göstərən qüvvələr kimi qələmə verirlər. Hətta ürəklərində Aslan bəy xofu olan ermənilər Aslan bəyin onlarla mərkəzdən göndərilən Arsen Karentsovu öldürmək istəməsini də qeyd edirlər. Guya ki, Karentsov meşəyə qaçaraq canını qurtara bilib. Bu da növbəti ağ yalandan başqa bir şey deyil! Arxiv sənədləri və şahidlərin dediyi kimi, quşu gözündən vura bilən sərrast atıcının qabağından qaçıb can qurtarmaq mümkün ola bilərdimi?

Məruzənin sonunda göstərilən qarayaxmalar onu bir daha sübut edir ki, bütün bu kompaniyalar məhz Aslan bəy Sultanova qarşı ünvanlanıb. Arxiv sənədləri göstərir ki, əslən Xələc kəndindən olan Aslan bəyin baş milis işçisi ***(cinayət axtarış şöbəsinin rəisi)*** Həsənqulu bəy guya camaatı yığaraq bəyan edib ki, mən bütün kommunistlərin hamısını qıracağam, onlar bizim aramızda zərərli elementlərdirlər. Biz daşnaklarla birləşməliyik. Bakıda ruslar geri çəkilir, ingilislər gəlir. Məruzənin sonunda isə qeyd edilir ki, bütün bunları ona Aslan bəy Sultanov diqtə edir. Yenə də aydın şəkildə görünür ki, məruzənin əvvəli ilə sonu bir-birini təkzib edir.

1921-ci ilin aprel ayında isə yerli kommunist partiyasının üzvlərinin, Zəngəzurun satılmasının əsas ideyaverənlərinin mərkəzə ezam etdikləri Savalan Şirinov Zəngəzur qəzası barədə mərkəzə məlumat vermək üçün Bakıya KP MK-nə gələrək çıxış edir və məruzəsində bildirir ki, guya daşnak hökumətinin nümayəndələri qəzaya gələrək onlara – yəni

yerli kommunistlərə təklif ediblər ki, bizim Zəngəzur müsəlmanları ilə heç bir problemimiz yoxdur və biz ancaq bolşeviklərə qarşı mübarizə aparırıq. Ona görə də biz mütləq müştərək bazar açmalı, birgə ticarət etməliyik. Bundan sonra daşnak hökumətinin nümayəndələri bizə təklif etdilər ki, müsəlman ərazilərində olan erməni kommunistləri tutub onlara təhvil verək. Gülməlidir, elə deyilmi?

Daşnak hökumətinin nümayəndələri Azərbaycan tərəfin kommunistlərinə erməni tərəfin kommunistlərinin tutulmasını təklif edir. Sual olunur, özlərinin də təbirincə desək gizli fəaliyyətə sıxışdırılan yerli kommunist partiyasının üzvlərinin əlində hansı güc və səlahiyyət var idi ki, daşnak hökuməti nümayəndələri onlara təklif etsin ki, kimisə tutub onlara təhvil versinlər və birgə bazar yaratsınlar. Onlar sonra da qeyd edirlər ki, biz yerli kommunistlər daşnak hökumətinin bütün təkliflərini rədd etdik.

Çingiz İldırımın himayə etdiyi bu yerli xainlər utanmadan bildirirlər ki, yerli hakimiyyətin rəhbərləri olan bəylər daşnakların səsinə səs verdilər. Hansı ki, Çingiz İldırım və onun himayə etdiyi yerli xainlər yaxşı bilirdilər ki, daşnak hökumətinin dağıdılmasının hərbi planının müəllifi, yerli hakimiyyətin və hərbi qüvvələrin başında duran məhz Aslan bəy Sultanov olmuşdur və elə ona görə də mərkəz onun fəaliyyətinə qiymət vermiş, onu qızıl medalla təltif etmişdi. Bundan sonra isə ona daha böyük etimad göstərilmiş, o bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı vəzifəsinə irəli çəkilmişdi. Bu vəzifədə olarkən də Aslan bəy mərkəzi Şuşa olan Qarabağ və Zəngəzurun fövqəladə komissarı olmaqla 20-yə qədər rayonun birbaşa rəhbəri olmuşdu.

Lakin onlar ***(yerli kommunistlər)*** ona görə heç nədən çəkinmədən bu qarayaxma kompaniyasını aparırdılar ki, Nəriman Nərimanovun onlara birbaşa dəstək verdiyindən

yaxşı xəbərdar idilər. Çingiz İldırım da Nəriman Nərimanovun xeyir-duası ilə öz əmisi oğlanlarına qarşı bu böhtan və qarayaxma kompaniyasına başçılıq edirdi. Aslan bəy öz məruzəsində daşnak hökumətinin başçısı general Nijdenin birləşmək üçün ona müraciət etdiyini ***(Aqarak kəndində)*** və onun bu müraciəti rədd etdiyi barədə mərkəzə məluimat verdiyini göstərir.

Bir şeyi nəzərinizə çatdırmaq istəyirik ki, daşnak hökuməti yerli hökumətin rəhbərlərini qoyub guya gizli fəaliyyət göstərən və əllərində heç bir səlahiyyət olmayanlara müraciət edir. Buradan da belə bir nəticə çıxır ki, bütün bu oyunların arxasında sadəcə mərdləri qovaraq namərd etmək siyasəti dayanırmış.

Daha sonra Savalan Şirinov bildirir ki, bütün rəhbər vəzifələri sovet maskası altında gizlənən keçmiş müsavatçılar tutur. Məruzənin sonunda göstərir ki, qəza milis idarəsinin rəisi Aslan bəy Sultanov Şuşadan aldığı bütün pulları öz yaxın adamlarına paylayır. Çingiz İldırımın idarə etdiyi bu yerli xainlər daha sonra mərkəzdən 200 qızıl ordu əsgərinin kömək üçün göndərilməsini və qəzanın bütün rəhbər işçilərinin gizlinə sıxışdırılan kommunistlərin təkidi ilə həbs edilməsini tələb ediblər. Həmin sənədi isə aşağıdakılar imzalayıblar: Savalan Şirinov, Nəzər Heydərov, Mirzə Muxtar Bayramov və başqaları...

****

Nəriman Nərimanov Aslan bəyi və onun ətrafında olanları yaxşı tanıdığı halda göndərilən donoslara və deyilən böhtanlara göz yumdu. Çünki Zəngəzurun verilməsi planının reallaşması üçün yeganə bir yol vardı: Zəngəzurun o vaxtkı yerli rəhbərlərini hakimiyyətdən uzaqlaşdırmaq.

Aslan bəy məruzəsində təkidlə bildirir ki, mənim haqqımda məlumatları mənimlə birlikdə daşnak hökumətinə qarşı

vuruşan və həmin döyüşdə başımdan aldığım yaranın şahidləri olan qərəzsiz insanlardan soruşun. Başımdan yaralanmağım barədə 28-ci diviziyanın verdiyi arayış da var. O təklif edir ki, yaxşısı budur ki, bu məlumatları 28-ci diviziyanın komandiri general Semyonovdan və 28-ci diviziyanın tərkibinə daxil olan alay komandirlərindən ***(alay komandirlərinin adlarını çəkərək onları bir-bir sadalayır)*** xəbər alın.

Burada bir məntiqi sual yaranır. Nə üçün Nəriman Nərimanov milliyətcə rus olan Semyonovdan və onun alay komandirlərindən bu barədə soruşmur. Ona görə soruşmur ki, artıq həqiqəti bilmək onun maraqlarına uyğun deyildir. Əgər həqiqəti bilmək Nəriman Nərimanovun maraqlarına uyğun olsaydı, o, qısa zamanda Semyonovla əlaqəyə girib, doğridan da bu döyüşdə Aslan bəyin  başından yaralanmağını və28-ci diviziyadan bu barədə Aslan bəyə tibbi arayışın verildiyini dəqiqləşdirərdi. Başqa bir tərəfdən sonradan ironiya ilə inqilab komitəsi, yəni, indiki hökumətin sinfi düşmənlərindən ibarət inqilab komitəsinin yaranmasına nə üçün xeyir-dua verdin? Ən çox ikrah hissi doğuran  odur ki, həmin müharibədə Aslan bəy  qızıl medalla təltif olunub. Bütün bunları da Nəriman Nərimanov başqalarından daha yaxşı bilirdi. Çünki daşnak hökumətinə qarşı bu müharibədə Aslan bəyin hərbi planı  sayəsində qələbə çalınmışdır. Bundan sonra da ona daha böyük etimad göstərilmiş, bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı, yəni o dövr üçün general səlahiyyətli bir vəzifəyə irəli çəkilmişdir.

Bundan başqa savalan şirinovun məruzəsində 1921-ci ilin aprel ayında mərkəzdə çıxış elədiyi məruzəsində Aslan bəyin və onun komandasının daşnaklarla əlbir olub sovet hökumətinin yıxılmasına çalışdıqlarını göstərir və bu sənədin sonunda isə imza edirlər Nəzər Heydərov, Savalan Şirinov, Mirzə Muxtar Bayramov və qeyriləri. Çox nifrət hissi doğuran odur ki, bir ay sonra Nəriman Nərimanovun göndərdiyi komissiya-

da göstərilir ki, Aslan bəy və onun komandası ermənilərin qatı düşməni olduğuna görə çox böyük məmnuniyyətlə Qızıl ordunun daşnak Ermənistanına hücum etməsinə bələdçilik etmişdilər və bu sənəddə də Nəzər Heydərov bildirir ki, biz partiya işçiləri məcburiyyət qarşısında qalaraq gizli fəaliyyət göstəririk. Bir neçə dəfə hazırlaşmışıq ki, başqa qəzalara köçək. Göründüyü kimi bir ay qabaq aprel ayındakı arxiv sənədində daşnakların dostu, qatı əksinqilabçıların Aslan bəy və onun komandasının mərkəzi hökumətdən həbs olunmasını tələb edən Nəzər Heydərov və onun əqidə qardaşları bir ay keçəndən sonra may ayında artıq Nərimanivun göndərditi komissiyada Aslan bəyin erməni xalqının düşməni olduğunu göstərirlər. Burada məntiqi sual yaranır. Həmin Nərimanovun göndərdiyi komissiyanın məlumatında göstərilir ki, Aslan bəy və onun komandası XI orduya daşnak Ermənistanına qarşı vuruşmağa bələdçilik ediblər. Necə olur ki, Savalan Şirinovun məruzəsində göstərilir ki, daşnaklarla dostluq edirlər. Başqa bir tərəfdən də 28-ci diviziyanın missiyası daçnak hökumətini məhv etmək olub, bütün erməni xalqını deyil. Buradan da açıq-aydın görünür ki, Nəzər Heydərov kimi adamlar mərkəzə ötürülən məlumatların birində yazırlar ki, Aslan bəy və onun komandası daşnaklarla dostluq edir, əksinqilabçıdırlar. Başqa bir mərkəzə ötürülən məlumatda göstərirlər ki, daşnakların deyil, bütün erməni xalqının düşmənidirlər. Buradan məbtiqi sual yaranır. Mərkəzi hakimiyyətdə oturan adamlar görəsən nəyə görə Nəzər Heydərov, savalan Şirinov və başqa böhtançılardan soruşmurdular ki, bir ay qabaq daşnakların dostu etdiyiniz insanları bir ay sonra isə bütün erməni xalqının düşməni edirsiniz. Görəsən daşnaklar erməni xalqının üzvü deyillər? Bütün bu hadisələrin məntiqi təhlili göstərir ki, mərkəzdə oturanlar bu çirkin oyunları özləri təşkil etdikləri üçün bu böhtançıları etdikləri

cinayətə görə cəzalandırmamış və bu məsələlərə göz yummuşlar.

***(Bu məruzə Azərbaycan Dövlət Milli arxiv idarəsində fond 410, siyahı 1, iş 205 qrifi ilə saxlanılır).***

Təssüf ki, Nərimanov bu barədə məlumatları Aslan bəyin qeyd etdiyi qərəzsiz insanlardan deyil, Çingiz İldırımın və erməni Mirzoyanın himayə etdiyi xainlərdən soruşur və onlara inanır. Çünki həqiqəti bilmək onun maraqları ilə uyğun gəlmirdi, əslinə qalanda isə o həqiqəti hər kəsdən daha yaxşı bilirdi. Ona görə də qərəzli kommunist partiyası üzvlərinin göndərdiyi məlumatlar, erməni rəhbərlərinin göndərdiyi məlumatlar və erməni məxfi işçilərinin göndərdiyi məlumatlar əsasında qərar qəbul edir. Çünki onun özünün imza atdığı bu tarixi xəyanəti ***(Zəngəzurun ermənilərə verilməsi)*** gerçəkləşdirmək üçün ona qarşı çıxa biləcək real qüvvələri aradan götürmək onun qarşısında duran əsas məqsədlərdən biriydi. Əgər belə olmasaydı o, Aslan bəyin kimliyi haqqında general Semyonovdan da nəsə ***(XI Qızıl ordunun 28-ci diviziyasının komandiri)*** soruşardı.

Aslan bəy bunu ironiya ilə Nərimanova xatırlatmaqla bir daha onun yadına salmaq istəyirdi ki, 28-ci diviziyanı daşnak tələsindən məhz mən xilas etmişəm və bu barədə mərkəzin xüsusi qərarı olub, mən qızıl medalla təltif olunmuşam. Heç cürə ola bilməzdi ki, Zəngzurda və Qarabağda fövqəladə komissar olan bir adamı, daşnak hökumətini darmadağın edən, o hökumətin məhv edilməsi hərbi planının müəllifini Nəriman Nərimanov tanımasın.

## *Beşinci fəsil*

****

Yuxarıda göstərilən arqumentləri əsaslandırmaq üçün digər bir arxiv sənədinin təhlilinə keçərək, mərkəzdən Zəngəzura ezam olunan məxfi işçilərin yerli qəza rəhbərlərinin daşnaklarla əlbir olmaları, onlara hər cür kömək göstrəmələri haqqında böhtan dolu məlumatları təkzib edən yeni bir arxiv sənədi üzərində təhlil və müqayisələr aparaq. Kommunist partiyasının qəzadakı üzvləri də məxfi erməni işçilərlə həmrəy olduqlarını bildirir, onlar yerli rəhbərləri eyni ittihamlarla suçlayırdılar.

Siyasi Sənədlər Arxivi **fond 1, siyahı 2, iş 105, səhifə 48-51** qrifi ilə qorunan bu sənəddə Nəriman Nərimanovun qəzaya göndərdiyi komissiya üzvlərinin qəzanı tamailə təftiş etdikdən sonra mərkəzə ötürdükləri məlumatlar öz əksini tapmışdır. Adı çəkilən komissiya yoxlamanın yekununda göstərir ki, ümumazərbaycan sovetlər qurultayına seçkilər keçirmək üçün mənə tapşırılan Şuşa, Qaryagin və Qubadlı qəzalarında olduqdan sonra sovet və partiya quruculuğu barədə məndə aşa-ğıdakı təəssürat yarandı: Qaryagin və Şuşa qəzalarında azçox sovet hökumətinin varlığı hiss olunur. Qubadlı qəzasına gəldikdə isə orada sovet hökumətinin izi-tozu belə yoxdur. Qəzada olan hakimiyyətsizlik, vəziyyəti tam hərc-mərcliyə gətirib çıxarmışdır. Belə bir şəraitdə qəza əhalisi çaşbaş qalaraq nə edəcəklərini bilmir, onalara ağ gün vəd edənlərin qucağına atılmağa hazır vəziyyətdədirlər. Daşnaklar və İran xanları tərəfindən əhaliyə belə bir təkliflər də olmuşdur. Yerli əhali daşnaklarla düşmən olduqlarından belə bir təklifi rədd etmişlər. İran xanları ilə isə geniş ticarət əlaqələrinə başlanılmışdır.

Aslan bəyin məruzəsində də göstərilirdi ki, Nijdenin müsəlmanlarla Aqarakda birləşmək təklifi rədd edilmişdir və bu barədə mərkəzə ətraflı şəkildə yazılı məlumat verilmişdir. Daha sonra Nəriman Nərimanovun komissiyası bildirir ki, yerli bəylər və mülkədarlar qızıl ordu hissələrinə daşnak hökumətinə qarşı vuruşmağa məmnuniyyətlə bələdçilik etməklə özlərinə böyük nüfuz və təmiz işçi imici qazana biliblər. Göstərilən insanlar rus dilini bilməklə bu nüfuzu asanlıqla qazanmışdılar.

Bu yerdə bir məsələni qeyd etmək yerinə düşər ki, yerli bəylər və mülkədarlar daşnak ermənistanına qarşı vuruşmağa 28-ci diviziyaya böyük məmnuniyyətlə bələdçilik ediblər. Buradan da aydın olur ki, Mirzoyanın göndərdiyi məxfi işçilər və yerli kommunistlərin mərkəzə ötürdükləri donoslarda olduğu kimi deyil, əslində həmin qüvvələr daşnak Ermənistanına qarşı vurumuş və mübarizə aparmış qüvələr kimi başa düşülməlidir. Çünki o zaman ermənistanda daşnak hökuməti hökm sürürdü. Komissiya daha sonrakı məlumatlarda hadisələri və həqiqəti təhrif etməyə başlayır. Yerli hakimiyyət qüvvələrinin daşnaklara deyil, bütövlükdə ermənilərə qarşı düşmən olduğunu qeyd edir və deyir ki, ermənilərə qarşı düşmən olan bu adamlar böyük məmnu-niyyətlə qızıl orduya bələdçilik edirdilər. Təzada baxın: bayaqdan bəri daşnak hökuməti, daşnak ermənisatnı deyib haray çəkən və yerli bəylərin daşnak ermənistanına qarşı müharibədə bələdçilik etməsini qeyd edənlər,  indi də onalrın bütün erməni xalqına qarşı düşmən olduqlarını qeyd edirlər və buradan da belə bir nəticə çıxır ki, guya qızıl ordu daşnak hökumətinə qarşı deyil, ermənilərə qarşı vuruşub. Bu da mərkəzi azdırmaq üçün düşünülmüş və qurulmuş bir oyundur. Çünki arxiv sənədləri və tarixi faktlar bir daha sübut edir ki,  qızıl ordunun Zəngəzura göndərilən 28-ci diviziyasının missiyası daşnak hökumətini darmadağın etmək və yerində sovet hökumə-

tini (fəhlə-kəndli hökumətini) qurmaq olub. Bu sənədi təhlil etdikcə komissiya üzvlərinin nə qədər böhtançı, qərəzçi və riyakar olması sənədin hər cümləsində üzə çıxır.

Beləliklə, əvvəlki sənədlərdə Azərbaycan kommunist partiyasının göndərdiyi erməni məxfi işçiləri və Çingiz İldırımın himayə etdiyi yerli kommunist partiyası üzvlərinin qəzanın rəhbərlərini daşnaklarla birgə fəaliyyətdə ittiham edərək haray çəkirdilərsə, Nəriman Nərimanovun göndərdiyi komissiya isə qəza rəhbərlərinin erməni xalqının düşməni olduğunu bildirirdi. Komissiya üzvləri unudurdular ki, daşnaklar da erməni xalqının bir hissəsidir, bu halda çətinlik çəkmədən Aslan bəyin və onun silahdaşlarının daşnakların düşməni olmasını başa düşmək olur. Bu faktları təhlil etdikcə o donosçuların, böhtançıların hansı əxlaqa sahib olduqları bir daha məlum olur. Onların nə məqsədlə Aslan bəyə və onun silahdaşlarına qara yaxma kompaniyası aparmaqlarını dərk etmək o qədər də çətin deyil. Çünki Aslan bəy və onun yaxın silahdaşları o yerlərdə real güc və nüfuz sahibi olmaqla, mərkəzi hökumətin xəyanət planına qarşı çıxa biləcək ən radikal qüvvə hesab edilirdi.

Nəriman Nərimanovun göndərdiyi komissiya hesabatında bir fikir işlədir:- "ermənilərə düşmən olan bəylər". Bu yerdə Nəzər Heydərova, Savalan Şirinova və mərkəzdən Zəngəzura ezam olunan məxfi işçilərə belə bir sual olunur ki: Əgər sizin təbirinzcə desək, bəylər ermənilərə düşməndirlərsə, o zaman onlar daşnaklarla necə birləşə, onları silah və ərzaqla necə təhciz edə bilərdilər?

Göründüyü kimi onlar mərkəzə ötürdükləri donoslarda, yazdıqları hesabatlarda, etdikləri çıxışlarda və məruzələrdə Aslan bəyə və onun bölgədə rəhbər vəzifələrə təyin etdiyi ziyalı, savadlı adamlara nə qədər böhtan atırlar. Aslan bəyin hərbi fəaliyyətindən, onun 28-ci diviziya ilə birlikdə daşnaklara qarşı vuruşmasından, Aslan bəyin bu diviziyanın kəşfiy-

yatına və eyni zamanda bölgədəki partizan hərəkatına rəhbərlik etməsindən bir kəlmə belə yazmır. Buna cəsarətləri, bəlkə də qeyrətləri çatmırdı.

Aparılan analizlər onu göstərir ki, komissiya üzvləri qəzaya gələrkən əvvəlcədən tam olaraq təlimatlandırılmışdılar və onlar dəqiq bilirdilər ki, onların missiyaları qəzadakı bütün rəhbərlərin fəaliyyətinə kölgə salmaq, onlara qara yaxmaq və onlar haqqında mənfi imic yaratmaqdan ibarət idi. Onlar bunu birmənalı olaraq qarşılarına məqsəd qoymuşdular. Ancaq nədənsə bu komissiya Aslan bəyin daha böyük fəaliyyəti – XI Qızıl Ordunun 28-ci diviziyasını Ersevənnik kəndində daşnak generalı Nijdenin mühasirəsindən çıxararaq xilas etməsindən yazmırdı. Bu hadisədən sonra Aslan bəy Sultanov 28-ci diviziyaya faktiki olaraq komandirlik etmiş, bütün hərbi planları və taktikanı birbaşa tərtib edərək daşnak hökumətini məhv etmə planını hazırlamışdı. Komissiya nədənsə həmin plan əsasında Andronikin yaratdığı daşnak hökumətinin məhv edilməsindən və bu işdə Aslan bəyin xüsusi xidmətlərindən söz açmağa da özündə cəsarət tapmır. Bunun üstündən qəsdən sükutla keçərək qarayaxma kompaniyasını davam etdirir.

Ona görə də komissiya hesabatında yazır ki: "...hesabatda adları çəkilən yerli bəylər Qızıl Ordu hissələri Zəngəzurun sərhədlərindən geri çağrıldıqdan sonra mərkəzdən gələn vəzifəli şəxslərin və hərbi komissarların yanında nüfuz və etibar qazanaraq qəzada mühüm rəhbər vəzifələri tutdular. Onların bu məntiqi ağ yalandır! Faktiki olaraq Aslan bəy və onun komanda üzvləri bu nüfuzu və inamı daşnak hökumətini məhv etdiklərinə görə qazanmışdılar! Əgər onların xidmətləri adi bir bələdçiliklə bitsəydi o zaman Aslan bəyi bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı vəzifəsinə ***(general səlahiyyətli bir vəzifəyə)*** təyin etməzdilər. Komissiya hesabatında gizlədirdi ki, XI Qızıl Ordunun komandanlığı

Aslan bəyin birmənalı olaraq daşnakların ürəyinə xof sala bilməsindən xəbərdardır, elə ona görə də ordu komandanlığı bu fakta söykənərək Aslan bəyin (Kommunist partiyası üzvü olmayan bir şəxsin) Qarabağda və Zəngəzurda fövqəladə səlahiyyət sahibi olmasına nail ola bilmişdi. Nəriman Nərimanovun və bütünlükdə hakim kommunist partiyasının iradəsinə zidd olaraq kommunist partiyası üzvü olmayan Aslan bəy Sultanova Qarabağda da Andronikin göndərdiyi daşnak quldurlarını məhv etmək missiyası tapşırılmışdı. Daha sonra komissiya öz hesabatında göstərirdi: "Beləliklə də qətiyyətlə demək olar ki, bu qəzada sovet hökuməti bəylərdən və mülkədarlardan təşkil olunmuşdur. Yəni bu bəylər əvvəlki kimi hakimiyyəti müsavat hakimiyyəti dövründə olduğu kimi idarə etməyə davam edirlər". Bu yerdə belə bir məntiqi sual çıxır ortalığa: doğrudanmı bu qədər mühüm və taleyüklü vəzifələri və səlahiyyətləri daşıyan bir şəxs yalnız bələdçilik etdiyi, rus dilini yaxşı bildiyi, ermənilərin düşməni olduğu üçün irəli çəkilmişdi? Əsla yox! Həqiqətdə isə baş verən hadisələr və qurulan oyunların məqsədi o idi ki, xalqın qəhrəman oğullarını içimizdən olan xainlərin böhtan və şəri ilə ləkələməyə, onların əldə etdikləri uğurların üstünü pərdələməyə nail ola bilsinlər.

Nəriman Nərimanovun göndərdiyi komissiya hesabatında daha sonra yazırdı: "... yerli kommunist partiyasının məsul katibi Nəzər Heydərov bildirir ki, bütün yerli kommunistlər başqa qəzalara köçməyə hazırlaşmaq məcburiyyəti qarşısında qaldıqlarından gizli fəaliyyətə keçiblər".

Nəzər Heydərov komissiya üzvlərinə ötürdüyü məlumatda yenə də həmişə olduğu kimi hədəfə aldığı qəza milisinin fəaliyyətinə toxunur və qeyd edir ki: "Milis sistemində yalnız bəylər və mülkədarlar qəbul olunmuşlar. Ona görə ki, bununla onlar özlərini sudan quru çıxarmağa və sovet işçiləri kimi göstərməyə çalışırlar". Qəza milis idarəsinin rəisinə gəldikdə

isə hesabatda qeyd olunur ki: "O sərrast atıcı və erməni xalqının düşmənidir. İnqilab komitəsinin sədri Xudabaxış bəy Sultanova gəldikdə isə o ixtisasca məllimdir. Yerli partiya işçilərinin dediyinə görə Mirzə Muxtar Bayramovun böhtanı və şəri ilə həbs olunub. Belə ki, Xudabaxış Sultanov kəndə ermənilərin gəldiyini eşitdikdə onların arasında daşnakların da ola biləcəyindən şübhələndiyi üçün gələnləri saxlayıb, onlardan mandat tələb edib, mandatları yoxladıqdan və gələnlərin arasında daşnakların olmamasından tam əmin olduqdan sonra onları azad edib. Xudabaxış bəyin günahsızlığı sübuta yetirildikdən ay yarım sonra Qubadlı kommunistlərinin tələbi ilə o, həbsdən azad edilib".

Daha sonra Nəriman Nərimnovun göndərdiyi komissiya yazır: "Onu ***(yəni Xudabaxış bəy Sultanovu)*** əksinqilabçı adlandırmaq olmaz, sözsüz ki, o kommunist partiyasının üzvü deyil, amma ondan yaxşı işçi çıxa bilər".

Bu fakt mübaliğəsiz şəkildə qəza rəhbərlərinin daşnaklarla əlbir olmasını iddia edən qüvvələrin – erməni məxfi işçilərinin və yerli kommunistlərin təmiz insanlara böhtan atmaqla məşqul olduqlarını təsdiq edir. Məxfi işçilər mərkəzə ötürdükləri məlumatda əvvəlcə bildirirlər ki, Aslan bəy qırx milis işçisi ilə onları tərksilah edib, aralarında daşnakların ola biləcəyindən şübhələndiyi üçün onlardan mandat tələb edir və mandatları yoxladıqdan, içərilərində daşnak olmadıqlarından tam əmin olduqdan sonra onları azad edib. Bu adamlar özləri özlərini təkzib edir, özlərini gülünc vəziyyətə salırlar. Bir tərəfdən yazırlar ki, yerli rəhbərlər daşnaklarla əlbir olaraq əhalini çapıb-talayır, quldurluqla məşğul olur, daşnaklara ərzaq göndərirlər, digər tərəfdən də qeyd edirlər ki, məxfi işçilər qəzaya gələndə gələnlərin aralarında daşnakların ola biləcəyindən şübhələndikləri üçün onları saxlayıb, mandat tələb edib, mandatları yoxladıqdan və bu adamların arasında daşnakların olmadığından tam əmin olduqdan sonra məxfi

işçiləri azad ediblər. Əgər doğrudan da milisə bilavasitə ermeniləri, ya da kommunistləri məhv etmək lazım olsaydı, o zaman komissiya üzvlərinin özlərinin hesabatda yazdıqları kimi qırx silahlı milis işçisinin mühasirəsində olan altı-yeddi nəfər məxfi işçini məhv etmək milisə o qədər çətin idimi? Əgər onlar doğrudan da daşnaklarla əlbir olsaydılar onları daşnakların düşməni kimi yerindəcə məhv edə bilərdilər.

Bir də... Əgər Xudabaxış bəy Sultanov doğrudan da qatı əksinqilabçıydısa, düşmən hesab edilirdisə onun haqqında mərkəzə gizli böhtan dolu məlumatlar ötürənlər hansı səbəbdən onu  ay yarımdan sonra azad etdirdilər? Bu sualın cavabını da arxiv sənədlərinin arasında axtarmaq lazımdır. Sənədlər təsdiq edir ki, Xudabaxış bəyin həbs olunmasının səbəbkarları onun haqqında mərkəzə yalan informasiyalar ötürən yerli kommunistlər olublar. Onu ən ağır vətən xaini, əksinqilabçı kimi qələmə verərək ən ağır cinayətlərdə ittiham ediblər. Çox qəribədir ki, onun haqqında belə ittihamları irəli sürən adamlar Nərimanovun komissiyasının  şəxsən Nərimanova etdiyi məruzədə göstərdiyi kimi onun azad olunmasını tələb ediblər. Daha sonra da Xudabaxış bəyin ziyalılığını, müəllim olmağını irəli çəkərək onun kommunist olmamasına baxmayaraq ondan yaxşı işçi çıxa biləcəyini qeyd edirlər. Buradan da belə nəticə çıxarmaq olar ki, yerli adamların haqqın müdafiəsinə qalxmaları və Aslan bəyin də o zaman hüquq orqanının başında duran bir insan kimi vəziyyəti düzgün təhlil etməsi və onları çağıraraq heç bir günahı olmayan təmiz bir insanın kimlər tərəfindən mərkəzə yalan məlumatlar ötürməyini, onu ağır ittihamlarda suçlamağını xəbər aldıqda sonralar Savalan Şirinov bildirirmiş ki, bütün kommunistlər and içiblər ki, bu işdən onların xəbəri yoxdur, o ki, qaldı Xudabaxış bəyə o çox namuslu və təmiz bir insandır. Bundan sonra yerli adamların və Aslan bəyin şəxsi iradəsi ilə bütün kommunistlər Şuşaya gedərək Şuşa siyasi

bürosundan Xudabaxış bəyin həbsdən dərhal azad olunması tələbini irəli sürüblər. Göründüyü kimi bu xainlər ictimai rəyin qarşısında tab gətirə bilməyib və ay yarım əvvəl həbs etdirməyə çalışdıqları adamın bu dəfə də həbsdən azad olunmasını təkidlə tələb ediblər. Əsl riyakar kommunist əqidəsi də elə budur.

Göründüyü kimi Aslan bəyin əvvəlcədən öz məruzəsində gətirdiyi bütün faktlar öz təsdiqini tapdı. Bunu bir daha xatırlamağı məsləhət bilirik ki, Aslan bəy öz ittihamedici məruzəsində Nərimanova xatırladırdı ki, Xudabaxış bəyin "daşnaklarla kiminsə əlaqəyə girməsi faktı aşkar edilsə yerindəcə güllələnməsi haqqında"  yazılı əmri var. Bu fakt bir daha onun əksinqilabçı olmadığını və daşnaklarla heç bir əlaqəsinin olmamasını sübut edir. İnsanda ikrah hissi doğuran bir də odur ki, bu yerli kommunistlər rüşvətxor, cinayətkar, partiya üzvü olmayan Mirzə Muxtar Bayramovu irəli verərək onun arxasında gizlənmişlər və Xudabaxış bəyin həbs olunmasında yalnız onu günahkar saymışlar.

Nəzər Heydərov "Zəngəzur dağlarında" adlı kitabının 221-ci səhifəsində yazır ki, "1920-ci ildə bəy banditləri ifşa etdiyinə görə MİrzəMuxtar Bayramovun arvadını öldürdülər, özünü isə ağır yaraladılar". Qərəzə və riyakarlığa baxın ki, hətta Nərimanovun göndərdiyi komissiya Mirzə Muxtar Bayramovun cinayətkar olduğunu təsdiq etdiyi halda Nəzər ona dəstək verir. Ancaq əlimizdə olan arxiv sənədləri təsdiq edir ki, yerli kommunistlər Savalan Şirinovu səlahiyyətli nümayəndələri kimi öz imzaları ilə təsdiq etdikləri bəyanatla mərkəzə göndərərək bu insanları əksinqilabçı damğası ilə damğalayaraq onların təcili həbs olunmaları üçün mərkəzdən 200 qızıl ordu əsgərinin göndərilməsini tələb ediblər. Buradan da belə bir nəticə çıxır ki, ictimai rəyin, yerli camaatın və Aslan bəyin qorxusundan əqidəsiz kommunistlər bütün məsuliyyəti Mirzə Muxtar Bayramovun üstünə atmaqla

özlərini sudan quru çıxarmağa çalışıblar və canlarının qorxusundan Xudabaxış bəyin həbsdən azad olunmasını tələb ediblər. Mərkəzə təqdim olunan məruzənin sonunda Savalan Şirinovun, Nəzər Heydərovun, Mirzə Muxtar Bayramovun, Kərimovun və qeyri kommunistlərin imzalarının olması onların bir yerdə olmalarını, eyni məslək sahibi olduqlarını təsdiq edir. Nərimanovun komissiyasının Aslan bəy Sultanovu erməni xalqının düşməni kimi qələmə verməsi daşnak ideoloqu S.Şaumyanın dəyirmanına su tökmək məqsədindən başqa bir şey deyildi. Bununla da erməni daşnaklarından azərbaycan xalqının qisasını layiqincə alan bir qəhrəmanı erməni xalqının düşməni kimi qələmə verməklə yəqin ki, Nərimanov Şaumyanın rəğbətini qazanmaq istəyirmiş. Bu Azərbaycan xalqının qisasını daşnaklardan alan Aslan bəydən daşnak Şaumyanların içimizdən olan xainlərin əlilə qisas almaq istəyi idi. O dövrdəki hadisələri analiz etdikdə açıq-aydın nəzərə çarpır ki, Aslan bəyi erməni xalqının düşməni kimi qələmə verənlər bu igid və vətənsevər insandan şəxsi məqsədləri üçün qisas almaq istəyirmişlər. O zaman daşnaklara qarşı vuruşan və onlarla düşmənçilik edən yüzlərlə igid və qoçaq adamlar olub, amma yerli kommunistlər və Nərimanovun rəhbərlik etdiyi mərkəzi hakimiyyət demək olar ki, bütün sənədlərdə dəfələrlə Aslan bəyin adını erməni xalqının düşməni kimi bu və ya digər halda hallandırırlar.

Nəzər Heydərov daha da irəli gedərək hətta peyğəmbər əfəndimiz Məhəmməd(s.ə.v) peyğəmbərə də qara yaxmaqdan çəkinmir (səhifə 163). Onu VII əsrin qolçomaqlarının və feodallarının tərəfini saxlamaqda ittiham edərək öz xəyanətkar xislətindən əlavə, dinsizliyini, kafirliyini də ortaya qoyur və fəxrlə deyir ki, biz bolşeviklər Allahın varlığına inanmırıq (səhifə 83).

**94-cü** səhifədə isə Türkiyə dövlətinə şər atır və yazır ki, guya 1918-ci ildə Türkiyə Brest sülh müqaviləsini pozaraq

Ermənistanın ərazisini işğal edib və Ermənistanın içində iki qəza yaradıb: Eçmiədzin və İrəvan.

Azərbaycanın əzəli və əbədi qardaşı olan Türkiyə dövlətinə böhtan atmaqla o, ermənilərin dəyirmanına su tökür. Hansı ki, tarixdən bizə məlumdur ki, həmin ərazilərin hamısı qədim Azərbaycan torpaqlarıdır. Göründüyü kimi, Aslan bəyə böhtan atan Nəzər eyni zamanda Türkiyə dövlətinə, Peyğəmbər əfəndimizə də utanmadam böhtan atır.
Yaşadığımız son tarix bir daha onu sübut etdi ki, bu millətin ən çox qəhrəmanlara ehtiyacı var.

****

Bu yerdə Qubadlı Qəzası Milis İdarəsinin rəisi Aslan bəy Sultanovun 10 aprel 1921-ci il tarixində mərkəzə göndərdiyi ittihamedici məruzəsini təhlil etməyə çalışaq.

İlk baxışdan insanlarda müəyyən qədər çaşqınlıq yarana bilər. Çünki məruzənin əvvəlində Qubadlı qəzasında sovet hökumətinin vəziyyətinin son dərəcə böhran içində olmasını qeyd edir. Aslan bəy Sovet Hökumətinin fəhlə-kəndli hökuməti olduğna, daha demokratik bir quruluş olduğuna inanırdı. Bu fikirləri məruzəsinin sonunda işlətdiyi ifadələr də təsdiq edir. O göstərir ki, biz bütün gücümüzü və səylərimizi bu quruluşun qorunub saxlanılmasına o inamla sərf edirdik ki, bu quruluşun xalqı xoşbəxtliyə və xilasa aparmağına inanırdıq. Məruzənin başlanğıcında göstərir ki, hər dəfə qəzanın ümumi vəziyyəti və mənim tabeliyimdə olan milis işçilərinin fəaliyyəti barədə ardıcıl olaraq mərkəzə vaxtı-vaxtında yazılı olaraq məlumat verirdim. Ancaq nədənsə verdiyim yazılı məlumatlara bir dəfə də olsa cavab almamışam. Daha sonra göstərir ki, sovet hakimiyyətinin bu vəziyyətə düşməsinin əsas səbəbi bir tərəfdən onun nüfuzunun arzuolunmaz həddə qədər azalması, digər tərəfdən daxildəki zərərli elementlərin fəaliyyətidir. Başqa tərəfdən də daşnaklar əl çəkmədən, zəhlə

tökməklə özlərinin qəbuledilməz tələblərini irəli sürürlər onlarla həm siyasi həm də ticarət əlaqələrinə girməyi istəyirlər.

**Qubadlı Qəza Milis İdarəsinin Rəisi Aslan bəy Sultanovun Azərbaycan Mərkəzi İnqilab Komitəsinə Ünvanladığı ittihamedici Məruzəsi**
**№603**

***10 aprel 1921-ci il.***
***Xocalan***

“Rəhbərlik etdiyim İdarə tərəfindən qəzadakı ümumi vəziyyət, rəhbərliyim altında sədaqətlə xidmət göstərən milisin fəaliyyəti barədə mərkəzə vaxtaşırı verdiyim yazılı məlumatlar nədənsə hər dəfə cavabsız qalmışdır.

Sovet Hakimiyyətinin Qubadlıdakı durumu hal-hazırda son dərəcə gərgin bir vəziyyətə gəlib çatmışdır: bu da onunla bağlıdır ki, onun nüfuzu bir tərəfdən daxildəki bolşevizmə arzuolunmaz və mən deyərdim ki, təhlükəli elementlər tərəfindən aşağı düşür, digər tərfdən isə daşnakların özlərinin onlarla həm siyasi, həm də ticari əlaqələrə girmək kimi qəbuledilməz tələbləri ilə baş apardıqlarından irəli gəlir.

**1.** Daşnaklarla müsəlman əhalisinin nümayəndələrinin bu ilin 6 aprelində vacib məsələləri həll etmək üçün Aqarak kəndində ali baş komandan Nijdenin iştirakı ilə görüşlərinin təşkili.

**2.** Ticarət məqsədləri ilə yarmarkaların təşkili, onların və müsəlman camaatının qarşılıqlı münasibətlərinin yaradılması və s.

Sərhədyanı ərazilərdə yaşayan müsəlmanların daşnaklarla əlaqələrinin qarşısını almaq üçün lazımi tədbirlər görülüb və bu barədə Mərkəzə dəfələrlə məlumat vermişəm.”

Göründüyü kimi bu xəyanətkar təkliflərin qarşısını alan Aslan bəy Nijdenin təkliflərini rədd etdiyini, onlara qarşı amansız mövqe tutduğunu, daşnakların qatı düşməni olduğunu yazılı şəkildə mərkəzə bildirmişdir. Ancaq təəssüflər olsun ki, bütün bu hərəkətləri Savalan Şirinov məruzəsində yazır ki, guya yerli kompartiya (gizlinə sıxışdırılmış kommunist partiyası üzvləri) üzvləri etmişlər. Əllərində heç bir səlahiyyət və gücü olmayan adamlara Nijdenin hər hanısa bir təkliflə müraciət etməsi nə dərəcədə doğru ola bilər? İkrah hissi doğuran isə mərkəzin bu məsələlərə qərəzli münasibətidir.

Nəzər Heydərov kitabında yazır ki, "Aqarakda Nijdenin birləşmə və yaxınlaşma təklifini guya yerli kompartiya üzvləri müsəlmanlarla pozublar. İnsan vicdanına nə qədər xəyanət edə bilər? İnsanları necə hiyləgərliklə aldadırlar? Bu yerdə Bəyalı Səfaoğlunun 28 iyun 1990-cı il tarixli "Azərbaycan gəncləri" qəzetində çap olunan Aslan bəy haqqında yazdığı "Özümlə oynadığım şahmata güldüm" adlı məqaləsində göstərdiyi kimi "şirlərin ovuna tülkülər sahib çıxmağa çalışır" fikirlərini xatırlamaq yerinə düşür. O adamlardan soruşmaq lazımdır ki, sizin əlinizdə hansı hakimiyyət, hansı hərbi güc, hansı ixtiyar var idi ki, daşnak generalı Nijde sizinlə hesablaşa və sizə hansısa bir təklif verə? Daha sonra Aslan bəy məruzəsində bir məsələni də xüsusi olaraq vurğulayır;

"Qeyd etmək istəyirəm ki, daşnakların antibolşevik təşəbbüsləri bizə o qədər təhlükəli görünmür, amma daxili düşmənlərimizin, partiyaya sədaqətlə xidmət göstərmək maskası altında gizlənərək bizim aralarımıza soxulan və hakimiyyətə can atmaqda qəti maraqları olan, öz şəxsi mənfəətlərini düşünən, səlahiyyətləri ələ keçirməyə çalışan adamların hansısa xəyanətkar məqsədləsə təmiz və vicdanlı adamlara ləkə yaxmaları təhlükəlidir. Təhlükəli olan daşnakların təxribatla-

rı və təklifləri də deyil, bizim ideyalarımıza xəyanətkarlıqla zərbə vurmağa çalışan, sədaqətli işçilərə qarşı tam fırıldaqçı münasibətdə olan həmin elementlərin ölkənin daxilində Sovet hakimiyyətinin fəaliyyətinə mane olmalarıdır“.

Məruzənin bu yerində Aslan bəy içimizdə olan xainlərin daşnaklardan daha təhlükəli olduğunu, onun anladığı fəhlə-kəndli hökumətinin inkişafına maneçilik törətmələrindən narahatlığını bildirir.

Mərkəzin diqqətini bir daha daxildəki xainlərə tərəf yönəldərək bildirir ki, onların məqsədləri təmiz və vicdanlı işçiləri ləkələmək, onların qazandıqları uğurlara kölgə salmaq, ləyaqətli insanların gördükləri bütün işləri öz adlarına çıxarmaq olmuşdur.

Hər bir məsələni yoxlayıb dəqiqləşdirdikdən sonra qərar qəbul etməyin vacib olduğunu mərkəzə göstərməyə çalışmışdır. O vaxtlar qəza kommunist partiyasının başında duran Mirzə Muxtar Bayramov kommunist partiyasının üzvü deyildi. Bunu Nərimanovun komissiyası da təsdiq edir. Savalan Şirinov, Nəzər Heydərov və başqaları mərkəzə ötürdükləri qərəzli məlumatlarında qəza yerli hakimiyyətinin başında duran yerli bəylərin kommunist partiya üzvü olmadıqlarını xüsusi olaraq vurğulayırlar, ancaq nədənsə özlərinin yerli kommunist partiya rəhbəri olan Mirzə Muxtar Bayramovun kommunist partiya üzvü olmadığının üstündən sükutla keçirlər. Diqqət edin yerli kommunistlərin başında kommunist olmayan cinayətkar durur və Nərimanovun komissiyası da bunu təsdiqləyir. Buradan nə nəticə çıxarmaq olar? Başda Mirzə Muxtar Bayramov, Savalan Şirinov, Nəzər Heydərov və qeyriləri əvvəlcədən bilirdilər ki, onların böhtan dolu məlumatları həqiqət kimi qəbul olunacaq. Əks halda onların böhtan atdığı bu qəhrəman insanların mərkəzin çox gözəl tanıdığını və hansı zərurətdən onların qəzanın

rəhbərləri olmasını daha dəqiq desək, xalqın qəhrəman oğulları olduqlarını biləcəyindən çəkinərək onları əksinqilabçı damğası ilə damğalamağa cürət etməzdilər. Necə deyirlər, balıq başından iylənər. Mirzə Muxtar Bayramov kimi cinayətkarı Nəzər Heydərov öz kitabında müdafiə etməyə çalışır və onu dəstəkləməyi ilə də sübut edir ki, onların ikisi də eyni cəbhənin adamlarıdır. Nə qədər gülməlidir kommunist partiya üzvü olmayan Mirzə Muxtar Bayramov yerli kommunist partiya üzvlərinə rəhbərlik edir. Necə deyərlər, "elçisi Gülüm olanın başına külüm olar".

Daha sonra Aslan bəy məruzəsində bildirir ki; "Bu günlərdə mənə məlum olub ki, Qəza İnqilab Komitəsi Mərkəz tərəfindən yenidən təşkil edilib. Eləcə də mən tutduğum vəzifədən-Qəza Milis İdarəsinin Rəisi vəzifəsindən azad olunmuşam. Bəs nədən bu barədə mənim heç bir rəsmi məlumatım yoxdur?"

Bu məsələyə diqqət edək: əvvəla Aslan bəy qəzada olduğu halda Nərimanovun kabinetində qəbul edilən gizli qərardan necə xəbər tuta bilib? Özü də üstündən bir-neçə gün keçdikdən sonra... Bu fakt özü-özlüyündə Aslan bəyin nə qədər ayıq olduğuna, əlinin hər yerə çatdığına, mərkəzi hakimiyyət orqanında baş verənlərdən yerindəcə xəbər tutmasına və onun kəşfiyyatının yetərincə dəqiq işlədiyinə sübutdur. Bu bir daha Aslan bəyin mərkəzdə oturanlardan daha ağıllı, savadlı, daha güclü təhlil qabiliyyətinin olmasını sübut edir.

İkincisi, mərkəzi hakimiyyət şəxsən Nəriman Nərimanov onu vəzifəsindən azad etməsini gizli saxlayır və bu barədə rəsmi olaraq ona heç nə bildirmir. Bəlkə onun nüfuzundan ehtiyat edirdilər? Axı Aslan bəy hər kəsin birmənalı olaraq qəbul etdiyi qəhrəman sərkərdəydi. Daşnak hökumətinin məhv edilməsi planının müəllifi idi. Ona sadiq hərbi qüvvələr Aslan bəyin necə qəhrəman olduğunu, xaqlının düşmənlərin-

dən onun layiqli qisasını necə aldığını öz gözləri ilə görmürdülər. Bütün bunlara görə də onu xalq və ona sadiq hərbi qüvvələr çox sevirdilər. Onun bir çağırışına yüzlərlə insanlar ayağa qalxar, öz qəhrəman sərkərdələrinin arxasınca ölümə belə gedərdilər. Bütün bunları çox gözəl bilən mərkəzi hakimiyyət başda Nəriman Nərimanov olmaqla onun nüfuzundan ehtiyatlanaraq Aslan bəyin vəzifəsindən kənarlaşdırılmasını gizlində saxlamağa üstünlük vermişdi.

Bir məsələyə də diqqət yetirək. Aslan bəy hadisələri qabaqcadan necə təhlil edir və hadisələrin sonrakı inkişafı onun tamamilə haqlı olduğunu sübut edir. Məruzəsində bildirir; " Mən əminəm ki, bütün bunlar qəzanın bəzi məsul şəxslərinin və hakimiyyətin düşmənlərinin Mərkəzə ötürdükləri yalan və böhtan dolu məlumatların nəticəsində baş verib. Əldə etdiyim məlumata əsasən Qubadlı kəndinin sakini, fırıldaqçı, qaçaq, 18 cinayət əməlində birbaşa təqsiri sübuta yetirilən Mirzə Muxtar Bayramov özünün fırıldaqçı məharəti nəticəsində kommunist partiya üzvü olmadan Qubadlı qəzasının kommunist partiyası təşkilatının katibi təyin edilib və partiya maskası altında gizlənərək öz hakimiyyətini gücləndirmiş, bir sıra qeyri-qanuni hərəkətlərə yol vermiş, daşnak rayonlarından Qubadlıya gələn gizli erməni-işçilər ilə görüşmüş, onları bir-neçə gün evində qonaq saxlamış və daha sonra Bakıya yola salmışdır. Öz cinayətkar əməllərini ört-basdır etmək və günahı onların üstünə atmaq üçün isə başqa bir əclaflıqla onları Nijdenin və burjuaların tərəfdarı kimi qələmə vermişdir. Eyni zamanda Mirzə Muxtar Bayramovun təşkilatçılığı sayəsində Şuşada, eləcə də Mərkəzdə rəhbər orqanların Qubadlının məsul şəxslərinə qarşı mənfi münasibəti formalaşır. Elə bu səbəbdəndir ki, tamamilə yalan və böhtan dolu məlumat nəticəsində heç kəs tərəfindən yoxlanılmadan əksinqilabi fəaliyyətdə günahlandırılaraq Qubadlı qəza İnqilab

Komitəsinin sədri Xudabaxış bəy Sultanov Şuşada həsb olunub. Hansı ki, o bütün varlığı ilə Sovet hakimiyyətinə sədaqətli olduğu ilə seçilən bir şəxsdir (Müəllif: onlar həqiqətən bu hakimiyyətin fəhlə-kəndli hakimiyyəti, demokratik bir quruluş olduğuna inanırdılar.) Məlumatın sonunda bu fikri Aslan bəyin özü də etiraf edir. Aslan bəy bildirir ki, əgər biz bütün gücümüzü və enerjimizi bu quruluşun saxlanmasına, möhkəmlənməsinə sərf ediriksə bunu yalnız o inamla, düşüncə ilə edirik ki, yeni yaranmış fəhlə-kəndli hökuməti (Sovet hökuməti) xalqı xoşbəxtliyə, xilasa aparır. İnqilab komitəsində işlədiyi dövrdə Xudabaxış bəy kasıb və ehtiyac içində olan xalqa həmişə təmənnasız olaraq yardım etmiş, onların mənəvi dayağına çevrilmişdir. Xudabaxış bəy Sultanov İnqilab komitəsinin sədri olduğu dövrdə sərhəd ərazisində yerləşən Əlməddin postunun rəhbəri Abbasəli Almuradova yazılı olaraq əmr verir ki, daşnakların və şübhəli müsəlmanların birgə alver etdikləri "avdan yarmarkası"nda daşnaklara ərzaq satanların hamısı nəinki həbs edilərək malları müsadirə edilsin, hətta daşnaklarla əlaqəyə girən hər kəs yerindəcə güllələnsin. Bu yazılı əmr faktı tam olaraq aydın göstərir ki, Xudabaxış bəy Sultanov əksinqilabçı deyil."

Bu yerdə bir haşiyəyə çıxmaq istəyirik. Onun əmri ilə qəzanın keçmiş milis rəisi Əli Şərifov yarım milyon dövlət pulunu mənimsədiyi üçün həbs olunub. Bu həmin Əli Şərifov idi vaxtilə Aslan bəy Sultanova fövqəladə səlahiyyət verilərkən qəzada milis rəisi olmasını mərkəzə o təklif edib. Lakin sonralar onun cinayət törətdiyini bildikdən sonra artıq onun həbs edilməsi barədə qərar qəbul olunub. Onu da bildirmək yerinə düşər ki, hər bir inqilab komitəsinin rəhbəri mərkəzdən göstəriş almadan qəza milis idarəsinin rəisini həbs edə bilməz. Aslan bəyin belə müstəqil hərəkətləri mərkəzi qıcıqlandırırdı. Erməni rəhbərləri Nərimanova göndərdiyi siyahıda

təklif edir ki, Nəzər Heydərov inqilab komitəsinin sədri, Əli Şərifov isə qəza milisinin rəisi olsun. Bunu arxiv sənədi də təsdiq edir. Cinayəti sübut olunmuş Əli Şərifov da erməni rəhbərlərinin xoşuna gəlir. Onun kimi yarım milyon dövlət pulunu mənimsəyən bir cinayətkarın da adı olan siyahını (qəzada cinayətkarlara qarşı mübarizə aparacaq olan bir vəzifəyə) Nərimanov təsdiq edir. Paradoks ondadır ki, cinayətkar bundan sonra qəzada milis rəisi olaraq cinayətkarlara qarşı mübarizə aparacadı.

Sonra Xudabaxış bəyin əmri ilə Xanlıq sahə inqilab komitəsinin sədr Yusif Yusifov da bir sıra cinayətlərdə ittiham olunaraq həbs olunur. O eyni zamanda fırıldaqçı, cinayətkar Mirzə Muxtar Bayramovun cinayətlərinin izinə düşərək onu həbs etmək istəyir, hansı ki, yalandan özünü partiya üzvü kimi göstərmişdir. Onun partiya üzvü olmaması barədə yerli kommunist partiyasından arayış da var.

Sonra onu törətdiyi cinayətlərə görə həbs etmək istəyərkən qaçıb hakimiyyətdən və qanundan gizlənə bilmişdir. Həmin bu Mirzə Muxtar Bayramovun partiya üzvü olmadığını Nərimanovun göndərdiyi komissiya da təsdiq edir. Diqqət edin, Savalan Şirinov mərkəzdə etdiyi məruzədə hansı ki, axırda 200 qızıl ordu əsgəri tələb edirlər ki, yerli rəhbərləri həbs etsinlər. Özlərinin dediyi kimi gizlinə sıxışdırlmış kommunist partiyası üzvlərinin tələbi ilə. İmza edirlər Savalan Şirinov, Nəzər Heydərov, Mirzə Muxtar Bayramov və qeyriləri. Erməni rəhbərlərinin dəyirmanına su tökən, Zəngəzurun ermənilərə verilməsinə imza atan bu xainlər növbəti olaraq qəhrəmanlarının həbs olunmasına imza atdılar. 200 əsgər çağırmaq onları fiziki cəhətdən məhv etmək məqsədi daşıyırdı. Nərimanov ona görə rəsmi olaraq heç nə bildirmirdi. Guya yerli insanlar özləri 200 əsgər tələb edirlər. Ancaq Nərimanovun gizli planını Aslan bəy məruzəsində ona bildirir. Nəri-

manova bildirir ki, bu günlərdə mənə məlum olub ki, qəza hökuməti (yəni Aslan bəyin qurduğu yerli hökumət) yenidən mərkəz tərəfindən təşkil olunub və mən də tutduğum vəzifədən azad olunmuşam. Nə üçün mənə bu barədə rəsmi məlumat verilmir. Bu mesaj ilə Aslan bəy əslində Nərimanova onun gizlində qurduğu oyunlarından xəbərdar olduğunu bildirmək istəyirdi. Aslan bəyə bu məlumatları ötürənlər qurulan məkrli planların arxasında nəyin durduğunu da bildirmişdilər.

Həqiqət gün kimi aydın idi. Sadəcə həqiqəti bilmək Nərimanovun və onun ətrafındakıların xəyanətkar niyyətlərinin həyata keçməsinə mane olardı. Çünki qarşıda Zəngəzurun və Qarabağın ermənilərə verilməsi kimi tarixi bir xəyanət ssenarisi dururdu. Buna görə də bu ssenariyə qarşı çıxa biləcək insanları ləkələmək və məhv etmək, əksinə onların cinayətkar planlarına dəstək verənləri isə mükafatlandırmaq lazım idi. Ona görə də həqiqəti bilmək onlara sərf etmirdi. Bu cür adamlar üçün həqiqət nəyin bahasına olursa-olsun kariyera əldə etmək və onu qoruyub saxlamaqdır. Onunçün də belə anlarda insan müdrik qərar qəbul etməlidir, ya kariyerasını mənəviyyatına qurban verməli, ya da əksinə mənəviyyatını kariyerasına qurban verməlidir. Çox təəssüflər olsun ki, Nəriman Nərimanov müdrik qərar qəbul edə bilmədi. Ona görə də xalqın qəhrəman oğullarına qarşı qurulmuş böhtan kompaniyasına nəinki göz yumdu, hətta Zəngəzurun və onun qəhrəman insanlarının taleyini öz kariyerasına qurban verdi. Bu anda Aslan bəy Sultanovun öz məruzəsində göstərdiyi bir məqama nəzər salaq; Məruzəsində yazır ki, bugünlərdə mənə məlum oldu ki, qəza hakimiyyəti mərkəzdən qurulub. Bu nə demək idi? Yəni ən çətin, mürəkkəb tarixi şəraitdə, qarşıda daşnak hökumətinə qarşı ağır müharibə dayanırdı, o zaman mərkəz öz seçimini etmişdi və yerli sərkədə Aslan bəyə

bütün ümidlərini bağlamışdı elə ona görə də o zonada bütün fövqəladə səlahiyyət ona verilmiş, o da öz növbəsində inandığı sədaqətli insanlardan ibarət yerli hakimiyyəti təşkil etmişdi. Hadisələrin sonrakı inkişafı bu seçimin nə qədər doğru olduğunu sübut etmişdi. Ancaq Nərimanov özünü elə qələmə verməyə çalışırdı ki, guya hakimiyyətin nə məqsədlə kommunist partiyasının üzvü olmayan Sultanovların simasında təmsil olunmağının hansı tarixi zərurətdən yarandığını bilmir.

Yerli hökumətdə təmsil olunan Sultanovlar Aslan bəy Sultanovun ən yaxın qohumları olmaqla ən ağır sınaq dövründə daşnak hökuməti ilə ağır müharibələrdə sınaqdan çıxan insanlar idilər. Onlar öz sədaqətlərinin sübut etmişdilər. Təsadüfi deyil ki, daşnaklarla müharibədə qələbə çalındıqdan sonra Aslan bəyə yeni böyük etimad göstərilir və onu bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı təyin edirlər.

Bu yerdə bir məsələyə diqqət yetirək, əgər onun yaratdığı yerli hökumət doğrudan da özünü doğrultmasaydı Aslan bəyi general səlahiyyətli bir vəzifəyə irəli çəkməzdilər. Nərimnov və onun əlaltıları Aslan bəy Sultanovu da, onun çiyindaşlarını da, yaratdığı yerli hökumətin üzvlərinin kimliyini də çox yaxşı bilirdi. Araşdırmalarımız zamanı bir şeyi də yəqinləşdirdik ki, fövqəladə komissar vəzifəsi tabeçiliynə daxil olan bütün ərazilərdə Ali Hakimiyyət, onun fövqəaladə komissarı isə ali hakimiyytəin başında dayanan şəxs hesab edilirdi. Artıq Qarabağda da missiyasını şərəflə başa vuran Aslan bəy mərkəzə daha böyük vəzifəyə çağırılır. Aslan bəy kimi ayıq, tükü-tükdən seçən, hətta erməni keşişini özünə işlədən bir sərkərdə yaxşı başa düşürdü ki, bu təklif ancaq onun üçün hazırlanan bir tələdir. Onu mərkəzə dəvət edən şəxslər onun xarakterini çox gözəl bilirdilər. Bilirdilər ki, o heç vaxt partiya üzvü olmayacaq, bununla da həm bəy nəslindən

olması, həm də kommunist partiyasının üzvlüyünü qəbul etməyən bir insanın böyük dövlər vəzifəsinə təyin olunması sual altında qalacaq. Ən başlıcası da onu ona sadiq hərbi qüvvələrdən uzaqlaşdırmaq, sonra da həbs edərək "ermənilərin düşməni" adı altında ermənilərə təhvil vermək idi. Bu da Şaumyanların rəğbətinin qazanmaq üçün Nəriman Nərimanovların, Çingiz İldırımların, Əliheydər Qarayevlərin böyük şans əldə etməsi sayılardı. Aslan bəyin kəşfiyyatı mərkəzdən ona qarşı hansı tələnin qurulması barədə məlumat vermişdi. Ona görə də mərkəzin ona daha böyük etimad göstərməsinin arxasında hansı məkrli planın dayandığını Aslan bəy çox gözəl bilirdi.

Artıq mərkəzdə Aslan bəyin yaratdığı yerli qəza hökumətinə ironiya ilə bəylərdən ibarət olan inqilab komitəsi deyirdilər. Axı bəylər Sovet hökuməti üçün sinfi düşmən sayılırdı. Ona görə də ən tutarlı damğalardan biri də "bəy" damğası idi. Əvvəl bu bəylərin gücündən, nüfuzundan istifadə edib daşnak müharibəsini qələbə ilə başa çatdırmaq, sonra isə onları bəy, əksinqilabçı damğası ilə aradan götürmək. Ataların dediyi kimi mərdi qova-qova namərd etmək.

Aslan bəy mərkəzdəkilərə kommunist partiyasına keçməyəcəyini və heç bir böyük vəzifə iddiasında olmadığını, öz yerinə qayıdaraq qəzanın milis idarəsinə rəhbərlik etməklə cinayətkarlığa qarşı mübarizə aparacağnı bildirmişdi. Əslində özünün yaratdığı qəza hökumətinə rəhbərlik etmişdi. Göründüyü kimi mərkəzi hakimiyyətin hiyləsi baş tutmur. Qəzada işləyərkən onu işdən azad etməsini və ona rəsmi olaraq heç bir məlumat bildirilməməsini məruzəsində yazır. Diqqət edin qəzada otura-otura mərkəzdə Nərimanovun kabinetində qurulan bütün gizli oyunları bilir. Hadisələrin gələcək inkişafı da onun tamamilə haqlı olduğunu sübut etdi. Yəni Aslan bəy 1929-cu ildə xaincəsinə öldürüldükdən sonra onun qəhrəman

dəstə rəhbərləri Lətiflə Kərim aldadıldılar. Onlara yalandan deyildi ki, guya məhkəmə onlara bəraət verəcək, qaçaqlıq damğası üzərlərindən götürüləcək və onlar bu xalqın qəhrəman oğulları olmaqla tarixdə qalacaqlar. Düzdü, onlar tarixdə xalqın qəhrəman oğulları kimi qaldılar və bu gün də ürəklərdə yaşayırlar. Lakin çox təəssüf ki, Lətiflə Kərim də növbəti xəyanətin qurbanları oldular. İçimizdə olan xainlər onları aldadaraq ermənilərə təhvil verdilər və onların sonrakı talelərindən heç bir məlumat olmadı. Çox güman ki, illər boyu daşnaklara qan udduran bu qəhrəman xalq oğulları erməni qəsbkarlarının əlində olmazın işgəncələrə məruz qalıblar. Allah bütün şəhidlərimizə qəni-qəni rəhmət etsin. Zaman bizə bir həqiqəti də sübut etdi ki, qəhrəmanlar ölmür, onlar öz xalqının tarixində, yaddaşlarında daim yaşayır və yaşayacaq. Onların ruhları o zaman rahatlıq tapır ki, arzuları, ideyaları və tapdanmış haqları gerçəkləşir və qiymətini alır. Yəqin ki, bu anlarda Aslan bəyin, onun yaxın silahdaşlarının və əqidə qardaşlarının, Lətiflə Kərim kimi mərd oğulların ruhları dinclik tapır, şad olur. Amma çox güman ki, bu anlarda əzab çəkən, rahatlıq tapmayan xain ruhlar da var və o ruhlar zamanın gərdişindən, həqiqətlərin üzə çıxmasından çox narahatdırlar!

Nəriman Nərimanovun komissiyasının heç bir arqumet gətirmədən və heç bir ittiham sübuta yetirilmədən Aslan bəyi ittiham etməsi və bu ittihamlar əsassız olduğuna görə ictimai rəy tərəfindən rədd edildikdən sonra Aslan bəyə qarşı yeganə və gülüş doğuran bir ittiham tapılır: **(Lixoy strelok, vraq armyan! yəni Sərrast atıcı və erməni xalqının düşməni!)** Düzdü, bu ittihamların hər ikisi Aslan bəyə yaraşır. O, doğrudan da səsə güllə ata bilən, düşmənlərinin alnının ortasında imza qoymağı bacaran, xalqının düşmənləri olan daşnaklardan layiqincə qisas alan bir sərkərdə və el qəhrəma-nı olub. “Vraq armyan” deməklə yəni Andronikin, Nijdenin, Dronun,

Sumbatın, Manukun düşməni və ən başlıcası isə Nəriman Nərimanovun itaət etdiyi bir daşnak lideri, türk düşməni, Bakıda və Azərbaycanın müxtəlif yerlərində kütləvi qırğınların təşkilatçısı olan Şaumyanın düşməni olmaq deməkdir.

Nəriman Nərimanovun mərkəzi Qubadlı rayonunun Xanlıq kəndində yaratdığı inqilab komitəsi (yerli hakimiyyət) isə 1920-ci ildə Zəngəzurun ermənilərə verilməsinin zəruriliyini boş-boş, iyrənc arqumentlər gətirməklə təkid edən və imzalayan yerli xainlərin hakimiyyəti idi. Hansı ki, arxiv sənədləri də bunu təsdiq edir ki, siyahını Nəriman Nərimanova erməni rəhbərləri göndərmişdi. Bu da Nəriman Nərimanovun və onun komandasının ermənilərlə əlbir olmasını sübut edir. Nəriman Nərimanovun düşüncəsinə görə bu adamların hakimiyyətdə təmsil olunması onun gələcəkdə xəyanətdə iştirakının məsuliyyətini azaldır. Yəni bu onun təşəbbüsü ilə olmayıb, həmin tələbi yerli insanlar özləri irəli sürüblər. Hansı ki, Savalan Şirinov öz məruzəsində yazır ki, aran Zəngəzur öz münbit torpaqları ilə seçilir, müsəlmanlar orada yaxşı əkinbiçin edirlər, taxıl bol olur. Buradan da belə bir nəticə çıxarmaq olur ki, Zəngəzurun ən münbit torpaqlarını ermənilərə hədiyyə ediblər. Beləliklə də bu hakimiyyət Zəngəzurun verilməsini reallaşdırmaq missiyasını, öhdəliyini öz üzərinə götürmüşdü.

Gəlin qısa bir müqayisə aparaq; Aslan bəyin yaratdığı inqilab komitəsi üzvləri ilə Nəriman Nərimanovun yaratdığı inqilab komitəsi üzvlərinin siyahısını bir də nəzərdən keçirək. Əvvəlki bölmələrdən də bizə məlumdur ki, Aslan bəyin yaratdığı yerli hökumət heç bir təmənna güdməyən, yalnız öz xalqının mənafeyi uğrunda barışmaz mübarizə aparan, bir əqidəsi, bir amalı olan savadlı, ziyalı insanlardan ibarət idi, Nəriman Nərimanovun yaratdığı yerli hakimiyyət üzvləri isə cinayətləri tam sübuta yetirilmiş, xəyanətlərdə əli olan, təmiz

və namuslu insanlara qara yaxmaq, şər atmaq yolunu tutan və törətdiyi cinayətlərə görə Aslan bəyin komandası tərəfindən cəzalandırılan adamlardan ibarət idi.

Nəriman Nərimanov nədən birincilərə deyil, ikincilərə – cinayətkarlara üstünlük verir, onlara etimad göstərirdi? Çünki onun özü də o əqidənin sahibi, karyera xəstəliyinə tutulmuş bir kommunist idi. Nəriman Nərimanovun komissiyası bir də onu qeyd edirdi ki, yerli hakimiyyətdə olan bəylər hökuməti əvvəlki kimi müsavatsayağı idarə edirlər. Onlara sual vermək lazım idi ki, müsavatsayağı idarəçilik nə deməkdir ki? Bizim düşüncələrimizə görə daha ədalətli idarə etmək, daha demokratik formada üsul-idarə yaratmaq. Əgər o idarəçilk ədalətsiz idisə bəs onda bu gün nə üçün fəxr edirik ki, indiki müstəqil Azərbaycanımız 1918-1920-ci illərdə Şərqdə ilk dəfə qurulmuş demokratik dövlətin (hakim partiyası müsavat olan) varisidir. Aslan bəy də ittihamedici məruzəsinin sonunda yazır ki, əgər biz bütün gücümüzü, səylərimizi, enerjimizi bu quruluşun saxlanmasına sərfediriksə bunu yalnız o düşüncə ilə edirik ki, bu quruluş xalqı xoşbəxtliyə və xilasa aparır. Buradan da açıq-aydın göründüyü kimi, Aslan bəy aldandığını etiraf edir və sətiraltı mənada bildirir ki, bu quruluş demokratiya, bərabərlik, ədalət maskası altında qurulan fırıldaqçı və riyakar bir quruluşdur.

Eyni zamanda onu da bildirir ki, həmin Qızıl Ordunun 28-ci diviziyası ilə birlikdə daşnaklara qarşı vuruşub və həmin diviziyanı ölümdən qurtarıb. İndi Nərimanov onun üzərinə qızıl ordu əsgərlərini göndərir. Aslan bəy bildirir ki, Xudabaxış bəyin azad olunması barədə kommunist partiyası rəy verib. Onun azad edilməsi haqqında qəzanın bütün məsul işçiləri Şuşa siyasi bürosu qarşısında tələb qoyublar. Az keçdikdən sonra Xudabaxış bəy azad olunur və onun günahsız olduğu sübuta yetirilir. Buradan nə nəticə çıxarmaq olar? Bu

günahsız insanın tutulmasına imza atmış yerli kommunistlər-Savalan Şirinov, Nəzər Heydərov, Mirzə Muxtar Bayramov və qeyriləri özləri cinayətkar deyillərmi? Vəzifə tutmaqdan ötəri hər cür xəyanətlərə əl atmış bu elementlər nə vaxtsa arxivlərin açılacağını, həqiqətin bir gün üzə çıxacağını və onların ifşa olunacaqlarını ağıllarına belə gətirməzdilər.

Zaman ən böyük hakimdir! O qəhrəmanları ittiham edənləri bu gün zaman özü ittiham edir. Ən ədalətli ittiham isə zamanın ittihamıdır. Təkcə onu demək kifayətdir ki, Aslan bəyin əvvəlcədən məruzəsində söylədiklərinin hamısını zaman təsdiq etdi. Aslan bəy sonra bildirir ki, o ki qaldı mənim xidmətlərim haqqında bu barədə xahiş edirəm ki, məlumatları qərəzsiz insanlardan alasınız. Mənimlə birgə vuruşmuş insanlardan. 28-ci diviziyanın komandanı general Semyonov başda olmaqla ardıcıl olaraq alay komandirlərinin adlarını sadalayır. Bundan sonra göstərir ki, 15-i iyuldan 20-si noyabra qədər mən bu yoldaşlarla birlikdə daşnaklara qarşı fədakarlıqla, canımı belə əsirgəmədən vuruşmuşam. Dəfələrlə həyatımı risqə ataraq ölüm təhlükəsi ilə üzləşmişəm. Qafandakı mis zavodunu alarkən isə başımdan yaralanmışam və Gorusda hərbi xəstəxanada yatmışam. Bu barədə 28-ci diviziya komandanlığından arayışım var”.

Bu yerdə bir məsələyə diqqət yetirək. Başından yara almış Aslan bəy heç nədən çəkinmədən daşnak yuvasının mərkəzi sayılan Gorusdakı hərbi xəstəxanada müalicə alır. Ona xəbərdarlıq edilsə də ki, sənin həyatın üçün burada təhlükə ola bilər, o bunlara əhəmiyyət vermədən məhz Gorusda müalicə alır. O zaman bu hərəkət böyük cəsarət tələb edirdi.

Qızıl ordu Zəngəzurun sərhədlərindən geriyə çağırıldıqdam sonra mənim fəaliyyətimə yüksək qiymət verildi və mənə böyük etimad göstərildi. Mən Qarabağın və Zəngəzurun fövqəladə komissarı təyin edildim.

“O zamandan bəri mənim fəaliyyətim və səylərim nəticəsində qəzada tam inqilabi qayda-qanun hökm sürürdü. Mən olmasaydım ərzaq payını və əmək haqqını ala bilməyən milis əməkdaşları çoxdan vəzifələrindən imtina edərdilər. Mən onlara maaş əvəzinə xoş vədlər verirəm. Sanki bütün bunları etmək onların alın yazısı imiş.

Mən onları ordunun gələcəyi və hər şeyin tezliklə yaxşı olacağı ilə ruhlandıraraq bu yolla onları xidməti davam etmələri üçün saxlayıram. Bir tərəfdən də Fars-İran xanları, daşnaklar və daxili zərərli elemenlərə qarşı rahatlıq və dinclik bilmədən mübarizə aparıram”.

*Bu məsələni təhlil etməyə çalışaq. Aslan bəy bu fikirləri ilə mərkəzdə oturanların diqqətinə çatdırır ki, yuxarıda saydıqlarımı (ərzaq, filan) siz etməliydiniz, sizin yerinizə də bunları mən etdim.*

*Aslan bəyin bu ittihamedici bəyanatı mərkəzi hökumətdə, Azərbaycan İnqilab Komitəsində Nəriman Nərimanovun iştirakı ilə oxunsa da bu məsələlərə ədalətli qiymət verilməmişdi. Sonra Aslan bəy bildirir ki, nəticədə mən təxribat və yalan məlumatlar əsasında vəzifəmdən uzaqlaşdırılmışam.*

“Mərkəzə verilən yalan və böhtan dolu məlumatlar əsasında mən haqsız, ədalətsiz olaraq tutduğum vəzifədən azad edilmişəm.

Mərkəzi hakimiyyətin mənə qarşı etdiyi bu haqsızlıqdan özümü son dərəcə incimiş hesab edirəm və bütün bunların

müqabilində yalnız bircə xahişim var: mənim fəaliyyətimi araşdırmaq üçün qərəzsiz komissiya təşkil edilsin. Qoy həmin komissiya mənim fəaliyyətim haqqında mərkəzə ötürülən məlumatların nə qədər yalan və böhtan olduğunu müəyyənləşdirsin. Eyni zamanda qeyd edim ki, bizim fəaliyyətimiz Sovet hakimiyyəti üçün də dəyərli olub. Biz bu hökumətin mərkəzdən gələn nümayəndələrinin bizi inandırdığına, ən əsası da xalqımızın ən qatı düşməni olan daşnaklara qarşı birgə müharibə aparmağı təklif etdikləri üçün bu hakimiyyətin fəhlə-kəndli hökuməti olduğunu və demokratik olduğuna bizi inandırmaq üçün yerli hökuməti qurmağı da qəzanın insanlarının özlərinə həvalə olunması bu quruluşun tam demokratik bir quruluş olmasına inam yaratmışdı. Hansı ki, müsavat hakimiyyəti dövründə yerli hökumət mərkəzdən təyin edilirdi. Bütün bunlardan sonra heç bir silahlı müqavimət göstərmədən razılığa gəldik və yerli qəza hökumətini qurduq. Bu gün də biz bütün gücümüzü və enerjimizi yeni quruluşun saxlanması üçün yalnız ona görə sərf edirik ki, bu quruluş bizimçün əlverişlidir və milləti xoşbəxtliyə və xilasa aparır. Elə olmasaydı xalq asanlıqla ona az qala qızıl dağlar vəd edən daşnak hökumətinə etimad göstərədi.

Ona görə də Mərkəz bizim fəaliyyətimizi qiymətləndirməli və dəyər verməlidir. Dəqiqləşdirmə aparmadan suyu bulandırdıqdan sonra bulanıq suda balıq tutmaq istəyənlərin

məkrli və qərəzli fikirlərinə əsaslanıb bizim fəaliyyətimizə ləkə salmaq o qədər də asan deyil.

Xahiş edirəm ki, mənim faktlara əsalanan məlumatlarımı Azərbaycan Mərkəzi İnqilab Komitəsinin Ümumi iclasında oxuyub müzakirə edəsiniz.

***Qəza Milis İdarəsinin rəisi A. Sultanov."***

****

*Bir məsələni də qeyd etmək lazımdır ki, fövqəladə komissar Qarabağ və Zəngəzurun bütün orqanlarına rəhbərlik edən şəxs sayılırdı. Aslan bəy məruzəsində göstərir ki, mən bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı təyin edildim. Eyni zamanda Qubadlı qəzasının və aran Zəngəzurun da milis rəisi oldum. Qarabağ və Zəngəzurun ali hakimiyyətinə rəhbərlik etməklə bütün bu orqanlara rəhbərlik edir. Ancaq Zəngəzur qəzası düşmənlə sərhəddə olduğuna görə daşnak hökumətinə qarşı birbaşa üz-üzə dayandığına görə milis də o vaxtın əsas hərbi gücü hesab edildiyindən Zəngəzur qəza milis idarəsini o heç kəsə etibar etməmiş və özü birbaşa idarə etmişdi.*

*Bir dəfə Əli Şərifova etibar olunmuş, amma onun fəaliyyətində cinayətləri və xəyanətləri üzə çıxmışdır. O hadisədən sonra Aslan bəy Sultanov o vəzifənin məsuluyyətini heç kəsə etibar etməmişdir.*

## *XXX*

Onun göstərişi ilə qəza milis idarəsinin keçmiş rəisi, yarım milyona qədər dövlət pulunu mənimsəməkdə, bu barədə İnqilab komitəsinə heç bir hesabat verməyən və çoxsaylı şikayətlərdə günahkar bilinən Əli bəy Şərifov, eləcə də Xanlıq sahəsinin İnqilab Komitəsinin sədri Yusif Yusifov çoxsaylı şikayətlər və cinayətkar əməllərdə ittiham olunaraq həbs ediliblər. Həmçinin özünü partiya işçisi kimi qələmə verən, əslində isə fırıldaqçı və sabotajçı kimi tanınan Mirzə Muxtar Bayramovun cinayətkar əməllərini ifşa etmişdir (kommunist partiyasından arayış təqdim edilib ki, o partiya üzvü deyil). Bu əməllərin ifşa olunduğunu hiss etdikdə Mirzə Muxtar Bayramov hakimiyyətin onu cinayətkar əməllərinə görə cəzalandıracağını bilərək qaçıb canını qurtara bilmişdir.

Xudabaxış bəy Sultanovun həbsdən azad edilməsi barədə Kommunist Partiyasının bütün üzvləri rəy verib.

Qəzanın kommunist partiyası üzvləri olan bütün məsul işçiləri Şuşa Siyasi Bürosuna onun azad edilməsi barəsində müraciət ediblər.

O ki, qaldı mənə, mənim xidməti fəaliyyətimə, xahiş edirəm ki, o barədə qərəzsiz insanlardan məlumat alasınız: **1)** 28-ci diviziyanın 84-cü briqadasının komandiri yoldaş general Semyonovdan, **2)** Hərbi komissar yoldaş Korkovenkodan, **3)** Qərargah rəisi Mızrıkovdan, **4)** Hərbi komissar Çernikovskidən, **5)** Briqada yavəri Fyodorovdan, **6)**25-ci alayın komandiri Kopiyankadan, **7)**252-ci alayın komandiri Qornostayevdən, **8)** 251-ci alayın keçmiş komandiri, onun köməkçisi Parsadanovdan, **9)**252-ci alayın Şuşadakı keçmiş, 250-ci alayın hazırkı komandiri Çelovdan, **10)** 252-ci alayın keçmiş komandiri yol. Veyçexovskidən, **11)** 28-ci diviziyanın rəisi Nesterovskidən.

İyulun 15-dən noyabrın 20-dək mən adları çəkilən yoldaşlarla çiyin-çiyinə həyatımı əsirgəmədən fədakarcasına vuruşmuşam. Mis zavodunu (müəl: Kafanda yerləşir) ələ keçirmə əməliyyatında daşnaklar tərəfindən başımdan yaralanmışam və Gorusdakı hərbi xəstəxanada müalicə olunmuşam. Bu barədə 28-ci diviziyanın 84- cü briqadasının verdiyi tibbi arayış hal-hazırda özümdə saxlanılır.

Qırmızı ordu heyəti Zəngəzur sərhədlərindən geri çağırıldıqdan sonra mən Zəngəzurun və Qarabağın fövqəladə komissarı, eləcə də Qubadlı Qəzasının və aran Zəngəzurun milis idarəsinin rəisi vəzifəsinə təyin olunmuşam (müəl: o dövr üçün mərkəzi Şuşa olan Zəngəzurun və Qarabağın fövqəladə komissarı generel vəzifəsi idi.) Mərkəzin hansı fəaliyyətlərinə görə hakim partiyası sayılan kommunist partiyası üzvü olmayan Aslan bəy Sultanova bu qədər etimad göstərməsi haqqında daha ətraflı növbəti fəsillərdə məlumat verəcəyik. Bircə bunu deməklə kifayətlənirik ki, onun düzgün hərbi planı, döyüş taktikası və həmçinin qeyri-adi sərkərdəlik istedadı 28-ci diviziyanın bütün heyətini Ersevənnik kəndində Nijdenin, Dronun mühasirəsindən çıxartmış və onların həyatlarını ölümdən xilas etmişdir. Andronikin Gorusda yaratdığı daşnak hökumətini məhv etdiyinə görə 28-ci diviziyanın komandanlığı tərəfindən verilən təqdimata əsasən mərkəz tərəfindən alternativsiz olaraq Qarabağ və Zəngəzurun fövqəladə komissarı vəzifəsinə təyin olunmuşdur və bu qalibiyyəti əldə etdiklərinə görə Aslan bəy Sultanov, Semyonov və Çelov qızıl medalla təltif olunmuşlar. O zamandan bəri mənim fəaliyyətim və səylərim nəticəsində qəzada tam inqilabi qayda-qanun hökm sürür. Mən olmasaydım ərzaq payını və əmək haqqını ala bilməyən milis əməkdaşları çoxdan vəzifələrindən imtina edərdilər. Mən onlara maaş əvəzinə xoş vədər verirəm. Sanki bütün bunları etmək onların alın yazı-

sıdır. Mən onları ordunun gələcəyi və hər şeyin tezliklə yaxşı olacağı ilə ruhlandıraraq bu yolla onları xidməti davam etdirmələri üçün saxlayıram. Bir tərəfdən də Fars xanları, daşnaklar və daxili zərərli elementlərə qarşı rahatlıq və dinclik bilmədən mübarizə aparıram.

Mərkəzə verilən yalan və böhtan dolu məlumatlar əsaında mən haqsız olaraq tutduğum vəzifədən azad edilmişəm.

Mərkəzi hakimiyyətin mənə qarşı etdiyi bu haqsızlıqdan özümü son dərəcə incimiş hesab edirəm və bütün bunların müqabilində yalız bircə xahişim var: mənim fəaliyyətimi araşdırmaq üçün qərəzsiz komissiya təşkil edilsin. Qoy həmin komissiya mənim fəaliyyətim haqqında mərkəzə ötürülən məlumatların nə qədər yalan və böhtan olduğunu müəyyənləşdirsin. Eyni zamanda qeyd edim ki, bizim fəaliyyətimiz Sovet hakimiyyəti üçün də dəyərli olub. Biz bu hökumətin mərkəzdən gələn nümayəndələrinin bizi inandırdığına və ən əsası da xalqımızın ən qatı düşməni olan daşnaklara qarşı birgə mübarizə aparmağı təklif etdikləri üçün və bu hakimiyyətin fəhlə-kəndli hökuməti olduğunu və demokratik olduğuna bizə inandırmaq üçün yerli hökuməti qurmağı da qəzanın insanlarının özlərinə həvalə olunması bu quruluşun tam demokratik bir quruluş olmasına inam yaratmışdı. Hansı ki, müsavat hakimiyyəti dövründə yerli hökumət mərkəzdən təyin edilirdi. Bütün bunlardan sonra heç bir silahlı müqavimət göstərmədən razılığa gəldik və yerli qəza hökumətini qurduq. Bu gün də biz bütün gücümüzü və enerjimizi yeni quruluşun saxlanması üçün yalnız ona görə sərf edirik ki, bu quruluş bizimçün əlverişlidir və milləti xoşbəxtliyə və xilasa aparır. Elə olmasaydı xalq asanlıqla ona qızıl dağlar vəd edən daşnak hökumətinə etimad göstərədi.

Ona görə də Mərkəz bizim fəaliyyətimizə qiymətləndirməli və dəyərləndirməlidir. Dəqiqləşdirmə aparmadan suyu

bulandırdıqdan sonra bulanıq suda balıq tutmaq istəyənlərin məkrli və qərəzli fikirlərinə əsaslanıb bizim fəaliyyətimizə ləkə salmaq o qədər də asan deyil.

Xahiş edirəm ki, mənim faktlara əsalanan məlumatlarımı Azərbaycan Mərkəzi İnqilab Komitəsinin Ümumi iclasında oxuyub müzakirə edəsiniz.

**Qəza Milis İdarəsinin rəisi A. Sultanov.**

***Yeri gəlmişkən deməkk lazımdır ki, 1921-ci ildə qəza hökumətinin rəhbərliyinin hamısının Sultanov olması Aslan bəyin ətrafına ən inandığı adamları yığması mərkəz tərəfindən ona verilmiş fövqəladə səlahiyyətlə bağlı idi.***

***Xudabaxış bəyin böhtanla həbs olunmasına imza atan kommunistlər ay yarımdan sonra eyni imzanı onun azad olunması haqqında sənədə atdılıar. Xudabaşıx bəyin günahsızlığı tam olaraq isbat olundu. Lakin ona şər atan, onun həbsini istəyənlər və bu barədə müraciətlərə imza atanların şər və böhtana görə cəzalandırılmaması nə ilə bağlı idi? Onlar Nərimanova Zəngəzurun ermənilərə verilməsi guya ki, yerli əhalinin öz tələbi və istəyi ilə oldu donunu geyindirməkdə lazım olan qüvvələr idilər.***

Narazılıq dalğasının artdığını görən mərkəzi hakimiyyət yeni yaranmış yerli hökumətdə Aslan bəyi qəza hərbi komissarı vəzifəsinə - Xanlıq qəza komissarı vəzifəsinə təyin etsələr də Aslan bəy hakimiyyətdən incimiş, küsmüş halda məzuniyyətə getmişdir. Bu zaman mərkəzdən cürbəcür vəzifəli şəxslər qəzaya gələrək o zamankı qəzanın icrayyə komitəsinin yeni təyin olunmuş sədri Hüsü Hacıyevin vasitəsiylə Aslan bəylə görüşləri olmuş, onu yola gətirməyə çalışmışlar.

Bu barədə Savalan Şirinov sonralar öz xatirələrində deyirdi ki, mərkəzdən gələn vəzifəli adamları Hüsü Hacıyev qəbul etdi və onlar təklif etdilər ki, Aslan bəyi bura çağıraq və onu

öz tərəfimizə çəkək. Yeni hökumətin reallığını ona başa salaq ki, o bizimlə olsa yaxşı olar. Aslan bəyi öz tərəflərinə çəkmək üçün cürbəcür təkliflər ediblər. Hüsü Hacıyev bildirib ki, biz Aslan bəyi bura dəvət etməliyik, o bu yerlərin əfsanəvi qəhrəmanıdır, onun bir barmağının işarəsiylə bizi havaya sovurarlar.

Onlar Aslan bəylə görüşmüş onu kommunist partiyası sıralarına daxil olmağa, Mərkəzi hökumətlə barışmağa və bunun müqabilində Mərkəzə daha böyük vəzifəyə irəli çəkilməsi vəd olunmuşdur. Aslan bəy isə bildirmişdi ki, mən hərbçiyəm, heç bir partiyanın üzvü olmayacağam, nə qədər ömrüm varsa onu xalqımın daxili və xarici düşmənlərinə qarşı mübarizəyə həsr edəcəyəm. Bundan sonra Aslan bəy gələnlərə etiraz şəklində bir qədər də əsəbi tonda bildirib ki, artıq heç kəsə inanmım qalmayıb. Mərkəzi Xanlıq olan (Qubadlının kəndi) yeni yaradılmış qəza hökuməti az keçmədən yeni bir böyük təhlükə ilə üzləşdi. 1922-ci ili oktyabrın 18-də Bəhlul əfəndi Qoçu Təhməzin başçılıq etdiyi silahlı dəstəylə qəza mərkəzi olan Xanlığı tutdu. Qəzanın bütün rəhbərləri qəza mərkəzindən qovuldu.

Bir məsələni də qeyd etmək lazımdır ki, bu hadisəni törədən Bəhlul əfəndi İranda təhsil almışdı, qəzanın da 35 kilometr ərazisi İranla sərhəddə yerləşir. İran tərəfindən də dəfələrlə təkliflər olmuşdur ki, Zəngəzurun qalan hissəsinin əhalisi onlarla birləşsin. Bu fikri Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər arxivi fond 1, siyahı 2, iş 105 qrifi ilə qorunub saxlanan arxiv sənədi təsdiq edir. Yoxsa 500-600 silahlı atlı ilə Bəhlul əfəndi Azərbaycana necə meydan oxuya bilərdi?! Əlbəttə ki, onun arxasında güclü bir dövlət durmasaydı. Günlər keçdikcə Bəhlul əfəndinin və Qoçu Təhməzin tərəfdarları artmağa başladı. Qəza hakimiyyəti tamailə Bəhlul əfəndi və Qoçu Təhməzin

hakimiyyəti altına düşdü. Bu hadisələri öz gözləri ilə görən kənd ağsaqqalı Şəmil kişinin oğlu İman müəllim şəxsi görüşümüzdə atasının xatirələrini əsas götürərək bir daha bildirdi ki, deyilənlərə görə Qəzada otuz bir gün hakimiyyət Bəhlul əfəndi ilə Qoçu Təhməzin hakimiyyəti altında olub.

Vəziyyətin nəzarətdən çıxdığını və getdikcə Bəhlul əfəndinin dini çağırışlarına səs verənlərin sayının artması mərkəzi hakimiyyəti qorxuya salmışdı. Bu hadisə tarixə Xanlıq üsyanı adı altında daxil olmuşdur. Həmin tarixi hadisənin iştirakçılarından biri olan, hadisələr zamanı qəza mərkəzindən qovulan rəhbər işçilərin arasında olan Nəzər Heydərov öz kitabında hadisələri təhrif edərək belə qələmə verir: "Bəhlul Əfəndi Qoçu Təhməzin rəhbərlik etdiyi hərbi qüvvələrlə qəza mərkəzi olan Xanlığı tutur. Qəzanın bütün rəhbərləri qəza mərkəzindən qovulur. Qoçu Təhməz qəza mərkəzini götürdükdən sonra bir-neçə silahlı atlı ilə mənim evimi mühasirəyə almışdı. Qoçu Təhməz ancaq bilmirdi ki, mən qaçıb canımı qurtarmışam". Göründüyü kimi, Nəzər Heydərov qaçdığını etiraf edir, amma həmişə olduğu kimi kimin gəlib bu üsyanı yatırması barədə, Qoçu Təhməzi kimin öldürdüyü barədə heç nə yazmır. Bəs əslində hadisələr necə olmuşdu? Bəyalı Safaoğlu "Azərbaycan Gəncləri" qəzetinin 28 iyun 1990-cı il tarixli nömrəsində çap olunmuş "Özümlə oynadığım şahmata güldüm..." adlı məqaləsində Savalan Şirinova istinad edərək yazır: "Qubadlının milis idarəsinin rəisi vəzifəsindən sonra onu mərkəzi Xanlıq olmaqla yeni yaradılmış hökümətdə qəzanın hərbi komissarı təyin edirlər. Aslan Sultanov məzuniyyətdə olarkən qəzanın mərkəzi Xanlıq kəndində üsyan baş verdi. Yeni hökümət başçıları qəza mərkəzindən qovuldular. Bu xəbər Aslan bəyə Mac kəndində çatdırıldı. İstirahətdən yarımçıq qayıdıb zor gücünə üsyanı yatırtdı." Məqalədə haq-

qında söhbət gedən Xanlıq üsyanına ümumi rəhbərliyi Bəhlul Əfəndi, hərbi qüvvələrə başçılığı isə Qoçu Təhməz etmişdir. Həmin bu döyüşdə Aslan bəy Qoçu Təhməzi öldürərək üsyanı yatırtmış və yerli qəza hakimiyyətini bərpa etmişdir.

Çətin vəziyyətə düşən mərkəz yeni bir hiyləyə əl atır. Mərkəzdən Aslan bəyə yeni müraciətlər olmuş, Aslan bəylə danışıqlar başlanmışdır. Mərkəzi hökumət Aslan bəyə üz tutaraq Azərbaycanın parçalanmasının qarşısının alınmasında kömək etməyi ondan xahiş etmişdir. Savalan Şirinovun dediyinə görə mərkəzi hökumət ehtiyat edirdi ki, birdən Aslan bəy də qəza hakimiyyətini faktiki olaraq əlinə almış Qoçu Təhməzlə birləşə bilər. O halda qəzada vəziyyət daha da gərginləşər. Mərkəzdən gələn nümayəndələr o zaman qəza icraiyyə komitəsinin sədri vəzifəsini daşıyan Hüsü Hacıyevlə görüşürlər. Hüsü Hacıyevə yaranmış vəziyyəti müzakirə etmək üçün Aslan bəyin qəza mərkəzinə çağrılmasını tövsiyə edirlər. Hüsü Hacıyev isə mərkəzdən gələn səlahiyyətli adamlara bildirir ki, biz onu bura dəvət etməliyik. Aslan bəy bu diyarın əfsanəvi qəhrəmanıdır, bir barmağının işarəsiylə bizim külümüzü göyə sovurarlar. Aslan bəy dəvəti qəbul edir və qəza mərkəzində danışıqlar başlayır. Mərkəzdən gələnlər vəd edirlər ki, hər şey ədalətlə həll olunacaq və Zəngəzur məsələsinə də yenidən ədalətlə baxılacaq. Şəxsən Nəriman Nərimanovun ona müraciət etdiyi bildirilir: “Aslan bəy Azərbaycanın parçalanmasının qarşısını almaq üçün bütün hərbi gücünüzdən və nüfuzunuzdan istifadə etməyinizi sizdən xahiş edirik”.Aslan bəy mərkəzin bu çağırışına müsbət cavab verərək nəyin bahasına olursa olsun Azərbaycanın parçalanmasının qarşısını almaq məqsədiylə özünə sadiq bütün hərbi qüvvələri ayağa qaldırdı və hərbi əməliyyat planını hazırladı. İlk olaraq Qoçu Təhməzin yanına bir-neçə adam göndərdi və bildirdi ki,

müqavimət göstərmədən ona qəza mərkəzindən çıxıb getməyini məsləhət görür. O Qoçu Təhməzə başa salmağa çalışır ki, bu gün heç bir ad altında Azərbaycanın parçalanmasına yol verməkolmaz. Aslan bəy Qoçu Təhməzə vaxtilə səmimi münasibətdə olduqlarını xatırladaraq əvvəlcədən onun yanına adamlarını göndərməyə üstünlük vermişdir. Ancaq Qoçu Təhməz onun təklifi ilə razılaşmamış və cavab olaraq bildirmişdir ki, "Aslan bəy mənim də sizə böyük hörmətim var, ancaq təəsüf ki, bundan sonra yollarımız ayrıldı. Bu yolda ya sənə verən Allah, ya da mənə...!"

Qoçu Təhməzin bu hərəkəti onun sonrakı faciəsi ilə nəticələnmişdi. Aslan bəy dərhal hərbi qüvvələri səfərbər edərək qəza mərkəzi olan Xanlığa hücum edir. Ağır döyüşlər başlanır. Aslan bəy çox keçmədi ki, ona hücum edərkən uzaq məsafədən sərrast atəşlə Qoçu Təhməzi alnından vurdu. Qoçu Təhməz isə can üstə olduğu halda ətrafındakılardan xahiş etmişdir ki, mənin xahişimi Aslan bəyə çatdırın. Bu xahiş də ondan ibarət idi ki, Qoçu Təhməz Aslan bəydən xahiş edirdi ki, məni özünüz dəfn edin, gədə-güdə məni atın quyruğuna bağlayıb sürüyüb beiman etməsin". Qoçu Təhməz əslində Aslan bəyin şəxsiyyətinə yaxından bələd olduğu üçün bu müraciəti ona etmişdi. Qoçu Təhməzin vəsiyyəti Aslan bəyə çatan kimi dərhal göstəriş veririr ki, onu bütün qayda-qanunlara əməl olunaraq hörmətlə torpağa tapşırsınlar. Baxmayaraq ki, Qoçu Təhməz hücum etdiyi zaman ilk güləni Aslan bəyə özü atıbmış. Ancaq Aslan bəyin fitri hərbi istedadı bu dəfə də onu xilas etmişdi. Qoçu Təhməz ilk gülləni atsa da Aslan bəy atın altından fırlanıb çıxaraq Qoçu Təhməzi alnından vurmuşdu.

Aslan bəyin Qoçu Təhməzi dəfn etdirməyi Zəngəzur qəzasında əhali arasında birmənalı qarşılanmamışdı. Əslində onun bu əməli bəyliyin, kişiliyin, mərdliyin fəlsəfəsini açırdı.

Beləliklə, Xanlıq üsyanı da Aslan bəyin hərbi gücü və taktikası əsasında dəf edilir və qəzada hökumət bərpa olunur. Bu hərəkatı yatırdığına görə mərkəz tərəfindən Aslan bəy mükafatlandırılır. Ancaq əfsuslar olsun ki, əlimizdə olan arxiv sənədləri təsdiq etdiyi kimi, Aslan bəyin əmisi oğlu və qəzada kommunist rəhbərlərindən biri olan Abbas Sultanovun mərkəzə göndərdiyi yazılı məlumatlarda bu üsyanı məhz Aslan bəyin yatırdığı, üsyanın rəhbəri Qoçu Təhməzin şəxsən Aslan bəy tərəfindən öldürüldüyü barədə heç nə yazılmır. Abbas Sultanov, Nəzər Heydərovun bu hərəkətləri Çingiz İldırımın xeyir-duası ilə olsa da əslində bu bizim gerçək tariximizə qarşı xəyanət idi. Başqa sözlə desək,
bu növbəti dəfə "şirlərin ovuna çaqqalların sahib çıxması" demək idi.

Nəzər Heydərov kitabında yazır: "Döyüş zamanı Qoçu Təhməz bizim tərəfə hücuma keçərkən döyüşçülərimiz tərəfindən vuruldu və çox keçmədi ki, ağ atın belində həlak oldu". İnsan vicdanına nə qədər xəyanət edər, nə qədər yalan danışar? Belə yerdə deyirlər ki, "Utanmasan oynamağa nə var ki?" Göründüyü kimi Aslan bəyin bu xidmətinin də üstündən xətt çəkərək bunu öz adlarına çıxarırlar. Hansı ki, Nəzər Heydərov kitabında səhifə 176-da döyüş zamanı qaçıb gizləndiyini özü də etiraf edir. Bəs nədən Nəzər Heydərov onun qaçıb gizləndiyi vaxtda kimin gəlib hərəkatı yatırmağını və Qoçu Təhməzi kimin vurduğunu yazmır? Bu dəstənin fəal üzvü Savalan Şirinov 1984-cü ildə Qubadlıdakı məktəbin 100 illik yubuleyində iştirak edərkən bu üsyanın Aslan bəyin

yatırdığını, eyni zamanda üsyana rəhbərlik edən Qoçu Təhməzi şəxsən öldürməsini bütün rayon ictimaiyyəti qarşısında bəyan etmişdir. Bu barədə lent yazısı da olub və çox əəsüf ki, hal-hazırda həmin lent yazısının axtarışları bir nəticə vermir.

Aslan bəyin bu fəaliyyətini–Azərbaycanın parçalanmasının qarşısını almasını da yetərli kompariya üzvləri öz fəaliyyətləri kimi qələmə veriblər. Bu yerdə zamanın süzgəcindən keçərək zərb məsələ çevrilmiş bir fikri xatırlamaq yerinə düşər: "Kimin kim olduğunu yalnız zaman və tarix təyin edir. Heç bir hakimi-mütləq, heç bir məhkəmə kimin kim olduğunu təyin edə bilməz. Kimin qəhrəman, kimin xain olduğunu ancaq və ancaq tarix və zaman müəyyən edir". Bu hadisələrə bu günün prizmasından baxdıqda bu sözlərin nə qədər həqiqət olduğunun şahidi oluruq. Zaman və tarix o qəhrəmanları ittiham edənlərin bu gün özlərini ittiham edir.

****

Aslan bəyin Zəngəzur mahalı ilə bağlı həyat və fəaliyyəti dövrü o qədər marqlı və diqqətiçəkəndir ki, həmin hadisələr haqqında arxiv materialları və faktlarla danışmadıqda hər şey əfsanəyə oxşayır.

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, **fond 1, siyahı 1, saxlama vahidi 108**-də diqqəti çəkən və 1920-ci ilin yazına aid olan bir arxiv sənədi var. Həmin arxiv sənədinin qısa mətni ilə sizi tanış etməık istəyirik: "Qarabağ. Mayın 25 DRO Andronikin əmri ilə (daşnak generalı Dro) Qarabağdan Zəngəzura hərəkətə keçdi. "

Məlum məsələ idi ki, o zaman Andronikin birbaşa əmri və təlimatı olmadan heç bir daşnak generalı müstəqil qərar qəbul

edə bilməzdi. Dronun Qarabağdan Zəngəzura getməyinin də səbəbi daşnak qüvvələrinin daha da gücləndirmək üçün Zəngəzurdakı daşnak hökümətinin başçısı general Nijde ilə qüvvələri birləşdirmək və birgə fəaliyyət göstərmək idi.

в деревнях не возможна.До сих пор партия устроила только ...
и 4 лекции.Просит Ц.К.срочно выслать инструкторов,инстркци...
вы,газеты ,программы.

ОСНОВАНИЕ:Доклад Предревкома Багирова от 30 мая.

ДЖЕБРАИЛЬСКИЙ УЕЗД.

Для предупреждения эксцессов межнациональных и внутринационал...
энергично правоцируемых темными элементами срочно прислать Кр...
Конницу в Армянский район,а вКарягино и Джебраиль красную пех...

СПРАВКА:Доклад тов.Амдарцумянца. от 29 мая.

КАРАБАХ.

25 мая ДРО выступил из пределов Карабаха в Зангезур.В Дизаке ...
власть перешла к местной коммунистической организации.В дерев...
...овываться Ревкомы.Для ликвидации фронта необходимо ...
...ских частей/Карягино и Джебраиль/к которым население питае...
конечное доверие.Они необходимы и как реальная сила,на котору...
опираться Комитеты.Есть опасность сов стороны организованнаго ...
ния кочевников.

Направить их по Шушинскому шоссе.Выслать немедленно ответстве...
ботников,литературу для руководства.

СПРАВКА:Доклад доктора Амбарцумянца от 29 мая.

ШЕМАХИНСКИЙ УЕЗД.

Созыв Уездной Конференции для избрания постоянной компартии н...
можен ввиду отсутствия комячеек в мусульманских селениях,в ...
пропаганды не принималось никаких шагов.Члены сами нуждаются ...
вке.Имеются 7 комячеек в Молоканских селениях.Больше половин...
которые записались после прихода Советских войск.Эти комячей...
тся в основательной фильтрации.Прислать вместо Черышева в Не...
относящихся к партийным работам очень халатно,других или дать...
мочия Эглиту и Будникову для изменения состава Уездкомпартии ...
ной постановки дела.Работа в Ревкомах за отсутствием партийн...
ников и даже технических сил-сильно тормозится,сильно затрудн...
ту Ревкома и царящий в уезде голод.Население к Советской влас...
сится с доверием.Национальная рознь существует,но не в такой ...
степени.Необходимо послать в Уездработников,с партийной подг...

СПРАВКА:Сводка деятельности временнаго Шемахинскаго Уезкома. с ...
2 июня за 28.

Постановлено немедленно приступить к организации коммуны в ...

А.С.С.Р.
КАРАБАХСКИЙ
РЕВКОМ
---
..-Мая 1920г.
Шуша

В РЕВКОМ РЕСПУБЛИКИ-НАРИМАНОВУ копия
Ц.К. АЗЕРБАЙДЖАНА

ДОКЛАД

Первая часть: НАГОРНЫЙ КАРАБАХ

25 мая ДРО выступил из пределов Карабаха со своими Арар скими частями в Зангезур.ПРИЧИНЫ:приход красной армии ,установлени Советской Власти в Хачене и Джеванширe,угроза распространения этого движения на Варанду ,где находится штаб ДРО.В связи с этим падоло настроение в войских частях,все очевиднее становилась для широких масс бессмысленность всей той системы военщины с реквизиями рабоча скота,лошадей,продовольствия.Положение беженцев ухудшалось со дня в день ,и ропот,недовольствия сильнее и сильнее.Изчезли предметы перво необходимости , небыло соли ,приходилось для войских частей собир заготниками подомам ,хлеб запекается горкий, не было и нет мыла.

Власть перешла к местной Коммунистической Организации,сильной в Дизаке, очень слабой в Варанде.Благодаря самим Товрищам стали обра зовываться ревкомы в деревнях;фронт стал таять с уходом частей ДРО

В этот день 25 мая крестьяне ,прослышав об отходе ДРО,повалили толпами в штаб,требуя уплаты за реквизированныя скотину и продовол ствия. На этой почве экцессов не было.

На 26 мая был назначен еще старым правительством с"езд крестья -состав с"езда кулаки.И этот с"езд принял резолюцию,что националис-тическая авантюра ханбекскаго Азербайджана и Арарата потерпела,с по бедоносным вступлением красных войск в Закавказье,полный крах,при-вела население к нищете,безрабстице,голоду/были случаи голодной сме ти/.Постановление с"езда признать Советскую Власть,приступить неме ленно к ликвидации фронта и установить братския отношения с мусул манами/ Резолюция будет установлена особо/.Для быстрой ликвидации фронта необходимо -прибытье красных частей в Карягин и Джебраил.

Не требуется ... больших частей ...

****

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, **fond 1, siyahı 2, saxlama vahidi 139**.

Sənəd 1920-ci ilə aiddir.

Zəngəzur qəza kommunist partiya üzvlərinin birləşmiş iclasının protokolu. Həmin iclasa sədrliyi Nəzər Heydərov, katibliyi isə Canbaxış Abdullazadə edib.

Bu protokolla bağlı bir məqamı diqqətinizə çatdırmaq istəyirik. Protokolda qeyd olunur ki, Çingiz İldırım təxminən aprel aylarında Bakıdan qəzaya gəlmişdi, onun gəlişi bizi-yəni yerli kommunistləri ruhlandırdı. Bizi ruhlandıran Ç.İldırımın Sovet hökuməti, onun gücü haqqında verdiyi məlumatlar oldu. O sanki bizi silahlandırdı.

Bu sənəd bir daha təsdiq edir ki, Zəngəzurda yerli kommunistləri ruhlandıran, onları mərkəzlə əlaqələndirən, eyni zamanda yerli hakimiyyətin rəhbərlərinə, əmisi oğlanlarına qara yaxmağa təhrik edən Çingiz İldırım olmuşdur.

****

1920-ci il.

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, **fond 1, siyahı 1, saxlama 127.**

Həmin sənədi doktor Ambarsumyan imzalayaraq göndərib. Sənəd birbaşa Azərbaycan İnqilab komitəsinin sədri Nəriman Nərimanova göndərilib.

Sənəddə açıq-aydın bir həyəcan hiss olunur. Qeyd olunur ki, daşnak generalı Dro Qarabağın sərhədlərini tərk edərək Zəngəzura gedir. Əslində bu məruzənin Nərimanova edilməsi vəziyyətin doğrudan da ciddiliyindən xəbər verirdi. Çünki onsuz da kifayət qədər gücə malik olan daşnak hökuməti başçısı Nijde Dro ilə qüvvələrinin birləşdirdikdən sonra daha da güclənəcəkdi. Bu məruzənin başqa bir yerində yazılır ki,

Dro əsgərləri kifayət qədər pulemyotla və böyük çaplı silahlarla təhciz olunmuşdu.

Amma biz tarixi faktlardan və arxiv sənədlərindən yaxşı bilirik ki, Aslan bəy Sultanovun başçılığı ilə aparılan müharibə və hərbi əməliyyatlar məhz 1921-ci ildə,daşnak hökuməti tam qüvvə topladığı bir məqamda aparılmış və həmin o qüvvətli ordu Aslan bəyin düzgün hərbi planı sayəsində diz çökmüşdü.

****

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, 1920-ci ilə aid olan və siyasi sənədlər arxivi, **fond 1, siyahı 2, saxlama vahidi 100** qrifi ilə qorunan sənəddə göstərilir ki, Andronikin keçmiş köməkçisi, Daşnak hərbi qüvvələrinin baş komandanı Sumbat tabeliyində olan 600 piyada və süvari qoşunları, 1 ədəd top və pulemyotlarla silahlanaraq  Tevana kəndinə hücum etməyə hazırlaşır.

Bu həmin baş komandan Sumbatdır ki, Aslan bəy Sultanov onu uzaq məsafədən alnının ortasından vuraraq qətlə yetirib və qoşunu pərən-pərən salaraq məhv etdikdən sonra artıq daşnak hökumətinin başçısı  general Nijdeyə ultimatum verib.

****

Azərbaycan Respublikası Milli Dövlət Arxivində **fond 27, siyahı 1, iş 17** qrifi ilə qorunan sənəd 1920-ci ildə Azərbaycanda sovet hökuməti qurulduğu vaxtda Zəngəzur qəzasında bəy nəslindən olan Sultanovların qəza hakimiyyətinin başında dayanmasının əsil səbəbini təsdiq edir.

Həmin sənəddə göstərilir ki, Qarabağın və Zəngəzurun keçmiş fövqəladə komissarının sərəncamı ilə Qubadlı qəza inqilab komitəsi təşkil edilib, yəni yerli hökumət qurulub. Bu bir daha göstərir ki,  Aslan bəyə fövqəladə səlahiyyət verilən zaman o daha çox etibar etdiyi insanlara – doğma əmisi oğ-

lanlarına hakimiyyəti həvalə edib. Çünki qarşıda daşnak hökumətinə qarşı böyük bir müharibə dayanırdı, və Aslan bəy bu müharibənin bütün məsuliyyətini öz üzərinə götürmüşdü. Ona görə də Aslan bəy Sultanovları – öz əqidə qardaşlarını yerli hökumətin başına gətirdi. Çünki müharibə dövründə ən kiçik bir xəyanətin son dərəcə ağır nəticəsi olduğunu Aslan bəy yaxşı bilirdi.

Zaman Aslan bəy Sultanovun bu seçimdə nə qədər doğru olduğunu təsdiq etdi.

****

Diqqətimizi çəkən aşağıdakı başqa bir arxiv sənədi 1921-ci ilə aiddir. Onu sizə təqdim edirik.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin **fond 27 siyahı 1, iş 17** qrifi ilə qorunan sənəddə göstərilir ki, inqilab komitəsinin sədri Xudabaxış Sultanov və onun katibi Möhbalı Əmiraslanov qəzadakı vəziyyət barədə Qarabağın və Zəngəzurun fövqəladə komissarı Aslan bəy Sultanova hesabat verirlər.


фонд 27 сијаһи 1 дело 17

Bu həmin Möhbalı Əmiraslanovdur ki, sovetlər dövründə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi və Azərbaycan SSR Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifələrində işləmişdir.

Möhbalı Əmiraslanov internetdə yerləşdirilmiş saytında da onun 1920-ci ildə Qubadlı qəzasında milis idarəsinə işə götürülməsi öz təsdiqini tapır.

İndi isə sizə **fond 410, iş 202, siyahı 1** qrifi ilə qorunub saxlanılan başqa bir arxiv sənədini təqdim edirik.

Bundan sonra Aslan bəy Sultanovun 1920-ci ildə Qubadlı qəzasının milis idarəsinə işə götürdüyü Ələkbər Abdullayev isə Sovet dönəmində 1930-cu ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində işləmişdir. Sonralar isə Daxili İşlər Nazirliyinin banditizmə qarşı mübarizə idarəsinin rəisi vəzifəsinə qədər yüksəlmişdir.

Bu sistemdə polkovnik rütbəsinə qədər ucalmışdır. Ələkbər Abdullayev sonralar da Aslan bəyə sədaqətini bildirmiş, onun qəhrəmanlıqlarından ətrafındakı insanlara bəhs etmişdir və bildirmişdir ki, mən və bir çoxları məhz Aslan bəy Sultanov məktəbinin yetirmələriyik.



Bu arxiv sənədinin tərcüməsi aşağıdakı kimidir:

**fond 410, iş 202, siyahı 1. vərəqə 70**

Şuşadan Bakıya xalq daxili işlər komissarlığına göndərilmiş 611 saylı Teleqram.

Qubadlı qəzası tez-tez Sovet hakimiyyətinin xarici düşmənlərinin təcavüzünə məruz qalır. Bir tərəfdən iran xanlarının iranla sərhədboyu ərazilərdə talançılıq etmələrinə qarşı, digər tərəfdən də daşnakların yerli əhaliyə onlarla ticari

əlaqələrə girmək kimi təkidlərinə cavab olaraq partizan hərəkatı ilə müqavimət göstərmək zorunda qalmışlar. Üçüncü bir tərəfdən də müxtəlif quldur dəstələri ilə mübarizə aparırıq və bütün bunlar ölkənin daxilində yerli hakimiyyətin nüfuzunu aşağı salır. Bu barədə, qəza inqilab komitəsinin vəziyyəti haqqında mərkəzə dəfələrlə xəbərdarlıq edilsə də bu vaxta qədər mərkəz tərəfindən heç bir ölçü götürülməmişdir. Sizdən xahiş edirəm ki, təcili surətdə qəzadakı mövcud durumu yoluna qoymaq üçün ciddi ölçülər götürəsiniz. Əks təqdirdə qəzada hakimiyyətsizlik və anarxiya baş alıb gedəcək.

**İnqilab Komitəsinin sədri Xudabaxış Sultanov.**

**7 mart 1921-ci il.**

****

Başqa bir sənəddə, Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, **fond 1, siyahı 2, saxlama vahidi 136** qrifi ilə qorunan və Nəzər Heydərova aid olan əlyazma Şuşa Mərkəzi Qəza Kommunist Partiyasına ünvanlanıb. Sənəddə yerli kommunist partiyasının fəal nümayəndəsi yenə özünü və partiya yoldaşlarını yalandan qəhrəman kimi qələmə verməyə çalışaraq elə yazır ki, guya əllərində heç bir silahı olmayan kommunistlər təpədən dırnağadək silahlanmış daşnaklara qarşı mübarizə aparırlar. Halbuki başqa arxiv sənədlərindən və Nəzər Heydərovun özünün yazdığı xatirələrdən (kitabından) yaxşı məlumdur ki, həmin dövrdə yerli kommunustlər tam fəaliyyətsiz şəkildə gizlinə sıxışdırımış, heç bir siyasi və hərbi müdaxilələrdə iştirak etmək qabiliyyətində olmamışdır.

Diqqəti çəkən ən mühüm məqam isə digər arxiv sənədlərində rastlaşdığımız bir məqamdır. Nəzər Heydərov böyük ürək ağrısı ilə yazır ki, yerli kommunistlərin əlində heç bir

güc yoxdur ki, yerli qəza hakimiyyəti ilə, partiya üzvü olmayan bəylərlə mübarizə apara bilsin. Bu yerdə bir məntiqi sual ortaya çıxır, necə ola bilir ki, yerli qəza hakimiyyətilə bacara bilməyən, gizlinə sıxışdırılan kommunistlər təpədən dırnağadək silahlanmış daşnak hökumətinə qarşı müqavimət göstərə bilir. Belə çıxır ki, yerli kommunistlər daşnaklarla əliyalın vuruşurmuşlar... Bu yerdə adamın lap böyük türk şairi Məmməd İsmayılın təbirincə "Kimi aldadırsan, ay zalım oğlu..." sualı lap yerinə düşür.

Son dərəcə çətinliklə oxunan yazının sonunda da Nəzər Heydərov qeyd edir ki, bu yazını Arşak Balayanın vasitəsilə göndərirəm.

Son dərəcə çətinliklə oxunan yazı dedikdə bu o demək deyil ki, yazı pozularaq oxunmur, sadəcə olaraq xəttin özü son dərəcə bərbad və səliqəsizdir.

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, **fond 1, siyahı 2, saxlama 105** qrifi ilə qorunan 1921-ci ilin aprel ayına aid sənədlərdən birində Nəzər Heydərovun imzası və "mübarək" dəst-xətti ilə yazılan bir sənəd diqqətimizi çəkdi. Bu sənədi asanlıqla oxumaq çox çətinlik yaratsa da, ancaq diqqəti çəkən bəzi məqamları sizə də çatdırmaq istəyirik. Həmin sənəddən də məlum olur ki, Nəzər Heydərov öz "vəzifə borcuna" sadiq qalaraq yenə də yerli hökumətə qara yaxmaq və böhtan atmaqla məşqul olur.

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə danos yazaraq bildirir ki, qəza hakimiyyətinin başında duranlar partiyanın üzvü olmayan, kommunistlərə göz verib işıq verməyən bəylərdi. Daha sonra yenə də ilk olaraq qəza milis idarəsinin rəisini və onun idarəsini hədəfə götürür və yazır ki, Aslan bəy Sultanovun rəhbərliyi altında fəaliyyət göstərən milis hərc-mərclik şəraitində işləyir, heç kəs ona toxuna bilmir. Yerli kommunistlərin də əlində elə bir güc yoxdur ki,

yerli hakimiyyətin rəhbərlərinin bu özbaşınalığının qarşısını ala bilsin.

Məruzənin başqa bir yerində də 28-ci diviziyanın Zəngəzurun bir hissəsi olan Sisyanda daşnaklara qarşı mübarizə aparması haqqında yazır. Ancaq yenə yazmır ki, həmin dövrdə adı çəkilən 28-ci diviziyaya faktiki olaraq Aslan bəy rəhbərlik edirdi".

****

Azərbaycan Respblikası Milli Arxiv İdarəsinin keçmiş məxfi **fond olan 410, iş 227, vərəq 10** qrif ilə qorunan 1921-ci ilin 28 aprel tarixli 9 saylı Partiya Bülleteninin Zəngəzur qəzasına aid hissəsində yazılıb;

Milisin tamamilə başıpozuqluğu sayəsində Qəza İnqilab Komitəsi sədri Xudabaxış Sultanov başda olmaqla hakimiyyətin bəzi məsuliyyətsiz nümayəndələrinin öz vəzifələrinə layiq olmadıqları üçün, eyni zamanda Partiya Komitəsinin anti-sovet elementlərlə mübarizədə zəiflik göstərməsi ilə Zəngəzurda vəziyyət gündən-günə daha da pisləşir. (Zəngəzur Qəza Kommunist Partiyasının müraciəti. Şuşa Mərkəzi Komitəsinin rəisi. 28.IV. 1921-ci il. N 117).

Bu sənəddən də görünür ki, yenə də ənənəvi olaraq ilk hədəf qəza milis idarəsidir. Bu sənəddə həm də subardinasiyaya riayət olunmamışdır, qəza inqilab komitəsi sədri qəzanın ilk mühüm rəhbər vəzifəsi sayılsa da, bu sənəddə ilk olaraq qəza milis idarəsinin adı çəkilir, bu da o deməkdir ki, bu məlumatı verənlər yaxşı bilirmişlər ki, qəzada real güc sahibi kimdir və faktiki rəhbərlik kimin əlindədir.

Sənədin sonunda da yazılır ki, Zəngəzurda vəziyyət günü-gündən pisləşir.

****

1921-ci ilə aid arxiv sənədləri arasında Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivində **fond 1, siyahı 2, saxlama vahidi 212** qrifi ilə qorunan bir sənəd də var. Həmin sənəddə qeyd olunmuşdur ki, sovet idarəçiliyi sisteminin başında bəylər və xanlar oturublar. Sovet hökumətinin əleyhinə daşnaklar tərəfindən güclü təbliğat işləri aparılır. Qatı əksinqilabçıların şəxsiyyəti məlumdur, yəni həmin şəxslər Nəriman Nərimanovun təyin etdiyi qəza rəhbərləridir.

Milis işçiləri və digər məsul işçilər müsavatçılardırlar.

***Qeyd:*** Qubadlı qəza kommunist partiyasının təlimatçısı yoldaş Savalan Şirinovun məruzəsi əsasında hazırlanmışdır.

Burada belə bir məntiqi sual doğur ki, bu məlumatları yuxarı ötürən adamlar adı çəkilən bəylər və xanlar Nərimanovun təyinatı ilə həmin rəhbər vəzifələrə təyin edildikləri zaman niyə etiraz etmir, Nərimanova onların sinfi düşmən olduqlarını demir və nəyə görə məhz həmin insanların o vəzifələrə təyin edilməsini soruşmurdular? Çünki alacaqları cavabı bilirdilər...

Göründüyü kimi yenə hədəf milisdir və bəylər, xanlardır. Biz artıq yaxşı bilirik ki, belə məlumatlarda bəylər, xanlar deyildikdə konkret olaraq kimlər nəzərdə tutulur. Bu məlumatlardan açıq şəkildə aydın olur ki, məlumatı ötürən-lərin sinfi düşmən hesab edilən insanlara qarşı qərəzli və məkrli siyasət aparmalarının səbəbi qısqanclıq və onların saf, əqidəli insanların nailiyyətlərinə nə yolla olursa olsun kölgə salmaq istəyi idi.

Bir məsələ də ondan ibarətdir ki, məlumatda yazılır ki, sovet idarəçiliyinin başında bəylər və xanlar dayanır. Ancaq bu hiyləgər göstərmir ki, nədən Nəriman Nərimanov o idarələrin başına məhz adı çəkilən bəyləri, xanları təyin edib?

Arxiv sənədlərini araşdırdıqca həmin illərdə baş verən hadisələrin bir tərəfində millətini sevən və ona sədaqətlə xid-

mət göstərən, bunun müqabilində isə heç bir təmənna güdməyən insanlarla, digər tərəfdən öz şəxsi mənafeyi naminə başdan-başa xəyanət yolunu seçərək gələcək nüfuz və mənsəb barədə fikirləşənlərin açıq-aydın mübarizəsini, bəlkə də xeyirlə-şərin mübarizəsini görürük.

Diqqəti çəkən sənədlərdən biri də 1921-ci ilin 10 aprel tarixində Qubadlı Qəzası Milis İdarəsinin rəisi Aslan bəy Sultanov tərəfindən Azrəbaycan Mərkəzi İnqilab Komitəsinə ünvanlanan ittihamedici məlumatıdır.

Sənəd Azərbaycan Respublikası Milli Arxivində keçmiş məxfi fond hesab edilən **410 saylı fondda, siyahı 1, iş 205** qrifi ilə qorunub saxlanılır.

**A.C.C.P.**
**Начальник Кубадлинской Уездной Милиции**
**№603 10-го апреля 1921 г. Ходжалан**

Bu arxiv sənədinin tərcüməsi aşağıdakı kimidir:

**A.S.S.R.**
**Qubadlı Qəza Milis İdarəsinin rəisi Aslan Sultanovdan**

****

Aslan bəyin yazdığı məlumatın özündən də açıq-aydın görünür ki, bütün varlığı ilə xalqına bağlı olan bu insan ətrafda baş verən ən kiçik məsələyə belə vaxında müdaxilə etməyi bacarmış, vəzifəsindən, kimliyindən asılı olmayaraq hər kəsə sözünü deyə bilmiş, xalqı qarşısında göstərdiyi xidmətlər müqabilində umacağı xalq sevgisindən başqa bir şey olmamışdır.

Vəzifəyə, şöhrətə, xoş güzarana görə xalqını, millətini sataraq onunçün yüz illər boyu həlli müşkülə çevrilən problemlər yaradan bəzi “soydaşlarımızdan” fərqli olaraq Aslan bəy Sultanov yaşadığı mənalı və şərəfli ömür boyu bir dəfə də olsa nəfsinin quluna çevrilməmiş, özü üçün seçdiyi yaşam

prinsipinə, qarşısına qoyduğu məqsədə, əqidəsinə və həyat tərzinə bircə dəfə də olsa dönük çıxmamışdır.

Aslan bəy bütün mənalı ömrü boyu düşmən əhatəsində yaşamışdı. Bir tərəfdən tarixi və barışmaz düşməni olan daşnakların, bir tərəfdən sinfi düşmənlərin, bir tərfdən də qarşısında quyruq bulayıb kənarda onun üçün quyu qazan "mehriban düşmənlər"in əhatəsində. Lakin buna baxmayaraq Aslan bəy Sultanov heç vaxt düşmənə qarşı kürəyini çevirməmiş, onlarla həmişə üzü-üzə dayanmaq, onların gözlərinin içinə dik baxmaq yolunu seçmişdi. Elə ona görədir ki, Aslan bəyin xaincəsinə qətlə yetirilməsindən yüz ilə yaxın (1929-cu ilin yay aylarında qətlə yetirilib) bir zaman keçsə belə, bu tarixi şəxsiyyət, bu igid və cəsur sərkərdə haqqında hələ də xatirlərdə yaşayan çoxsaylı maraqlı əfsanələr, xatiratlar yaşayır. Ancaq əldə etdiyimiz arxiv sənədləri xatirələrdə yaşayan xatiratlardan fərqli olaraq bu insanın gerçək tarixindən xəbər verən faktiki sənədlərdir. Biz də daha çox həmin sənədlər ətrafında gəzişmələr etməyi bir məqsəd kimi qarşımıza qoymuşuq.

Arxiv sənədləri arasında tarixinə və mühümlüyünə görə diqqəti çəkən ilk sənəd aşağıdakıdır...

****

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Qarabağın və Zəngəzurun mərkəzi Şuşa sayıldığı üçün bütün məlumatlar Şuşaya, oradan da mərkəzə ötürülürdü. Ona görə bu sənəd də Şuşaya yazılıb.

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi **fond 1, siyahı 1, iş 24.**

Bu yerdə Azərbaycan Respublikası Baş Dövlət Milli Arxivinin **fond 27 siyahı 1, iş 17** qrifi ilə qorunan sənədi diqqəti çəkir.

Həmin sənəd 1920-ci ilin son gününə, 31 dekabra aiddir.

Sənəddən görünür ki, onu Qarabağın və Zəngəzurun fövqəladə komissarı imzalayıb. Sənəddəki bəzi məqamları sizə təqdim etməyi zəruri hesab edirik:

"...Zəngəzurda və Gorusda Katar yəni (Kafan) üsyanına rəhbərlik edən Nijdenin daşnak hakimiyyəti hökmranlıq edir. Ümumiyyələ həmin qüvvələr sovet hökumətinin varlığına nifrət bəsləyirlər. Qızıl Ordu Zəngəzuru tərk etdikdən sonra daşnaklar tərəfindən bizim ərazilərə və yerli partizan hərəkatına qarşı xaincəsinə hücumlar mütəmadi hal alıb. Bizim müdafiəçilərimizin odlu silaha böyük ehtiyacları var. Zəngəzur qəza milisi xüsusi olaraq İranla sərhəddə olan milis atlı dəstəsi məcburiyyət qarşısında nəinki daxili xidmət aparır, eyni zamanda döyüş mövqeyndə xidmət göstərir, həm sərhəd boyu xidmət aparır. Həmin o fövqəladə ehtiyacı silah çatışmamazlığını nəzərə alaraq xahiş edirik ki, sovet hökumətini qoruyub saxlamaq naminə yox, heç olmazsa insanlıq naminə bu xahişə etiraz etməyəsiniz. Şuşadakı silah anbarından bizim silah tələbatımızı təmin etmək və Zəngəzur qəza milisinə min ədəd tüfəng və patron verilməsini təmin edəsiniz ".

Bu sənəd bir daha göstrir ki, o dövrlərdə Zəngəzurdakı qızıl ordu hissələrinin müvəqqəti olaraq Qarabağa çəkildiyi zamanlarda Zəngəzur qəza milisi düşmən qarşısında acizlik nümayiş etdirməmiş, bütün qüvvələri səfərbər edərək nizamlı bir ordu şəklində düşmənə qarşı güclü müqavimət göstərmişdir.

Bu sənəddən də aydın olur ki, Aslan bəyin, onun komandasının heç bir siyasi ambisiyası olmayıb və mərkəzdən silah tələb edərkən də açıq-aydın bildirir ki, bunu Sovet hökumətinin saxlanması naminə deyil, heç olmazsa insanlıq naminə etmək lazımdır. Bu son cümlə də onu göstərir ki, bu insanlar

üçün hər şeydən vacib insan taleyi, millətin gəlcək taleyi olub.

****

Aslan bəy Sultanova mərkəzi hakimiyyət tərəfindən 1920-ci ildə mandat və xüsusi səlahiyyət verildikdən sonra o Qarabağ və Zəngəzur qəzalarının mərkəzi olan Şuşada otururdu. O zamankı Şuşalılar Aslan bəyə Çaylı Aslan bəy deyə müraciət edirdilər. Qubadlı elindən Bərgüşad və Həkəri çayları axdığından o yerin camaatına çaylılar deyilirdi. Aslan bəy bu vəzifəsində də öz missiyasını şərəf və ləyaqətlə başa vurduqdan, Andronikin daşnak tör-töküntülərini məhv etdikdən sonra mərkəz onun missiyasını bitmiş hesab edərək öz yolunda onu real və böyük bir maneə kimi görür. O kommunist partiyası sıralarına daxil olmaq şərti ilə mərkəzə yüksək vəzifəyə dəvət olunur. İlk baxışdan bu elə görünə bilərdi ki, guya mərkəz Aslan bəyin bu vaxta qədər etdiyi xidmətlərə dəyər verir və ona daha böyük etimad göstərməyə çalışır. Lakin bütün bu işlərin arxasında nəyin və hansı məqsədin dayandığını zərgər dəqiqliyi ilə bilən Aslan bəy mərkəzin bu məkrli təklifini qəbul etməyərək bəyan edir ki, mən hərbçiyəm, heç bir pariyanın üzvü olmaq istəımirəm, vəzifə iddiasında da deyiləm. Mən öz qəzamıza qayıdıb yenə də hərbi vəzifə tutmaq və xalqımın düşmənlərinə qarşı mübarizə aparmaq niyyətindəyəm. Aslan bəy könüllü olaraq fövqəladə komissar vəzifəsindən imtina edərək Zəngəzur qəzasına milis idarəsinin rəisi vəzifəsinə gedir. O zaman Zəngəzur qəzasındakı bütün məsul vəzifələri onun təyin etdiyi kadrlar tutduğundan əslində o təkcə milis idarəsinin deyil, həm də qəzanın başçısı, qəzadakı real gücün sahibi idi.

Mərkəzdən onunçün qazılan quyuya düşməyən Aslan bəy sonrakı fəaliyyətində ona sadiq qüvvələrin arasında olmağı

daha üstün tutur. Səksəninci illərdə Savalan Şirinovun özünün etirafına görə bu məsələləri mərkəzdən Aslan bəyə ötürən adam Mir Cəfər Bağırov özü imiş, hansı ki, Aslan bəy onu Zəngəzur banditləri ilə mübarizədə real ölümdən xilas edibmiş. Bu barədə daha sonrakı fəsillərdə ətraflı məlumat verməyə çalışacağıq.

Mərkəzin məkrli planını reallaşdırmaq üçün Aslan bəyə qarşı düşünülmüş qarayaxma kompaniyasına start verilir. Bir-birinin ardınca Zəngəzura yoxlamaya göndərilən açıq və məxfi kommunistlər nə yolla olursa-olsun Aslan bəyi və onun ətrafındakı bütün qüvvələri şərləməyə, ləkələməyə səy göstərirlər. Bu komissiyaların əsas məqsədi Aslan bəyin qurduğu yerli hökuməti xain damğası ilə ləkələyərək aradan götürmək və gizli fəaliyyətə çəkilən kommunistləri hakimiyyətə gətirərək Zəngəzurun ermənilərə verilməsini sözdən reallığa çevirmək. Aslan bəyi məhv etməklə isə onların məqsədi yerli camaatın gözünü qorxutmaq, onları təkləmək və bütün yerli özünümüdafiə qüvvələrini zərərsizləşdirmək istəyirdilər. Bununla da heç bir maneə və müqavimətlə qarşılaşmadan məqsədlərinə nail olmaq, xəyanətkar oyunun nəticəsi olaraq öz şəxsi kariyeralarını qurmaq istəyirdilər. Bu yerdə xüsusilə qeyd etmək lazımdır ki, Zəngəzurun verilməsinə etiraz olaraq başlanmış müqavimət hərəkatı geniş vüsət alaraq Qarabağ ərazisinə də keçir bu yolda canlarından keçən şəhidlərimizin qanı bahasına Qarabağın verilməsinin qarşısı alınır. Sonradan əldə etdiyimiz arxiv sənədləri də təsdiq edir ki, Nəriman Nərimanov ("Kommunist" qəzeti, 1921-ci il, səh 2) Zəngəzurla bərabər bütün Qarabağın da ermənilərə birləşdirilməsinə razılıq verərək imza amışdır.

Zəngəzurun və Qarabağın ermənilərə verilməsini təhlükə olaraq görən camaat bununla mübarizə yolunu qaçaqçılıq hərəkatının başlanmasında gördü. Bu həm də xalqın öz mü-

qəddəratına qarşı biganə qala bilməməyin, ətrafında baş verən xəyanətlərlə bu yolla mübarizə aparmağın, əslində isə yeni igidlik və qəhrəmanlıq səhifəsinin açılması demək idi. Nəzər Heydərov öz kitabında bu səhifəni də xüsusilə qeyd edib. Müəllif yazır ki, "... Digər Sultanovlar (Aslan bəy Sultanov) Qubadlı sahəsində Lətifin və Kərimin antisovet bandasına başçılıq edirdilər. Sonradan bu banda daşnaklarla birləşərək iki qəzanın arasında dolanmağa başladı". (N.Heydərov. "Zəngəzur dağlarında" kitabı, Azərnəşr 1989. səh 130). Bu həmin Aslan Sultanovdur ki, daşnaklar general Manuku öldürdüyü üçün (Ermənistan 3 gün yas saxlayıb) onun başına külli miqdarda pul qoymuşdular. Bu zaman daşnaklarla hansı birləşmədən söz getdiyini anlamaq və daşnak dəyirmanına kimin su tökdüyünü dərk etmək o qədər də çətin deyil. Bu həmin Nəzər Heydərovdur ki, 1920-ci ilin dekabrında Zəngəzurun ermənilərə verilməsinə öz dəst-xətti ilə imza atmışdı.

Aslan bəyin başçılıq etdiyi və Nəzər Heydərovun banda adlandırdığı Lətiflə Kərimin qaçaq dəstəsi əslində Zəngəzurun və Qarabağın azadlığı uğrunda, baş verən haqsızlıqlara və tarixi cinayətlərə etiraz əlaməti olaraq hökumətə qarşı çıxmaq məcburiyyətində qalmış, hadisələrə biganə qala bilməmişdilər. Aslan bəy Qarabağın və Zəngəzurun fövqəladə komissarı olduğu vaxt çoxlu sayda özünə sadiq hərbi kadrları müxtəlif vəzifələrdə yerləşdirmişdi. Bu kadrlar sonradan Aslan bəyə mərkəzin xəyanətkar oyunlarına qarşı müqavimət göstərməkdə bilavasitə kömək edirdilər. Məhz bu fədakar insanların silaha sarılaraq hökümətə qarşı apardıqları mübarizə de-yure ermənilərə verilmiş Qarabağın de-fakto verilməsinin qarşısını aldı.

O dövrdə yaşayan və hadisələrin birbaşa şahidləri olan yaşlı insanların dediklərinə görə bu dəstələr olmasaydı Zəngəzurda və Qarabağda müsəlman əhalisinə qarşı tutulan di-

vanların, axıdılan qanların miqdarını sözlə demək çətin olardı. Təkcə Lətiflə Kərim hər biri bu illər ərzində 700-ə qədər daşnak məhv etmişdilər. Elə ona görə idi ki, yerli kommunistlər öz erməni qardaşlarına yarınmaq, onlarla iş birliyində olmaq, vəzifə tutmaq, var-dövlət sahibi olmaq üçün Aslan bəyin, Lətifin, Kərimin və bir çox başqa mübariz insanların, xalq qəhrəmanlarının ermənilərə verilməsini, onları ermənilərin mühakimə etməsini istəyirdilər. Buna nə ad vermək olar? Xalqa, onun igid və qoçaq övladlarına nifrət, yoxsa vətəninə xəyanət, satqınlıq, şərəfsizlik. Özünüz deyin!

Aslan bəyin necə bir insan olduğunu bilmək üçün sadəcə bir faktı nəzərinizə çatdırmaqla kifayətlənmək istəyirəm. Bütün vəzifələrini itirdikdən və vəzifələrdə olan əqidə qardaşlarından uzaq düşdükdən sonrakı 8 il ərzində Aslan bəy Sultanov qaçaqçılıq hərakatına başçılıq etmişdi.

****

Ermənistan Kommunist Partiyası Zəngəzur qəzası məxfi işçilərinin ümumi yığıncağının protokolu

**Sədr: M.Aryutunov**

**Katib: Z.Mkrtiçev**

**Fond 1, siyahı 2, saxlama vahidi 139**

**Gündəlik:**

**1)** Yerlərdən və İrəvandan gələnlərin məruzələri.

**2)** Bakıya və İrəvana xüsusi məruzə ilə gedəcək yoldaşların seçilməsi.

**Dinlənildi**

İclas M.Aryutunovun sədrliyi və Z. Mkrtiçevin katibliyi ilə açıldı.

Birinci məsələ ilə bağlı Zəngəzur qəzasından gələn məxfi işçilərin məruzələri dinlənildi. Məruzələr dinlənildikdən sonra aydın oldu ki, artıq Zəngəzur qəzasında və Qubadlı rayo-

nunda qalıb işləmək mümkün deyil. Elə ona görə də bu qəzanın bütün işçiləri işlərini buraxaraq Şuşaya getmək məcburiyyətində qalıblar. İrəvandan gələn yoldaş Tumasovun məruzəsindən məlum oldu ki, daşnakların məsələsi tezliklə həll olunacaq.

**Qərara alındı:**

Gündəlik məsələlər yığıncaq iştirakçıları tərəfindən ciddi müzakirə olunduqdan sonra iclas həmrəyliklə qərara aldı ki; Qubadlı qəzasında daşnakların müsavatçılarla və yerli bəylərlə əlaqə qurmaları və həmin əksinqilabçı qüvvələr tərəfindən bizim üç yoldaşımızın–Şneger kəndinin sakinləri Armenak Ağasiyansın, Arşak Tunanyansın və Parsak Saakyansın öldürülməsi təsdiq edilsin. Vəziyyətlə bağlı Bakını və İrəvanı məlumatlandırmaq üçün aşağıdakı yoldaşlar: Mali-yans və Tumasov məlumat vermək üçün Bakıya və İrəvana ezam olunsunlar. Onlara Bakıya və İrəvana gedib qayıtmaq üçün məxfi əməkdaş mandatları verilsin.

**Sədr:**

**Katib:**

****

Sənədlər arasında Qubadlı qəzasının məsul partiya işçisi Savalan Şirinovun 23 avqust 1921-ci il tarixli mərkəzə ötürdüyü məlumatdan bir çıxarış var. Həmin çıxarışdan məlum olur ki, Savalan Şirinov öz məlumatında Qəza İcrayə Komitəsinin sədri seçilən Hüsü Hacıyevin həbs olunmasını tələb edərək, onunla bağlı bütün sənədlərin və materialların AKP MK-nin tam nəzarəti altında saxlanmasını istəyir, onun əfvinə sığınaraq azadlığa buraxılan əksinqilabçı qüvvələrin dinc əhaliyə divan tutmasından, üç kommunist yoldaşın – Arsonun, Parsiyanın və Arşakın məhşur əksinqilabçı İsgəndər bəy Sultanov (Aslan bəyin əmisi oğlu) tərəfindən güllələnməsindən söz açır.

Savalan Şirinov məlumatında Hüsü Hacıyevi qatı kontrabandaçı adlandırır, onu İran xanları ilə əlaqədə suçlayır, daxildə isə Aslan bəy Sultanovun yaxın qohumları və işçilərinin inqilaba və sovet hakimiyyətinə mane olmala-rından danışır. İsrafil bəy Sultanovdan neçə milyonsa rüşvət alaraq onu hansısa bir sahənin milis rəisi vəzifəsinə təyin etməsini söyləyir və Sultanovlar nəslinə yeni şər və böhtanlar atmaqda davam edir.

**Fond 1, siyahı 2, saxlama vahidi 136**



Султан-бека и Нжде. Под руководством Мир Джаббара Мир Тагиева разгромлены два коммунистических селения: Аллахсалу и Чума чумул Тогла.

Весь скот из революционных сел угнан во время чего пали жертвой наилучшие партийные товарищи. Невозможно описать те зверства и ... разгромы чинимыми Султан-беком Мир Джаббар Тагиевым с ... над коммунистами Курдистана. Обманным путем вызван в г. Тугу начальник ... Аббас Султанов и арестован Шушинскими изменниками.

Уполномоченные от Курдистанского крестьянства и коммун. партии | подпись |

Председатель Комитета Курдистанской организации и Член Комитета Зангенз. Уезкомпартии | подпись |

Ответственный секретарь Курдистанского Комитета и Член Комитета Зангезур. Уезкомпартии | подпись |

Ответственные партийные работники Курдистана и Зангезура | подпись |

****

Azərbaycan Sovet Sosialist Respublikası Bakı Sovetində 1920-ci il 1 dekabr tarixli yığıncaqda yoldaş Nəriman Nərimanov qəribə bir deklorasiya ilə çıxış edib. Həmin deklorasiyanın mətni 1920-ci il "Bakinskiy raboçiy" qəzetinin 4 dekabr tarixli sayında çap olunub. Nəriman Nərimanov bəyənatında bildirir ki, "...Zəngəzur və Naxçıvan qəzalarının

ərazilәri Sovet Ermənistanının ayrılmaz bir hissəsidir, Qarabağın sadə kəndli əhalisinin isə öz müqədəratını müstəqil şəkildə təyin etmək hüququ var. ..”

****

Elə buradan başlamaq istəyirik.

Əlimizdə olan onlarla arxiv sənədi və görüşdüyümüz insanların xatirələrində yaşayan faktlar bir daha təsdiq edir ki, ermənilərin Azərbaycana qarşı qaldırdıqları torpaq iddialarının kökü daha dərinlərə gedib çıxır.

*Arxiv sənədlərinin arasında qarşımıza çıxan maraqlı bir sənəd də Savalan Şirinovun 10 aprel 1921-ci ildə Azərbaycan Kommunist Partiyası Mərəzi Komitəsində yerli kommunistlərin nümayəndəsi qismində göndərilmiş Məruzəsidir. Məruzənin mətnini olduğu kimi sizə təqdim etməık istəyirik. Məlumatdan açıq aydın görünür ki, bu Aslan bəyə və onun ətrafına qarşı başlanan qarayaxma əməliyyatının ilk açıq fakıdır.*

Azərbaycan Respublikası Prezidenti Aparatının Siyasi Sənədlər Arxivi. **Fond 1, siyahı 2, iş 139.**

*Savalan Şirinovdan*

***İnqilab Komitəsinə verilən məlumatla tanış olduqda insanın qanını donduracaq bir fakt, o faktın arxasında isə məkrli bir niyyətin dayandığı diqqəti çəkir. Faktla aşağıdakı sənədi oxuduqda tanış ola bilırəsiz, lakin məkrli niyyət ondan ibarətdir ki, həmin qurultayda çıxarılan qərar Azərbaycan xalqının kürəyinə saplanmış zəhərli xəncər idi. Qurultayın məqsədi Azərbaycanı türk dünyasından, Türk dünyasını isə coğrafi cəhətdən bir-birindən ayrı salmaqdan ibarət idi. Qurultay nümayəndələri, Çingiz İldırımın himayə etdiyi yerli xainlərlə birlikdə bəsit və gülüş doğuran fakt-***

*ları əsas götürərək Zəngəzurun Ermənistana verilməsini qaçılmaz hesab ediblər.*

*Qurultay iştirakçılarından biri, o dövrdə fəal kommunistlərdən biri olan Nəzər Heydərov sonradan yazdığı "Zəngəzur dağlarında" adlı kitabında yazır ki, "Belə ağır bir şəraitdə Zəngəzur qəza partiya təşkilatının qurultayı çağırıldı. Qurultay 1920-ci ilin ikinci yarısında Gorusda açıldı. Qurultayın işinə Armenak Qaragözov rəhbərlik edirdi".*

*Arxiv sənədləri təsdiq edir ki, Çingiz İldırım Zəngəzurun Ermənistana verilməsində canfəşanlıq göstərən, xalqına xəyanət yolunu seçən qüvvələrə birbaşa rəhbərlik edib və onları bu işlərə ruhlandırıb. (Azərbaycan Respublikası Prezidenti Aparatının Siyasi sənədlər arxivi.* **Fond 1, siyahı 2, saxlama vahidi 139***)*

*P.S. Armenak Qaragözov həmin dövrlərdə Zəngəzurun Ermənistan tərəfinin fövqəladə komissarı olub. Həmin dövrdə Zəngəzurun və Qarabağın Azərbaycan tərəfinin fövqəladə komossarı isə komunist partiyasının üzvü olmayan Aslan bəy Sulatov olmuşdur.*

*Aslan bəy Sultanov dövrünün ən nüfuzlu şəxsiyyətlərindən biri, bacarıqlı sərkərdə, sərrast atıcı, aəzrbaycan, rus və erməni dillərində sərbəst danışa bilən, siyasi cəhətdən tam hazırlıqlı və yetkin, savadlı və vətənpərvər bir insan olmuşdur. Əldə etdiyimiz arxiv sənədlərinin mənzərəsi də bu fikirləri təsdiq edir. Aslan bəy Sultanov özünü artıq tam olaraq təsdiq etmişdi. Ermənilərin xalq qəhrəmanı, daşnak Andronikin sağ əli general Manukyanı məhv edən (o barədə ətraflı məlumat verəcəyik), erməni daşnakları ilə mübarizədə barışmaz mövqe tutan xalq qəhərmanı idi Aslan bəy.*

*1921-ci ildə, Zəngəzurun Ermənistana verildiyi vaxtda nədənsə Nəzər Heydərov kitbaında Aslan bəyin və onun*

***doğmalarının adarının üstündən sükutla keçir. Mənzərə isə aşağıdakı kimidir: ”***

**Baş Dövlət Arxivi**
**Fond 410, siyahı 1, iş 130**

****

Arxiv sənədlərinin təhlilindən sonra bu məsələyə yenidən qayıtmağı lazım bildik. Azərbaycan Prezidenti Aparatının Siyasi Sənədlər Arxivində **fond 1, siyahı 1,saxlama vahidi 24** qrifi ilə qorunan sənəd bir daha təsdiq edir ki, 1920-ci ilin 18 sentyabrında mərkəzdə, Nəriman Nərimanovun, Dadaş Bünyadzadənin və qeyri rəsmi dövlət nümayəndələrinin da iştirak etdiyi iclasda artıq Zəngəzur məsləsinə baxılmış və burada Zəngəzurun birbaşa daşnak hökumıti ilə sərhəddə yerləşməyi və buna görə də başqa bölgələrdən fərqli olaraq daha çox daşnak təcavüzünə məruz qalması, eyni zamanda bu yerlərin coğrafi cəhətdən keçilməz meşəliklərdən və dağlıq ərazilərdən ibarət olması həmin yerlərə yaxşı bələd olan yerli bir liderin, sərkərdənin bacarığından istifadə etmək zərurətini ortaya qoymuşdu. Çünki həmin yerlərə bələd olmayan hərbçilər burada heç bir döyüş əməliyyatı qura bilməz, dəqiq kəşfiyyat apara bilməzdilər. Ona görə də bu sənəd bir daha sübut edir ki, Laçınlı Sultan bəydən daşnaklara qarşı birgə mübarizə aparmaq siyasəti özünü doğrultmadı və bu əhali arasında böyük narazılığa səsəb olub. Bunu təsdiq edən arxiv sənədini sizə təqdim edirik.

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, **fond 1, siyahı 1, saxlama vahidi 24**

19

П Р О Т О К О Л

Заседания [illegible] Политбюро и Оргбюро 19-го сентября 19[illegible] г.
Присутствовали: Т.Т. Саркис, Ладо Думбадзе, Карьев, Его[illegible]он, Отм[illegible], Касумов, Стуруа, Нариманов, и Буния[illegible]заде.

| СЛУШАЛИ: | ПОСТАНОВИЛИ: |
| --- | --- |
| I. Жилищный вопрос. Доклад т. Алиева, который главным образом указывает на то, что сильно разбухают учреждения и уплотнение их уменьшило бы кризис на 30,40%/%. Работе сильно мешают тем, что почти все учреждения вмешиваются в распоряжения и отменяют действия и распоряжения Жилотдела. | I. Подтвердить приказ Исполкома о полномочиях Жилотдела. Ввести в Комиссию Жилотдела представителя от Наркомпрса. Приказ о жилищной Комиссии, подписанный Ременом и Лукиным, согласно которого должна существовать только армейская жилкомиссия отвергнуть, в виду его явной нелепости и сообщить об этом в округвоенком. |
| 2. Карабахско-Курдистанский вопрос. Докладчик т. Каракозов указывает на то, что работа в армянском районе Карабаха налаживается, имеются Ревкомы состоящие из бедноты. Очень плохо идет работа в мусульманском районе, всюду в революционные органы засел кулацкий элемент, необходимо назначить ответственного партийного работника. В Курдистане /часть Зангезурского уезда/ положение следующее: в одной части /[illegible]ский район/ советская власть, в другой /[illegible]ский район/ - власть крупного помещика Султан-бека. Политика соглашения с ним для использования его в борьбе с дашнаками ни к чему не привела, вызвав только недовольство населения. | 2. Поручить Реввоенсовету Наркомвоенмору ликвидировать Султан-бека с его бандой. Для постановки партийной работы послать в качестве ответственного работника т. Касумова, временно до начала партийного съезда. |
| 3. Ганджинский вопрос. Из докладов [illegible]ендиева и Лобовой выясняется, что вследствие беспрерывных столкновений между ЧК, Уездкомпартией, Кандивизией и Чрезкомом, работа в уезде в хаотическом состоянии. | 3. Для обследования работы учреждений Ганджинского уезда и выяснения причин их столкновений послать Комиссию в следующем составе: представителя ЦК, Азревкома, и Реввоенсовета XI. Представителем ЦК назначить т. Буния[illegible]заде. |
| 4. Заявление Наркомпрода об отсутствии денежных знаков, в связи с чем должны будут приостановлены все закупочные операции. | 4. Немедленно удовлетворить полностью нужду Наркомпрода в денежных знаках в количестве 100.000.000 руб., и только после его удовлетворения производить выдачу денежных знаков другим учреждениям. Немедленно создать Комиссию для правильного распределения денежных знаков между различными учреждениями. |
| 5. Проект управления Нуром. | 5. Ввиду отсутствия представителя Нура обсуждение проекта перенести на следующее заседание. |
| 6. Заявления. | 6. Согласно заявления Серебровского, освободить англичанина-инженера Риса условно из под ареста для производства необходимых работ. 2) - Ввиду тяжелого материального положения ответственных работников предложить Азревкому выдать всем ответственным работникам единовременное пособие в размере 15.000 р. |

Секретарь ЦК Л. Думбадзе

Л. Думбадзе

Sənəddə daha sonra qeyd edilir ki, Xalq Hərbi Komissarlığına tapşırılıb ki, Sultan bəyi bandası ilə birlikdə məhv etsin. Buradan da aydın görünür ki, bu zonada mərkəz tərəfindən güclü sərkərdə axtarışı əvvəlcədən düşünülmüş məkrli bir siyasət idi. Yəni, özlərinin də etiraf etdikləri kimi, arxiv sənədində göstərilən kimi onların gücündən yalnız daşnaklara qarşı mübarizədə istifadə etmək, bununla da asanlıqla bu müharibəni mümkün qədər az itkisiz daşnaklar üzərində qələbə ilə təmin etmək. Bütün bunların üstündən keçilərək Aslan bəyin üzərində dayanılması bu artıq mərkəzin və XI qızıl ordunun kəşfiyyatının verdiyi dəqiq məlumatlardan sonra olmuşdu. Yəni onların aldığı kəşfiyyat məlumatlarında göstərilirdi ki, burada Aslan bəy elə bir kəşfiyyat qurub ki, Nijde, onun ətrafındakı digər daşnak komandanları Azərbaycana qarşı hər hansı bir kəşfiyyat və döyüş planı tərtib edirlərsə, Aslan bəyin kəşfiyyatı bunu vaxtında öyrənir və Aslan bəy özünün əks hərbi planı ilə həmin planları darmadağın edir. Bundan başqa da onun Azərbaycanın ucqar bir bölgəsində ilk dəfə o dövrün hərbi standartlarına uyğun nizami hərbi hissə yaratması və ilk dəfə kazarma rejimi yaratması artıq mərkəzi hökumətin nəyin bahasına olursa-olsun Aslan bəyi öz tərəfinə çəkmək və onun fitri hərbi istedadından istifadə etməklə daşnaklara qarşı müharibənin taleyini həll etmək. Təsadüfi deyil ki, mərkəzdən gələn yüksək çinli dövlət nümayəndələri Aslan bəyin bütün təkliflərini gözüyumlu qəbul edir, hətta ona fövqəladə səlahiyytələr verməklə yerli hakimiyyəti təşkil etmək də ona həvalə olunur. Buradan da belə nəticə çıxır ki, özünün də iştirak etdiyi iclasda Nərimanov çox yaxşı bilirdi ki, Aslan bəy daşnaklara qarşı mübarizədə bir nömərli fiqurdur. Lakin daşnaklarla mübarizə Aslan bəyin böyük hərbi bacarığı sayəsində qələbə ilə bitdikdən sonra artıq mərkəzi hökumət yerlərdəki xainlərin əli ilə Aslan bəyi ləkələmək və

onu bütün vəzifələrdən kənarladırmaq yolunu tutdu. Onu daşnaklarla əlbir olmaqda və əksinqilabçılıqda ittiham etməyə başlayırlar. Ancaq onların ortaya atdıqları yalançı ittihamlar ictimai rəy tərəfindən rədd edildikdən sonra insanlar böyük narazılıqla belə qondarma şaiyələrə, böhtanlara etirazını bildirdikdən sonra mərkəzi hökumət artıq geri çəkilərək, onu daşnakların dostu kimi yox, bütün erməni xalqının düşməni kimi qələmə verməyə başlayır. Biz bu məsləyə bir daha ona görə qayıdıb oxucuların diqqətini bu məsləyə cəlb etməyə çalışdıq ki, Nəriman Nərimanov bu qəhrəman sərkərdənin daşnaklara qarşı mübarizədə necə vuruşduğunu, xalqımızın qisasını erməni qəsbkarlarından necə aldığını bilə-bilə onunla son dərəcə çirkin bir oyuna getmişdir. Yəni əvvəl, mərkəzə lazım olanda, onun hərbi bacarığına, fitri hərbi istedadına ehtiyac duyulduqda ondan yetərincə istifadə etmək, missiya başa çatdıqdan sonra isə onu ləkləmək, ona erməni xalqının düşməni adını qoyaraq xalqın qəhrəman, mərd oğluna qarşı xəyanət yolunu tutmaqla, Moskvadakı ağalarının tələblərinə görə öz qəhrəman oğlunu həbs edərək cəzalanması üçün ermənilərə verilməsini təmin etmək. Bununla da bir daha sübut olunur ki, Nəriman Nərimanov öz kariyerasını qoruyub saxlamaq üçün xalqımızın qəhrəman və mərd oğullarını qurban vermişdir.

****

Azərbaycanın daxilində baş qaldıran separatçı hərəkatlar da yatırıldıqdan sonra artıq yeni yaradılmış yerli hakimiyyət mərkəzin dəstəyi ilə Zəngəzurun verilməsini sözdən əmələ keçirməyə hazırlaşırdı. Bütün bu haqsızlıqlara dözməyən Aslan bəy və onun ətrafındakı sadiq qüvvələr Lətif, Kərim və Zəngəzurun digər igidləri bu haqsızlığa qarşı çıxaraq qaçaqçılıq hərəkatına başladılar. Nəzər Heydərov kitabında "Bandi-

tizm bölməsində" yazır ki, "Qubadlıdakı Lətiflə Kərimin başçılıq etdiyi antisovet bandaya faktiki olaraq Aslan bəy Sultanov rəhbərlik edirdi." O yerlərin adamları çox gözəl bilirdilər ki, Lətiflə Kərim Aslan bəyin ən qəhrəman dəstə rəhbərləri olub. Onların hər birinin hesabında 700 daşnak başı dayanır.

Bu ərəfələrdə Aslan bəyin kəşfiyyatı mərkəzin yeni iyrənc oyunları haqqında məlumat alır və məlum olur ki, Nərimanov hakimiyyəti Qarabağın da ermənilərə hədiyyə edilməsinə faktiki olaraq razılıq verib və qərarı imzalayıb. Arxiv səndləri də təsdiq edir ki, bu faktdır.

Mərkəzin bu xəyanətkar addımından daha da hiddətlənən, barışmaz mövqe tutan Aslan bəy artıq müqavimət hərəkatını daha da gücləndirmək haqqında qərar qəbul edir və tam olaraq yəqinləşdirir ki, mərkəz Azərbaycanın parçalanması və hərraca qoyulması yolunu seçib. Buna görə də Qarabağda da vaxtilə onun özünün yerləşdirdiyi hərbi qüvvələri hərəkətə gətirir. Bu qüvvələr əlaqəli olaraq birlikdə fəaliyyət göstərirlər.

Onu da qeyd etmək lazımdır ki, bu illər ərzində Aslan bəy vaxtaşırı Türkiyəyə keçir, Nuru paşa ilə görüşüb məsləhətləşmələr aparır və yenidən Zəngəzura qayıdaraq Qarabağ və Zəngəzur ərazilərində mübarizəsini davam etdirir.

Nuru paşa ilə dostluğu 1920-ci ildə Nuru paşa Qarabağa gələndən sonra başlamış və sonralar daha da güclənmişdir. Nuru paşa Aslan bəyin Manuku ağlagəlməz məsafədən vurub öldürməsini eşitdikdə hədsiz sevinmiş və bu möcüzəli qəhrəmanla görüşmək arzusunda olduğunu bildirmişdir. 1920-ci ildə Qarabağa gələrkən o dərhal adamlarına Aslan bəyə xəbər göndərməyi, görüş yerini təyin etməyi tapşırmışdı. Savalan Şirinov deyirdi ki, ilk görüşdə Aslan bəy əl ilə görüşmək istəyərkən Nuru paşa onu qucaqlayıb bağrına basmış və uca səslə "igidin adını eşit, üzünü gör" demişdir. Bu tarixdən As-

lan bəyə Nuru paşanın dostluğu başlanır və sonralar get-gedə dostluqları daha da möhkəmlənir.

Zəngəzurun verilməsinə və başqa haqsızlıqlara qarşı çıxan Aslan bəq qaçaqçılıq hərəkatına rəhbərlik edərkən Nuru paşa Aslan bəyi qorumaq üçün onun Türkiyəyə mühacirət etməsini təkid edir. Nuru paşa artıq bilirdi ki, Aslan bəyi həbs eləyib mühakimə olunması üçün içimizdə olan xain rəhbərlər ermənilərə vermək istəyirlər. Bu barədə Savalan Şirinov sonradan etiraf edirdi ki, Aslan bəyin göstərdiyi qəhrəmanlıqları çox yaxşı bilən Nuru paşa bildirirmiş ki, Aslan bəy biz səni itirmək istəmirik. Sənin Azərbaycanda qalmağın həyatın üçün təhlükəlidir. Aslan bəy də öz növbəsində bildirmişdir ki, mən əgər Türkiyəyə mühacirət etsəm, camaat deyəcək ki, Aslan bəy də başqaları kimi həyatı üçün real təhlükə yarandıqda canını götürüb qaçdı. əslində isə, Aslan bəyi o dövrdə yaxından tanıyan insanlar deyirdilər ki, mühacirət etməyi o heç cürə qürurına sığışdıra bilmirdi. Nuru paşaya bildirmişdir ki, burada bizim nə qədər igidlərimiz şəhid olub. Bizim canımız onların canından artıq deyildir. Beləliklə, Aslan bəy hökumətə qarşı çıxaraq Azərbaycanın içində 8 il qaçaqçılıq hərəkatına rəhbərlik edib (Lətif və Kərimin hərbi dəstələrinə).

****

Nəzər Heydərov "Zəngəzur dağlarında" kitabının 124-cü səhifəsində daşnak hökumətinin darmadağın edilməsini tamamilə təhrif edərək yazır ki, daşnak hökuməti başda general Nijde olmaqla Qafan dağlarına çəkildi və Meğridən İrana adladı. Birinci Qafqaz ordusunun hərbi komissarı Sviridov Myasnikovun adına vurduğu teleqramda bildirirdi: "Gorus 3.VII. 1921-ci il. Zəngəzur daşnak əksiqnqilabçılarından tamam təmizləndi və orada fəhlə-kəndli hökumətinin qəti qələbəsindən sonra bütün Zəngəzurda inqilabi qayda-qanu-

nun yaradıldığını bildirməklə Qafqaz korpusu özünü xoşbəxt hesab edir. İnqilabi komitələrə işi təşkil etməyə başlamaq üçün öz hüquqları və vəzifələri barədə təlimat verilmişdir. Başda Nijde olmaqla fırıldaqçılar dəstəsi İrana qaçdı. Hərbi komissar Sviridov. Bu məlumatla əlaqədər Azərbaycan bolşevik Kommunist Partiyasının MK-nin katibi yoldaş Kominski Bakıda həmkarlar İttifaqları qurultayında xəbər verdi. Teleqram alınmışdır ki, Nijdeyə qarşı aparılan hərbi əməliyyat qələbə ilə qurtarmış, iyulun 2-də səhər saat 4-də əksqinqilabçı dəstənin mərkəzi olan Gorus igid qırmızı əsgərlər tərəfindən tutlumuşdur. Daşnakları nə ağaları ingilis, amerika imperialistləri nə də ingilislərin göstərişi ilə dostluq etdikləri bəy müsavatçılar xilas edə bildilər.”

Görün nə qədər yalan danışır. Bu milləti aldadır. Əvvəla Aslan bəy Nərimanova ünvanladığı ittihamedici məruzəsində onun Semyonovla birlikdə Nijdeyə qarşı vuruşması, Qafan alınarkən başından yaralanması və Gorusada hərbi xəstəxanada yatması barədə 28-ci diviziyadan tibbi arayışı olduğunu bildirir. Təsdiqedici fakt kimi. Bu hiyləgər Nəzər Heydərov isə Kominskiyə istinad edərək bildirir ki, iyulun 2-də səhər saat 4-də əksinqilabçı dəstənin mərkəzi olan Gorus igid qızıl ordu əsgərləri tərəfindən tutuldu. Diqqət edin; əksinqilabçıların mərkəzi Gorus. Burada Aslan bəyin məruzəsinə nəzərə salaq. “Başımdan yaralandıqdan sonra Gorusda hərbi xəstəxanada yatdım.” Bir diqət edin, daşnakların mərkəzi Gorusda... Buna yalnız böyük cəsarət lazım idi. Yalnız qorxu bilməyən adam heç nəyi gözünə almadan Gorusda müalicə olunardı. Axı Nəzər Heydərov sən hər kəsdən yaxşı bilirdin ki, Semyonovun komandirlik etdiyi 28-ci diviziyaya faktiki komandirliyi Aslan bəy edib. Ersevənnikdə onları mühasirədən çıxarıb ölümdən xilas etdikdən sonra. Nijde qoşunlarının baş komandanı general Sumbatı şəxsən öldürdükdən sonra daşnak ordusu pərən-pərən düşmüş, bizim tərəf az itki ver-

məklə daşnakaları tamamilə məğlub etmiş, orada fəhlə-kəndli hökumətini qurmuşdur. Nəzər Heydərov gözəl bilir ki, məhz bundan sonra Qarabağda da Andranikin tör-töküntüləri, daşnak-quldur başçıları-Tevan, Tarxan və qeyrilərin də Sumbatın, Manukun gününə qoymaq üçün məhz Asalan bəyi bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı vəzifəsinə, general səlahiyyətli bir vəzifəyə irəli çəkirlər. Bütün bu qələbənin müəllifi olan Azərbaycanlı balası Aslan bəyə, general Semyonova və polkovnik Çelova qızıl medal verilib.

Bütün bu hadisələrin canlı şahidi olan Nəzər Heydərov tariximizi bu qədər saxtalaşdırmaqla ağa qara deməklə kimlərin dəyirmanına su tökür? Bu sualın cavabı birmənalıdır. Milli tariximizi saxtalaşdıranlar qeyd-şərtsiz düşmənin dəyirmanına su tökür. Düşmənin dəyirmanına su tökənlərə isə milli xainlər deyilir.

Daha sonra başqa bir böhtan yazır. "Daşnakları nə ağaları nə ingilis-amerika imperialistləri, nə də ingilislərin göstərişi ilə dostluq etdikləri bəy müsavatçılar xilas edə bilmədilər." Diqqət edin guya ingilislərin göstərişi ilə bəy müsavatçılar xalqımızın ən qatı düşməni olan daşnaklarla dostluq edirmişlər. İnsan bu qədər riyakarlıq edər? Həmin bəylərin bir nümayəndəsi olan Aslan bəy sən qaçıb gizlənərkən Nijdedən, Drodan və başqa daşnaklardan millətin qisasını alırdı. Belə olmasaydı Nəriman Nərimanovun komissiyası Aslan bəyi "vraq armyan" yəni "erməni xalqının düşməni" adlandırmazdı. Müsavat hökumətini daşnak hökuməti ilə dostluq etməkdə ittiham etmək ən azı bizim tariximizə və millətimizə xəyanətdir. Bəylərdən bu qədər ürək yanğısı ilə danışan Nəzər Heydərov görəsən ona himayədarlıq edən, onu sonralar özünün təbiri ilə desək türmədən çıxartdıran Çingiz İldırım bəy deyildimi? (Aslan bəyin əmisi oğlu olub). Nəzər Heydərov 87-ci səhifədə yazır ki, atama başa saldılar ki, Çingizin qəbuluna getsin. O Şuşada qubernatorun idarəsində işləməklə bol-

şeviklərə kömək edir. Və o zaman bu sözü eşidən İmran təəccübünü gislətmədən dedi: -Çingiz bəyin?

- Bəli, Çingiz bəyin, niyə təəccüb eləyirsən? Məgər sən bilmirsən ki, Şuşada qubernatorun yanında işləməklə Çingiz bəy bolşeviklərə kömək edir?

Qaragin sözünə bir qədər ara verib dedi: Çingiz İldırımı başa salacaqlar, o Nəzərin atasını qəbul edəcək. Qaragözov Abbas Sultanovun vasitəsilə Çingizlə əlaqə saxlayacaq. (Abbas Sultanov Çingiz İldırımın əmisi oğlu idi. Zəngəzur bolşevikləri bu əlaqədən istifadə edirdilər.) Göründüyü kimi, Nəzər Heydərov sənin əqidə qardaşın Abbas Sultanov da bəy nəslindədndir. Sonra **89-cu** səhifədə yazır ki, Çingiz atama verdiyi sözü yerinə yetirdi və üçümüzü də həbsdən azad etdilər.

Nəzər Heydərov kitabının **102-ci** səhifəsində yazır: "İyunun əvvəllərində Xinzirək kəndində məktəbin qabağındakı böyük bir meydançada mitinq oldu. 1920-ci ilin mayın 28-də general Dro bu kənddə zəhmətkeşlərin üsyanını vəhşicəsinə yatırıb onlara qanlı divan tutdu. Zəngəzurun erməni tərəfinin fövqəladə komissarı Armenak Qaragözovun atası Mkrtıç Qaragözovu camaatın gözü qarşısında gülləmişdi".

**90-cı** səhifədə yazılır ki; "Molla Abbasın həbs olunması, camaatın qabağında döyülməsi, onun mənimlə, qardaşımla, bütün qəzanın içi iıə yatab edilməsi xalqı müsavat hökuməti əleyhinə daha da qaldırmışdı".

Nəzər Heydərov bu abzasla özünü və Molla Abbası xalqın sevimlisi kimi qələmə verməklə yenə oxucularını aldadır. Arxiv sənədlərindən, xatirələrdən, hətta özünün yazdığı fikirlərin dəqiq analitik təhlilindən məlum olur ki, o dövrdə Nəzər Heydərovun heç bir nüfuzu olmayıb, bu sətirləri yazmaqla özünü guya ki, bir nüfuzlu adam kimi, qələmə verməyə, guya ona görə xalqın müsavat hökumətinə qarşı çıxmasını yazır. Bununla o özünün riyakar olduğunu bir daha sübut edir. Biz

yaxşı bilirik ki, lazım olanda qaçmağa üstünlük verən, gizlənməyə, gizli donoslar yazmağa üstünlük verən bir adamı camaat hansı əməllərinə görə sevə bilərdi? Onun bu fikirlərinin arxasında bu və ya başqa şəkildə yenə Aslan bəyə qarşı olan düşmənçilik dayanır, çünki Nəzər Heydərovu da, Molla Abbası da, Nəzərin qardaşını da cinayətkar fəaliyyətlərinə görə məhz Aslan bəy həbs etmişdi!

**103-cü** səhifədə isə bir qədər də irəli gedərək daşnakların və müsavatçıların Azərbaycan xalqının düşmənləri olduğunu bildirir. Diqqət edin yazır ki: "...erməni xalqı ilə Azərbaycan xalqının düşməni olan daşnakların və müsavatçıların kim olduqlarını aşkar sübut edir." Xalqımızın düşməni olan daşnaklarla xalqı üçün tarixi əhəmiyyət kəsb edən müsavatçıları eyniləşdirmək nə deməkdir?

Diqqət edin, o, müsavatçıların daşnaklar qədər Azərbaycan xalqının ən qatı düşməni olduğunu göstərir. Hansı ki, bu gün biz müsavat hökumətinin şərqdə ilk dəfə demokratik bir dövlət qurduğu ilə fəxr edirik. Nəzər Heydərov bu böhtanları ilə özünün bu xalqın düşməni olduğunu sübut edir. İkinci o göstərir ki, general Dro A.Qaragözovun atası M.Qaragözovu camaatın gözü qarşısında güllələyib. Nədənsə göstərmir ki, Dro 1920-ci ilin mayında Şuşadan Zəngəzura gəldikdən sonra Aslan bəy Vəli düzündə (Zəngəzur ərazisində) Dronun böyük bir qoşununu öz hərbi məharəti nəticəsində müasirəyə salaraq darmadağın etmiş, daşnakalardan qənimət olaraq çox böyük hərbi sursat ələ keçirmişdir. Aslan bəy bundan sonra Dronun məğlubiyyətindən əldə etdiyi pulemyotları öz dəstəsinin üzvlərinə paylamışdı. Bir də bunu xüsü olaraq qeyd etmək lazımdır ki, o zaman Qafan, Gorus, Meğri, Sisyan və Zəngəzurun bütün ərazisində Andronikin ən qəddər generallarından biri olan general Dro da həmin o daşnak hakimiyyətinin dağıdılması hərbi planını həyata keçirilən zaman burada məhv edilmişdir. Bunu xatırlatmağa ehtiyac olmasa da qeyd

edim ki, həmin o hərbi planı müəllifi də Aslan bəy Sultanov olmuşdur, məhz Nəzər Heydərovun dediyi bəy. Bu müqayisəli təhlilləri aparmaqla çalışırıq ki, gec də olsa xalqımız həqiqətləri bilsin. Kimin qəhrəman, kimin xain olduğunu özü təyin etsin. Çingiz İldırımı tərifləyərkən görəsən nədən kitabında yazmır ki, 1925-ci ildə onun doğma qardaşı Şamil bəy Sultanovu (arxiv sənədləri də bnunu təsdiq edir. Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi. **Fond 1, siyahı 74, saxlama vahidi 146**) antisovet fəaliyyətinə görə həbs ediblər. Daha çox təssüf doğuranı isə odur ki, atası İldırım bəy kimi bir kişi oğlu Çingizlə küsülü olaraq dünyasını dəyişib. Atasının oğluna qarşı ittihamı o olub ki, Çingiz bizi kafirlərə satdı. Görəsən İldırım bəy kafir deyəndə kimləri nəzərdə tuturdu? Yəqin ki, onun siyahısında içimizdə olan kafirlər də vardı. O cümlədən Nəzər Heydərov kimiləri də... Hansı ki, kitabında açıq etiraf edir ki, biz Allaha inanmırıq (83-cü səhifə). Kitabın **163-cü** səhifəsində yazır: "Bəhlul əfəndi məndən soruşdu:- Bəylərlə niyə yola getmirsiz? Mən cavab verdim: Bəylər bizim sinfi düşmənimizdir. "

Bu yerdə bir sual meydana çıxır; Sənin əlaltılıq etiyin Abbas Sultanov (Aslan bəyin əmisi oğlu), Çingiz İldırım (Aslan bəyin əmisi oğlu) bəy deyildimi? Onlar sinfi düşmən hesab edilmirdimi? Xeyir, burda söhbət bəydən, rəiyyətdən getmir, sadəcə olaraq mənəviyyat və mənəviyyatsızlıq önə çəkilir. Kim xəyanətkar, satqın, əqidəsizdirsə onlar sinfi dostlar, kimin əqidəsi, mənliyi varsa sinfi düşmənlərdir. Əsl həqiqət budur.

Kitabın başqa bir yerində (səh 20) yazır: Sultanovların ulu babası guya bunları istismar edib, hələ farsların hakimiyyəti dövründə Nəcəf bəy (Aslan Sultanovgilin ulu babaları) Gürcülü kəndinin (Nəzərgilin kəndi) ilk feodal ağası olub. O Nəsir Sultanın nəslindəndir. Kənddə olan hər şey onun ixtiyarında idi. Nəcəf bəyin dörd oğlu var idi; Əsgər bəy, Niftalı

bəy, Qasım bəy və Abdulla bəy. Axı onlar eyni zamanda sənin sinfi dostların sayılan Çingiz İldırımın, Abbas Sultanovun da ulu babalarıdır. Aslan bəygilə gələndə oxucunu çaşdırmaq üçün onalrı bəy və sinfi düşmən kimi qələmə verir. Onları feodal ağalar kimi göstərir. Onların nəslinə gələndə yenə oxucuları çaşdırmağa çalışır. Kitabın 16-cı səhifəsində yazır ki, keçmiş Zənəgzur qəzasında üç Sultanovlar nəsli yaşayırdı. İndiki Laçın rayonuna daxil olan Kürdhacılı kəndindən olan Sultanovlar, əslən ata-babadan mülkədar deyildilər. Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanovun babası çarvadar olmuşdur. O zaman xalq arasında deyirdilər, "Hər oxuyan Molla Pənah, hər qatırçı Murad olmaz". Həmin o qatırçı Murad o Sultanovların babası idi. Murad varlanıb Əsəd Sultanlı bəyin qohumunu almışdı. Öz doğma oğlu Paşanı isə Əsəd Sultanlı bəyin oğlu kimi qələmə vermişdi. Guya uşaq yetimdir, dul anasının yanında gəlmişdir. Laçınlı Sultan bəygilin Muradov olmasını arxiv sənədi də təsdiq edir. Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər arxivi, **fond 1, siyahı 2, saxlama vahidi 18** qrifi ilə qorunub saxlanılır. Həmin sənədləri sizə təqdim edirik:

Fond 1 Siyahı 2 İş 18 55 34 60

П Р О Т Е С Т

КУРДИСТАНСКОГО КОМИТЕТА А.К.П. ЦЕНТРАЛЬНОМУ КОМИТЕТУ А.К.П.

Глубоко сознавая, что великие обстоятельства революции и после дующие дальнейшее развития ставили себе одну цель:

Классовая дифференциация и через нее освобождение многомиллионного пролетариата от рук кучки безответственных угнетателей мы курдские коммунисты выражаем протест по отношению к Центральному Комитету А.К.П. по поводу индиферентного отношения к тем жестокостям, мукам чертовским, [illegible] подвергается и по ныне курдское крестьянство со стороны Султанбекова и Шушинским арендников. Мы получаем ввиду литературу, Центрального комитета, которые призывают нас сбросить с себя ярмо беков и [illegible] подобных угнетателей и сейчас вооруженные великолепными лозунгами великих вождей намеревается снять с арены проклятого врага курдского пролетариата Султан-бека Мурадова. Но Шушинский Уездревком и [illegible] комячейка состоящая исключительно из сторонников Султан-бека взял под свою неприкосновенную опеку такое лицо как разнузданные деспот Султан-[illegible] Мурадов. (Шушинская) власть подаваясь наветам Шушинским арендников и считают своим [illegible] защищать Султан-беке и превосходительство, бывшего Генерал губернатора Асфров Бека Султанова, а те гонения, лишения, коим подвергаются [illegible] ские работники не поддаются описанию.

Утруждать Вас широкими посланиями мы не намерены, так как до сих пор посланы в Центральной Комитет ряд обстоятельственных докладов о бесконечных отношениях о воплях и стонах курдских крестьян.

Но глас наш остался гласом, вопиющего в пустыне. Невтерпеж [illegible] крестьянству переносить гонения Султан Бека его Шушинских [illegible] ставленников.

За последующий события в Курдистане вся ответствен-ность падает на Вас, как на старших товарищей.

СЛЕДУЮТ ПОДПИСИ.

## İkinci arxiv sənədi

Fond 1 Siyahı 9 İş 18

57

РЕВВОЕНСОВЕТ Р.С.Ф.С.Р. КОМАНДАРМИИ КАВКАЗСКАГО ФРОНТА, РЕВВОЕНСОВЕТ XI АРМИИ, КОМАНДАРМИИ XI, Ц.К.А.К.П., Ц.К. АРМЕНИИ Ц.К.Р.К.П., КАВКАЗСКОЕ БЮРО Р.К.П. и всем, всем всем рабочим органи.

Долгие годы трудовое крестьянство Курдистана влачило свое жалкое существование под ярмом царского ига, под пяткой беков Мурадовых, Султановых под плетью николаевских чиновников. Особенно тяжело отзывалось на духовном и физическом благосостоянии крестьянства двадцати пяти летнее владычество Султан-бека Мурадова, благодаря подкупам и для обхода законов свою тиранию с того, что получил должность волостного старшины Гаджисамлинского общества. Выгнанный из родительского дома нагишом он с широким своим вымогательством в течении трех лет службы нажил себе громадное состояние. Сделавшись богатейшим феодалом Курдистана, заткнув своими щедрыми дарами и всевозможными преподношениями все клапаны николаевского режима Елизаветпольской губернии он дал размах своему разнузданному, раз[illegible]ному характеру.

I| В николаевское время Султан-бек тиранил все села Гаджисамлинского общества: I| 1907 убил жителя сел. Чорман-Ханлара Махрали оглы, 2| убил жит. сел. Пичинис-Аласкара, 3| убил жит. сел. Карабекулу- [illegible] Вердия, 4| убил жит. того же сел. Карабекулу Аб-Дуллаха. Нечего говорить о [illegible] Султан-бека, [illegible] Плекчи, Кур-Хаджа, Ариклу-Пураджин, [illegible], что лучшие [illegible] крестьянства сделались [illegible] Султан-бека, а лучшие девицы курдинки пали жертвой циничного самца: I| убил жителя селения Чорман-Савзалия Шахмули оглы, жену его [illegible] по сие время Искендер-бек, брат Султан-бека держит любовницей у себя.| по имени Самовар Гашим Кизы|: 2| убил жит. сел. КУРТ-ХАДЖИ некоего Савзали из-за красивой жены, после смерти мужа, жена конечно не согласилась на циничное предложение бека, и была убита. Двоюродную сестру Нифталия Новруз оглы жит. сел. Ариклу насильно бек взял к себе, забеременил и через|некоторое| некеров убил ее. Тысячу подобных голых и ужасающих фактов.

II. В дни Керенщины коварный деспот: I| убил настроенного в пользу курдского крестьянства родного своего брата Багатура, 2| сжег на костре жит. сел. Биловлу-Махмуда, 3| розорил жит. сел. Биловлу угнал скот, жену и детей и целыми месяцами держал Султан-бек жену [illegible] биловлинца Гарая.

III. Мусаватская власть сделала Султан-бека королем Курдистана, дала ему широкие права, полномочия в деле угнетения курдистанского крестьянства.

I| кому не известна дикая расправа Султан-бека с Котрулинскими беками.

а| убийство среди белого дня жит. сел. Тиркишелат Султан-бека Асадбекова и матери его.

б| убийство Салман-бека Абасс-бек оглы.

2| В 1919 году Султан-бек убил престарелого вождя Курдистанского крестьянства жит. сел. Дашты Гусейна Калантарова.

3| убил жит. сел. Зоркошин Китиш Гаджи Хан Оглы.

4| изнасиловал более 20 девиц на сел. Гатамлар, две из коих покончили жизнь самоубийством,

а| Шесть невинных дочерей Мехти жит: сел. Гатамляр обслуживали похоти Султан-бека.

5| Изнасиловал 14 летн. девицу Роста Мамед Хан кизы ж:с. Алхасу

6| Кахлих Зейнал Кизы жит. сел. Алхаслу.

7| Инишар Кербалай Верды Кизы.

Все эти периоды нашей злополучной жизни для нас казались естественными, т.е. в эти периоды наша жизнь была жалкой игрушкой руках беков ханов и их прихлебателей.

Несчастные, забитые и загнанные курдские крестьяне искали исхода из создавшегося трагического положения и исход этот крестьянство нашло в лице великой октябрской революции, поэтому лучшие сыны Курдистана и для партии ревностно работали в красном подполье и дни за днями ждали великих лучей красного солнца, оно взошло над Азербайджаном 27 Апреля 1920 г. и освободило из под палки бекоханской власти, истреблявшее крестьянство Казаха, Шамхора, почему то Курдистанское крестьянство очутилось в роли пасынка пред великой матерью-Октябрской революцией. НЕУЖЕЛИ, наши отцы и дети сидели в тюрьмах благодаря всесильной воли генерал-губернатора Карабаха. Хосров-бека Султанова из-за того, что за распостранением Советвласти на Азербайджане вновь подпасть под владычество Султан-бека и его клевретов и шушинских аршинков. Во время Карабахской контр-революции Султан-бек задержал Васего ответственнаго работника тов. Аббаса Султанова, и убил незаменимых партийных работников в Курдистане тов. Молла Магомеда [illegible]идова, жит. Баяндура Гамза Ахмедова жит. сел. Кара-Кешиш.

Хитроумный тиран применяет по отношению Рабоче-Крестьянской власти те же способы, кои он применял по отношению старой власти обезпечивая свое положение в Шуше в лице его лучших ставленников Идрис Бека Ибрагимбекова [illegible] мусаватский следователь|, Гусл Гудаева мародер Шушинского реального училища, сын известного купца. Ныне занимает пост зампредревкома

Шушинского уезда, Мир Тагиев- известный Бакинский спекулянт| "ограш" картежник|, ныне является уполномоченным от Шушинского Уезревкома в Курдистане, Шамиль бек Махмудбекова известный бек ... уезда, ныне занимает пост Председателя Шушинского Уездревкома, Сурхай Бек Алигезалбекова сын известного Карабахского помещика-деспота| ... крупный ... партий националистов "Иттихада"|, ныне является секретарем Шушинской [redacted] компартии. Гилал хозяин под руководством которого разгромлены Красно-армейские части в гор. Тертер, ныне является уполномоченным по продовольствию в Карабахской области и ряда белоручек интелегентов, которые легко соблазняются медом и маслом деспота Султан-бека и ввергают в адкромешный несчастных курдских крестьян к такому явлению у нас в руках имеется ряд неопровержимых фактов:

а| Курдистанский ревком, начиная с 5-го мая до Карабахской контр-революции все наши информации о злодеяниях Султан-бека с легкой рукой Идрис-Бека Ибрагимбекова мнимого большевика, перепровождались из Шуши Султан-беку и мы неоднократно писали о козням Идриса в Шуше предобревкому, но ни кто не обратил внимания, однако сам Идрис во время Карабахской контр-революции показал свою политическую физономию.

б| После Карабахской контр-революции приехал в Курдистан в качестве политического работника Сурхай-бек Алигезалбеков, который предался наслаждению в лучших хоромах Султан-бека и забыл, что в десяти шагах от него весь в синяках и тяжелых оковах сидит его партийный товарищ Аббас Султанов: до чуткого слуха Алигезалбекова должны были долетать бесконечные стоны избитого и страдающего партийного товарища секретаря Курдистанской коммунистической партии Зияда Мамиева.

Сурхай Алигезалбеков враг сантиментальности ему нужно было организовать "Бекский ревком" во главе этих " ревкомов" поставить кулаков и следовательно сторонников деспота т.е. возобновить и усилить его величества Султан-бека Курдова.

Задерживающего Аббас Султанова некоего Мамед Багира Чанлар оглы, бывшего нашего партийного товарища Гамза Ахмедова, Джафар Кули Гутвели оглы, истязавшего до оморочного состояния тов. Аббас Султанова, Чепали Бека Набибекова всех этих злодеев мы задержали и направили в Полит-Бюро Карабаха, но славный начальник Полит-Бюро освободил врагов Курдского крестьянства и обвинительный материал их превратил в курительную бумагу и раздал своим милиционерам | во время ареста телохранителя Гаджи-Гаджи Залин Гасана Ялыр оглы тов. Джамиль Везирзаим в сел. Минкенд из кармана Гасана достали ряд отношений Минкенского учревкома|, тот же Гуси арестовал благодаря различным интригам наших милиционеров и всячески угоарривал их пыкать Курдских коммунистов | задержан был милиционер Селим Искендер оглы, Гусейн Хан Худавердиев Нарай Мусаев ... Кули Мусаев, Гибиру Гусейн оглы, Аббас Султанов, Гасан Насир оглы и др. подвергались таким пыткам со стороны Шушинских аршинников|.

Излогая все вышеприведенное, мы, делегаты Курдского крестьянства обращаемся к могучим своим братьям Бакинским, рабочим, с требованием освободить нас от цепких когтей Султан-бека Муралова и его прихлебателей Шушинских аршинников, обращаемся к могучей Красной Армии с ... ... мы радись вместе, как родные братья против врага Армянской бедноте ...

Братья рабочие, красноармейцы, матросы, и красные аскеры, знайте, что лучшия сыны Курдистана с оружием в руках стоят против дашнаков и Султан-бека и Ваш долг склонить центральную власть Советской Республики на то, что раз на всегда нужно покончить с Султан-беком так, как этого с Вас требуют обесчещенные похотливым Султан-беком Ваши Курдские сестры, забытые загнанные Ваши Курдские братья, замученный голод ... Курдских Товарищей [redacted] которые пали Султан-Бекской тирании.

Помните, что все это изложенное есть последний вздох умирающего отдеспотического правления Султан-бека, несчастного, бедного крестьянства Курдистана.

Добовляем по отношению к Бакинским рабочим, что Курдская беднота не имела возможности, благодаря Шушинским аршинникам, пользоваться Вашими подарками для Неделя Крестьянина. Эти подарки через Гелал хозяинов Гусейнова, Мир Джаббара Мир Тагиева послали Султан Беку Муралову, который раздал своим агентам Рустаму Усуб оглы жит.сел. Мишни, Абдула Беку Абдулазим бек оглы жит.сел. Араблу и Маш Гамид Беку Набибекову с того же села Молла Шахвердиеву Тар Кули оглы ж.с.Алпаут.

Более сорока Карабахских беков контр-революционеров в лице жит. сел. Нетгаулар Шушинскаго уезда Абульфат бека Гасанбекова, Мамыш бека Кабирлинского, Карабека Аллахвердова, Керим бека Калабекова Бехбудовых и вся Карабахская контр-революция нашли гнездо у Султан-бека. Огнеприпасы контр-революционеры получают из гор. Шуши от Сурхай Бека Алигезалбекова, Сабунчи Магомеда, Гуси Гаджиева, Гилал Гусейнов и Мир Джабар Тагиева и его Ко | недавно доставлен 70 ящиков турецких патронов два пулемета.|

Курдистан делится на две части: Гаджисамлинский и Минкенский, первый контр-революционный возглавляемый Султан-беком и Мир Джаббаром Тагиевым в виде "советской" власти, второй Минкенский район состоящий из 25-ти сел есть действительно коммунистический и советский с 450 ... нами и кандидатами ...

## Laçınlı Sultan bəygilin Sultanov deyil Muradov olmasını arxiv sənədi təsdiq edir

Sonra yazır: "Qubadlı və Hacılı kəndlərində yaşayan Bərgüşadlı Sultanovlar isə kürd idilər və ata-babadan mülkədar idilər".

Bundan sonra yenə oxucuları çaşdırararq yazır ki, "...üçüncü Sultanovlar Zəngəzurun Ermənistan tərəfində yerləşən Danzaver və Azərbaycan hissəsində yerləşən Pirçivanda yaşayan Sultanovlar nəslən zadəgan idilər, özləri də türkmən idilər".

Yenə tarixi saxtakarlıq, yenə yalan.

Tarixdən məlum olduğu kimi Mac kəndi ilə Danzaver kəndi arsında 3 km. məsafə var. Mac kəndi Aslan bəyin atası Kərbəlayi Hüseynə məxsus olub. Danzaver kəndinin əvvəlki adı isə Armudluq olub, sonra ermənilər adı erməniləşdirərək Dansaver ediblər. Dansa elə ermənicə armud deməkdir. Göründüyü kimi bu kəndlər iki doğma əmioğlulara məxsus kəndlər olub. Bu adam doğma əmioğlanların nəslini bir yerdə kürd, başqa bir yerdə isə zadəgan və ya türkmən olduğunu yazmaqla, oxucları aldatmaqla nəyə nail olmaq istəyib. Bu adam görəsən həqiqətənmi anlamırdı ki, zadəganlıq dedikdə Azərbaycanda elə bəylik, xanlıq nəzərdə tutulur? Tarixdən məlumdur, təkzibolunmaz faktlarla və arxiv sənədləri ilə görkəmli tədqiqatçı Ənvər Çingizoğlunun araşdırmalarına əsasən sübut olunub ki, Zəngəzurda yaşayan bəy Sultanovlar bir nəsildi. Sonradan onlar müxtəlif yerlərdə məskunlaşıblar. Beləliklə bu insanın həmin nəsli nədən parçalamaq niyyəti aydın deyil.

Görəsən Nəzər Heydərovun bütün bu hadisələri və tarixi faktları təhrif etməkdə ürəyindəki qisas hissinin səbəbi nə idi? Bu sualın cavabını tapmaq üçün Nəzər Heydərovun öz

məntiqinə istinad edərək kitabın **32-ci** səhifəsindəki fikirlərə diqqət edək: “1909-cu ilin baharnda Şirəli bəy Sultanov kəndlilərini bəylərin meyvə bağlarına arx çəkməyə toplayırdı. Şirəli bəyin nökəri kəndə gəlib Molla Abbasdan at istədi. Mollanın arvadı, mənim bacım (N.Heydərovun bacısı) atı vermədi. Buna görə də nökər bacımı söydü. Mən buna dözməyib nökəri daşa basdım və söydüm. Səsə qadınlar çıxdılar və atı aparmağa qoymadılar. Mən həyəcanlanmış halda bəyə şikayət etməyə qaçdım, düz bəyin üzünə dedim:- Niyə sizin nökər atımızı aparır, üstəlik bacımı da söyür? Bəy sözümə axıra kimi qulaq asmayıb yaxamdan yapışdı, məni döyməyə başladı. Yanımızda bir dəstə kəndli dayanmışdı, dayım da, əmim oğlanları da onların arasında idi. Onların hər biri istəsə bəyin qol-qabırğasını sındırardı. Ancaq heç biri cürət edib məni bəyin əlindən almadı. Mən döyülmüş, suyu süzülə-süzülə evə qayıtdım. Molla Abbas bu zaman Gorusda idi. O, bu əhvalatı eşidib Sultanovların ağsaqqalları Cabbar bəyə və Rüstəm bəyə məktub yazdı. O məktubda onlara xəbərdarlıq edirdi. “Dəlinizə öyüd-nəsihət verin, bizim də dəlimiz var.” Yayda, biçindən sonra biz bir aylığa Danzaverin üç kilometrliyindəki Mac kəndinin yaxınlığındakı yaylağa köçdük. O vaxt bizim bəylər orada yaşayırdılar (Aslan bəyin babasının kəndi). Dumanlı, qaranlıq bir gecə it səsinə alaçıqdan eşiyə çıxdıq və alaçığın qabağında bir-neçə atlı gördük. Qonaq bilib atlarının başını tutduq, ancaq gözlənilmədən mənə bir neçə tatarı dəydi. Mən atın cilovunu buraxıb alaçığın yaxınlığındakı kolluğa qaçdım. Əmim oğlu Ələkbər də tez qaçıb mənim yanıma gəldi. Biz Calal bəy, İsmayıl bəy, Həmid bəy Sultanovları və onların nökərlərini tanıdıq. Calal bəy çar zabiti idi. O qəzaya gələndə polislər də qorxularından o gedənə qədər gözə görünməzdilər. Calal bəy cəzasız filansız istədiyi adamı öldürər, heç kəs ondan şikayət etməyə cürət et-

məzdi. **Bizim və bacımgilin alaçığında baş verən əhvalata kolun dalından tamaşa edirdik**. Calal bəy qahala (tövlə kimi bir yer) girib nökərlərə əmr etdi ki, dörd sağmal inəyi çıxarıb kəssinlər. O dövrdə kasıb adamda 4 sağmal inək haradan ola bilərdi. Heyvanların ayağını iplə bağlayıb böyrü üstə yıxdılar. Nökərlər əllərində iti bıçaq Calal bəyin üzünə baxırdılar. Yəqin onlar bu dəqiqə düşünürdülər: Axı bu inək boğazdır, ətini yemək olmaz. Həm də sağmal inəyi kəsmək günahdır. Calal bəy bağırdı, nə durmusuz, sizə deyirlər kəsin! Nökərlər inəkləri kəsdilər. Ancaq ucaboy, qüvvətli bir adam olan Abbas Məmmədhəsən oğlu, - bəy ona da kəsməyi əmr etmişdi,- bıçağı yerə atıb dedi: -Mən elə bilirdim sizin bir az da olsa insafınız var. Bəy əmr eləsə də qonşumun inəyini kəsmərəm. Bəy onun kəsmək istəmədiyi inəyi nökərə kəsdirdi. Kimsə alaçığın keçəsini qaldırdı. Qoca atam bəyi görüb, yavaş-yavaş, qıçları əsə-əsə qabağına yeridi. – Hanı yeznən? – deyə bəy onun üstünə qışqırdı və qolaylanıb qocaya bir şillə çəkdi. Atam yerə sərildi. Mən bəyin üstünə atılmaq istədim, lakin əmim oğlu Ələkbər qoymadı. Qorxu-hürkü bilməyən böyük bacım qışqıra-qışqıra alaçığa girib atamın başını qucaqladı və qocaya dedi: -Qalx ayağa! Düşmənlərimiz gülər, bir gün allah onların cəzasını verəcək. Calal bəy tez ona tərəf döndü və soruşdu: -Bu arvad kimdir? Cavab verdilər ki, Molla Abbasın külfətidir. Belə de! Axır ki, əlimə keçdi. Eybi yoxdu, biz allahın iradəsini bu saat sənə göstərərik. Calal bəy bunu deyib bacımın qolundan yapışdı və onu alaçıqdan bayıra atdı. Bacım yerdən qalxıb tez alaçıqlarına qaçdı. Calal bəylə İsmayl bəy də onun arxasınca alaçığa girdilər. Alaçığın girəcəyində köhnə samovar, stəkan və dəm çayniki var idi. Bəy bir təpiklə samovarı aşırdı, samovar beş yaşlı bacıoğlum Həsənin üstünə düşdü, xoşbəxtlikdən samovarın suyu soyuq imiş... Ancaq uşağın üzünü qanatmışdı.

Bacım özünü uşağa tərəf atdı. Lakin onun qabağını kəsdilər. Calal bəy qışqırdı:

– Ərin hanı? Hanı sizin dəliləriniz?

– Özünüz yaxşı bilirsiz ki, ərim Gorusdadır. Məndən nə istəyirsizniz? Əgər sizə ərim lazımdırsa gedin tapın.

– Biz sənin dilini kəsəcəyik, ifritənin biri.

– Arvadla arvad dalaşar. Axı siz deyəsən kişisiniz?

Calal bəy bacımın saçından yapışıb sifətinə bir yumruq ilişdirdi. Bacım alaçıqdan çıxıb qaçdı. Nəzər nə üçün Çingiz İldırımı köməyə çağırmırdı. Axı Calal bəy Çingizin əmisi oğlu idi. Kimsə sənin bacını şillə ilə vuranda özün niyə ortalığa çıxmırdın?

Bütün bu məsələləri kolun dalından izləyən Nəzər Heydərov atasını, bacısını Calal bəy şillə ilə vuranda qorxusundan səsini də çıxara bilməmişdir. Hələ utanmadan kitabında bu hadisəni yazır, eyni zamanda özünün kim olduğunu açıq-aydın göstərir. Ancaq vaxtı gələndə Calal bəyi etdiyi günaha görə Aslan bəy cəzalandırır. Onu qəzadan  qovur. Nə Çingizin, nə də Abbasın cürəti çatmazdı ki, Calal bəyə nə isə desin. Ancaq göründüyü kimi lazım olanda Calal bəyi etdiyi hərəkətə görə Aslan bəy cəzalandırır.

Calal bəy bizim alaçığa qayıdıb atamın yanında oturdu. Atam bu müddət bir balaca özünə gəlib yerdən qalxmışdı. Calal bəy cibindən bir parça kağız və karandaş çıxartdı. Tapançanı qocanın gicgahına dirəyib dedi:

– Nə desəm bu kağıza yazarsan, yoxsa öldürəcəyəm.

Atam bilirdi ki, bu yaxınlarda Calal bəy Pirçivanlı Seyid Məcidi öldürüb. Heç kim də ona bir söz deyə bilməyib. Qoca kişi barmaqları əsə-əsə bəyin dediklərini ərəb əlifbası ilə yazdı:- "Möhtərəm Molla Abbas, böyük oğlun Həsən bu gün öldü. Tez bir qədər çay, qənd, ağ və stifkafir al gəl. Sənsiz dəfn etməyəcəyik."

Calal bəy dartıb kağızı qocanın əlindən aldı. Əmim oğlu Məhərrəmi yanına çağırıb kağızı verməmişdən əvvəl ona bərk bir şillə çəkdi, sonra dedi:

– Mollanı bura gətirməsən, səni öldürəcəyəm. Bu dəqiqə çap yanına.

Bəy alaçıqdan çıxanda ona tərəf gələn qoca, arıq, sümükləri çıxmış, ucaboy bir arvadla toqquşdu.

– Bu qoca kaftar kimdir?

– Molla Abbasın anası, Nərgiz qarıdır, -dedilər.

Calal bəy soruşdu:

– Hanı oğlun?...”

Onu da qeyd edək ki, həmən bu Calal bəy Sultanov Abbas Sultanovla Çingiz İldırımın əmisi oğludur.

Guya Molla Abbas bunların lotusuymuş...

Bu məsələdə də Nəzər Heydərov əslində Calal bəyin nə üçün onlara gəlməyini, nədən Molla Abbası axtardığının səbəbin açıqlamır. Əslində isə hadisə belə olub. Nəzər Heydərovun özünün də bildirdiyi kimi guya ki, Şirəli bəy Sultanov Nəzəri döydükdən sonra Nəzər də bu hadisəni özlərinin ağsaqqaları, yeznələri Molla Abbasa çatdırır. Molla Abbas da Sultanovların ağsaqalları Cabbar bəyə və Rüstəm bəyə ultimativ şikayət məktubu yazır, məktubun mətni ilə yuxarıda sizi tanış etmişik.

Bu söhbət də Calal bəy qəzayə gələrkən ona çatır, o da əsəbləşib ki: Axı bu Molla Abbas nə karədir ki, bizim ağsaqqalları hədələyir? Calal bəyin Molla Abbası axtarmağının əsas səbəbi elə budur. Calal bəy məktubda sözlərlə qoçaqlıq edən adamı üzbəüzdə görmək istəyir. Molla Abbas isə məktubu yazdıqdan sonra qorxudan gedib Gorusda gizlənirdi. Çünki Molla Abbas yaxşı başa düşürdü ki, onun başından böyük etdiyi qələt ona ağır başa gələ bilər. Ona görə də erməni qardaşlarına sığınmışdı. Məhz Nəzər kitabında qeyd etdiyi

kimi atam Calal bəyi görəndə qıçları əsməyə başladı. Çünki atası Calal bəyin Pirçivanlı Seyid Məcidi öldürdüyünü yaxşı bilirdi və Nəzər Heydərov kitabında yazmasa da atası Seyid Məcidin nə üçün öldürüldüyünü də yaxşı bilirdi. Hadisəni görənlərin dediklərinə görə bir gün Calal bəy məclislərin birində görür ki, Seyid Məcid bir kənarda oturub. Onun dövrəsində olanlar da araq içib şənlənirmişlər. Bunu görən Calal bəy hörmət- izzətlə Seyid Məcidi yanına çağırır və ona bir onluq qızıl verir:

– Sən seyid adamsan,-deyir,- biz burda araq içirik, sənin burda oturmağın düz deyil, get qızılı xırdala, yaxşı bazarlıq elə, otur evində ailənin yanında.

Seyid Məcid onluğu alıb, Calal bəyin əlindən öpərək ona təşəkkür edib və çıxıb gedib. Məclisin şirin yerində Calal bəy qəfildən Seyid Məcidin qayıdıb öz yerində, araq içənlərin yanında oturduğunu görüb və əsəbləşib, oturduğu yerdən hirslə deyib:

– Seyid, axı sənə dedim ki, burda araq içilir, sənin burda oturmağın düz deyil, sənə pul da verdim ki, gedib ailənən oturasan, niyə qayıtdın?

Seyid zarafata salaraq cavab verib:

– Oturmuşam da, bəy, nə olasıdı ki?

Calal bəy sakitcə:

–Yaxşı,-deyib, – papağını bir az qaldır, sənə deyəcəm nə olasıdı...

Seyid papağını qaldıran kimi Calal bəy tapançanı çıxarıb onun alnının ortasından bir güllə vurur və deyir:

– Bunun meyidini aparın...”

Əsl həqiqət belə olub, düzdü Calal bəy dəliqanlılığı, ipə-sapa yatmamağı, rus ordusunun zabiti olmağı ilə xaraktercə fərqli adam olub, amma adamın üstündə allah var, Seyidin gəlib içki məclisində oturmağına nə ad vermək olar ki? Bir

də ki, Calal bəy birinci dəfə seyidə hörmətlə xəbərdarlıq edib, ona onluq qızıl da verib, seyidsə qızılı alıb, gedib və yəqin ki, tamah ona güc gəlib, şeytan onu yoldan çıxardıb və o öz əcəlinə doğru gedib. Əgər belə olmasaydı Nəzər Heydərov kitabında yazdığı kimi onun atasının başına tapança dirədiyi zaman qoca kişini də öldürərdi.

Bu hadisələrdə, yəni Calal bəyin Nəzər Heydərovun yazdığı kimi Molla Abbasın ailəsi yaylaqda olduğu vaxt özü Gorusda gizlənirdi və Calal bəy o nəslin "lotusunun", Molla Abbasın yerini öyrənməyə çalışırdı və bütün bu təzyiqlər də ona görəydi ki, aranızda bir kişi yoxdumu qabağa çıxsın. Elə ona görə də Calal bəy soruşurdu ki:

– Hanı sizin dəliləriniz?

Həmin dövrlərdə qəza mahal pristavı olan, Calal bəyin əmisi oğlu Aslan bəy Sultanov bu əhvalatı bilərək Calal bəyə xəbərdarlıq edib ki, biz özümüz hər şeyi yoluna qoyacağıq, sən bu işlərə qarşıma, biz özümüz onu tapıb cəzalandıracağıq.

Aslan bəyin kəşfiyyatı artıq xəbər vermişdi ki, Molla Abbas Gorusdan qayıdır...

***"səh 71.***

Molla Abbas Əliquluuşağından qayıdırdı. O körpünü keçəndə Aslan bəy onun qarşısına çıxdı. Aslan bəy bir-neçə gün idi ki, mollanı izləyirdi, nəhayət tapmışdı.

– Salam əleyküm, ay molla...

– Əlüykü salam, ay Aslan bəy... Məndən nə istəyirsiniz?

– Mənə əmr olunub ki, səni həbs edim.

Aslan bəy ehtiyatla tərpənirdi. Molla Abbasın qolunun zoruna bələd idi. Qorxurdu ki, onu götürüb çaya atar.

– Məni həbs eləmək? Nə üçün? Nə cinayət eləmişəm?

Körpünün hər iki tərəfindən strajniklər mollaya yaxınlaşdılar. Mollanın yadına düşdü ki, cibində balaca bir kağız var.

Onu tələf etmək lazımdır. O tez kağızı ağzına qoydu, çeynəyib uddu. İndi arxayın idi; başqalarına ziyanı dəyməyəcəkdi. Tapança, yaxud bıçaq xəncəl gəzdirmədiyi üçün ürəyində özünü danladı. Starjniklər onun qollarını bağlamaq istədilər. Molla əvvəlcə birini, sonra isə o birisini yüngülcə kənara atdı. Aslan bəy qışqırdı:

– Kəmənd atın!

Starjniklər kəməndi mollanın boynuna keçirib dartdılar. Molla boğulub yıxıldı, huşunu itirdi. Aslan bəy və strajniklər istehza ilə ona gülürdülər. Bir-neçə gündən sonra molla özünə gəldi və əl-ayağını tamam sarınmış gördü. Aslan bəy acı-acı gülüb dedi:

– İndi molla, biz səni özümüzlə aparacağıq. Sənə qabaqcadan xəbərdarlıq etdik ki, müqavimət göstərmə. Amma sən bizə qulaq asmadın, nahaq yerə. Sənin qolun zorludur, buna söz ola bilməz. Bizim də hiyləgərliyimiz var, biz sənə qalib gəldik.

Ertəsi gün Molla Abbası döyülmüş, qolları bağlı qəza rəisinin yanına apardılar.

Sərməstbəyov məni strajniklərə döydürdüyü gün oturduğu eyvanda oturmuşdu. Molla qolları bağlı halda pilləkənin yanında qəza rəisinin yanında dayandı.

– Molla, ağsaqqallarla birlikdə hökmü mənə verəndə sizin haqqınızda o qədər də səhih məlumatım yox idi. Demə sizin hökumət əleyhinə fəaliyyət göstərməkdə böyük təcrübəniz var imiş. Siz 1909-cu ildə belə qiyamlar təşkil eləmisiniz. Belədirmi?

Sərməstbəyov rişxəndlə danışırdı. Molla cavab verdi:

– Cənab rəis, sizcə evimin talan olması barədə hökumət idarəsinə şikayət verməyim qiyamdır?

–Mən onu nəzərdə tutmuram, molla. İsmayıl bəy mənə danışıb ki, siz Cabbar bəyə nəsə bir hədə məktubu yazmısınız!

(Çünki bu hədə məktubu Sultanovların ağsaqqalları Cabbar bəylə, Rüstəm bəyə yazılmışdı. Aslan bəyin əmilərinə). Bu hədə məktubu barədə Sərməstbəyovun söz açması onun Sultanovlarla hesablaşmasından xəbər verir.

– Bəy, Allahdan qorxun! O məktubu mən on il bundan qabaq çar hökuməti zamanı yazmışdım. Axı indi Azərbaycanda cümhuriyyətdir – respublikadır.

– Sizcə indi bizim respublikanın yiyəsi yoxdur?

– Bəy, respublikada gərək zorakılıq olmasın.

– Sənin kimi şuluqçu və qanun pozanlar ağıllarına gələni eləmək üçün, eləmi?

Eyvandakı səs-küyü eşidib adamlar yavaş-yavaş toplaşmağa başladılar. Sərməstbəyov mənim başıma gətirdiyi oyunu mollanın başına gətirə bilməzdi. O (yəni Sərməstbəyov) özözünə təəsüflənirdi: "Heyif, hər halda molladır".

Heç kimin küçədən görmədiyini güman edərək o mollaya yaxınlaşdı, sinəsinə bərk bir yumruq ilişdirdi. Ancaq bunu adamlar gördülər. Həyətdən səs eşidildi:

– Bir baxın o mollanı vurdu!

Molla yıxıldı, diyirlənib pilləkandan aşağı düşdü, huşsuz halda yerə sərildi..."

Adama qəribə gələn odur ki, bir-iki səhifə irəlidə müəllif, yəni Nəzər Heydərov yazır ki, Aslan bəy Molla Abbasın qolunun zoruna bələd idi. Daha sonra da irəli gedərək yazır ki, molla strajniklərin birini o tərəfə, birini də bu tərəfə atır. Amma indi də yazır ki, qəza rəisi, yaşlı Sərməstməyov bir yumruğu ilə mollanı vurub yıxır, onu pilləkənlərdən aşırır, molla da huşsuz halda yerə sərilir. Paradoks deyilmi? Görəsən müəllif nədən öz kitabında müxtəlif təzadlı fikirlərlə oxucunu demirəm, hələ özünü də azdırır? Çünki onun yazdıqlarının əksəriyyəti yalan və böhtandır. Yalançının isə atalar demişkən, yaddaşı olmur.

Bunu sübut etmək üçün bir şeyi də nəzərinizə çatdırmaq istəyirik. Hamımıza məlumdur ki, mollanı həbs etməyə gələn strajniklər qanuni silahla gəzirlər. Onların qanuna görə cinayətkarı yaxalayarkən müqavimətlə rastlaşdıqda xəbərdarlıq etmədən silahdan istifadə etmək huüquqları var. Necə olur ki, starjnikin birini götütürb kənara atanda o biri strajnik onu silahla vurmur? Bu bir tərəfə... Başqa tərfədən də starjnikərin rəisləri, göydə quşu gözündən vuran Aslan bəy necə ola bilər ki, onun tabeliyində olan strajnikini molla götürüb kənara atanda onu vurub öldürmədi? O molla ki, yaşlı qəza rəisi Sərməstbəyovun bircə yumruğuna yıxılıb pilləkanlardan aşağı düşüb huşunu itirmişdi.

Mollanı bizim yanımıza həbsxanaya gətirəndə onun başında salamat yer yox idi. Ağ saqqalı qandan keçə kimi olmuşdu.

Nəzər Heydərov daha sonra Aslan bəyin onun özünü necə həbs etməyini yazır.

Kitabın **56-cı** səhifəsində göstərir ki, Aslan bəy təpədəndırnağadək silahlanmış strajniklərlə Əliquluuşağı kəndinə gəldi. Bu gün bütün kəndlilər – 80 nəfər, bəlkə də çox – əllərində silah kənddə gəzir, Əmrah Məmişoğlunun əmrini gözləyirdilər. Aslan bəy başa düşürdü ki, strajniklərin kiçik bir ehtiyatsıslığı üzündən bütün dəstə həbs olunar. Yaxud da hamısını qırarlar.

Aslan bəyin yazılı məlumatından sonra qəza hökuməti xəyanət və hiyləyə əl atmağa məcbur oldu. Pristav Aslan bəy Sultanova tapşırılır ki, Əmrah Məmişoğluna və mənə məktub yazıb, hökumət yüzbaşısının ləğv olunduğunu bildirsin və gələvəkdə icmanı necə idarə eləmək barədə danışmaq üçün bizi öz yanına dəvət eləsin. Biz Dəmirçilər kəndinə gəldik. Pristavın idarəsi burada idi. Kabinetə girdik. Söhbət başlandı. Bir qədər keçdikdən sonra Dondarlı kəndindən gəlmiş Sər-

məstbəyov kabinetə girdi. O dərhal strajniklərə əmr etdi ki, bizi həbs etsinlər. Bizi tutub qəzəmətə saldılar. Bir-neçə saatdan sonra strajniklər Əmrahı qəza rəisinin yanına apardılar, bir-neçə saat da keçəndən sonra Əmrah gəlib dedi ki, onu buraxdılar. Çünki bütün işlərdə təkcə məni müqəssir bilirdilər. Bütün bunlardan başqa məni bir də onda təqsirləndirirdilər ki, guya mən Əmrahın savadsızlığından istifadə edib, onu bolşeviklərin tərəfinə çəkmişəm. Əmrah karıxmış, dilxor halda soruşurdu ki, məni buraxdırmaq üçün nə eləsin?

***58-ci səh.***

Həbsxanada ciblərimi gəzib içərisində partiyanın proqramı olan dəftərçəmi aldılar. Mən proqramı Əliquluuşağı kəndindən olan Mahmud Paşayevin vasitəsilə Xinzirək kommunistlərindən almışdım. Xinzirəkli yoldaşlar xahiş etdilər ki, Zəngəzurun Ermənistan hissəsində yaşayan yoxsul kəndlilərə göndərmək üçün taxıl alıb yola salmaqda onlara kömək edim. Taxıl Zəngəzurun Azərbaycan hissəsində ermənistan hissəsindən 2 dəfə ucuz idi.

***59-cu səh.***

Bir-neçə gündən sonra məni qolları bağlı 5 strajnikin qabağında Dondarlıya qəza rəisinin yanına apardılar. Fərid bəyin ikimərtəbəli evinin qabağına və yaxın küçələrə toplanmış izdihamı lap uzaqdan gördüm. Bizi gözləyən strajniklər camaatı yara-yara bizə yol açdılar. Biz adamların arası ilə dar yolla irəliləyirdik. Qəza rəisi Sərməstbəyov, qəza qazisi Bəhlul əfəndi Behcət və qəza rəisinin köməkçisi Qara bəy Hacıbəyov balkonda oturmuşdular. Strajniklər mənim qollarımı açdılar. Balkona baxdım. Sərməstbəyov ayağa qalxdı. Üzünü camaata tutub dedi:

– Sizin qarşınızda dayanan bolşevikdir! Allahsızdır! O nə Allahı, nə də peyğəmbəri tanıyır, burada qardaş qırğını salmaq istəyir. Bütün bunlardan ötrü biz bu saat onu tənbeh edəcəyik.

Sonra o mənə dedi:

– Siz, Nəzər Heydərov, camaatı bolşeviklər tərəfinə çəkməkdə, qəzada torpaq məsələsi qaldırmaqda, hökumət starşinasını kənddən qovmaqda və nəhayət hökumət əleyhinə hökm çıxarmaqda ittiham edilirsiniz. Cavab verin, məsləkinizi niyə satırsınız?

– Heç kəs məslək almır ki, mən də satım. Kəndlilər bəy zülmündən azad olmağa çalışırlar. Əgər siz bunu bolşeviklər tərəfinə keçmək hesab edirsinizsə öz işinizdir...

Bəhlul əfəndi qəza rəisinə yaxınlaşıb xısın-xısın dedi:

– Bu mübahisəni kəs, axı camaat eşidir.

Sərməstbəyov strajniklərin üstünə qışqırdı:

– Başlayın! Yerə uzadın!

Məni qamarlayıb yerə uzatdılar. Əl-ayağımı tutub 8 strajnik şallaqla döyməyə başladı. Şallaqlar elə bil başıma dəyirdi... Zərbələrin sayı-hesabı yoxdu. Məni yandırıb tökürdü... Neçə dəqiqə keçdi... Strajniklər yoruldular. Şallaqlar daha yavaş qalxıb yenirdi. Sərməstbəyov bunu görüb tələsik eyvandan düşdü, strajniklərin birinin şallağını qapıb məni bərk döyməyə başladı. Vurduqca da deyirdi:

- Mən səni döyüb öldürəcəyəm, it oğlu, əlimdən qurtara bilməyəcəksən.

Mən var gücümü toplayıb qışqırdım:

- Sizi də xalq cəzalandıracaq!

Strajniklər də rəislərinə baxıb bərk vururdular. Axırda Sərməstbəyov da yoruldu, eyvana qalxıb əmr etdi ki, məni üzü üstə yıxsınlar. İndi şallaqlar boynumun ardından tutmuş dabanıma qədər hər yerimə dəyirdi. Nəhayət strajnikər yorulub

məndən əl çəkdilər. Mən yavaş-yavaş çevrilib oturdum. Sonra sol əlimə dayanaraq qalxdım. Lakin ayaq üstə dayana bilmədim, dislərim bərk ağrıyırdı. Sərməstbəyovun qışqırtısı yenidən eşidildi:

– Onun çarığını və corablarını çıxarıb yalın ayaqlarına vurun.

Tüfəngin başını strajnikin birinin, ucunu da o birinin çiyninə qoydular, ayaqlarımı tüfəngin qayışına keçirtdilər, asıla qalmışdım. Qan başıma yığıldı. Buna çox dözmək olardımı? Strajniklər indi çılpaq ayaqlarımın altına vururdular. Ancaq daha keyimişdim, ağrını bilmirdim. Yalnız hiss eləyirdim ki, ayaqlarıma nə isə dəyir. Nəhayət bu tənbeh də qurtardı. Parça-parça olmuş ayaqlarımı guppultu ilə yerə saldılar. Mən çarığımı geymək istədim. Yenidən Sərməstbəyovun əmri eşidildi:

– Onu  həbsxanaya ayaqyalın aparın!

Mən döyülmüş, yorğun halda ayaqlarımı güclə sürüyə-sürüyə strajniklərin qabağında cığırla gedirdim. Ayağımı nəinki tikanın, hətta qumun üstünə qoyanda ağrıdan ağlım başımdan çıxırdı...

***səh 64.***

Mən həbsxananın  həyətinə girəndə dustaqları gəzməyə çıxarmışdılar. Xanlar bəy diqqətlə mənə baxaraq ucadan dedi:

– Səni döydülər?

Mən cavab verdim:

– Bəylərdən ayrı şey gözləmək olarmı?

– Sən düz danışmırsan. Bəylərin hamısı bir deyil.

– Hələlik fərq görmürəm.”

Bu yerdə bir mesajı  Nəzər Heydərovun narahat ruhuna çatdırmaq yerinə düşür. Necə olur ki, Çingiz İldırım, Abbas

Sultanov bəy olduğu halda onlara əlaltılıq edə bildiyin halda, burada, Xanlar bəyə isə onların heç birində fərq görmədiyini bildirirsən. Bu yerdə atalarımızın çox yerində söylədiyi el məsələni xatırlamağa dəyər: "Gədədən bəy olmaz, amma bəydən gədə olar". Nəzər Heydərov yəqin ki, özünə yaxın bildiyi gədələşmiş bəyləri artıq bəy hesab etmirmiş...

Bunun ardınca yenidən kitabın **75-ci** səhifəsində Nəzər Heydərov yenidən Aslan bəy haqqında yazır: "Qandalımızı açmadılar. Bizi pristavın (Aslan bəyin) yanına 25 strajnik qolları qandallı aparırdı. Biz idarəyə çatanda Sərməstbəyovla Aslan bəy Sultanov eyvanda oturmuşdular".

Kitabı bütövlükdə sizin üçün bura köçürməyə heç bir lüzum bilmirik. Müəllif bəylərə nifrətini müxtəlif fəsillərdə qabardaraq açıq-aydın yazır. Oxucunun ürəyində bəylərə və müsavat dövrünə nifrət yaratmaq məqsədilə bacardığı bütün üsullardan və üslublardan istifadə edir. Biz sadəcə olaraq müəyyən qeydləri nəzərinizə çatdırmaqla müəllifin təzadlı və özü-özünü ifşa edən fikirlərini sizin ixtiyarınıza buraxmaq istəyirik.

Müəllif həmin səhifənin sonunda əlavə kimi qeyd edir ki, "qolumuzdakı qandal adi dustaq qandalı deyildi, kəndlilərin atın qabaq ayaqlarına çidar vurduğu nazik zəncirli qandal idi".

***səh 85.***

"Bizi (müəl: yəni bacısının əri Molla Abbası, qardaşı Novruzu, bir də Nəzər Heydərovu) 21 iyun 1919-cu il 172 nömrəli sənədə əsasən Zəngəzur həbsxanasından yatab edilmiş dustaq kimi Şuşa həbsxanasına saldılar. "Nə üçün həbs olunub?" – sualının qabağında yazılmışdı: Hökumət qayda-qanunu (yəni müsavat hökumətinin qayda-qanunun), ictimai sakitliyi pozduğuna görə.

Məni Bəhram bəy Cavanşirov yatan kameraya, molla ilə qardaşımı isə başqa kameraya saldılar. ”

***səh 86***

“Qoca anam isə evdə atama rahatlıq vermirdi.

– Niyə oturmusan, indi sən nəyə gərəksən? Bundan sonra sənin qapını heç kim açmayacaq. Niyə oğlanlarının dalınca getmirsən? Onlar ölsə sən də ölərsən. (göründüyü kimi Nəzər Heydərov bu yerdə ürək ağrısı və nifrətlə qeyd edir ki, onun özü başda olmaqla ailənin “lotusu” Molla Abbası da, qardaşını da Aslan bəy həbs edib. Onun ürəyindəki qisas hissinin əsas qaynağı da elə buradan doğur.)

Atam Şuşaya gəldi. Çoxdan buralarda olmamışdı. Axırıncı dəfə çörək pulu  qazanmaq üçün Bakıya gedəndə buradan keçmişdi. Şuşada atamı bərk qorxutmuşdular. Məsləhət  görmüşdülər ki, şəhərdən tez çıxsın, yoxsa onu da tutarlar. Atam kəndə qayıtdı. Yenə anam ağlayıb deyindi.

Mirzoyanın yaratdığı Xinzirək təşkilatı bizim başımıza gələn əhvalatı bizə aid olan hər kiçik hadisəni diqqətlə izləyir və Gorus bolşevik komitəsinə çatdırırdı”.

Buradan açıq aydın görünür ki, Nəzər Heydərovun dar ayaqda yeganə güvəndiyi yer daşnak Mirzoyanın yaratdığı “Xınzirək” təşkilatı və Gorus erməni bolşevik komitəsi olub. İndi, oğlunun vəziyyətinin gərginləşdiyi bir vaxtda qocanı başa salırlar ki, başqa bir bəyin, qubernatorun idarəsində işləyən Çingiz İldırımın qəbuluna getsin və həbs olunan ailə üzvlərinin nədə müqəssir edildiyini ona danışsın.

İmran (“Xınzirək” təşkilatının üzvü) təəccüblə onların üzünə baxdı: Çingiz bəyin?

– Bəli, bəli! Çingiz bəyin! Niyə təəccüb eləyirsiz? Məyər sən bilmirsən ki, Çingiz İldırım Şuşada işləməklə bolşeviklərə kömək edir?

Qaragin Sailyan sözünə bir qədər də ara verib dedi:

– Çingiz İldırımı başa salacaqlar, o Nəzərin atasını qəbul edəcək. Armenak Qaragözov Abbas Sultanovun vasitəsilə Çingiz İldırımla əlaqə saxlayacaq. Başa düşdün? İmran hər şeyi başa düşdü.

– Nəzərin atasına İldırım barədə hər şeyi demə. Nə deyəcəyini və necə deyəcəyini özün fikirləş. Yaxşı olar deyəsən ki, Çingiz İldırımdan çox şey asılıdır, gedib ondan Nəzəri buraxdırmağı xahiş eləmək lazımdır".

Qaragin Sailyanın Nəzərin buraxdırılması üçün bu qədər canfəşanlıq etməsinin səbəbini bilmək bir o qədər də çətin məsələ deyil. Arxiv sənədi də təsdiq edir ki, Q.Sailyan Bakıya gedərkən öz yerinə müavini Nəzər Heydərovu qoyub. Bu da o deməkdir ki, Q.Sailyan Nəzər Heydərovu müdafiə edərək azadlığa buraxılması üçün çalışmaqla 1920-ci ildə çağrılan qurultayda Zəngəzurun ermənilərə verilməsinə imza atan agentlərini müdafiə edir.

***87-ci səh.***

Səhifənin sonunda müəllif əlavə olaraq qeyd edir ki, "Abbas Sultanov Çingiz İldırımın əmisi oğlu idi. Zəngəzur bolşevikləri bu əlaqədən istifadə edirdilər".

**88-ci** səhifənin sonunda yazır ki, "...atam qubernatorun idarəsinə gedib Çingiz İldırımın qəbuluna düşdü. Çingiz ona dedi ki, tezliklə bizi azad edəcəklər və istintaqı təzə qəza rəisi Axundova tapşıracaqlar. Çingiz İldırım atama verdiyi sözü yerinə yetirdi. Şuşa həbsxanasında bir ay yatandan sonra üçümüzü də azad etdilər.

İlk baxışdan oxucu burada nə var ki, deyib üstündən ötüb keçə də bilər. Amma maraq doğuran bir məsələyə aydınlıq gətirməyi vacib sayırıq. Nəzər Heydərov kitabda həbs olunma tarixini 1919-cu ilin 21 iyunu kimi göstərir. Əslində isə

azad olunması haqqında yazır ki, Çingiz İldırımın köməkliyi ilə bir ay Şuşa həbsxanasında yatdıqdan sonra azadlığa buraxılıb. Nəzər Heydərovun və onun yaxın qohumlarının azadlığa buraxılması yalnız müsavat hakimiyyəti devrildikdən, Sərməstbəyov və onun komandası istefaya göndərildikdən, bolşeviklər hakimiyyətə gəldikdən sonra baş verib. O vaxt Çingiz İldırım heç vaxt qəza hökumətinə təsir etmək qüvvəsində olmayıb. Əgər onun hər hansısa bir gücü olsaydı öz doğma əmisi oğlu Abbas Sultanov Zəngəzurun Laçın hissəsində gizli fəaliyyət göstərdiyi zaman həbs olduğunda kömək edib onu azad etdirərdi. Nəzər Heydərov oxucuu çaşdırmaqda davam edərək Çingiz İldırımın hansısa gücə qadir olduğunu qələmə verməyə çalışır. Faktiki olaraq Nəzər Heydərov 1919-cu ilin 21 iyun tarixindən Azərbaycanda Sovet hakimiyyəti qurulan günədək, təxminən 10 ay müddətində Şuşa həbsxanasında müsavat hökumətinin əleyhinə işlədiyinə görə ittiham olunaraq xəyanətkar kimi həbs olunub.

***səh 51.***

Nəzər Heydərov yazır: "... qarət olunmuş mallar Tatev kəndində Xudabaxış bəy Orbelyana ötürürlər. Aparılan mal-qara Tatev kəndində satılmayanda Əli bəy Xuramalinskinin əli ilə xaricə, İran xanlarına göndərirdilər. Orada artıq malları da alırdılar. Quldurlar sevinirdilər". Bir gün Əmir bəy quldurları öyrədir ki, Gürcülü (Nəzər Heydərovun anadan olduğu kənd) kəndinin mal-qarasını qovub aparmaq lazımdır. Sonra guya Əmir bəyin xahişi ilə qaytarıb vermək lazımdır ki, Gürcülülər bundan sonra özlərini Əmir bəyə (Əmir bəy sultanov da Aslan bəyin əmisi oğlu idi) borclu bilsinlər, itaətindən çıxmasınlar.

Müəllif bu yerdə də nə məqsədləsə yenə öz ənənəsinə sadiq qalaraq bir çox mətləblərin üstündən öz üslubuna uyğun olaraq sükutla keçir. O Əli bəy Xuramalinskinin adını çəksə də onun kimliyi barədə heç nə yazmır. Əslində isə Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivində **fond 1, siyahı 2, saxlama vahidi 105** qrifi ilə saxlanılan sənəd də təsdiq edir ki, o vaxt Əli bəy Xuramalinski qəza milis idarəsinin rəisi Aslan bəy Sultanovun köməkçisi, eyni zamanda sərhəd zonasına aid olan 4-cü sahənin milis rəisi olmuşdur. Bu faktı gizlətməyin arxasında hansı məqsədin dayandığını bilmək bir o qədər də çətin deyil. Müəllif yazmır ki, həmin vaxt qəza inqilab komitəsinin sədri Aslan bəy Sultanovun əımisi oğlu Xudabaxış bəy Sultanov, qəza milis idarəsinin rəisi Aslan bəy Sultanov, İstintaq komissiyasının üzvü Aslan bəy Sultanovun başqa əmisi oğlu Behbud bəy Sultanov, cinayət axtarış şöbəsinin rəisi isə digər əmisi oğlu İsrafil bəy Sultanov idi. Onun bunları gizlətməkdə məqsədi o idi ki, Aslan bəy fenomeninin yenidən ortalığa çıxmasından ehtiyat edirdi. Müsavat hakimiyyəti dövründə qəza mahal pristavı olan, eyni zamanada qəza rəisinin hərbi məsələlər üzrə müavini olan Aslan bəyin sovet hökumətinin ilk illərində hansı zərurətdən qəzada rəhbər vəzifə tutması sual doğura bilər. Müəllif o suallara cavab verməkdən qorxduğu üçün bu məsələlərin üstündən sükutla keçir. Elə ona görə də Əli bəy Xuramalinskinin həmin dövrdə qəza milis idarəsi rəisinin köməkçisi olması barədə heç nə yazmır. Əgər bu barədə o nəsə yazmış olsaydı bəylərdən təşkil edilmiş inqilab komitəsinin də hansı tarixi zərurətdən yaranmasını açıqlamalıydı. Bunu arxiv sənədləri də təsdiq edir ki, o dövrdə yaradılmış bəylərdən ibarət inqilab komitəsi mərkəzin fövqəladə səlahiyyət verdiyi hərbi qüvvələrin başında dayanan Aslan bəy Sultanov tərəfindən təşkil edilmişdi. Bu qüvvələrin

sonrakı fəaliyyəti özünü tamamilə doğrultduğundan, xalqın rəğbətini qazandığından mərkəz istər-istəməz bu qüvvələrlə hesablaşmaq məcburiyyətində qalmışdı. Təsadüfi deyil ki, bu yerli hökümət hərbi qüvvələr və mərkəzdən gələn 28-ci diviziya ümumi düşmən olan daşnaklara qarşı birləşərək daşnak hökumətini tamamilə darmadağın edib orada fəhlə-kəndli hakimiyyətini qurmuşdular. Bu yerli hökumət özünü doğrultmasaydı heç vaxt mərkəz etimad göstərib kommunist partiyası üzvü olmayan Aslan bəyi bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı təyin etməzdi. Çox güman ki, onun nüfuzu, gücü, qüdrəti Nəzər Heydərovu qıcıqlandırırdı. O vaxt Aslan bəy kimi Kommunist partiyası üzvü olmayan bir şəxsin elə vəzifələrə irəli çəkilməsinin analoqu yox idi.

Əlimizdə olan arxiv sənədləri də təsdiq edir ki, Aslan bəy fövqəladə komissar təyin edilən dövrdə Mircəfər Bağırov da Qarabağda işləmiş, Şuşa qəza inqilab komitəsinin sədrinin müavini vəzifəsini və daxili işlər şöbəsinin rəisi vəzifəsini tutmuşdu. Bu da o demək idi ki, Aslan bəyin fövqəladə komissarın tabeliyində işləmişdir. Bu barədə ətraflı olaraq daha sonra arxiv sənədlərinə istinad edilərək danışılacaq.



В Ц К Коммунистической партии

1920 il may 27

ДОКЛАД

мунистическая партия Шушинскаго уездах работает в центре Караб не имея ни какого успеха в партинной работе в уездах , иб ю ия Шушинскаго уезда досих пор имеет с приезжими товарищами 32 членов на лицо 14, 10 в уездах и вново прибывших по делам Кавроста и типографии и т.д.

Сочувствующих Коммунистической Партии 17.

1/ Велибеков Багатур ------- а/ Председатель Партии Уездкома
в/ Предревком Карабаха.
с/ Звед. отделом Земледели
д/ Руководитель Информационным отделом.

2/ Багиров Мир Джафар--------- а/ Заместител Предревкома
б/ Заведующий внутренним отделом
с/ Руководитель Организационным и огитационным отд.
д/ Председатель Ч.К.

3/ ГусиГаджиев---------------- а/ Секретарь Уездкома Парт
б/ Заведующий Огитационным и Организационным отделом
с/ Заведующий оружейным складом
д/ Членом коллегии продовольствия
е/ Заместитель Пред. Обласкома Молодежи

4/ ВЕзиров М. Джаббар---------а/ Казначей Уездкома
б/ Завед. работой подеревн
с/ Намечен кандидатом в на

Bu fikirləri Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, **fond 1, siyahı 1, saxlama vahidi 126** qrifi ilə qorunub saxlanılan arxiv sənədi təsdiq edir.

***səh55***

Bu yerdə gülüş doğuran başqa bir məsləyə də toxumnaq yerinə düşər. Kitabın 55-ci səhifəsində müəllif Əli Əmiraslanovun kiçik əmisi oğlu Möhbalı Əmiraslanova istinad edərək yazır: "Möhbalı Əmiraslanov 1920-ci ilin yayında könüllü olaraq Semyonovun qızıl əsgər polkuna getdi və daşnaklara qarşı döyüşdə iştirak etdi".

Bu həmin Möhbalı Əmiraslanovdur ki, sonralar Az. SSR Nazirlər soveti sədrinin birinci müavini və MK-nin katibi vəzifələrində işləyib. Əlimizdə olan arxiv sənədi təsdiq edir ki (**fond 27, siyahı 1, iş 1**). İnternetdə yerləşdirilmiş Möhbalı Əmiraslanovun səhifəsində göstərilir ki, onu ilk dəfə 1920-ci ildə Qubadlı qəza milis idarəsinə işə götürüblər. Möhbalı Əmiraslnovu qəza inqilab komitəsinin katibi vəzifəsinə Aslan bəygil qəbul ediblər. Hansı ki, əlimizdə olan sənəd də təsdiq edir ki, Xudabaxış bəy Sultanov Şuşaya, Aslan bəyə, Qarabağın və Zəngəzurun fövqəladə kommissarına ünvanladığı məktubunun sonunda Xudabaxış Sultanovun inqilab komitəsinin sədri kimi, Möhbalı Əmiraslanovun isə qəza inqilab komitəsinin katibi kimi imzası var. Bundan sonra bir məsələyə də diqqət edək ki, eyni zamanda Möhbalı Əmiraslanov həm də Aslan bəyin əsgəri olub. Ancaq Nəzər Heydərov yazmır ki, Aslan bəy Sultanov nəinki Semyonov ordusunun kəşfiyyatına rəhbərlik edib, həm də bu diviziyanı Ersevənnikdə daşnak mühasirəsindən çıxartdıqdan sonra faktiki olaraq həmin diviziyanın komandiri olub. Nəzər Heydərov bütün bu tarixi həqiqətləri gizlətməklə xalqımızın qəhrəmanlıq tarixinə kölgə salıb.

Müəllif oxucuları aldadaraq yazır ki, qəza rəisinin idarəsi Dondarlıda idi. Tarixdən məlumdur ki, Dondarlıdakı qəza rəisinin idarəsi müsavat hakimiyyəti dövründə olub. 1920-ci ilin yayında, Semyonovun diviziyası ora gələndə artıq orada Sul-

tanovlardan ibarət inqilab komitəsi fəaliyyt göstərirdi. Nəzər Heydərovun təbiri ilə desək kommunist partiyası üzvü olmayan bəylərdən ibarət yerli inqilab komitəsi rəhbərləri.

****

General Nijdenin aprelin 6-da Aqarakda təşkil edəcəyi yığıncağa bir də qayıdaq.

Nəzər Heydərov kitabının 112-ci səhifəsundə yazır ki, general "nümayəndələrə" bildirmişdir ki, belə bir yığıncaq aprelin 6-da Aqarakda olacaqdır.

Martın 31-də biz Dondarlıda yığıncaq çağırdıq. Şahsuvarbəy Kələntərovu və Bəhlul Əfəndi Bəhcəti də dəvət etdik. Savalan Bakıya əksinqilabçıların siyahısını göndərəndə Şahsuvar bəyin də adı var idi. Çünki onlar aprelin 6-da Aqaraka gedib, orada danışıqları poza bilərdilər. Hər halda biz, bu yığıncağın təşəbbüskarları Oruc Babayev, Yeqo Qazaryan, Hümbətəliyev və mən az da olsa buna ümid bağlayırdıq. Çünki Aqaraka yaxın kəndlərdə nüfuzumuz az olduğu üçün oraya kommunistləri göndərə bilmirdik, yoldaşlarımızı itirməkdən qorxurduq.

Biz bilirdik ki, Bəhlul Əfəndi və Kələntərov istəsələr, çox adamı general Nijdenin yanına yığıncağa getməyə qoymazlar. Yığıncaqda mən vəziyyəti ətraflı izah edib, "nümayəndələr"dən xahiş etdim ki, Nijdenin planını pozmağa çalışsınlar.

**114-cü** səhifədə yazır ki, general Nijdenin yanına Aqaraka müşavirəyə xeyli azərbaycanlı getmişdi. Bunlar Xocahan, Mincivan, Xurama, İsgəndərbəyli və digər kəndlərdən olan antisovet əhval-ruhiyyəli zəhmətkeşlərin inqilabçı təbəqəsinin ilk növbədə kommunistlərin əleyhinə fəal mübarizə aparmağa hazır olan bəylər və qolçomaqlar idi.

General Nijde dedi ki, Sovet hökuməti ilə müharibədə daşnak Ermənistanı tək deyil. Türkiyəni bu müharibəyə

cəlb edəcək ingilis–amerika imperialistləri onların arxasında dayanmışdır. O, bildirdi ki, amerikalılar və ingilislər Ermənistanın əhalisini bol ərzaq və sənaye malları ilə, ordunu isə silah və paltarla təmin edirlər.

Antanta imperialistləri doğrudan da, daşnakların qoşununu lazım olduğundan da artıq ərzaq və silahla təmin edirdi. M.B.Traskunov «Qafqazskaya Кrasnoznamennaya» kitabında arxiv sənədlərinə əsaslanaraq yazır:

«Daşnak ordusu Amerika çörəyi yeyirdi. Yalnız 1920-ci ilin iyulunda ABŞ Ermənistana 50 min əsgər üçün ərzaq, silah və hərbi sursat göndərmişdir. ABŞ-ın daşnaklarla belə yaxınlıq eləməsi İngiltərəyə, Fransaya, İtaliyaya və digər imperialist ölkələrə Yaxın Şərqdə, Zaqafqaziyada və Ermənistanda ərazi zəbt etməyə mane olmurdu. Lloyd–Corc hökuməti daşnak ordusunun döyüş qabiliyyətini yüksəltmək qayğısına qalaraq, 1920-ci ildə ona 40 min əsgər üçün silah və paltar göndərmişdir. Fransa isə 10 min tüfəng və 10 milyon patron vermişdi.»

**115-ci** səhifənin axırında yazır ki, general Nijdenin çağırdığı müşavirəyə bir də qayıdaq. Qubadlı qəzasından gəlmiş bəylər və qolçomaqlar, generalın boş sözlərinə inanaraq, tüfəng və xəncərlərini oynadaraq, daşnaklara hər cür kömək edəcəklərinə söz verirdilər. Ancaq bu qəribə müşavirənin axırında İsgəndərbəyli kəndindən olan qoca Aslan bəy Sultanov söz istəyir:

– Cənab Nijde, gərək unutmayasınız ki, sizin komandanız altında olan daşnak ordusunun burada yüzlərlə kəndi məhv etdiyi, çoxlu silahsız bədbəxt adamları güllələdiyi, həmin qanlı hadisələrdən heç bir il də keçməyib. Mən sizə bildirirəm: müsəlmanlar sizə inanmırlar və indi burada meydan oxuyan bu başı boş adamların arxasınca heç kim getməyəcək.

Yenə yalan danışır. İsgəndərbəylidən olan qoca kişi təpədən-dırnağa qədər silahlanmış Nijdenin və onu müşayiət edən hərbçilərin qarşısında belə cürət edib danışa bilməzdi. Çünki onu öldürərdilər.

Bu çıxış bura toplaşanları, xüsusən, general Nijdeni ayıldır. O, həmin dəqiqə dönüb evə gedir. Sonra yazır ki, İsgəndərbəyli kəndindən olan qoca Aslan bəy çox da varlı adam deyildi. O, Şərq ədəbiyyatı klassiklərini: Firdovsini, Sədini, Hafizi, Ömər Xəyyamı çox yaxşı bilirdi. O, millətindən və dinindən aslı olmayaraq adam öldürməyi ən böyük cinayət hesab eləyirdi. O, günahsız insanların qanını sel kimi axıdan, indi isə hər şeyi unutmuş kimi, adamları bolşeviklərin əleyhinə birləşməyə çağıran bu hərbiçi adamı görmək belə istəmirdi.

Beləliklə, Nijde ilə azərbaycanlı əksinqilabçıların danışıqları baş tutmadı. Bunu bizə Aqarakda müşavirədə iştirak etmiş bir nəfər danışdı. Təkəbbürlü İsgəndərbəyli kəndindən olan qoca Aslan bəy isə ömrünün sonuna kimi bu barədə heç kəsə bir kəlmədə danışmamışdı.

Nəzər Heydərov kitabında yenə insanları çaşdırmağa çalışır. Özünəməxsus hiyləgərliklə bildirir ki, gah Bəhlul Əfəndi ilə Şahsuvarbəy Kələntərov, ondan sonrakı səhifədə isə bildirir ki, guya İsgəndərbəyli kəndindən olan qoca Aslan bəy Sultanov Nijdeyə deyib ki, sən indiyə qədər nə qədər qanlar tökmüsən, indi də heç nə olmamış kimi müsəlmanlarla birləşmək, barışmaq təklifi edirsən. Guya ki, bu sözlərdən Nijde ayılır və çıxıb gedir.

Bu məsələni bir az təhlil etməyə çalışaq. Əvvəla kimlərsə dönük çıxıb Nijde ilə birləşmək istəsə belə, bunu edə bilməzdi. Çünki o zaman qəza–milis idarəsinin rəisi Aslan bəy Sultanovun yaratdığı qəza rəhbərliyinin yazılı əmri var idi. Bu birbaşa millətini sevən qəhrəman Aslan bəyin iradəsi idi. Həmin yazılı əmrdə göstərilir ki, kim daşnak-

larla hər hansı əlaqəyə girsə, yerindəcə dərhal güllələnsin. Bu nə deməkdir? Yəni kim cürət edib Nijdenin birləşmək, dostlaşmaq təklifini qəbul edə bilərdi? Əgər kimsə belə bir niyyətdə olsa idi, o zaman həmin adam yerli hökumətin yazılı əmrinə əsasən yerindəcə güllələnərdi. Hətta, Aslan bəy mərkəzə ünvanladığı ittihamedici məruzəsində də göstərir ki, aprelin 6-da Aqarakda Nijdenin təklif etdiyi müsəlmanlarla birləşmək, yaxınlaşmaq planını məhz qəza rəhbərliyi pozmuşdur. Daha doğrusu, həmin vaxt, 1921-ci ildə qəza–milis idarəsinin rəisi (o vaxtlar milis idarəsi NKVD adlanırdı. NKVD-nin rəisi), eyni zamanda qəzaya faktiki rəhbərlik edən Aslan bəy və ona sadiq hərbi qüvvələr Nijdenin bütün təklifini rədd etmişdilər.

Bütün bunlar barədə Aslan bəy Nərimanova ünvanladığı ittihamedici məruzəsində tam təfsilatı ilə məlumat vermişdir. Aslan bəy məruzəsində aydın göstərir ki, qəzada baş verən bütün hadisələr onun tam nəzarətindədir və hər bir hallara qarşı adekvat tədbirlər görülür. Buradan bir məntiqi sual meydana çıxır. Nə üçün Nəzər Heydərov kitabında həmin dövrdə qəza rəhbərlərinin kim olduğu barədə bir kəlmə belə yazmır. Çünki o zaman qəzanın rəhbəri Aslan bəy və onun təyin etdiyi millətinə sadiq əqidəli insanlar idi. Nəzər Heydərova sual vermək lazımdır ki, əlində heç bir hərbi gücü olmayan adamlar necə daşnak hökumətinin rəhbəri təpədən dirnağa qədər silahlanmış general Nijdenin planını poza bilər? əgər Nijdenin hər hansı bir təklifi olsaydı belə, bu qəzanın rəhbərliyinə olardı. Adamları çaşdıraraq kitabında bir səhifədə yazır Bəhlul Əfəndi və Şahsuvarbəy Kələntərov, digər səhifədə yazır ki, əslən İsgəndərbərli kəndindən olan qoca Aslan bəy guya ki, Nijdenin planını pozub. Nə qədər yalan danışır. Nijdenin Aqarakdakı aprelin 6-da olan müsəlmanlarla birləşmə planı İsgəndərbəyli kəndindən olan qo-

ca Aslan bəy və Bəhlul Əfəndi, Şahsuvarbəy Kələntərov tərəfindən deyil, həmin dövrdə qəza–milis idarəsinin rəisi, eyni zamanda qəzadakı bütün hərbi qüvvələrin başçısı, qəza hökumətinin yaradıcısı o zaman real hərbi güc sahibi olan məhz Aslan bəy Sultanov tərəfindən pozulmuşdur. Bunu arxiv sənədi də təsdiq edir (Baş Milli Dövlət Arxivi **410-cu fond, siyahı 1, iş 205**). Görəsən Nəzər Heydərov, Savalan Şirinov və qeyriləri kimi adamlar həqiqəti gizlətməklə və əslində tariximizə qarşı getməklə kimlərin rəğbətini qazanmaq istəyirmişlər. Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, Aslan bəyin əmisi oğlu Çingiz İldırımın təlimatı ilə hərəkət edən bu dönük adamlar qəhrəman insanların millətinə təmənnasız etdikləri xidmətləri öz adlarına çıxarmağa çalışmışlar.

Bu yerdə bir atalar məsəlini yada salmaq yerinə düşər: «Sən saydığını say, gör fələk nə sayır». Bəli, tarix təkrar olundu. Tarixin təkrar olması ilə də əvvəlki tarixdə baş vermiş cinayətlərin üstünün açılması üçün münbit şərait yarandı. Üçrəngli bayrağımız yenidən yüksəldi. Sovet hökumətinin, Sovet imperiyasının heç zaman dağılmayacağına ümid edənlərin xülyaları alt-üst oldu. Tariximizin gerçək mənzərəsi üzə çıxdı. Gizli olaraq danos yazıb: təmiz, qəhrəman insanları ləkələyərək özlərinə mənsəb qazanan xainlərin iç üzləri açıldı. Millətimiz üçün ən təhlükəli məqamlarda kimin hansı mövqe tutduğu üzə çıxdı.

***səh 113***

Kitabın **113-cü** səhifəsində müəllif yazır :

“Səhər gözlənilmədən Çingiz İldırım atlı gəldi. Çingiz İldırım Azərbaycan Kommunist (bolşevik) Partiyası MK-nin sovetlərə seçkilər haqqında tapşırığını bizə yetirdi. Biz qəzada vəziyyət barədə Çingizə məlumat verdik. O ölkənin daxili və xarici vəziyyəti ilə bizi müfəssəl tanış etdi:

– Biz bilirik ki, sizin vəziyyətiniz çox çətindir. Lakin bu çətin günlərə çox az qalıbdır. Gördüyünüz kimi partiyanın mərkəzi komitəsi bu çətin günlərdə belə imkan tapıb sizinlə əlaqə saxlayır. Mən xüsusi tapşırıqla gəlmişəm: necə olursa olsun sizin yanınıza gəlim, dediklərimi sizə çatdırım. Bəzi sözləri də deyəcəyəm... (o bəzi sözlərin nə olduğunu müəllif nə kitabda nə də başqa sənədlərdə açıb demədi). Yəqin ki, qəzanın rəhbərləri olan əmisi oğlanlarını ləkələmək üçün böhtan dolu danosları mərkəzə ötürməyi tövsiyyə edirdi.

Sovetlərə seçkilər məsələsinə keçərkən Çingiz İldırım nəzərdə tutulan seçki sisteminin mahiyyətini, inqilab komitəsinin sovetlərlə əvəz etməyin zəruri olduğunu bizə izah elədi.

O dedi ki, Qubadlı istisna təşkil edə bilməz, ona görə bütün kommunistləri sovetlərə seçkilər keçirməyə cəlb etmək lazımdır. Çingiz İldırımın Azərbaycan Sovet Sosialist Respublikasının nümayəndəsi kimi gəlməsi qəzanın camaatını ruhlandırdı, sovetlərə seçkiləri kəndlilər sovet hakimiyyətinin möhkəmlənməsi əlaməti kimi qiymətləndirdi".

Göründüyü kimi Nəzər Heydərov Çingiz İldırımın (Nəzər Heydərovun pataloji nifrətlə qəbul edə bilmədiyi bəy sinfinin nümayəndəsinin) qəzaya gəlməsini, onlara mərkəzin son tapşırıqlarını çatdırması, necə deyərlər onları təlimatlandırması barədə ürək dolusu söz açır. Lakin kitabın bir yerində qeyd etdiyi kimi, Çingiz İldırımın "mən xüsusi tapşırıqla gəlmişəm, necə olur olsun, sizin yanınıza gəlim, dediklərimi sizə çatdırım..." fikirlərini açıq aydın xatırlayır və bu barədə yazır. Amma həmin fikrin sonundakı "bəzi sözləri də deyəcəyəm" fikirlərinin üstündən yenə də özünəməxsus sükutla ötüb keçir. Bu barədə, məsələnin görünməyən tərəfi barədə heç nə yazmır. Bu yerdə bir məsələni sizin diqqətinizə çatdırmağı vacib bilirik. Necə ki 1920-ci ilin dekabrında Gorusda

keçirilən qurultayın üzvü seçilməsindən fəxarətlə yazan Nəzər Heydərov bir dəfə də olsa qurultayın hansı qərarı qəbul etməyini dilə gətirmədi. Hansı ki, həmin qurultayda Zəngəzurun Ermənistana verilməsi qərarı qəbul olunmuşdu və bu həmin xəyanətkar qərarı Nəzər və bütün kommunist partiyası üzvləri birmənalı şəkildə dəstəkləmişdilər. Amma illər sonra əldə etdiyimiz arxiv sənədləri həmin qurultayın hansı səbəbə çağırılması və qurultayda hansı qərarın qəbul edilməsi o qərarı ortaya ataraq dəstəkləyənlərin kimliyi üzə çıxdı. Çingiz İldırımın himayə etdiyi yerli xainlərin hamısı qurultayın qəbul etdiyi qərara imza atmışdılar və o qərara elə don geyindirmişdilər ki, guya Azərbaycan əhalisi özü istəyir ki, Zəngəzur Ermənistana verilsin.

Nəzər Heydərovun yazdığına görə Çingiz İldırım əqidə yoldaşları ilə görüşündə deyir ki, "... bəzi sözləri də deyəcəyəm". Amma həmin o "bəzi sözlər" haqında heç nə yazmır və o fikrin üstündən keçir. Bizsə müqayisəli məntiqi təhlillər apararaq hadisənin görünməyən tərəfini, Nəzər Heydərovun üstündən sükutla keçdiyi bəzi məqamları sizə çatdırmağa çalışacağıq. Bununçün birinci tarixə nəzər salaq.

Nəzər Heydərov yazır ki, Çingiz İldırım sovetlərə seçkilər haqqında tapşırıqalrı yerli kommunistlərə çatdrımaq üçün gəlibmiş. Ancaq bu məsələnin konkret tarixi haqqında, qəsdən heç nə yazmır.

Arxiv sənədlərindən də məlum oldu ki, 1921-ci ilin aprel ayından başlayaraq artıq başda Nəriman Nərimanov olmaqla mərkəzi hökumət inqilab komitələrinin sovetlərlə əvəz olunmasının zəruriliyi məsələsini ortaya atmışdılar. Nəzər Heydərov bu yerdə yenə Çingiz İldırımın onları təlimatlandırmağı və o zaman, yəni 1921-ci ilin aprel ayında və sonrakı dövrlərdə yerli hakimiyyətin başında Ç.İldırımın əmisi oğlanları dayanırdılar, yəni Aslan bəy Sultanov və onun əqidə qardaş-

ları. Diqqəti hədəfdən yayındırmamaq üçün bu Sultanovların da hansı qəhrəmanlıqlar göstərərək qəza hakimiyyətinin başında dayandıqlarını, xalqın içində necə böyük nüfuz sahibi olduqları barədə heç nə yazmır.

Daha əvvəlki hissələrdən sizə məlumdur ki, partiya üzvləri olmayan yerli hakimiyyətin başında dayanan bu Sultanovların böyük nüfuzu var idi, onların millətə qarşı münasibətləri də birmənalı idi, onlar heç bir təmənna güdmədən xalqa xidmət edirdilər. Elə ona görə də Çingiz İldırımın qısqanclıq hissi, Nəzər Heydərov və onun ətrafındakıların qisasçılıq hissi bu qara niyyətli elementləri Aslan bəy və onun komandasına qarşı bir cəbhədə birləşdirmişdir. Arxiv sənədlərinin təhlilindən məlumdur ki, 1921-ci ilin yanvar-aprel aylarında və may ayında Çingiz İldırımın himayə etdiyi adamlar xalqın qəhrəman övladlarına qarşı hansı xəyanətkar addımlar atmış, böhtan dolu məlumatları mərkəzə göndərmiş və onları ləkələməyə çalışmışlar. Buradan da məlum olur ki, əgər Nəriman Nərimanovun xeyir-duası olmasaydı Ç.İldırım və onun yerli əlaltıları mərkəzin də yaxşı tanıdığı xalqının qəhrəman övladlarını bu cür damğalamağa cəsarət etməzdilər. Həmin hadisələrə bu günün prizmasından baxdıqda kimin kim olduğu gün kimi aydın olur və necə deyərlər oğruların doğruları ittiham etdikləri məlum olur.

***səh 120***

Nəzər Heydərov kitabın bu səhifəsində yazır ki, qəza icraiyyə komitəsinin plenumu Azərbaycan Kommunist Partiyasının MK-nin tövsiyyə etdiyi nümayəndəni Şuşalı Hüsü Hacıyevi sədr seçdi.

Sovetlərə seçkilərin keçirilməsində Hüsü Hacıyev də yaxından iştirak etmişdi. Qəza Sovetlər qurultayı Azərbaycan Sovetlər qurultayına on nümayəndə seçdi. Onlaırn arasında

Qubadlıdan kəndli Ramazan Məmməd oğlu, Teymur-Müsganlı kəndindən Talıb (familiyası yadımda deyil), Çingiz İldırım, Hüsü Hacıyev, Qara İlyasov, mən (Nəzər Heydərov) və başqaları var idi. Ümumazərbaycan sovetlər qurultayı 1921-ci ilin mayın 6-dan 19-dək Bakı şəhərində davam edirdi. Azərbaycan xalqınının tarixində birinci dəfə olaraq qurultay Azərbaycan SSRİ-nin Konstitusiyasını qəbul etdi. Qurultay Konstitusiyaya əsasən Azərbaycan İnqilab Komitəsi əvəzinə Respublikanın ali qanunverici və təşkilatçı orqanı 74 üzvdən 25 nümayəndədən ibarət Azərbaycan Mərkəzi İcraiyyə komitəsini seçdi. Bu sətirlərin müəllifi də (Nəzər Heydərov) Azərbaycan Mərkəzi İcrayə Komitəsinin üzvlüyünə seçildi”.

Müəllif kitabda göstərir ki, qəza sovetlər qurultayı Azərbaycan sovetlər qurultayına 10 nümayəndə seçdi. Onların arasında Çingiz İldırım, Hüsü Hacıyev, Talıb, Qara İlyasov, Nəzər Heydərov və başqaları var idi. Buradan bir sual yaranır; Zəngəzurun ermənilərə verilməsinin vacib olduğunu təkid edən və bu xəyanətə imza atan (Çingiz İldırımın himayə etdiyi) yerli xainlərin indiyə qədər görəsən xalq qarşısında hansı xidmətləri olmuşdur ki, onları Azərbaycan Respublikası sovetlər qurultayına nümayəndə seçirdilər? Doğrudan da bu adamlarda yüksək mənəvi keyfiyyətlər, xalqının düşmənləri ilə vuruşmaq əzmi var idisə, bəs onda nə üçün 1920-ci ilin aprelində fəhlə-kəndli hakimiyyəti müsavat hökumətini devirdikdən sonra mərkəzi hakimiyyətə rəhbərlik edənlər o zaman Andronikin yaratdığı daşnak hökumətinə qarşı vuruşmaq üçün yerli sərkərdə axtarışına çıxanda əvvəl Laçınlı Sultan bəylə, sonra digərlərindən yerli kəşfiyyat qurmaq, daşnaklara qarşı vuruşmaq üçün əməkdaşılıq etmək istəyərkən nə üçün bu qurultaya seçilən nümayəndələrin heç birinə təklif olunmamışdı? Əgər doğrudan da onlar layiqli adamlar

idilərsə ölüm-dirim savaşı zamanı təpədən-dırnağadək o dövrün müasir silahları ilə silahlanmış daşnak hökumətinə qarşı müharibə etmək üçün Çingiz İldırım başda olmaqla qurultaya nümayəndə seçilənlərlə nə üçün birləşmədilər? Çünki qarşıda ağır sınaq dayanırdı, vuruşmaq, şücaət göstərmək, şəhid ola bilmək kimi şərəfli və ağır bir imtahan dayanırdı. Bunu mərkəzə təmiz və qəhrəman insanları ləkələmək üçün gizli olaraq böhtan dolu donoslar ötürməklə müqayisə etmək olmazdı. Burada kişilik, qəhrəmanlıq qorxmazlıq göstərmək lazım idi. Ona görə də bu şeytani missiyanı aparanlardan mərkəz gizli xəyanətlərini həyata keçirmək üçün birdəfəlik alət kimi istifadə etmişdir. Əsl qəhrəmanlıq, kişilik, düşmənə qarşı vuruşma məqamında mərkəz birmənalı olaraq Aslan bəyin alternativsiz sərkərdə olduğunu dərk etmiş, bütün iddialarından əl çəkmiş, məhz ona müraciət etmiş, onun gücünə sığınmağa üstünlük vermişdir. Ümumi düşməni, daşnakları birlikdə məhv etmək təklifini etmişdi. Göründüyü kimi XI ordunun komandanlığı Aslan bəyə qoşulmuş, öz kəşfiyyatına rəhbərlik etməyi birbaşa ona eitbar etmişdir. Müharibə şəraitində, ordu sistemində kəşfiyyatın nə demək olduğnu siz oxucular da gözəl bilirsiniz. Bu o demək idi ki, XI ordunun Qarabağa və Zngəzura göndərilən diviziyası kəşfiyyatı Aslan bəyə etibar etməklə bərabər həm də öz həyatlarını ona etibar etmişdidilər.

Bəzi ağzıgöyçəklər Aslan bəyin XI orduya nə üçün qoşulması faktına başqa donlar geyindirməyə çalışırlar. Əslinə qalanda isə XI ordu Aslan bəyə qoşulmuşdu, çünki XI ordu birləşmələri o yerlərə bələd deyildi, coğrafi cəhətdən keçilməz dağlar, meşələr, qayalıqlardan ibarət bir yerlərdə etibarlı bələdçi olmadan hərəkət etmək mümkün deyildi. Həm də XI qızıl ordu Zəngəzura gəldiy vaxt artıq Aslan bəy Sultanovun daşnaklarla mübarizə aparamaqda xeyli təcrübsəi var idi. Ona

görə də XI qızıl ordunun 28-ci diviziyasının Aslan bəylə birləşməsi zamanın tələbi idi.

Çox mürəkkəb bir tarixi şəraitdə, mərkəz seçim qarşısında qalanda, qəhrmən sərkərdə axtarışında olanda Aslan bəyə üz tutur, onun fitri hərbi istedadından istifadə edərək son dərəcə ağır bir müharibəni udur. Onun bu qəhrəmanlığı qızıl medalla qiymətləndirilir. Onun daşnak hökumətinə qarşı qurduğu hərbi plan qələbə çaldığına görə bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı təyin edilir. Nəticədə şərəfli missiyasını aparan qəhrəmanlara qarşı yerli şərəfsizlər tərəfindən gizli olraq qarayaxma, böhtançılıq kompaniyası başlanılır. Millətinin yolunda canını belə əsirgəməyən, xalqının düşmənlərindən layiqli qisasını alan oğullarımız içimizdən olan xainlər tətəfindən güdaza verilir. Buradan belə nəticə çıxarmaq olar ki, Azərbaycan sovetlər qurultayına Çingiz İldırım və qeyrilərilə birlikdə üzv seçilməyindən qürur hissi keçirən Nəzər Heydərov artıq etdiyi xəyanətin ilk mükafatının bəhrəsini görürdü. Əfsuslar olsun ki, Çingiz İldırım kimi, onun əlaltıları Nəzər Heydərov, Savalan Şirinov və qeyrilərini bu dünyada ancaq bir şey maraqlandırırdı. Nəyin bahasına olursa olsun karyerasını qurmaq, hətta Zəngəzur kimi strateji əhəmiyyətli(onun verilməsi bütün türk dünyasını coğarafi cəhətdən ayrı salmaq məqsədi daşıyırdı) bir ərazini düşmənə vermək kimi bir xəyantə imza atmaq və onalrın etdikləri bu xəyanətə qarşı çıxan qəhrəmanlara -Aslan bəy, Lətif, Kərim və digər qəhrəmanlara şər və böhtan atmaq niyyətində olmuşlar. Özlərinin rahat həyatlarını qurmaq üçün kitabında səhifə 126-da qeyd etdiyi kimi heyvanlarla bir yerdə yataraq səhərə qədər yaş peyin iyləməkdən canını qurtarmaq üçün bu yolu seçmişdir. Ancaq bu imansızlar bir həqiqəti anlamırdılar ki, ataların da dediyi kimi, hiylə və kələk ağacının barı acı fəlakətdir və zülm ilə abad olanın axırı bərbad olar. “Qurani-

Kərimi"in məntiqi ilə desək axirətə inanmayan bu kafirlər şeytana xidmət edərək dərk edə bilməmişlər ki, insan bu dünyadakı əməlləri ilə cənnəti və cəhənnəmi qazanır. Vicdanına, millətinə hər-hansısa səbəbdən xəyanət edənlər haqq dünyasında ən ağır cəzaya məhkum olacaqlar, onların məkanı cəhənnəm olacaqdır. Əksinə, ən çətin anlarda öz vicdanına xəyanət etməyən, xalqının yolunda canını belə əsirgəməyən, millətinin düşmənlərinə qarşı vuruşan şərəfli insanların mükfatı böyük və qadir olan Allah tərəfindən haqq dünyasında cənnət olacaqdır. Bu fikirləri "Qurani-Kərim"in məntiqi diqtə edir.

Çingiz İldırım, Nəzər Heydərov, Savalan Şirinov və qeyriləri etdikləri xəyanətə görə başda oturanlardan yüksək vəzifələr aldılar. Hətta ermənilər Savalan Şirinovu Amasiya rayonunun birinci katibi vəzifəsinə təyin etmişdilər. Bir müddət bu vəzifələrin ləzzətini duydular, ancaq sonra nə oldu? Sovet imperiyası dağıldı, arxivlər açıldı, kimin kim olduğu üzə çıxdı. Hadisələrə bu günün prizmasından baxdıqda isə bir təkzibolunmaz faktla razılaşmaq məcburiyyətində qalırsan. Gec də olsa haqq-ədalət üzə çıxır, necə deyərlər düz əyrini kəsir. Şaumyanların, Nərimanların və qeyrilərinin deyil, zamanın ən böyük hakim olduğunu anlamayan, gözləri, qəlbləri şeytan tərəfindən möhürlənmiş bu qara elementlər yəqin ki, son anda ölüm xofu ilə üzləşəndə nələrini nələrinə qurban verdiklərinin fərqində olublar. Ancaq atalar demişkən təəsüf ki, sonrakı peşimançılıq fayda verməz. Xalqına, vicdanına xəyanət edənlər mənəviyyatlarını kariyeralarına qurban verənlər bir həqiqəti anlamalıdırlar ki, bu dünyada cəzadan qaça bilsələr də haqq dünyasında cəzadan qurtula bilməyəcəklər.

***səh 125***

Nəzər Heydərov kitabın **125-ci** səhifəsində bizə arxiv sənədlərindən daha dəqiq məlum olan bəzi hadisələr barədə aşağıdakıları yazır:

"1921-ci ilin may ayının əvvəlləri idi. Kəndimizə (Gürcülü kəndinə) bir dəstə erməni kommunisti gəlmişdi. Əliquluuşağından xəbər verdilər ki, daşnaklar bunu bilib kəndə siahlı dəstə göndəriblər. Başda Arşak Balayan olmaqla kommunistlər daşnakları qarşılamaq üçün Laləzar körpüsünə tərəf yola düşdülər. Bizim kəndin kommunistləri və silahlı bitəraflər də onlarla getdi. Bir az keçdikdən sonra atışma səsi gəldi. Atışma kəsildikdə kimsə şaiyə yaydı ki, daşnaklar bütün kommunistləri körpüdə qırıb, bizim kəndi də dağıtmağa, talamağa gəlirlər. Yeqo Qazaryan bizim evdə xəstə yatırdı. Yerindən tərpənə bilmirdi. Birinci növbədə onu xilas etmək lazım idi. Qadınlar ona arvad paltarı geyindirib, qoca qarıların arasında gizlətdilər. Ancaq bütün təşviş əbəs imiş. Daşnaklar Ağyazı tərəfdə Gürcülülərin və Əliquluuğağılıarın atəşi altına düşüb vahimə içərisində Aynaxlı dərəsinə çəkilmişdilər".

Kitabdakı bu hissəni sizin diqqətinizə çatdırmaqda məqsədimiz iki əqidə qardaşı olan Nəzər Heydərovla Savalan Şirinovun müxtəlif illərdə və müxtəlif yerlərdə dedikləri və yazdıqları parodaksal fikirlərə toxunmaq istəyirik. Nəzər Heydərovun yuxarıdakı hadisəni necə qələmə verdiyi ilə artıq tanış oldunuz. Bəs görək Savalan Şirinov həmin hadisələri necə qələmə vermişdir. Bu barədə sizə daha əvvəl də məlumat verməyimizə baxmayaraq, həmin məqama bir daha qayıtmaq istəyirik:

"1921-ci ildə Daşnak generalı Nijde başının dəstəsi ilə Qubadlı rayonunu Gorusla birləşdirmək fikrinə düşür və bu məqsədlə Eyvazlı kəndində konfrans təşkil edir. May ayında

isə quldurlar bizim dəstəyə qarşı 200 nəfərlik silahlı qüvvə göndərirlər. Rayon milis idarəsini rəisi Aslan Sultanov bizim köməyimizə gəldi. Quldurlar məhv edildilər.

Daha əvvəlki abzasda isə yazır ki, 1920-ci ildə müsavatın rəhbərləri əyinlərinə arvad paltarı geyinib qadınların arasında gizlənmişdilər və s. və ilx."

Maraq doğuran odur ki, iki əqidə qardaşı eyni hadisələri başqa-başqa yozumda çatdırmağa və qələmə verməyə çalışırlar. Nəzər Heydərov hadisələrdən söz açaraq daşnakların güclü müqaviməti ilə qarşılaşdığını yazsa da, o müqaviməti kimin qırdığını, kimin daşnakları zərərsizləşdirib məhv etdiyini yazmır.

Savalan Şirinov isə Nəzər Heydərovun yazdığı kimi erməni Yeqo Qazaryana arvad paltarı geyindirib qoca qarıların arasında gizlənməyinə 1982-ci ildəki söhbətində başqa cür don geyindirərək guya nə vaxtsa (1920-ci ildə) müsavatçıların qadın paltarı geyinərək qadınların arasında gizlənməyi ilə səhv salır. Bu insanların tarixi hadisələri nədən bu qədər təhrif etməkləri təəccüb doğurur. S.Şirinov bu yerdə bir vaxtlar özlərinin istifadə etdikləri metodu səhv salaraq onu müsavatçıların ayağına yazmağa çalışır ki, guya müsavatçılar arvad paltarı geyinərək qadınların arasında gizlənirmişlər. Amma Nəzər Heydərov yazır ki, onun evində olan Yeqo Qazaryana arvad paltarı geyindirib qoca qarıların arasında gizlədiblər. Yəni be metod onlara xas olan bir üslub imiş...

Kitab boyu özünün "qəhrəmanlığından, şücaətindən, erməni qardaşlarla yaxın münasibətlərindən" ürək dolusu yazan Nəzər Heydərov kitabında yazır ki, "Calal bəy (Çingiz İldırımın əmisi oğlu) bacıma (Molla Abbasın həyat yoldaşı) şillə vuranda mən əmim oğlu ilə birlikdə kolların arxasına girib gizlənmişdik." O hansı qəhrəmandır ki, bacısı təhqir olunduğu, şillələndiyi bir vaxtda kol dibində gizlənib

hadisələri seyr edirmiş? Biz tarixdə belə bir qəhrəman tanımırıq. Qəhrəmanlar anadan qəhrəman doğulur... Bir də bu sual doğurur ki, bacısı şillələnəndə qaçıb kol dibində gizlənərək hadisəni kol dibindən seyr edən bir adam daşnak generalı Nijdenin qarşısına necə çıxa bilər? Bu yerdə deyirlər ki, "gop da olsa çox maraqlıdır". Amma gopun da, marağın da bir limiti olur. Arxivlər maraq sindiromunu, gop sindromunu alt-üst etdi.

Savalan Şirinovu ahıl yaşlarında müəyyən etiraflar etməyə nə vadar etmişdi? Yəqin ki, tarix və həyat, ölümlə axirət yolunun yolçusu olan hər kəs ömrünün müəyyən vaxtında azacıq da olsa vicdanı varsa keçdiyi həyat yoluna bir nəzər salır, etdiyi səhvləri, gördüyü günahları götür-qoy edir. Yəqin ki, Savalan Şirinov da əbədi yolçuluq öncəsi vicdanının narahat səsini dinləmək zorunda qalıb. Yoxsa o həmin etirafları edə bilməzdi.

Nəzər Heydərovdan fərqli olaraq Savalan Şirinov bu hadisələrdə yerli kommunistlərin Nijde qoşunun önündə aciz qaldığını və bu zaman qəza milis idarəsinin rəisi Aslan bəyin və onun dəstəsinin köməyə gələrək daşnakalrı məhv etməsini yazır.

***səh 56***

"Aslan bəy bir qədər söhbət edikdən sonra adamlarına:

– Atlanın ,- əmri verdi və geri qayıtdılar.

Beləliklə də hökumət yüzbaşısı, inqilabçı kənddən açıqca qovuldu".

Bu məqamda bir şey ikrah hissi doğurmaya bilmir ki, bütün kitab boyu Aslan bəyi əksinqilabçı, sovetlərin düşməni kimi qələmə verməsinə baxmayaraq bu yerdə özünə nəzarəti itirib Aslan bəyi inqilabçı adlandırır. Oxucular bunun hansına inansınlar.

***səh 57***

"Bu Aslan bəyin yazılı məlumatından sonra qəza hökumətini xəyanətə və hiyləyə əl atmağa məcbur etdi.

Pristav Sultanova (yəni Aslan bəyə) tapşırılır ki, Əmrah Məmişoğluna və mənə məktub yazıb, hökumət yüzbaşısının ləğv olunduğunu bildirsin və gələcəkdə icmanı necə idarə etmək barədə danışmaq üçün bizi öz yanına dəvət etsin. Biz Dəmirçilər kəndinə gəldik, pristavın idarəsi burada idi. Kabinetə girdik, söhbət başlandı. Sonra bizi tutub qəzəmətə saldılar".

Nəzər Heydərov kitabının 7-ci səhifəsində göstərir ki, bizim Gürcülü[1] kəndində 1,5 km aralıda bir pir var idi. Bunu biz ona görə qeyd edirik ki, yəni Nəzər Heydərov Gürcülü kəndinin onların doğma kəndi olduğunu təsdiq edir. Sonra 40-cı səhifədə bunu təsdiq edərək göstərir ki, bəy kəndi olaraq qalmış bizim Gürcülü kəndində baş vermiş aşağıdakı təsvir etdiyim əhvalat keçmiş Zəngəzurun Azərbaycan hissəsinin o zamankı bütün mülkədar kəndləri üçün səciyyəvidir.

Kitabın **20-ci** səhifəsində isə ürək yanğısı ilə bildirir ki, Sultanovların ulu babası (yəni Aslan bəy Sultanovun, Çingiz İldırım Sultanovun, Abbas Sultanovun, Xudabaxış bəy Sultanovun, Behbud bəy Sultanovun) Nəcəf bəy hələ lap farsların hakimiyyəti dövründə Bəxtiyarlı kəndində yaşayırdı. O, Nəsir Sultanın nəslindən idi. Nəcəf bəy Gürcülü kəndinin ilk feodal ağası olub. Az öncə yuxarıda qeyd etdik ki, Nəzər Heydərov kitabın müxtəlif səhifələində Gürcülü kəndinin onun doğma kəndi olduğunu göstərir. Buradan belə bir məntiq yaranır ki, Nəzər Heydərovun təbiri ilə desək, Aslan bəyin ulu babası Nəcəf bəy

---

[1] Gürcülü kəndinin adı gürcü sözündəndir.

Gürcülü kəndinin ilk feodal ağası idisə deməli, Nəzər Heydərovun babaları və ulu babaları da onların nökərləri olmuşdur. Sonra qeyd edir ki, kənddə olan hər şey Nəcəf bəy Sultanovun ixtiyarında idi. Nəcəf bəyin 4 oğlu var idi: ***Əsgər bəy, Niftalı bəy, Qasım bəy və Abdulla bəy.***

Yeri gəlmişkən sonralar Aslan bəyin ölümündən sonra Mircəfər Bağırovun tövsiyyəsi ilə Sultanovlar familiyasıın Abdullayev olması həmin bu Abdulla bəyin adı ilə bağıdır. Arxasınca bildirir ki, Gürcülü kəndinin camaatı da mal-qara kimi bu dörd bəyin arasında bölünmüşdü. 21-ci səhifənin sonunda yazır ki, Bərgüşad çayının üstündə Gürcülü kəndində (Nəzər Heydərovun kəndi) Abdulla bəyin gözəl bağı var idi. Sonra bu bağ onun oğlanları Şirəli bəyə və Məşədi Həmid bəyə qalmışdır. Biyardan əlavə kəndin camaatı hər il bu bağı suvarmaq üçün su anbarı tikər, arx çəkər, ağacların dibini yumuşaldar, quru budaqları kəsər, meyvəni yığıb atlara yükləyərək Danzaver (Armudluq kəndi, Aslan bəyin əmilərinin kəndi) kəndinə göndərərdilər.

Kitabın **39-cu** səhifəsində isə göstərilir ki, V.İ. Leninin göstərişini yerinə yetirərək Bakı bolşevikləri başda S.Şaumyan, M.Əzizbəyov, Nəriman Nərimanov, P.Çaparidze, İ.Fialetov və digərləri olmaqla xalq kütlələrinin Sovetlər uğrunda mübarizəsinə rəhbərlik edirdilər. Bakı Soveti 1917-ci il noyabrın 2-də S.Şaumyanın məruzəsi əsasında hakimiyyətin Sovetlərə verilməsinə dair əməli iş proqramı qəbul etdi. Bakı Soveti Bakıda Sovet hakimiyyətinin möhkəmləndirilməsi və bütün Qafqazda qələbə çalması uğrunda qəti mübarizəyə girişdi.

Göründüyü kimi, Şaumyanın dəstəsinin üzvü olan Nəriman Nərimanov «uf» demədən Zəngəzurun və Qarabağın getməsinə birbaşa imza atmış və bununla da öz ağalarının rəğbətini qazanmağa çalışmışdır.

Səhifənin axırında göstərir ki, müsavatçılar və daşnaklar Sovetlər əleyhinə mübarizə aparmaq üçün xarici müdaxiləçiləri köməyə çağırdılar: əvvəl türklər, sonra ingilislər gəldi. Türk və ingilis müdaxiləçilərinin, eləcə də daxili əksinqilabi qüvvələrin təzyiqi nəticəsində 1918-ci il iyulun 31-də Bakıda Sovet hökuməti müvəqqəti yıxıldı. Türkiyə işğalçıları Bakıda müstəmləkəçi-polis rejimi yaratdılar, qanlı sui-qəsdə başladılar, hərbi səhra məhkəmələri qurdular, adamları asmağa, döyməyə girişdilər. Bu insan görün vicdanına nə qədər xəyanət edir. Tariximizin ən çətin anlarında bizə qardaşlıq köməyini göstərmiş türkləri işğalçı adlandırır və indi fəxr etdiyimiz müstəqil dövlətin, hansıkı bu gün də biz böyük fəxrlə 18-20-ci illərdə qurulmuş müstəqil demokratik dövlətin varisi olmaqdan qürur hissi keçiririk. Nəzər Heydərov isə həmin demokratik dövləti utanmadan müstəmləkəçi-polis rejimi adlandırır.

**41-ci** səhifədə isə göstərir ki, müsavat hakimiyyəti dövründə Zəngəzur qəzasının rəisi Məhəmməd bəy Həsənqulu bəy oğlu Sərməstbəyov idi. Qəza-mahal pristavı isə Sultanovlardan idi. Diqqət edin, qəza rəisinin adını bütünlüklə yazır, amma çaşqınlıq yaratmaq üçün qəza-mahal pristavının adını və atasının adını isə bütünlüklə yazmır. Çünki qəza-mahal pristavı həmin dövrdə Aslan bəy Kərbəlayi Hüseyn bəy oğlu Sultanov olmuşdur. Qəzanın bu iki fiqurunu xüsusi olaraq vurğulayır.

***səh 145***

Bu səhifədə müəllif yazır:- “Xallava kəndindən olan Kərimin və Xalac kəndindən olan Lətifin bandası Zəngəzurda tüğyan edirdi. Bu iki banda iki qəzada normal həyatı tamam pozmuşdu. Hər cür əksinqilabçı ünsürlər baş qaldır-

mışdılar. İş o yerə çatmışdı ki, orda burda qalmış müsavatçı və daşnak ünsürlər az qalırdı ki, bizim qəzanın bu və ya digər rəhbərlərini öldürməyi onlardan tələb etsinlər. Kərimlə Lətifin Bərgüşad dağlarında, Kəpəzin yaxınlığında, meşədə gizlənmiş bandası iki dəfə Qara İlyasovun və mənim üstümə düşmək istəmişdilər, ancaq baş tutmamışdı".

***səh 146***

Kitabın **146-cı** səhifəsində müəllifin növbəti bir yalanı diqqəti çəkir.

"Şükürün verdiyi xəbər (16 yaşlı naxırçı Şükür) Sultanovu (söhbət Aslan bяy Sultanovdan gedir. Müəllif Aslan bəyi soyadı ilə qələmə verərək yenə fikirləri yayındırmağa çalışır) bərk hiddətləndirdi. O həmin on nəfərəi izləməyi mənə təklif etdi. Mən Sultanovun fikrini başa düşdüm. O qəsdən Lətifin və Kərimin dəstəsini meşədə pusquda qoymuşdu. O, əvvəlcə mənə hədə-hərbə gəldi, dedi ki, qəzanın bütün təşkilat rəhbərləri kimi məni də hər vaxt hər yerdə ölüm gösləyir. Sultanov riyakarlıq edirdi. Banditləri izləməyi təklif etməklə məni inandırmaq istəyirdi ki, onları məhv etməyə həmişə hazırdır. Mən özümü elə göstərdim ki, guya ona inanıram. İzləmək gözlənildiyi kimi heç bir nəticə vermədi. Biz Sultanovla sakitliklə ayrıldıq ". Bununla Nəzər Heydərov bildirmək istəyir ki, Aslan bəy onları iki dəfə öldürmək istəyib, ancaq baş tutmayıb. Axı Lətif və Kərimin dəstəsinə Aslan bəy başçılıq edirdi.

***səh147***

"Ertəsi gün Zəngəzurdan gəlmiş məsul milis işçisi Makar Aqababov bizə xəbər verdi ki, Sultanovun və onun bəzi dostlarının beynəlmiləlçi banda ilə əlaqəsi var. Bu banda öz qarşısına yalnız soyğunçuluq deyil, mahalın rəhbər işçilərinin cismın məhv etməyi də məqsəd qoymuşdur. Həm də bunu

elə təşkil edirdilər ki, özləri sudan quru çıxır, heç kim heç vaxt onları cinayət üstdə tuta bilmirdi".

Kitabın əvvəlində Aslan bəy, sonrakı fəsillərdə Sultanov yazmaqda onun hansı məqsəd daşıdığını araşdırmağa çalışaq.

Onun Aslan bəy yazdığı fəsillər tarixi dövr kimi qəzada müsavat hakimiyyətinin dövrünə düşür. Bu zaman o çox böyük ürək ağrısı ilə Aslan bəyin onun kürəkəni və ağsaqqalı sayılan, nəslin "lotusu" Molla Abbası, qardaşını və onun özünü necə həbs edib Şuşa həbsxanasına göndərməyindən yazır. "Banditizmlə mübarizə" fəslində isə Sultanov yazmaqla izi azdırmağa çalışır. Daha irəli gedərək Sultanovun Lətiflə Kərimin antisovet bandasına rəhbərlik etməsindən söz açır. Bu yerdə oxucuları çaşdırmağa çalışaraq guya Sultanovun onunla ünsiyyət qurmağa çalşımasından, başqa yerdə də Lətiflə Kərimin dəstəsini onu yaxalamaq üçün meşədə pusquya qoymağından yazır. Daha sonra da Aslan bəyin ona hədə-qorxu gələrək qəzanın bütün təşkilat rəhbərləri kimi onu da hər an hər yerdə ölüm gözlədiyini bildirir. Sonra da özünə yaraşan "riyakar" adını Sultanova qoyaraq yazır ki, guya Sultanov banditləri məhv eməyə həmişə hazırdı. Bu yerdə Nəzər Heydərov yenə eyforiyaya qapanır. Əvvəlki fəsillərdən sizə artıq məlumdur ki, Aslan bəy heç vaxt haqqı-nahaqqa verməyib. Onun Lətiflə Kərim kimi el qəhrəmanlarını əqidəsini satan xəyanətkar, riyakar, minüzlü Nəzər Heydərova dəyişməyi söz ola bilməzdi. Müəllif əvvəlki fəsillərdə yazırdı ki, Aslan bəy Molla Abbası, məni və qardaşımı döydürmüş, əziyyət verdirmişdi. İndi necə ola bilərdi ki, Aslan bəy onunla hər hansısa bir ünsiyyətə girmiş olsun. Belə yazmaqla o yenə özünəməxsus şəkildə oxucuları aldatmağa çalışır.

Kitabda: "... ertəsi gün Zəngəzurdan gəlmiş məsul milis işçisi Makar Aqababaov bizə xəbər verdi ki, Sultanovun və onun bəzi dostlarının beynəlmiləl banda ilə əlaqəsi var ",-

yazır. Bu fikirlərin nə qədər doğru , yaxud yalan olduğunu sübuta yetirmək üçün Nəzər Heydərovun komandasının fəali üzvləirindən bir olan Savalan Şirinovun Azərb.KP Qubadlı Rayon Komitəsinin və rayon Xalq deputatları sovetinin orqanı olan “AVANQARD” qəzetinin 11 noyabr 1984-cü il, 133 (3980) sayında Qubadlıdakı Qara İlyasov (əslində isə bütün Qubadlı camaatı o məktəbi Həsən bəyin məktəbi kimi tanıyırdı) adına orta məktəbin 100 illik yubileyində fəxri qonaqlar sırasında olan Savalan Şirinov (həmin tədbirdə Azərbaycan SSR Maarif naziri Kamran Rəhimov da iştirak edirdi) O dövrdə Aslan Sultanovun Ermənistan tərəfin milis rəisi Makar Aqababovla yaxın dostluq münasibətində olduğunu”,- qeyd edib. Amma az əvvəl sizə çatdırdıq ki, Nəzər Heydərov kitabda Sultanovun (yəni Aslan bəyin) antisovet beynəlmiləçi banda ilə sıx əlaqəsi var. Amma illər sonra Savalan Şirinov dövlət tərəfindən təşkil edilmiş yubiley tədbirində Aslan bəyin xüsusi xidmətlərindən söz açaraq, onun bölgədə necə nüfuz sahibi olmağını deyir. Əgər Aslan bəy həqiqətən də antisovet bandaya rəhbərlik etmiş olsaydı o zaman 1984-cü ildəki yubiley tədbirində, sovet hökumətinin ayaqda olduğu bir vaxtda Savalan Şirinov kimi təcrübəli bir kommunist Aslan bəyin adını belə çəkməyə çəsarət etməzdi. Məhz həmin o yubileydə iştirak edən Az SSR Maarif naziri Kamran Rəhimovun da iştirak etdiyi iclasda, yüzlərlə tamaşaçının gözü qarşısında Savalan Şirinov bəyan edib ki, 1922-ci ildə, oktyabrın 18-də baş vermiş Xanlıq üsyanını da Aslan bəy Sultanov yatırdıb və üsyana başçılıq edən Qoçu Təhməzi də şəxsən Aslan bəy özü öldürüb. Bu tarixdən iki il əvvəl Savalan Şirinov “Sovet kəndi” ***(21 yanvar, 182-ci il. N9 (5806))*** qəzetninin müxbiri Teymur Miralıyevlə söhbətində qeyd edib ki, “1921-ci ilin aprel ayında daşnak generalı Nijde

Qubadlı rayonunu Gorusla birləşdirmək üçün Eyvazlı kəndində konfrans təşkil etdi...

May ayında daşnaklar bizim dəstəyə qarşı 200 nəfər silahlı quldur yolladılar... Qəza Milis idarəsinin rəisi Sultanov ***(Aslan bəy)*** bizim köməyimizə gəldi. Daşnaklar geri çəkildilər..."

Bu faktın özü də təsdiq edir ki, bir vaxtlar Aslan bəyi ləkələməyə çalışan dəstənin fəal üzvlərindən biri olan Savalan Şirinov illər sonra ictimai rəydən ehtiyat edərək bir vaxtlar olduğu kimi Aslan bəy haqqında həqiqətləri gizlətməyə ürək etməyib. Savalan Şirinov kimilər elə o dövrdə də ictimai rəydən ehtiyat edirdilər, yoxsa fikirlərini donos şəklində, gizli olaraq deyil, açıq-aydın deyərdilər, Aslan bəylə açıq mübarizə aparardılar. Lakin əvvəldə də qeyd etdiyimiz kimi tarix amansız təzadları ilə bu yazıqları çaşbaş salıb. Faktlar üzə çıxdıqca, arxiv sənədləri ictimaiyyətə təqdim olduqca onların məkrli və iyrənc fəaliyyətləri haqqında hər şey ortaya çıxır. Və o adamlar haqqında bir sözlə belə fikir demək olar: Yazıqlar!

Yuxarıda adını çəkdiyimiz "Avanqard" qəzetinin elə həmən sayında və həmən məqalədə yubiley iştirakçıları, və minlərlə oxucu aldadılaraq təhqir olunur. Savalan Şirinov böyük fəxarət hissiylə qeyd edir ki; "1920-ci ilin dekabrında Gorus kəndində çağırılımş Zəngəzur Qəza Partiya Qurultayı Qəza Kommunistlərinin Rəyasət heyətinə Armenak Qaragözov, Akop Komari, Xristofor Mkrtıçyan, Maqiç Maşiryan, Oruc Babayev, Nəzər Heydərov, Kərim İsgəndərov, Ayrapet Tatyan kimi mətin kommunistləri seçmişdir". Bu barədə daha əvəl Nəzər Heydərovun kitabından da məlumat vermiş, əldə etdiyimiz arxiv sənədləri ilə müqayisələr aparmışdıq. İndi də Savalan Şirinovun çıxışının üstündən sükutla keçmək olmur. Əqidə qardaşı, yoldaşı Nəzər Heydərov kimi Savalan

Şirinov da qurultayın hansı qərarı qəbul etdiyindən danışmır. Arxiv sənədləri olmasaydı yəqin ki, elə biz özümüz də bir çoxları kimi bu məsləyə barmaqarası baxar, adi bir kommunist qurultayı kimi dəyər verərdik. Əslində isə bu qurultay Azərbaycanın və türk dünyasının parçalanması üçün atılan ilk xəyanətkar addımdır. Məhz yuxarıda adları çəkilən qurultayın azərbaycanlı nümayəndələrinin təkidi ilə primitiv və gülüş doğuran bəhanələr gətirilərək Zəngəzurun Ermənistana birləşdirilməsi təkilifi irəli sürülüb və bu təklif qəbul edildikdən sonra təklifi verən və dəstəkləyən xainlər mükafat olaraq qəza icrayə komitəsinin rəyasət heyətinə üzv seçildilər. Onların sonrakı "işıqlı" bolşevik taleləri haqqında yazmışıq. Məhz o qurultaydan üç ay ötdükdən sonra erməni rəhbərləri Azərbaycan tərəfə, İnqilab komitəsinin sədri olan Nəriman Nərimanovdan tələb edirlər ki, həmin yoldaşlar yerli hakimiyyətin rəhbər vəzifələrdə təmsil olunsunlar. Bu tələb də Nərimanov tərəfindən müzakirə edilmədən icra olunur. Aradan ötən illərdə həmin o insanlar xalqın gözündə mötəbər pillələrdə dayanmış, adları xüsusi rəğbətlə çəkilmişdi. Lakin arxiv sənədləri bütün bu pərdə altınmda olan tarixi gerçəkliyə işıq saldı. Onların kim olduqları, hansı taleyüklü xəyanətlərə imza atmaları üzə çıxdı.

***səh 52***

Nəzər Heydərov yazır: "Mən Teymur Müsgənli kənd icmasında kənd mirzəsi idim. Bu bizə Xınzirək kəndinin erməni kommunistləri ilə əlbir hərəkət etməyə və onalrın vasitəsiylə Gorus komitəsi ilə əlaqə saxlamağa imkan verirdi".

**səh 53** – də yazır ki: "Bəylərin hüququnu təmin etmək və dikbaş kəndliləri cəzalandırmaq üçün cəza dəstəsi yaradıldı.

Həmin dəstəyə başçı Aslan bəy Sultanov təyin olundu". Daha sonra isə yazır ki, -" 1919-cu il aprel ayının axırları idi. Yoldaşlarımızdan biri- Əli Xudaverdi oğlu Səfərov Qubadlıya, gizli işləyən kommunist Abbas Sultanovun yanına yola düşdü".

***səh 127***

Bu səhifədə Nəzər Heydərov əqidə qardaşı S.Şirinova istinad edərək yazır ki, Savalan Şirinov evə girib dedi:

–Sən doğru deyirsən, Armenak. Azərbaycanlılarla ermənilər qardaş olublar, qardaşdılar və qardaş olacaqlar..."

Bu yerdə adam Saval Şirinovdan xəbər almaq istəyir ki, bəs nə oldu, niyə qardaş ola bilmədilər. Xocalıda tökülən günahsız qanları, qocalara, uşaqlara, qadınlara verilən işgəncələri kimin adına yazaq. Bəs ağız dolusu dediyin qardaşlığa kim mane oldu? Cavabı çox sadədir. Əgər 1920-ci ildə xəlvətə çəkilb Azərbaycanın gələcək taleyini Ermənistanla bağlayaraq Azərbaycanı türk dünyasından, türk dünyasını coğrafi cəhətdən bir-birindən ayrı salmaqla böyük və bağışlanmaz bir xəyanətə, tarixi cinayətə imza atmasaydız bu gün o faciələr baş verməzdi. Sizlər zaman-zaman sovet dönəmində etdiyiniz xəyanətin mükafatını aldınız. Yüksək vəzifələr sahibi oldunuz, Savalan Ermənistanın Amasya rayonunun 1-ci katibi də olub. Adınızı kommunist tarixinin "şərəfli səhifələri"nə yazdıra bildiniz. Lakin zaman öz hökmünü gec də olsa verdi. Bu yerdə bir atalar məsəlini xatırlatmaq yerinə düşərdi: Allah gec eləyir, amma güc eləyir. Bəli gec oldu qaranlıqların üzündən pərdənin çəkilməsi, gec oldu haqq-ədalətin öz yerini tutması, gec oldu tarixdə imzasını şərəflə qoyan kişilərin xalqın yaddaşına dönməsi, amma oldu... Sizsə tarixin şərəfsizlər arxivinə göndərməklə öz əməllərinizin cəzasını aldınız.

***səh 206-da*** Abbas Sultanov barədə yazır ki;- “1920-ci ilin mayında Abbas Sultanov ***(bəy)*** kürdlər arasında iş aparmaq üçün Bakıdan Laçın rayonuna göndərildi.

Abbasın rayona gəldiyini Sultan bəy ***(Laçınlı)*** bilirdi. Bəyin inanılmış adamları kommunistləri gözdən qoymurdular.

Abbas bir gecə Minkənddə inqilab komitəsinin binasında keçmiş kanvansarada qalmışdı. Birdən Həmid bəy Nəbibəyov və Teymur Qulu oğlu Allahverdiyev içəri girirlər. Bina, əlbətdə mühasirəyə alınmışdı.

– Sultanov, sizsiniz?- deyə, onlar soruşdu.

– Bəli mənəm. –Əgər siz bəyin qohumusunuzsa niyə onun evinə düşməmisiniz?

– Mən sizin bəyin qohumu deyiləm, familyamız birdir...

– Ancaq, görünür siz məhşur nəsildənsiniz? Bu cür adamlar bura gələndə həmişə Sultan bəyin evinə düşürlər. O çox qonaqpərvər adamdır.

– Sultan bəy əmr etdi ki, sizi onun yanına aparaq. Biz sizsiz qayıda bilmərik.

Abbas başa düşdü ki, müqavimət göstərmək yersizdir.

Abbas Sultanov öz-özündən soruşurdu: Baharın belə xoş vaxtı kim təbiətin gözəl qucağını qoyub, qaranlıq zindana gedər?

Sultan bəy onu balkonda qarşıladı, əlini sıxıb qonaq otağına dəvət etdi. Bu parket döşəməli böyük bir otaq idi. Otağın divarına yağlı rəng çəkilmiş, qiymətli xalılar vurulmuşdu. İri, işıqlı pəncərələrin arasına alçaq dəyirmi stol və göy məxmər üz çəkilmiş yumşaq kreslolar qoyulmuşdu.

Sultan bəy Abbasdan soruşdu: - Təzə nə var, nə yox, ay əmoğlu?

– Yaxşı xəbərlər çoxdu, Sultan bəy... Mən gəlmişəm ki, rayonda sovet hökuməti qurmaqda camaata kömək eləyim.

– Bəs niyə öz Qubadlınıza yox, Laçına gəlmisiniz?

– Ora başqa yoldaşlar gedibdir... Mən sizə məsləhət görürəm ki, bu silahlı adamları buraxın, rayonda sovet hökuməti qurulmasını bir dost kimi qarşılayın.

– Bəs sonra?

– Sonra qoy adamılar dinc əməklə məşqul olsun.

– Bəs mən nə eləyim?

Bu suala cavab verməsk çox çətin idi, lakin Abbas bəyə acı həqiqəti deməyi qərara alıb əlavə etdi:

– Bu sizin cəzanızı çox yüngülləşdirər.

– Bəs mənim var-dövlətim necə olacaq?

– Onlar xalqın malı kimi sizdən alınacaqdır. Xalqın əli ilə yaradılan hər şey xalqındır.

– Pis düşünməmisiniz, əziz əmioğlu! Demək ağıllı adamlar düz deyir: "Gödək adam gündə bir-neçə dəfə allahlıq təmənnasına düşər". Yaxşısı budur doğrusunu deyəsən, özün mənim var-dövlətimə sahib olmaq istəyirsən!

– Bəy, mən sizə başqa bir məsəllə cavab verəcəyəm: "Uzun adamın ağlı topuğunda olar".

Dalınca Sultan bəy o saat özündən çıxdı:

– Unutmayın ki siz mənim duz-çörəyimi yemisiniz...

– Bəli! Mən sizin qonağınızam. Məgər bizim xalqın adəti qonağı təhqir etməyə yol verirmi?

Bəy bir qədər səsini alçaltdı:

– Biz bir yerdə duz-çörək yemişik. Siz onun xatirinə mənə doğrusunu deməlisiniz. Duz-çörəyi sizə buna görə xatırlatdım.

...Həbs edilən günün sabahısı Abbası Sultan bəyin yanına gətirdilər. Sultan bəyin xırıltılı səsi onu fikirdən ayırdı. O, dedi:

– Sizin nəsliniz çox qədim nəsildir. Siz Hüseynqulu Sultanın nəslindənsiniz. Əslin danan haramzadadır. Nə qədər gec deyil səhvinizi düzəldin. Sizdən çox şey tələb olunmur. Siz bir-neçə kənddə iclasda çıxış edib kəndlilərə deməlisiz ki, bolşeviklərə qoşulmaqda səhv eləmisiz. Mən sizi öyrətmək istəmirəm. Necə danışmağı siz məndən yaxşı bilirsiz. Bu deduklərimi eləsəniz sizi buraxaram , üstəlik də nə istəsəniz verərəm.

... Bəy yaxın adamlarından birini, seyid Həmidi yanına çağırdı, ona tapşırıqlar verdi, o da bəyə nəsə cavab verərkən bəy ona dedi:

-Siz nə bacarıqsız adamsınız! Yoxsa sən də bu ağılsız Abbas kimi əslini danmısan?”.

***səh 213***

O dövrdə qaçaqçılıq və yerli müqavimət hərakatı elə bir məcraya çatdı ki, bu müqavimət qarşısında tab gətirə bilməyən mərkəz geri addım atmaq məcburiyətində qaldı.

Zəngəzur verilən zaman başlanan müqavimət hərəkatının və tökülən şəhid qanlarının alovlanaraq Qarabağda və digər bölgələrdə geniş vüsət alması barədə ictimaiyyətə bu vaxta qədər kifayət qədər həqiqətlər çatdırılmayıb. Azərbaycan xalqı bilməlidir ki, 1988-ci ilə qədər Azərbaycanın tərkib hissəsi sayılan və o illərdə növbəti xəyanət dalğasının qurbanı olan Qarabağ tökülən şəhiq qanları, Aslan bəy və onun silahdaşları kimi xalq qəhrəmanlarının ölüm-dirim mücadiləsi sayəsində Azərbaycanın tərkibində qalmışdır.

Azərbaycan Respublikası Prezident aparatının Siyasi Sənədlər Arxivi, **fond 246, siyahı 1, saxlama vahidi 127**



1925-ci il

ВЫПИСКА ПРОТОКОЛА № 38

1925

...кретно закрытого об'единенного заседания президиумов Курдукома и Уисполко... .../XI-С.Г./ представленная при отношении от 28/XI-с.г.за № 2286 в ЦК АКП/б/ ...крайком [illegible]/.-

| Слушали: | Постановили: |
|---|---|
| ...первому вопросу т.Абдурахманов ...ает шифрованную телеграмму за ...37 [illegible]/б/, содокладчиком высту... председатель комиссии/по высе... беков и зловредных элементов/ ...аил Гаджиев представляя список, ...нный со списком Информпункта.- | Список комиссии утвердить в следующем порядке/т.е.выслать из пределов Курдуезда нижепоименованных беков и зловредных элементов/.- |

137

По Кутурлинскому району.

1) Солтанова Маш. Таллыбека с сыновьями: Фаррухбеком, Ильдримбеком и Магатдинбеко[м]

2) Солтанова Гади бека,

3) Солтанова Гамидбека,

По Курт-Кадж[инскому] району.

4) Сеид Ибрагима Сеид Мир Азиз оглы,

5) Сеид Талыба Сулейман оглы,

6) Сулейманбека [illegible]бекова,

7) Салаха Наби оглы,

8) Салман Аллахяр оглы,

По Кубатлинскому району.

9) Аст[illegible]бека [illegible] оглы [illegible]ова,

10) Мамед бека Теймур бек оглы Солтанов[а] с братом Худабахишом,

11) Азиз бека Солтанова с братом Джалиб[illegible] бeком,

12) [illegible] бека [illegible],

13) Исрафил бека Солтанова,

14) Джалил бека Солтанова,

15) Маш. Гамид бека Солтанова с сыном Кулламбеком.-

| Слушали: | Постановили: |
|---|---|
| | 16) Бахиш бека Солтанова, |
| | 17) Джахангир бека Солтанова, |
| | 18) Таир бека Солтанова, 19) Амир бека Солтанова, |
| | 20) Шамил бека Солтанова, |
| | 21) Багир бека Солтанова, |
| | 22) Искендарбек Солтанов, |
| | 23) Садат Кули бека Эйвазова, |
| | 24) Агакиши бека Шукюр бек оглы, |
| | 25) 25) Вейбуд бек Солтанов, |
| | 26) Ага бека Гаджи-бекова с братьями: Агалларовым и Кара беком, |
| | 27) Мамед Гасан бека Ходжаганского, |
| | 28) Алибеки Ходжаганского, |
| | 29) Теймурбека Ходжаганского, |
| | 30) Сурахайбека Ходжаганского, |
| | 31) Керб. Гасанали бека Ходжаганского, |
| | 32) Керб. Исрафил бека Ходжаганского, |
| | 33) Вели бека Ходжаганского, |
| | 34) Латиф бека Ходжаганского, |
| | 35) Шамхал бека Ходжаганского, |
| | 36) Гаджи Теймур бека Тахмазбекова, |
| | 37) Шамил бека Тахмазбекова, |
| | 38) Аслан бека Солтанова, |
| | 39) Бахлул Эфенди и |
| | 40) Асиф бека Габибекова |
| | по Курткашинскому району.- |

ПРЕДСЕДАТЕЛЬ /АБДУРАХМАНОВ/

СЕКРЕТАРЬ /КАЛИЕВ/

Выписка с подлинным верна:

Учетчик - Статистик /Хамиев/

97

А.К. 6 экз. Копия.

Секретно.

Д О К Л А Д.

В дополнение к имеющимся у нас сведениям о серьезной затеи братьев Султановых в пределах Карабаха, а если удасться и в соседних уездах, за пределы, необходимо указать, что разные источники /безусловно заслуживающие доверие/ говорят о том, что за последние 5-6 месяцев к стыду нашим карательным органам и местным парт. и советским организациям, под носом у последних - братьям Султановым удалось через своих агентов, распространяя разные ложные слухи - под присягой над кораном, завербовать порядочное число людей не только среди бывших полицейских, помещиков, духовенства, кулаков, но и среди некоторой части средняков и не только в забытых Алиянлинских лесах и Курдистанских горах, но и по всему низменному Карабаху и даже за пределами Карабаха. Насколько среди массы придавалось серьезное значение пущенным авантюристами слухам, что даже родной брат нашего Ильдрыма - Джамиль Бек Султанов и двоюродный брат Искендер Бек Султанов - специально раз"езжая среди кочевников при Араксинской полосе, а именно среди керимбеклинцев, ахмедалярцев и других, предупреждали последних о том, что якобы при аресте известных бандитов Дунияма Али и Салмана - обнаружен список всех записавшихся в партию Иттихад, как именовалась организация Султановых, почему необходимо избегать показываться властям - устроить совещания собравшимся всем вместе, - в эти же дни распространяются слухи о взятии Нахичевани турками, об убийстве Багирова, о захвате в плен Караева. Последствием этих слухов явилось то, что мало мальский недовольный и сомнительный элемент начал стягиваться в Алиянлинские леса и почуяв на самом деле

Н.Г./3 экз./ **100**

Копия.

Секретно.

Доклад Председателя Карягинского Уисполкома
тов. МАМЕДХАНОВА.

от 13 октября 1925г.

Докладываю Вам о положении нашего уезда после от"езда Вашего из Карягино. Точно установлено, что Бахлул Эфенди скрывается в районе Сирик. Против него открытых мер не принимается, так как он по достоверным сведениям, намерен явиться добровольно в не далеком будущем. Шамиль Султанов задержан Погранотрядом. Имеющийся на него материал, а именно письмо Ахмеда Гаджиева и заявление Шехтия Мансум Оглы при сем препровождаю на Ваше распоряжение. Мною командирован в Персию хороший агент, который должен разузнать о положении Алиянлинских бандитов в Персии и о намерении их персидских властей по отношению к ним. Член партии "Иттихадт" жит. сел. Сардарлу Ахмед Иобадула оглы, о котором Вам известно, мною задержан и заключен под стражу. Установлено, что он имеет связь с алиянлинскими бандитами. Названный Ахмед вместе с материалом будет представлен лично Вам, согласно наших личных переговоров. После от"езда Вашего из Шахсавана, я был в сел. Ахмедаллан, где установил, что Ханали Бахыш Оглы, Алибек и Агабек, находятся в Персии. Последние два, т.е. Алибек и Агабек на дня задержаны персидской властью, а Ханалы успел скрыться. Сегодня выезжаю в Худаферин для переговоров с Персвластями по поводу Алибека и Агабека. Бек-хан, который еще раньше хотел переговорить со мною и который после снятия перскозаков с персдских пограничных постов, домогался стать хозяином положения, обещал во что бы то ни стало выдать нам Ханалыла, живым или мертвым. В бытность мою в Ахмедала, там мною задержан Баладжа в тот момент, когда он возвращался из Персии и имел намерение вновь переехать туда и соедниться с Ханалием. Задержан также брат Ханалия-Мамед Али, в качестве заложника за своего брата, который такой же вредный элемент,

102

Копия.

Сов.секретно.
Лично.

Тов.МАМЕДХАНОВУ.

В бытность мою над Эйлаге когда были арестованы Халафлинец Салман и Машанлинец Дунямали, замечалось, что некоторые неблагонадежные элементы в связи с этим арестами подняли голову и хотят скрыться от власти в том числе и Ахмедаллары Агабек, Алибек и др. Я поинтересовался узнать причину этого явления и выяснил следующее: ж.с. Кубатлу Шамиль-бек Ильдрым бек оглы после ареста вышеназванных лиц, приехал на кочевку Ахмедаллар на местности "Шеки-Эйлаги" и распространил слух такого содержания: якобы в руки советской власти попал один список мусаватской организации и что в этом списке имеются имена тех Ахмедалларцев и, кроме них около 170 человек от кочевников, которые на днях будут арестованы по тому списку. Оказывается Шамил-бек приехал в Ахмедаллар ни один, а два раза. Сведением это мне передал ж.с. Усублу Мехти Мансум оглы, который на эйлаге жил в соседстве с Ахмедалларцами.

Озабочиваясь порядком и спокойствием среди трудового населения и беднейшего класса своей родины, я считаю своим гражданским долгом сообщить Вам это сведение.

/Ахмед ГАДЖИЕВ/

20/VIII- 925г.

****

***səh 215***

Kitabın bu səhifəsində diqqəti çəkən bir məqam var. Nəzər Heydərov yazır ki: "Molla Məhəmməd atı qapıda bağlayıb içəri girəndə Zəngəzurun erməni tərəfinin komissarı Armenak Qaragözov Tatdərə kəndliləri ilə söhbət edirdi:

-İşlər pisdir, Armenak!

-Nə var, Abbas Sultanova nə olub? Hələ də quldurun ***(laçınlı Sultan bəyin)*** əsiridir? Onu iki dəfə güllələməyə aparıblar, amma güllələməyiblər.

-Bəs Vəliyev, Musayev haradadır?

-Onlar məni Biləvli meşəsində gözləyirlər.

-Bilirsən nə var? Mən elə bu gün Sultan bəydən tələb edəcəyəm ki, Abbas Sultanovu azad etsin. Ancaq gözləyin, Sultan bəyin adamları Abbas Sultanovu yolda öldürə bilərlər!

Seyid Həmid Abbas Sultanovu dilə tutduğu vaxt Sultan bəyin yanına bir atlı gəlib, Zəngəzurun erməni tərəfinin fövqəladə komissarının tələbnaməsini ona verdi. Komissar Qaragözov yazmışdı: "Abbas Sultanov üçün, indi bizdə olan Xosrov bəy Sultanov (qardaşı) başda olmaqla, bütün qohum-əqrabanızla cavab verməli olacaqsız!"

Komissarın hədəsi bəyi doğrudan da qorxutdu..."

Burdan belə bir sual çıxır ortalığa; Zəngəzurun Ermənistan tərəfinin fövqəladə komissarı olan Armenak Qaragözovgilin əlində girov olan Xosrov bəy Sultanovu və onun girovluqda olan qohum-əqrabasını görəsən kim xilas etdi?

Bu yerdə kitabın 46-cı səhifəsindəki bir məsələyə bir də diqqət yetirək, Nəzər Heydərov:- "Nəzərə alın ki, daşnaklar və müsavatçılar bolşevik sözünün özünü belə eşitmək istəmirlər. Siz yəqin ki, bilirsiniz, daşnaklar Gorusda Armenak Qaragözovu həbs edib vəhşicəsinə işgəncə veriblər. Biz çox böyük çətinliklə onu qurtara bildik,"- yazır.

Kitabın **127-ci** səhifəsində yazılır ki: "Mən irəlidə "Qəza Partiya Komitəsi" deyəndə indi oxucu elə düşünə bilər ki, bu komitə qəza şəhərinin gözəl binalarından birindəydi. Onun neçə-neçə otağı, şöbələri vardı. Hər gün ora saysız-hesabsız məktublar gəlirdi. Ancaq belə deyildi. Qəza komitəsinin bütün vacib sənədləri bir qovluğun içində saxlanılırdı. Biz onu özümüzlə kəndbəkənd gəzdirirdik.

Qəza komitəsinin heç otağı da yox idi. Katib, qəza komitəsinin üzvləri, təlimatçılar və operativ tapşırıqları yerinə yetirən digər işçilər (onlar 20 nəfər idilər) Əbilcə kəndində Hacı Teymur bəyin evində bir otaqda yaşayırdılar".

Göründüyü kimi bu yerdə Nəzər Heydərov hissə qapılaraq qəza komitəsinin hansı vəziyyətdə fəaliyyət göstərməsini və komitənin hansı gücə qadir olduğunu öz fikirləri ilə təsdiq edir. Belə olan halda heç bir gücü olmayan kommunist partiyası üzvləri Ermənistanın içindən daşnaların həbs etdiyi Armenak Qaragözovu necə gedib xilas edə bilərdilər? Bu eyniylə Bəhlul əfəndi hərəkatı, yəni Xanlıq üsyanı zamanı özünün də kitabda səhifə 176-da etiraf etdiyi kimi, Qoçu Təhməz gəlib Xanlığı alıb və bütün qəza rəhbərlərini qəza mərkəzindən qovub, sonra da bir-neçə atlı göndərərək Nəzərin evini mühasirəyə alıb. Həmin yerdə Nəzər Heydərov özü etiraf edirdi ki, "Qoçu Təhməz bilmirdi ki, mən artıq qaçıb canımı qurtarmışam". Göründüyü kimi, çətin anlarda, döyüşmək, vuruşmaq lazım olduğu məqamlarda həmişə qaçmağa üstünlük verən Nəzər Heydərov sonra yazır ki, guya kommunistlər güc toplayıb, Qoçu Təhməzə qarşı müqavimət göstəriblər və kimsə Qoçu Təhməzi güllə ilə vurub və o da ağ atın belində, bir qədər sonra aldığı yaradan ölüb. Halbuki dövrünün qoçusu Təhməzi əvvəllərdə qeyd etdiyimiz kimi Aslan bəy Sultanov güllə ilə vurmuşdu.

Qoçu Təhməz hərəkatını böyük ustalıqla öz adına çıxarmağa çalışan Nəzər Heydərov yenə böyük məharətlə, öz yalançı istedadı ilə oxucunu aldatmağa çalışır ki, guya Ermənistanın içindən Armenak Qaragözovu da o xilas edib... Bu hadisənin reallığını təsdiq edən Savalan Şirinov və digər şahidlər təsdiq edirlər ki, A.Garagozovu xilas edən şəxs qəzada xüsusi hərbi gücü olan Aslan bəy Sultanov olub və o xüsusi əməliyyat təşkil edərək Armenakı azad edib. Nəzər Heydərov kitabında özü yazır ki, daşnak generalı Dro Armenak Qaragözovun atası Mkrtıç Qaragözovu hər kəsin gözü qarşısında güllələmişdi. Bundan sonra o Armenakın axtarışına başladıqda Armenak o vaxt Zəngəzurun Ermənistan tərəfinin milis rəisi Makar Aqababovla birlikdə qaçaraq Azərbaycan tərəfinə keçmişdir. Çünki onların sığınmağa başqa yerləri yox idi, o zaman Ermənistanda daşnak hökuməti hökm sürürdü. Azərbaycan tərəfin hərbiçiləri onları saxlayarkən Armenak deyib ki, məni Aslan bəyin yanına aparın, mənim ona vacib sözüm var. Aslan bəy bu barədə xəbər tutduqda hərbiçilərə göstəriş verib ki, gedin baxın görün onun üzündə böyük qara xalı varsa gətirin yanıma. Hərbiçilər təkrarən onların yanına qayıdırlar və A.Qaragözova deyirlər ki, üzünü aç baxaq. A.Qaragözov çaşıb qalıb və soruşub ki, niyə üzümü açım. Hərbiçilər deyiblər ki, baxaq görək üzündə yekə xalın var ya yox. Armenak Qaragözov gülümsəyərək vəziyyəti başa düşüb və bilib ki, artıq Aslan bəyin xəbəri var. O üzündəki xalı açıb göstərir, hərbçilər onun üzündəki xalı görən kimi deyirlər ki, gedək Aslan bəyin yanına. Hətta bu fikrin doğruluğunu təsdiq edən və mətbuatda gedən bir faktı sizin nəzərinizə çatdırmaq istəyirik.

1984-cü ildə, Həsən bəy məktəbinin 100 illiyi tədbirində iştirak edən ümumittifaq əhmiyyətli fərdi təqaüdçü Savalan Şirinov erməni-azərbaycan dostluğuna misal gətirərək yazır ki, erməni-azərbaycan dostluğuna misal Makar Aqababovla

(Zəngəzurun Ermənistan tərifinin milis idarəsini rəisi) Aslan bəy Sultanovun dostluğunu göstərmək olar. Eyni zamanda da yazır ki, Armenak Qaragözla da Nəzər Heydərovun dostluğunu misal göstərmək olar. Bu fikir bir daha təsdiq edir ki, M.Aqababovu da, A. Qaragözovu da Aslan bəy Dronun caynağından xilas etdikdən sonra onların ikisi də Aslan bəyin kəşfiyyatına işləyiblər. Çünki onlar kommunist olduqlarına görə daşnaklar həm də onların düşmənləri idi. Armenakın da atasını Dro güllələmişdi və Armenak üçün daşnaklar bağışlanılmaz düşmən hesab edirlirdi. Elə ona görə də onlar çətin günlərində daşnakların qənimi olan Aslan bəyə sığınmışdılar, Aslan bəy o vaxtlarda qəza milis idarəsini bir güclü, döyüş qabiliyyətli orduya çevirmişdi. Elə ona görə də Savalan Şirinovun və qeyri ağsaqqalların dediklərinə görə o vaxt Armenak Qaragözovgilin əlində girov olan Laçınlı Sultan bəıyin qardaşı Xosrov bəy Sultanovu da Aslan bəy xilas edib. O nu da qeyd etmək yerinə düşər ki, 1920-ci ildə Xosrov bəy Sultanovun, Sultan bəy Sultanovun, Yüzbaşı Babanın və qeyrilərinin İran sərhəddindən keçərək həyatlarının xilas olunmasına Aslan bəy səbəb olmuşdur. Çünki həmin zamanlar hakimiyyət Aslan bəyin əlində olmuşdur, o cümlədən 35 km-lik İran sərhəddinə rəhbərlik edən Əli bəy Xoramanski Aslan bəyin köməkçisi və sərhəd yanı IV sahənin rəisi olmuşdur. Aslan bəy Əli bəy Xoramanskiyə göstəriş vermişdir ki, bu insanların İran sərhəddindən təhlükəsiz və manesiz İrana keçməsi üçün şərait yaratsın. Beləliklə, zamanında müəyyən xidmətləri olmuş çoxlu insanların Aslan bəy bu yolla həyatını xilas etmişdir.

Adi bir təhlükə olduqda özünün kitabda yazdığı kimi qaçıb gizlənməyə üstünlük verən, hətta Calal bəy onun atasını, bacısını şillələdiyi zaman qaçıb kolun arxasında gizlənən Nəzər Heydərov utanmadan başqa fəsillərdə Aslan bəyin bütün xidmətlərini gizlinə sıxışdırılmış kommunistlərin ayağına yazmağa, özünün şəxsi şücaətləri kimi qələmə verməyə

çalışır. Hansı ki, Nəzərin fikirlərinə istinad edərək bizə məlum oldu ki, kommunist partiyasının bircə qovluğu olub və bəyləri sinfi düşmən kimi görməyə gözü olmayan kommunistlər Əbilcə kəndində Hacı Teymur bəyin evindəki bir otağa sığınıblar. Həyasızlığın bundan böyük nümunəsi olmur. Bu insan özü-özünü işfa etməklə, öz simasını, daha doğrusu simasızlğını ortaya qoymaqla məşğul imiş.

Bu məsələləri müqayisəli şəkildə oxucuların nəzərinə çatdırmaqla onu demək istəyirik ki, Nəzər Heydərov kitabda o dövrdə Zəngəzurda və onun ətrafında baş verən bir sıra əksər hadisələrə toxunsa da, o hadisələri tamamilə saxtalaşdırıb, tarixi şəxsiyyətlərin xidmətlərini kommunistlərin öz adlarına çıxarıb, özlərini həmin dövrün və baş verən hadisələrin əsas fiqurları kimi qələmə verməyə çalışıb. Çox güman bu da ondan irəli gəlirdi ki, Nəzər Heydərov və onun əqidə qardaşları gündən-günə qüdrətlənən sovet hökumətinin nə vaxtsa dağılacağını ağıllarına da gətirməyiblər və düşünüblər ki, arxivlər heç vaxt açılmayacaq, ya da ki, arxayın idilər ki, rəhbərlik göstəriş verib Aslan bəyin xidmətlərini təsdiq edən arxiv sənədlərini məhv edəcəkdir, onlar da öz yalançı qəhrəmanlıqlarının pərdəsi altında yaşaya biləcəklər.

Nəzər Heydərov baş verən hadisələrin 1920-1921-ci illərdə cərəyan etməsi haqqında kitabında yazır, lakin nədənsə həmin illərdə qəzada hakimiyyətin başında Sultanovların dayandığını, Aslan bəyin bütün Qarabağın və Zəngəzurun fövqəladə komissarı olmağını, əmisi oğlu Xudabaxış Sultanovun qəza inqilab komitəsinin sədri olmasını, bir sözlə Sultanovların bütün hərbi gücün və hakimiyyətin başında dayandıqları haqqında bir sətir belə yazmır. Yalnız Savalan Şirinov 1982-ci ildəki söhbətində bir yerdə deyirdi ki, 1921-ci ildə qəza milis idarəsinin rəisi Aslan Sultanov gəlib bizi daşnak təcavüzündən xilas etdi.

## Xatirələr... Xatirələr... Xatirələr...

Bu fəsildə arxiv sənədləri və əldə etdiyimiz digər sənədlərdən kənara çıxaraq hadisələrin birbaşa şahidləri olmuş, müxtəlif insanların xatirələri və şifahi danışıqlar əsasında əldə etdiyimz materialları təqdim etməyə çalışacağıq.

İlk olaraq isə sizə Elbrus Şahmarın «Xanimanım Qubadlı» kitabında **23-cü** səhifədə Aslan bəy Sultanov haqqında yazdığı yazını təqdim edirik:

Aslan bəy Kərbəlayi Hüseyn oğlu Sultanov barədə, əslində o, böyük bir yazının qəhrəmanıdır. Ancaq barəsində o vaxt məlumat aldım ki,  artıq həmin vaxt kitab çapda idi. Elə bilirəm buna görə onun ruhu məni bağışlar.

Aslan bəy Sultanov 1889-cu ildə Qubadlı qəzasının Hacılı kəndində anadan olmuşdur. Sonralar atası Kərbəlayı Hüseyn bəy Gorusun Maç kəndini hökumətdən alıb və orada yaşayıb. Lakin bir müddətdən sonra ermənilər bu ailənin orada yaşamasına imkan verməyiblər. Ona görə kərbəlayı Hüseyn bəy Çardaxlı kəndinin yaxınlığında olan Qarağac kəndinə köçür.

Aslan bəyin gənclik illəri bütünlüklə, ermənilərlə savaşda keçib. Onun təşəbbüsü ilə camaat sərhədə yaxın olan bir neçə kənddə istehkamlar qurur, səngərlər yaradır. Aslan bəy mərd və cəsarətli, eyni zamanda kasıblara, əlsiz-ayaqsızlara həmişə kömək əlini uzadıb. Həmişə kasıbların tərəfini saxlayıb və həmişə onları özünə, özünü də onlara arxa-dayaq bilib.

İlk dəfə atam Şahmardan, sonra həmkarım və dostum Baxşeyişin atası, yaşı 100-ü haqlamış Mahruzlu kəndindən olan Əli Baxşəli oğlundan eşitmişəm.

O, Azərbaycan Demokratik Respublikası zamanı yüzbaşı, pristav, və qəza rəisinin hərbi məsələlər üzrə müavini

olub. Sovet hökumətinin ilk illərində isə Qubadlı qəzasının ilk milis rəisi, Xanlıq qəzasının hərbi komissarı, Şuşa dairəsinin milis rəisi vəzifələrində işləyib. XI ordu Zəngəzura gələrkən XI ordu ilə birləşərək erməni daşnaklarına qarşı qəhrəmanlıqla vuruşur və qızıl medala layiq görülür.

Qubadlıdakı Həsən bəy məktəbinin ***(orta məktəbin)*** son illərə qədər direktoru olmuş, xidmətləri dövlət tərəfindən qiymətləndirilərək Tərəqqi medalı ilə təltif edilmiş, əqidəli insan, gözəl pedaqoq, el ağsaqqallarından biri, hələ arxiv sənədlərinə gedən qapılar bağlı olduğu dövrlərdə Aslan bəyin fəaliyyətinin tədqiqi ilə məşqul olan, bu yolda bir sıra çətinliklər çəkən, atası Aslan bəylə şəxsən yaxın olan Nuşirəvan Əsədovun xatirələrini təqdim edəcəyik.

Nuşirəvan müəllim deyirdi ki, tariximizdə elə şəxsiyytələr olub ki, onlar öz xoşbəxtliklərini, ailə həyatını, hətta öz canını belə xalq yolunda qurban verib əvəzində isə heç bir təmənnada olmayıblar. Belə şəxsiyyətlərdən bəziləri nəinki tarixdə öz layiq olduğu yerini tutmuş, hətta tarixdən silinmək təhlükəsi ilə üzləşmişlər. Böhtanlar, represiyalar belə şəxsiyyətlərin gənc nəslə tanıtdırılmasının qarşısını almış, onların layiq olduqları qiyməti almalarına mane olmuşdur.

DTK xofundan qurtula bilməyən tədqiqatçılarımız əksər hallarda belə adamlar haqqında söhbət açmaqdan çəkinmiş, necə deyərlər “ağrımayan başlarını ağrıtmaq” istəməmişlər. Ona görə də belə adamları üzə çıxarmaq, onları gənc nəslə tanıtdırmaq, göstərdikləri qəhrəmanlıqlar haqqında məlumat vermək bizim hər birimizin ən şərəfli işi olmalıdır.

Nuşirəvan Əsədov da vaxtilə DTK arxivinıə müraciət etmiş, Aslan bəy Sultanovun tam günahsız olduğuna əmin olduqdan sonra, onun haqqında ilk dəfə 1982-ci ildə mətbuat səhifələrində yazılar dərc edilmiş, ona layiq olduğu qiymətin verilməsinə təşəbbüs göstərmişdir.

Mac kəndi Aslan bəyin atasının olmuşdur. Nuşirəvan müəllim həmin kənd haqqında deyir ki, Kiçik Qafqaz dağlarının Ermənistan ərazisinə düşən hissəsində, Ağbulaq, Şamsız, Qurdqalaq, Mac, Danzaver (Armudluq) adlı Azərbaycan kəndləri yerləşir. Bu kəndlərdə Ağbulaq, Şamsız, Qurdqalaq kəndləri 1988-ci ilə kimi öz kəndlik simasını qoruyub saxlamış, Danzaver Erməni kəndinə çevrilmiş, vaxtilə bizim kəndimiz olan Armudluq erməniləşdirilərək Danzaver kəndinə çevrilmiş, Mac kəndi isə yer üzündən silinmişdir. Tarixdən də məlumdur ki, Mac və Armudluq (erməniləşərək Danzaver olmuş) kəndlərinin bütün əhalisi yalnız azərbaycanlılardan ibarət olmuş, yalnız 1920-ci ildən sonra Armudluq kəndi tamamilə erməniləşdirilərək Danzaver adını almışdır. “Dansa” sözü elə ermənicə “armud” deməkdir və ermənilər bu kəndin adını tərcümə edərək erməniləşdirmişlər. Bir də onu demək lazımdır ki, Macla Armudluq kəndinin arasında cəmisi üç kilometrə yaxın məsafə olmuşdur. Mac kəndi Aslan bəyin atası Kərbəlayi Hüseyin bəyə məxsus olmuş, Armudluq kəndi isə Aslan bəyin əmisigillərə məxsus olmuşdur. Ermənilər Armudluq kəndinin bəylərinin mülklərinə sahib olmuş, Mac kəndi isə dağıdılaraq ərazisi Armudluq və Kürdlük kəndləri arasında bölüşdürülmüşdür.

Mac kəndi o yerlər üçün xarakterik olmayan böyük bir düzəngahın ərazisində salınmışdır. Ermənilər qorxurdular ki, nə vaxtsa Aslan bəy qayıdıb kəndi geri ala bilər. Ona görə də ermənilərə xas olan bir hiyləgərliklə Mac kəndində olan bütün tikililəri söküb dağıtmış, ərazisini isə iki kənd arasında bölmüşlər. Baxmayaraq ki, Mac kəndi yaşayış üçün ətrafdakı kəndlərdən daha əlverişli idi. Macın sol sahilində kəndin hər yerini su ilə təmin edən kiçik çay axır, ön tərəfdə isə Ağa çayı adlanan və Çayzəmi deyilən böyük çay axırdı.

Qeyd etdiyim kimi kəndin qarşısında o relyef üçün az qala möcüzə sayılan geniş bir düzəngah var idi ki, 1988-ci ilə qədər ora Macın düzü deyirdilər. Kəndi su ilə təmin edən kiçik çayın kənarında bir bulaq axır, adına Lələm bulağı deyirmişlər. Yayın istisində barmağını onun içində saxlasan donardı. Mac kəndinin qarşısında bir Alban kilsəsi var idi, ermənilər onu erməniləşdirib qoruyub saxlamışdılar. Mac kəndində 1970-ci illərdə bir otaq və böyründə bir uçurulub dağıdılmış bir tikili qalmışdı.

****

Qubadlı ağsaqqallarının sinəsi Aslan bəylə bağlı xatirələrlə dolu idi, onlar bəzən bu xatirələri göz yaşları içərisində xatırlayır, Aslan bəyin ruhunu ehtiramla yad edirdilər. Bu xatirələrdən biri ilə sizi tanış etmək istəyirik.

Deyilənlərə görə baş verən hadisələrdən və məlum səbəblərdən, Aslan bəygil hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra Qubadlıda ilk rus-tatar məktəbinin qurucusu, Aslan bəyin əmisi oğlu, Qori seminariyasını Üzeyir bəy Hacıbəyovla birlikdə bitirmiş, eyni zamanda çox yaxın dost olmuş gözəl ziyalı Həsən bəy Sultanova qarşı yeni hökumət tərəfindən hücumlar başlamışdı. Bir gün yeni hakimiyyətdə kommunist rəhbərlərdən biri, camaatı yığaraq bildirir ki, sabah hər kəs gözdə-qulaqda olsun, tövlənin yanındakı meydana toplaşsın, müəllimə (yəni Həsən bəy Sultanova) tövlə təmizlətdirəcəyəm. Camaat bu xəbərdən çox sarsılır, adamlar Həsən bəy kimi bir insana belə münasibət göstərməyin haqsızlıq olduğunu düşünsələr də, canlarının qorxusundan hökumət adamlarına açıq müqavimət göstərməkdən çəkinirmişlər. Bu hadisəni kimlərinsə xoşuna gəlmək üçün eləmək istəyən həmin adamsa hələ ki, xülyalarla yaşayırdı. Çünki Aslan bəy Lətifin, Kərimin dəstələrinə başçılıq etməklə yanaşı qəzanın içində

qurduğu kəşfiyyatından vaxtı-vaxtında dəqiq məlumatlar alırdı. Qəzada quş səksəydi Aslan bəy xəbər tuturdu.

Aslan bəy Kəpəz dağının ətrafında olduğu vaxt kəşfiyyatdan bir xəbər alır və sabahkı gündə Həsən bəyə qarşı ediləcək təhqir planından xəbər tutur. Bu zaman Aslan bəy dərhal əməliyyat planı hazırladır, ətrafındakı adamlara bildirir ki, Həsən bəyi təhqir etmək istəyən binamusun atasını öldürmək istəyirdilər, o da gəlib mənim ayağıma düşdü ki, onun canını qurtaram. Bu da onun bizə çoxsağolu. İndi o Həsən bəyə yox, elə mənə sataşır, qoy sataşsın!

Aslan bəy lazımi adamlarını çağıraraq onları təlimatlandırır. Ertəsi gün deyilən vaxt adamlar həmin meydana toplaşırlar, adamların əksəriyyəti göz yaşları içərisində baş verəcək hadisənin nə ilə qurtaracağını gözləyir, Həsən bəy kimi ziyalı, mötəbər bir adama belə təhqiri heç cürə sığışdıra bilmirdilər. Hətta kişilər də göz yaşları axıdır, bütün qəza camaatına o qədər yaxşılıqlar etmiş bir adama belə hərəkəti yaraşdırmır, Həsən bəyin bu təhqirə dözə bilməyəcəyini, ürəyi partlayacağını fikirləşirdilər.

Vaxt tamam olmuşdu, hamı çaşqınlıq içində gözləyirdi, adam iki saatdan da artıq vaxt gecikirdi. Adamlar gecikmənin arxasında nəsə bir şeyin, bir vacib xəbərin dayandığını hiss etmişdilər. Birdən silahlı hökumət nümayəndələri gəldilər və meydana toplaşan adamlardan xəbər aldılar ki, bəs o adam (Həsən bəyə tövlə təmizlətdirmək istəyən adam) haradadır? Adamlar da cavab veriblər ki, iki saatdır hər kəs onu gözləyir, ondan hələ də bir xəbər yoxdur.

Hökumət adamları heç bir söz demədən həmin adamın evinə gedirlər, evdə isə dəhşətli bir mənzərə ilə qarşılaşırlar. Dünən Həsən bəy kimi sakit, ziyalı, maarifçi bir adama meydan oxuyan, onu təhqir edəcəyi ilə qürrələnən adam evinin

tavanından asılı vəziyyətdə qalmış, dili isə boğazından dibindən qoparılaraq atılmışdı...

Meydana toplaşaraq başqa bir mənzərə görəcəyi ilə sarsıntı içində olan adamlar bu xəbəri eşidən kimi sevinclərini gizlədə bilməmiş, haqqın-ədalətin bərqarar olduğuna sevinmiş, bir-birlərini təbrik edirlərmiş. Camaat deyirmiş ki, Aslan bəyin nəfəsi gəlib gedirsə heç kim onun əmisi oğluna sataşa bilməz!

****

Xatirələrdən biri isə Zəngəzur qəzasının istintaq komissiyasının üzvü, eyni zamanda Aslan bəyin işçisi olmuş Behbud dəy Sultanovun (Aslan bəyin əmisi oğlu) həyat yoldaşı Minə xanımın haqqındadır. Minə xanım günlərin birində duyuq düşür ki, onun qadın xidmətçilərindən biri hamilədir. Əri olmayan bir qadının hamilə olması Minə xanımı bərk qəzəbləndirir və Minə xanım xidmətçini evindən qovur. Qış ayları, qarlı-şaxtalı bir gün olduğundan xidmətçi gedərkən yolda sancılanır, doğuş başlayır və xidmətçi qarın üstündə doğduğundan ölür.

Minə xanımın qayını Abış bəyin oğlu Əziz bu hadisəni dərhal hökumət nümayəndələrinə çatdırır və Minə xanımdan şikayət edir ki, baş verən ölümün səbəbkarı odur. Bununla da Əziz əmisinin həyat yoldaşını ağır cinayətə səbəb olmaqda ittiham edir.

Hökumət nümayəndələrinin içindən Aslan bəyə işləyən qüvvələrdən biri dərhal Aslan bəyə xəbər çatdırır ki, Minə xanımı istintaqa cəlb etmək istəyirlər və onu da çatdırırlar ki, şikayətçi də onun əmisi nəvəsi, eyni zamanda bacısı oğlu Əzizdir.

Aslan bəy Minə xanımı istintaqa cəlb etmək istəyən adamlara dərhal mesajını göndərir və bildirir ki, əgər Minə xanım

hökumət idarəsinə çağırılsa məndən inciməyin. Bu hadisə də Həsən bəylə bağlı hadisədən sonra baş verdiyindən hökumət adamları əks təqdirdə nə baş verəcəyini göz önünə gətiriblər və Minə xanımı istintaqa çağırmaqdan daşınıblar, Aslan bəyə xoş gəlmək üçün ona çatdırıblar ki, onsuz da biz Minə xanımı istintaqa çağırmayacaqdıq, bu sadəcə olaraq şikayətçini sakitləşdirmık üçün buraxılan şayədir.

Təbii ki, Həsən bəyə qarşı xəyanət cəhdinin cavabından xəbərdar olanlar yaxşı bilirdilər ki, Aslan bəyin mesajları sadəcə söz deyil, onun arxasında konkret əməl dayanır. Ona görə də Aslan bəyin mesajı Minə xanıma qarşı qaldırılan iddiaların hamısının üstündən xətt çəkdi.

Daha sonra Aslan bəy Əzizə də mesaj göndərir ki, əgər Minə xanım hökumət idarəsinə çağırılsa beynini deşik-deşik edəcəyəm. Bu xəbərdən sonra Əziz qorxu içərisində yaşayırmış, hətta ayaqyoluna belə tək getməyə qorxurmuş, gecənin yarısını gözləyirmiş ki, tam qaranlıq düşsün, göz-gözü görməsin.

O vaxtın adamlarının dediklərinə görə qohumların arasında Çingiz İldırıma tərəf olan adamlardan kimsə hadisəni Çingiz İldırıma çatdırır, hökumət adamları da Çingiz İldırımın xeyir-duasıyla Əzizlə Aslan bəyin arasındakı konfliktdən istifadə etməyi planlaşdırıb Əzizi Aslan bəyə agent qoyurlar. Əzizin bu agentliyi Aslan bəyin xəyanət nəticəsində öldürülməsinə səbəb olur, bu barədə Aslan bəyin ölüm səhnəsində məlumat verəcəyik.

Əzizin Aslan bəyə agent qoyulması xəbərini Çardaqlı kəndindən olan Murad kişi dərhal Aslan bəyə çatdırır. Bu xəbəri Murad kişiyə də Aslan bəyin hökumət içində olan adamlarından biri vermişdi.

****

Zəngəzurun Ermənistan hissəsində yerləşən Azərbaycan kəndlərindən Aslan bəyə tükürpədici bir xəbər çatır. Xəbərdə deyilir ki, Andranikin adamları iki kəndin camaatını tamamilə qırıb, uşaqları süngüyə keçirmiş, hamilə qadınların qarınlarını yarmış, döşlərini kəsmiş, qocaların belinə qaynar samovar bağlayaraq onlara olmazın işgəncələr vermiş, sonra da kəndləri qarət edərək od vurub yandırmışlar.

Kəndlərdən sağ qalan adamlar Aslan bəyə müraciət edərək ondan kömək istəmiş, ona çatdrımışdılar ki, Aslan bəy ümidimiz göydə allaha, yerdə sənədir, əgər özünü vaxtında bizə köməyə çatdırmasan eyni hadisələr başqa kəndlərə də keçəcək, camaatımız qırılıb-çatılacaq. Aslan bəy də xəbər göndərir ki, allah şəhidlərimizə rəhmət eləsin, ancaq qoy daşnaklar da bilsinlər ki, orda ölən hər bir şəhidin qanı artıqlaması ilə alınacaq.

Aslan bəy vaxt itirmədən əməliyyat planı hazırlayır, Ermənistanın içində fəaliyyət göstərən başda erməni keşişi olan digər erməni agentləri vasitəsilə tam olaraq dəqiqləşdirir ki, bu hadisələrin təşkilatçıları kimdir. Tam dəqiqləşmədən sonra Aslan bəy özü birbaşa əməliyyata rəhbərlik edir, gecə ikən adamları evlərindən çıxardır, onların başlarını kəsdirərək Gorusun ən mərkəzi yerlərində divarlara mismarladır. Aslan bəy bu əməliyyatı daşnak yuvası Gorusun içində, heç bir qorxu-hürkü bilmədən həyata keçirir və vəhşiləşmiş daşnaklara göz dağı verir.

Səhər açılarkən belə dəhşətli mənzərə ilə qarşılaşan daşnaklar şoka düşürlər. Hər kəsin içində qorxu və xof yaşanır ki, daşnakların mərkəzində, azərbaycanlı kəndlərində insanlara işgəncələr verən, kəndləri yandıran quldurların, onların təşkilatçılarının, başçılarının bu gün başları kəsilərək divarlara mismarlanırsa, bu aqibət başqalarını da gözləyə bilər. Bu

həm də daşnak rəhbəri Andronikə ciddi bir xəbərdarlıq idi. Doğmalarının qanı soyumadan qisası alınan insanlar Aslan bəyə minnətdarlıq məktubları göndərir, ona hədsiz sayğılarını bildirirdilər. Camaat Aslan bəyin simasında öz xilaskarını görürdü.

****

Bu yaxınlarda dünyasını dəyişmiş, vaxtilə Zəngəzurun Ermənistan hissəsində yaşamış, son deportasiya dövründə (1988-ci ildə) köçərək Xızı rayonunda məskunlaşmış Məmməd kişi xatirələrində qeyd edirdi ki, Aslan bəyi şəxsən görüb, o fəxrlə bildiridi ki, Aslan bəy silah-sursatlarının bir hissəsini Ermənistanın içində, atam İmanın evində saxlatdırır. Daha sonra əlavə olaraq deyirdi ki, Aslan bəyin Ermənistanın müxtəlif yerlərində saxlatdırdığı silah-sursatları daşnaklar azərbaycan kəndlərini dağıdarkən onlara qarşı istifadə edirdi. Hətta təəccüblə deyirdi ki, Ermənistanın içində məxfi formada silah saxlatdırmağın nə demək olduğunu dərk etmək o qədər də çətin deyil. Yalnız Aslan bəy kimi təcrübəli, fitri istedadlı hərbçilər müharibələr dövründə güclü agentura xidməti yarada bilərlərdilər. O ağız dolusu Aslan bəyin qəhrəmanlıqlarından danışır, deyirdi ki, o Zəngəzurun erməni tərəfində yaşayan insanların ümid yeriydi.

Sonra bir əhvalat da danışdı: Bir gün daşnaklar qəfildən Azərbaycan kəndlərindən birinə hücum edir, kəndi mühasirəyə alırlar. Bu xəbər qonşu kənddəki adamlar vasitəsiylə Aslan bəyə çatdırılır. Müraciətdə deyilir ki, Aslan bəy əgər özünü vaxtında bizə çatdırmasan bütün camaatımızı qırıb çatacaqlar. Aslan bəy dərhal başçılıq etdiyi Zəngəzur igidlərini ayağa qaldırır və sürətlə həmin kəndə doğru irəliləyirlər. Bu zaman yol boyu Aslan bəy özünün fitri hərbi istedadı ilə döyüş planını qururdu. Aslan bəy həmin əraziyə çatdıqda elə bir hərbi

taktika seçərək qüvvələrini elə yerləşdirir ki, heç kəs döyüş meydanından qaça bilməsin. Əsgərlər elə düzülür ki, kim qaçarsa onu görə və vura bilsinlər. Sonralar hərbçilər onun bu düzülüş qaydasına heyrət edirlərmiş... Aslan bəy döyüş əmri verir, plan üzrə Aslan bəyin adamları daşnakları qəfildən mühasirəyə alaraq məhv edirlər, kənddə bir nəfərə güllə atmağa macal tapmayan düşmənlər tamamilə məhv olunur, döyüşdən sonra Aslan bəyin qüvvələri çoxlu miqdarda hərbi qənimət əldə edirlər.

Məmməd kişi onu da deyirdi ki, Aslan bəy Zəngəzurun müsəlman əhalisini həmişə böyük qəhrəmanlıqla müdafiə edir, onlardan bizim qisasımızı alırdı. Ona görə də hamı Aslan bəyi çox istəyirdi.

****

***"Azərbaycan gəncləri" qəzetinin 28 iyun 1990-cı il tarixli 77 (10983) sayında*** Bəyalı Safaoğlunun "Özümlə oynadığım şahmata güldüm" adlı məqaləısində müəllif Aslan bəy Sultanovla bağlı bir sıra xatirələrə və tarixi faktlara toxunmuş, bəzi məqamlara aydınlıq gətirməyə çalışmışdır. Zəngəzur camaatının ağsaqqalları, XX əsrin əvvəllərində Zəngəzurda və onun ətra-
fında baş verən qanlı olayların canlı şahidləri ilə söhbətlər aparmışdır.

"Aslan bəy Sultanov bütün Zəngəzuru daşnaklardan, eləcə də öz içimizdə olan namərdlərdən qoruya bilirdi. Quldurlardan saldırdığı mal-qaranı, qiymətli əşyaları təmənnasız olaraq sahiblərinə qaytarırdı. Qubadlıda yaşayan 81 yaşlı el ağsaqqalı Bəndalı baba (maşallah ona bu yaşı verməzsən! (Bəndalı babanın əmisi Burcalı Hüseynov Aslan bəyin dəstəsində

vuruşan igidlərdən biri olub)) danışır ki, Hüseyn dağda hazırladığı yağı, pendiri arabaya yığıb kəndə qayıdırmış. Ermənilər onun qabağını kəsib balalarının illik azuqəsini əlindən alıb, özünü də möhkəm döyürlər. Kəndlinin də malını almaq canını almaq kimi bir şeydir. Hüseyn başına-gözünə döyə-döyə oturub ah-zar edirmiş. Allah bu ara Aslan bəyi yetirir, əhvalatdan hali olub atını verir Hüseynə: "Mən qayaların arası ilə onlara çatacağam,- deyir,- Sən də yavaş-yavaş sür gəl".

Aslan bəy soyğunçuları xeyli izləyir, nəhayət münasib vaxtda başlarının üstünü kəsdirir. Yoğun bir ağacın arxasına keçib qışqırır: "Silahları atın, yoxsa hamınızı qıracam".

Ermənilər silahları, arabanı verib canlarını qurtarırlar. Hüseyn yalvarır ki, motallardan brini götür. Bəy kişiyə tərs-tərs baxıb: "Ə, dörd-beş əlitüfəngli erməninin qabağına bir motal pendirinə görə çıxmışdım?" – deyir və uzaqlaşır."

Müəllif Aslan bəyin Qarabadakı fəaliyyəti haqqında Şuşada yaşayan ağsaqqallardan səhih məlumatlar toplamış, onlardan biri haqqında öz məqaləsində söz açmışdır.

"...Aslan bəyə yeni bir etimad göstərdilər. Bu dəfə onu Şuşa, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarını birləşdirən Şuşa dairəsinə milis rəisi təyin etdilər. (müəllif: Burada bəzi yanlışlığa yol verilib, ona görə ki, Şuşa dairəsi deyilən bir ərazi vahidi olmayıb Şuşa qəzası olub. Qarabağa və Zəngəzura daxil olan bütün qəzalar da mərkəzi Şuşa şəhəri olan ərazi vahidinə daxil olublar. Bu qəzaların da rəhbəri Qarabağın və Zəngəzurun fövqəladə və səlahiyyətli komissarı olub, həmin vəzifəni də Aslan bəy Sultanov tutub.) Rəis olmasına baxmayaraq (burada "rəis" sözü də düz deyil, çünki Qarabağın və Zəngəzurun fövqəladə komissarı general

səlahiyyətli bir vəzifədir) inqilab əleyhdarları ilə, qaçaq-quldurlarla mübarizədə ("qaçaq-quldur" deyildikdə də o dövrdə yerli camaata qarşı haqsızlıq edən, cinayətlər törədən qüvvələr nəzərdə tutulur, onlarla mübarizə aparmaq fövqəladə komissarın bilavasitə səlahiyyətlərinə daxil olan bir sahə idi) bilavasitə iştirak edirdi. Onun əməliyyatlardan birini bəzi ağsaqqallar indi də xatırlayırlar. A.Sultanov atlara motal və yağ dağarcıqları yüklətdirib dörd milis işçisi ilə birlikdə çoban pal-paltarı geyinib yola çıxır. Gecə Əsgəran kəndindən keçəndə quldurlar qabağını kəsir, yüklərini alıb özlərini də piyada yola salmaq istəyirlər. Çoban bilib saya salmadıqları milis işçiləri fürsət tapıb yeddi nəfər qulduru tərksilah etdilər. Onları qala türməsinə gətirdilər. "

Məqalədə maraqlı bir abzas da var ki, diqqəti çox çəkir.

"... Su uçdiyi quyuya tüpürən, onu adam edib adamlar içinə çıxaran, paşa rütbəsinə qədər yüksəldən türk ordusuna xəyanət etmiş qulağıkəsik (türk xalqalrı ancaq küçüyün qulağını kəsirlər) Andronik növbəti xəyanətə əl atmışdı. Ətrafına çoxlu erməni yığıb onları təpədən dırnağa qədər silahlandırmışdı. Bu silahlar Zəngəzurun kəndlərində açılırdı. Əliyalın azərbaycanlılar kənd-kənd tüfəngdən, süngüdən keçirilir, adamları dam-daş doldurub qocalı, cavanlı, körpəli yandırırdılar. Andranik türk qadınlarını heysiyyətsizləşdirib zülm ilə öldürməkdən xüsusi zövq alardı. Təkcə Andranikmi?

Azərbaycan həmin illərdə əli-ayağı qandallanmış Prometeyə bənzəyirdi. Qarğa-quzğun çox asanlıqla onun iti gözlərini, qüvvətli əzələlərini didib parçalayırdı... "

Biz yaxşı bilirik ki, o dövrlərdə Aslan bəy Sultanov və onun sadiq, vətənpərvər, igid əsgərləri olmasaydı Zəngəzurda və Qarabağda tökülən qanların sayı-hesabı olmazda...

***fond 410, siyahı 1, iş 227***

***“Qubadlı qəzası.*** *Fars quldurlarının soyğunçuluğu böyük itkilərə səsəb olmuşdur: 9\V may tarixində Əlibəylilərdən, Sarıslılardan və Xuramalılaradan 20 iribuynuzlu və 400 qoyun aparılıb. 16\V ay tarixində Əlibəyli, Sarlı və Xuramalı kəndlərinə olan basqının qarşısı alınıb. Çona-Doradan bütün sürü oğurlanıb.11\V tarixdə Vartazdan gələn karvana basqın edilib. Quldurlar bütün atları aparıb, iki nəfəri də öldürüblər.”*

Bu sənəd bir daha onu təsdiq edir ki, o dövrdə yerli qəza milis idarəsi və ona tabe olan digər hərbi qüvvələr tək bir daşnaklara qarşı mübarizə aparmırdı. 35 kiliometrlik bir ərazidə İranla sərhəddi olan Zəngəzurda daşnaklar ayağa qalxan kimi, digər tərəfdən iran xanları, quldurları vəziyyətdən istifadə edərək müsəlman ərazilərində talançılıqla məşqul olublar. Bunlara qarşı mübarizə aparan yeganə qüvvə isə qəza milis idarəsi və yerli özünümdafiə dəstələri olub ki, bu qüvvələrin də başında Aslan bəy Sultanov dayanıb.

****

***fond 410, siyahı 1, iş 227***

“ **Qubadlı qəzası**. *Xalq hərbi dəniz komisarlığının ştabı xəbər verir ki, Azərbaycan İnqilab komitəsinin sədri Nəriman Nərimanovun yazılı razılığına əsasən bildirilir ki, Qubadlı qəzasında daşnaklara və banditizmə qarşı mübarizədə bilavasitə yerli özünümüdafiə qüvvələrinə kömək etmək 28-ci diviziyanın komandiri Semyonova və xüsusi təyinatlı dəstənin komandiri Laqofetə həvalə edilir.*”

Bu sənəd bir daha onu sübut edir ki, Aslan bəy “mənim haqqımda məlumatları qərəzsiz adamlardan, 28-ci diviziyanın komandiri Semyonovdan və digər alay komandirlərindən soruşun” yazdıqda Semyonovun onun işlərindən birbaşa xəbər-

dar olduğuna işarə edirdi. Bu sənəddən də görünür ki, Nəriman Nərimanov Zəngəzurdakı hadisələri nizamlamağı birbaşa Semyonova tövsiyə edib. Nərimanov Semyonovu çox yaxşı tanıya-tanıya Aslan bəy haqqında ondan deyil Zəngəzurun verilməsinə qol çəkən Savalan, Nəzər və sairə kimi xainlərdən soruşur.

Aslan bəy Nəriman Nərimanova deyir ki, mənim haqqımda məlumatları, mənim başımdan yaralanmağım barədə Semyonovdan soruş. 28-ci diviziyadan tibbi arayışım var. Nə üçün Nəriman Nərimanov qərəzsiz ruslardan, general Semyonovdan deyil, yerli xainlərdən məlumat almağa üstünlük verir.

Bunu təhlil etmək lazımdır.

Burada digər bir məsələni də qeyd etmək yerinə düşər ki, Aslan bəy mərkəzə etdiyi məruzəsindən sonra həyatını xilas etdiyi dostu Semyonovla görüşür və vəziyyəti ona izah edir. Deyir ki, Xudabaxış bəyi aldadaraq Şuşaya iclasa çağrıb , orada onu əksiniqilabçı damğası ilə həbs ediblər. Bu xəbəri eşidən Semyonov bərk hiddətlənib, onu daşnak hökumətinə qarşı müharibə gedən dövrlərdə yerli hökumətin başçısı olaraq xalqına, millətinə necə sədaqətlə xidmət etdiyini, daşnaklara qarşı necə barışmaz olduğunu bir daha vurğuladı. Daha sonra Aslan bəy Semyonova bildirir ki, məni də vəzifəmdən azad ediblər, bu barədə Nəriman Nərimanov rəsmi olaraq heç bir məlumat vermir. Xudabaxış bəyin şər atılaraq həbs olunması mənim işdən çıxarılmam və bunun gizlin saxlanılması açıq aydın onu göstərir ki, mərkəzin Zəngəzurla bağlı nəsə məkrli bir planı var. Bu zaman Semyonov ətrafındakı komandirlərlə birlikdə ilk olaraq XI qızıl ordunun komandanlığına məlumat verir ki, bizim diviziyanı daşnak mühasirəsindən xilas edərək ölümdən qurtaran Aslan bəyə əksinqilabçı, daşnakların dostu itti-

hamları ilə damğalamağa çalışırlar. Onun əmisi onlunu, yerli hökumətin rəhbəri Xudabaxış Sultanovu aldadaraq Şuşaya iclasa çağırıb həbs ediblər.

Daha sonra Semyonov və onun ətrafındakı hərbçilər Nəriman Nərimanova məlumat verərək bildiriblər ki, bizim diviziyanı daşnaklara qarşı mübarizədə xilas edən, daşnak hökumətinin məhv olması planının müəllifi olan, daşnaklarla müharibədə amansızlıqla mübarizə aparan, Nijde qoşunlarının baş komandanı general Sumbatı şəxsən öldürən, buna görə daşnaklar tərəfindən başına külli miqdarda pul qoyulan, bu xidmətlərinə görə mərkəz tərəfindən mənimlə birlikdə qızıl medala layiq görülən bir şəxsə- Aslan bəy Sultanov kimi bir sərkərdəyə, bir el qəhrəmanına, bir peşəkar hərbçiyə qarşı böhtan və şər kompaniyasının başlanması anlaşılmazdır. Necə ola bilər ki, belə bir şəxsiyyət daşnakların dostu, əksinqilabçı ola bilsin?

Yerli camaatın mütəşəkkil şəkildə öz qəhrəmanının arxasında dayanması, ictimai rəy, Semyonovun və digər komandirlərin birbaşa XI qızıl ordunun komandanlığına, XI ordunun komandanlığının da Nəriman Nərimanova birbaşa təsiri və təzyiqi, Savalan Şirinovun da sonralar etiraf etdiyi kimi XI ordunun komandiri və onnun xüsusi idarəsinin rəisi general Pankratovun Nəriman Nərimanova birbaşa təzyiqləri onu geri çəkilməyə məcbur etdi. Bu təzyiqləirin nəticəsi olaraq Nərimanov başladığı təxribat planlarının baş tutmadığını görüb geri addım atmağa məcbur olaraq Zəngəzur qəzasına növbəti bir komissiya göndərib. Bu barədə ətraflı olaraq sizlərə məlumat vermişdik. Bir daha xatırlatmaq istəyirik ki, Nəriman Nərimanovun bu komissiyası son rəyində bildirir ki, Xudabaxış Sultanov əksinqilabçı deyil. Düzdür o kommunist partiyasının üzvü deyil, ancaq ondan yaxşı işçi çıxar.

Bu yerdə bir sual vermək yerinə düşür: Əgər qəza rəhbəri əksinqilabçı deyildisə, komissiyanın verdiyi rəyə görə o yaxşı işçidirsə, nədən günahsız yerə həbs olunan və sonra da günahsızlıqı sübut olunaraq azadlığıa çıxan Xudabaxış Sultanovu həbs edənlər, onu şərləyənlər, onu yalandan olaraq ağır cinayətdə ittiham edənlər nə üçün Nəriman Nərimanov tərəfindən öz layiqli cəzalarını almadılar? Cavab aydındır, ona görə ki, bu oyunların hamısını Nəriman Nərimanov özü qurmuşdu, sadəcə olaraq bu oyunları qurduqda xalqın və Semyonovun təzyiqləri ilə qarşılaşacağını hesablaya bilməmişdi.

Əgər Nəriman Nərimanovun komissiyası təsdiq edirsə ki, Xudabaxış Sultanov təmiz işçidir və günahsızdır, o zaman ortaya sual çıxır ki, qəzanın digır rəhbər işçiləri də təmiz və əqidəli insanlardır. Bu da o deməkdir ki, Aslan bəyə fövqəladə səlahiyyət verilərkən o kadr siyasətini son dərəcə dəqiqliklə apara bilib.

Qurulmuş oyunlarda ortaya atılan bütün ittihamlar puça çıxdıqdan sonra artıq yeganə bir ittiham qalırdı ki, daşnak Şaumyanın müti qulu olan Nərimanov öz ağasının, daşnak Şaumyanın düşməninə erməni xalqının düşməni ittihamını ortaya atsın. Bu ittiham aydın göstərir ki, Nəriman Nərimanov Aslan bəyi daşnaklara qarşı mübarizə apardığı üçün ittiham edir. Daha çox da daşnak Şaumyana yarınmaq üçün bu addımı atır, amma, Aslan bəyi "lixoy strelok" yəni " göydə quşu gözündən vuran sərrast atıcı" ittihamı ilə ittiham etmək haradan irəli gəlirdi? Bu da o demək idi ki, Nərimanovun komissiyası xüsusi vurğu ilə Aslan bəyin daşnak generallarını öldürməsinə və bununla da daşnak Şaumyanın ürəyinə dağ çəkməsinə işarə edir.

Bütün bunları analiz etdikdə bir sual ortaya çıxır: məgər sərrast atıcı olmaq, düşmənə qarşı amansız olmaq sərkərdəyə xas olan ən yüksək keyfiyyətlər deyilmi?

****

**fond 410, siyahı 1, iş 227**

Zəngəzur qəzasının 1-ci sahəsində daşnaklara qarşı döyüş gedir. Qızıl ordu hissələrinin güclü arteleriya atəşlərunə baxmayaraq daşnaklar geri çəkilmirlər. Qarabağda və Zəngəzurda Tevan bandasının zülmü davam edir ki, buna qarşı təcili tədbirlər götrülməsi vacibdir. (Şuşa siyasi bürosunun rəis müavini Tairov. N 227)

Həmin o Tevan və Tarxanın başçılıq etdiyi dəstələr gah Qarabağda, gah da Zəngəzurda aranı qarışdırır, müsəlman əhalisinə qarşı olmazın təcavüzlər edir, insanları amansızlıqla qətlə yetirirdilər.

Qarabağda Andronikin göndərdiyi Tevan, Tarxan kimi quldurbaşıların dəstələrinin kökünü kəsmək üçün Aslan bəy Sultanov XI qızıl ordunun rəhbərliyi tərəfindən Qarabağa və Zəngəzura fövqəladə komissar təyin edilmişdi. Son damla qanına qədər düşmənə qarşı mübarizə aparan Aslan bəy Sultanov, Lətif, Kərim və digər qəhrəman oğullara qarşı içimizdən olan xainlər tərəfindən məkrli planlar hazırlanmış, onların fiziki cəhətdən məhv edilmələri üçün bütün iyrənc yollardan istifadə edilmişdir.

Dəhşət doğuran hal odur ki, belə qəhrəman insanların erməni xalqının düşməni kimi ittiham olunmaq üçün ermənilərə verilməsinə Nəriman Nərimanov birbaşa razılıq vermişdir. Nəriman Nərimanovun bu addımını qiymətləndirməyi siz oxucuların ixtiyarına buraxırıq.

****

**Azərbaycan Baş dövlət Arxivi fond 410, siyahı 1, iş 227**

*“Şuşa qəzası. Zəngəzurda daşnaklar tərəfindən həm erməni, həm də müsəlman əhalisi arasında qızğın əksinqilabi təbliğat işləri aparılır. Yerli bəylər və mülkədarlar daşnaklara gizli köməkliklər göstərirlər. Fəhlə kəndlilər və qulluqçular bahalı və cüzi ərzaq payına görə narazılıq edirlər. (Az.Fövqəladə Komitəsinin məlumatı. Aprel 1921-ci il)”*

Bu sənəddə guya yerli bəylərin daşnaklara gizli kömək göstərmələri ortaya atılır. Bu məlumat birbaşa Az. Fövqəladə Komitəsinə göndərilib. Bu da onu göstərir ki, həmin dövrdə bütün hədəf hakimiyyətdə olan bəylərin daşnaklarla əlbir olduqlarını, onlara hər cür kömək göstərmələri ortaya atmaqla onları ləkləyərək fiziki cəhətdən məhv etməyə yönəlmişdi. Bu da o demək idi ki, əgər onlar daşnakların dostudursa, demək bizim düşmənimizdir. Yəni düşmənim dostu mənim düşmənimdir.

****

1990-cı ildə, Sovet hökuməti hələ dağılmamış, ermənilər yenidən Qarabağda və Zəngəzurda baş qaldırdıqları vaxt yerli camaat o dəqiqə öz tarixi qəhrəmanını, daşnaklara qarşı amansız mübarizə aparan Aslan bəyi xatırlayır, 1920-ci illərin tarixini bilən insanlar ürək ağrısı ilə Aslan bəyin ruhuna dualar oxuyurdular. Nurəli Təmrasoğlu “Bərgüşad” qəzetinin 4 sentyabr 1991-ci il tarixli nömrəsində çap olunmuş “Çaylı Aslan kimdir?” adlı məqaləsində yazır: Qubadlı rayonu erməni quldurları tərəfindən işğal olunduğu zaman Mahruzlu kəndinin sakini Baxşəli oğlu Əli kişi deyirmiş: “Anan ölməsin, Maclı Aslan bəy, hardan alım səni? Aslan bəy əsl xalq qəhrəmanı idi. Ermənilər onun qorxusun-

dan bu tərəflərə səmt düşməzdilər. Dörd nəfər silahlı erməni dağdan gələn köçün qabağını kəsir. Qoyunları alıb gedirlər. Heç bir müqavimət göstərə bilməyən azərbaycanlılar kəndə çatanda Aslan bəyin qonşu kənddə dostunun toy məclisində olduğunu eşidirlər. Gedib dərdlərini Aslan bəyə söyləyirlər. Aslan bəy vaxt itirmədən 4 nəfər atlı götürüb quldurların dalınca çapır. O, quldurları tərksilah edir, qoyunları alıb kəndə qayıdır. Aslan bəy hər vaxt kasıbların əlindən tutardı."

Bəli, Aslan bəy Sultanov əsl xalq qəhrəmanı kimi o dövrdə təkbaşına, ətrafına topladığı özünü müdafiə qüvvələri, Zəngəzur igidləri və yerli milis işçiləri ilə birlikdə daşnak hökumətinə qarşı mübarizə aparmaq qüdrətinə malik idi. 1990-ci illərdə isə yerli sovet rəhbərləri, başda Moskva olmaqla bütün kommunist rəhbərlər azərbaycanda baş qaldıran erməni dalğasına qarşı acizlik göstərdilər. Amma bəzi ermənipərəst qüvvələr isə Aslan bəyin adına olan küçənin varlığına qarşı çıxır, narahatlıq bildirir, Nəzər Heydərovun da kitabında yazdığı kimi antisovet bandaya rəhbərlik edən, sovet hökumətinin düşməninin adına küçə verilməsinə etiraz edirdilər.

Nəzər Heydərov kitabının "Banditizm" fəslində yazır ki, Lətiflə Kərimin Qubadlıdakı antisovet bandasına Aslan Sultanov başçılıq edirdi. Bununla da Nəzər Heydərov Aslan bəyin hökumətə qarşı çıxmağını özünəməxsus pafosla vurğulamağa çalışır. Burada bir sual ortaya çıxır; Aslan bəy nə etməliydi? Tabe olub Nəriman Nərimanov hökumətinin "vraq armyan" yəni erməni xalqının düşməsi damğası ilə razılaşmalı və ittiham olunmaq üçün ermənilərə təhvil verilməsi ilə barışmalıydı?

Aslan bəy özünün haqlı olduğunu sübut etmək üçün dəfələrlə Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman

Nərimanova, onun komandasına ittihamedici faktlarla yazılı şəkildə məlumatlar vermiş və onların bu ədalətsizliyinə- Zəngəzurun ermənilərə bağışlanmasına görə nə vaxtsa tarix və zaman qarşısında cavab verəcəklərini dəfələrlə qeyd etmişdi. Bu itihamedici məlumatlardan sonra mərkəz tərəfindən Aslan bəyə qarşı təqiblər daha da aktivləşmiş, onun ləkələnməsi kompaniyası başlanmışdır. Bunları görən və onu gözləyən xəyanətlərdən xəbər tutan Aslan bəy vaxtında hökumətdən uzaqlaşmağı qərara almış və böyüyüb boya-başa çatdığı torpaqların azadlığı uğrunda mübarizəyə qalxmışdır. Hadisələrin sonrakı gedişatı da onun tamamilə haqlı olduğunu göstərmişdir. Yəni 1929-cu ilin yayında o öz evinə gəlib uşaqları ilə görüşərkən onu içəridən yaxın adamlardan biri satmış mərkəzdən gələrək onun məhv olunmasına əmr alan qüvvələr evini mühasirəyə almışlar. Onlar öz nümayəndələrini Aslan bəyin yanına göndərmiş, onu aldadaraq dilə tutmağa çalışmışlar ki, Aslan bəy, sizin bu xalq qarşısında böyük xidmətləriniz var, siz xalqın qəhrəman oğlusuz, ona görə də hökumətə qarşı çıxmağınız düz deyil. Sizə hökumətə tabe olmağınızı, məhkəmədə özünüzün haqlı olmağınızı sübut etmənizi təklif edirik. Müqavimət göstərməyiniz yersizdir.

Əslində mərkəzdən gələnlərin Aslan bəyi dilə tutaraq canlı şəkildə ermənilərə təhvil vermək istəkləri Şaumyanın Nəriman Nərimanova sifarişinin icrasını həyata keçirmək istəyiydi. Bununla da daşnak Şaumyan daşnaklara divan tutmuş, Azərbaycan xalqının qisasını daşnaklardan yetərincə almış Aslan bəydən daşnakların qisasını almış olurdu. Bu zaman Aslan bəy fikirləşmək üçün bir qədər vaxt istəyib, uşaqları ilə görüşüb halallaşdıqdan sonra gələnlərə deyib:

– Siz elə fikirləşirsiz ki, mən bir canıma görə silah qabağında gedəcəyəm? Gedin sizi bura göndərənlərə mənim fikirlərimi çatdırın!

Gələnlər bayıra çıxdıqdan sonra Aslan bəy bu namərdlərin evi atəşə tutacaqlarını əvvəlcədən dərk edib və evi tərk edib, silahına sarılıb düz meşə istiqamətində gedir. Bu zaman yol boyu onu görən və əvvəllər onun tabeçiliyi altında işləyən heç kəs ona qarşı hörmətsizlik etməyib, güllə atmayıb, üzünü yana çevirib, getməsinə şərait yaradıblar. Lakin qəfildən, qızı Gülüzar atasının uzaqlaşdığını və evdəki gərginliyi, həyətdəki silahlı adamları gördüyü zaman həyəcanını gizlədə bilməyib, evdən çıxaraq atasının arxasınca qışqırıb:

–Ata, bizi hara qoyub gedirsən?

Bu zaman Aslan bəy qızının səsini eşidib, ayaq saxlayıb və qıza deyib:

–Qayıt gir evə, yoxsa sənə güllə dəyər.

Onun səsini eşidən mərkəzdən gələn qüvvələr başa düşüblər ki, gedən Aslan bəydir və ona qarşı əməliyyata başlayıblar. Mərkəzdən gələn snayperlər onu atəşə tutublar. Aslan bəy çevrilərək ona arxadan atəş açanlara bir-neçə dəfə güllə atıb. Ona güllə atan snayperin kəlləsi parça-parça olub. Bu zaman atəş dayanıb, heç kəs cürət edib onun arxasınca gedə bilməyib. Aslan bəy yaralı olmağına baxmayaraq bir xeyli məsafəni qət edərək Pəyhan adlanan yerə qədər gedib çıxa bilir. Orada kürəyini böyük qaya parçasına söykəyərək nəfəsini dərir. Bu zaman Tisix ləqəbli bir nəfərin yaxınlıqdan keçdiyini görür, onu yanına çağırır və silahdaşlarına xəbər göndərməsini tapşırır. Tisix Aslan bəyin yaralı olduğunu görərək bir vaxtlar onu etdiyi cinayətə görə həbs edən Aslan bəydən qisas almağa məqam düşdüyünü yəqinləşdirib və ona arxadan,

namərdcəsinə bir-neçə güllə vurur, bundan bir qədər sonra Aslan bəy dünyasını dəyişir.

Göründüyü kimi Allah ona şərəfli ölüm qismət edib. Aslan bəy son nəfəsində də ölümün gözünə dik baxmış, düşmən qarşısında əyilməmiş, şərəfli ölümü düşmən qarşısında əsir kimi getməkdən üstün tutmuşdur. Şaumyanın onu ermənilərə vermək istəyi də baş tutmayır, arzusu gözündə qalır. Bununla da Aslan bəy son nəfəsinə qədər öz həyat yolunu, əqidəsini dəyişmədən ölümü ilə də yeni bir qəhrəmanlıq dastanı yaza bilir...

Təəsüflər olsun ki, Aslan bəyin ölümündən az sonra Lətiflə Kərimin aldadılaraq içimizdən olan xainlərin əli ilə ittiham olunmaq üçün ermənilərə təhvil verilməsi Aslan bəyin nə qədər haqlı olduğunu sübut etdi. Lətiflə Kərim kimi əliyalın qəhrəmanlar erməni cəlladları qarşısında amansız işgəncələrə məruz qalaraq məhv edildilər.

Kitabın 145-ci səhifəsində Nəzər Heydərov yazır ki, "Xallava kəndindən olan Kərimin və Xələc kəndindən olan Lətifin bandası Zəngəzurda tüğyan edirdi. İş o yerə gəlib çatmışdı ki, orda-burda qalmış müsavatçı və daşnak ünsürləri az qalırdılar ki, bizim qəzanın bu və ya digər rəhbərlərini öldürməyi onlardan tələb etsin. Kərimlə Lətifin bandası Bərgüşad dağlarında, Kəpəzin yaxınlığında meşədə gizlə-nirdilər".

Nəzər Heydərov Kərimlə Lətifin bandası dedikdə Aslan bəyin qəhrəman dəstə komandirləri və həmişə haqq-ədalət müdafiəçiləri olan insanları nəzərdə tuturdu. Həmin insanlar hər zaman xalqın yanındaydılar və xalq onlara inanırdı, hesablaşırdı və pozulmuş haqq-ədalətin bərpa olunmasını Aslan bəydən və onun dəstə komandirləri olan Lətiflə Kərimdən xahiş edirdilər. Bir fakt heyrət doğurur ki, müəllif Nəzər Heydərov kitabında dəfələrlə "müsavatçı-daşnak" fikirlərini

eyniləşdirərək onları azərbaycan xalqının bərabər, ortaq düşməni kimi qələmə verməyə çalışır.

## Kərbəlayi Hüseyn Ocağının Övladları

Allah Kərbəlayi Hüseynə 4 oğul əta etmişdi.

**1.Aslan bəy Kərbəlayi Hüseyn oğlu Sultanov** mərd, qoçaq, dediyindən dönməyən, bir az da dəliqanlı olub. Qubadlı kəndində əmisi oğlu Həsən bəy Sultanovun müdir olduğu ikisinifli 4 illik təhsil müddəti olan məktəbi bitirmişdir. Rus dilində sərbəst danışır, yazır və oxuyurmuş. Sonra Qori seminariyasını bitirmiş, daha sonra ali hərbi təhsil almışdır.`Çox böyük sərkərdəlik məharətinə malik imiş. Onun cəsarəti, hərbi sahədəki istedadı daşnak ordusunun bütün zümrələrdən olan zabitlərini, o cümlədən Andranik Ozanyanı belə Aslan bəy ilə hesablaşmağa məcbur etmişdir.

**2.Murad bəy Kərbəlayi Hüseyn oğlu Sultanov** rus dilini mükəmməl bilirdi. O da Həsən bəyin Qubadlıda açılan 4 illik məktəbini bitirmişdir. Murad bəyin xasiyyəti ilə Aslan bəyin xasiyyəti təzad təşkil edirdi. O, ipək kimi yumşaq, həlim xasiyyətli bir insan idi. Bir müddət Zəngəzurun Qafan rayonundakı kəndlərində müəllimlik etmiş, sonra isə Laçında və Xanlıqda hakim kimi fəaliyyət göstərmişdir.

**3.Şirin bəy Kəlbəlayi Hüseyn oğlu Sultanov**. Həsən bəyin məktəbini bitirmişdir. Atasının təsərrüfatına rəhbərlik etmişdir. Qohumlara qarşı həddindən artıq qayğıkeş və mehriban idi.

**4.Süleyman bəy Kərbəlayi Hüseyn oğlu Sultanov**. O biri qardaşlarının xasiyyətlərinin bir sıra müsbət cəhətləri Süleyman bəyə xas idi.

Bir fakt çox maraqlıdır ki, cəmi 4 il təhsil verən rus-tatar məktəbini bitirən bütün məzunlar rus dilini təmiz bilir, riyaziyyat və digər fənləri yüksək səviyyədə mənimsəyirdilər.

Həmin məktəbim məzunu M.Axundov mənimlə birlikdə Qubadlı orta məktəbində nəinki rus dilini, hətta bəzi illərdə V-ci siniflərdə riyaziyyatı tədris etmişdir.

Halbuki, Sovet məktəblərində 11 il rus dili tədris olunan məktəblilər rus dilində nə sərbəst danışa və nə də yaza bilirdilər.

Necə olub ki, cəmi 4 il təhsil alan o vaxtkı gənclər tədris edilən fənləri tələb edilən səviyyədə öyrənməklə bərabər, gözəl xətlə yazmağı, rus dilində sərbəst danışmağı, yazıb-oxumağı öyrənmişlər. Bu barədə fikirləşməyə dəyər.

1917-ci ildə Çar Rusiyası devrildikdən sonra xain qonşularımız olan ermənilər, növbəti dəfə bizim ata-babalarımızın mal-mülkünü talamaq, onları didərgin salmaq məqsədilə hər cür riyakarlıqdan istifadə edir, hər cür cinayətlərə əl atırdılar.

Zəngəzur qəzasının mərkəzi sayılan Gorus şəhərində Andronik Ozanyanın yaratdığı daşnak hökümətinə başçılıq edən general Nijdenin rəhbərliyi ilə ordu yaradılmağa başlandı. Şuşada daşnak generalı Dronun, habelə Zəngəzurda daşnakların lideri, general xain Andronik Ozanyanın zühr etməsi ermənilərin iştahını birə-on artırmışdı. Artıq Qafan və Gorusun azərbaycanlılar yaşayan kəndlərində ermənilər tərəfindən törədilən qətl-qarətlər adi hal almışdı. Bütün bu hadisələr quşu gözündən vuran Aslan bəyin gözü qarşısında baş verirdi. Ona görə də Aslan bəy Mac kəndinin cavanlarını bir yerə toplayıb özünümüdafiə dəstəsi yaratdı və bu dəstəni fədailər dəstəsi adlandırdı. İlk əvvəl fədailər dəstəsinə Mac cavanları, sonralar isə bütün Zəngəzur cavanları daxil oldular. Mac kəndi və onun ətrafında fəaliyyət göstərərkən dəstənin 500 nəfər üzvü olmuşdur. Az müddətdə dəstənin şöhrəti, qocaqlığı təkcə məhəlli erməniləri deyil, bütün Zəngəzur ermə-

nilərini qorxuya salmışdır. Ona görə də uzun müddət Mac kəndinə dəyib-dolaşan olmamışdır.

Aslan bəyin fədailəri, Qafan və Gorus rayonlarının neçə-neçə azərbaycanlı sakinini daşnak əsarətinə düşmək təhlükəsindən xilas etmişdir.

İndi, həmin dövrdə baş vermiş bir sıra hadisələri nəzərinizə çatdıraq:

76 yaşlı, ali təhsilli, MirZeynal Mirələsgər oğlu Mirhəşimlinin öz əli ilə yazdıqlarından: 1918-1920-ci illərdə Qafan rayonunun Dorhnu kəndinin camaatı ermənilər tərəfindən iki dəfə qovulub kənddən çıxarılıblar. Onlar Kraxtın (Cəbrayıl) və Malakan (Füzuli) rayonunun kəndlərinə qədər gedib çıxıblar. Ara bir az sakitləşdikdən sonra Dorhnulular öz kəndlərinə qayıtmışdı. Atam nəql edirdi ki, həmkəndlim İmamqulu ilə qoyun-quzu otarırdıq. Qəflətən daşnak əsgərləri bizi ələ keçirdilər. Hər ikimizə silah-sursat şələyib qatdılar qabaqlarına. Xeyli yol qət etdikdən sonra Təpəsər adlanan bir dağa dırmanmağa başladıq (sonralar öyrəndik ki, Andronikin qərargahı həmin dağın başında yerləşir). Bildik ki, bizi öldürməyə aparırlar. Atam, Mirələsgər Mirhəşim oğlu təklif edir ki, İmamqulu, gəl silahları yerə atıb qaçaq. İmamqulu deyir ki, bizi aparanlar hamısı silahlıdır, qaçan kimi vuracaqlar. Atam cavab verir ki, əziyyətlə ölməkdən bu daha yaxşıdır. Bu əsnada bir nərə səsi eşidilir. Ə, daşnak köpəkuşağı əsir aparırsınız? Ermənilər: “Aslan bəy!..” deyib öz silahlarını da atıb qaçdılar. Aslan bəy atama yaxınlaşıb deyir ki, Seyid anan namaz üstə idi, yoxsa əclaflar sizi güllələyəcəkdi. Atamın və İmamqulunun xilasından sevinən babam Mirhəşim və digər kənd camaatı Aslan bəyə minnətdarlıq məktubu göndərdilər. Həmin  məktubu sizə təqdim edirik:

Mirhəşimli Zeynal Mirələsgər oğlu.
Atamın danışıb və söhbətindən.

1918-1920-ci illərə kimi Rus mədənin kəndi olan Dorhnu kəndində yaşamış Azərbaycanlıları bir neçə dəfə kəndlərindən qovub çıxarmış ermənilər məkrli hərəkətlərindən dönməyərək öldürdükləri azərbaycanlıların sağ qalanlarını yaşadıqları yerdən qovub çıxarmışlar. yer-yurdlarından didərgin düşən adamlar o vaxtın Malaxan və Cəbrayıl rayonun kəndlərinə qədər gedib çıxıblar, orada şaxtlıq olandan sonra Dorhnuda yaşayan müsəlmanların çoxu qayıdıb öz yerlərinə gəlmişlər.

Az vaxt keçməmiş birdə savaş başlayır, atam deyirdi orada yaşayan Kəlbəlay Cavad oğlu Ədil kişi (ailəsi ilə birlikdə beş qardaş bir bacı) bunları tanıyan (o vaxtın dost erməni) bələdçilik edərək aparıb kənddən kənarda hamısını ermənilər qətlə yetirmişlər, bu ailədən bir nəfər Ədil ağır yaralı olub ermənilər bunu da ölmüş bilib çıxıb gediblər.

Atamın söhbətindən 1918-1920-ci ilin davasında Aslan Sultanov bizim ailəmizin yaxşı münasibəti var idi Aslan Azərbaycanlıların əksər kəndlərində yaşayan adamların daşnak ermənilərdən xilas etmişdir.

Qoyun-quzu otaran atam Mirələsgər Mirhəşim oğlunu və İmamqulu adlı bir nəfəri

daşnak andranikin əsgərlərindən
tuturlar bunlara istənilən qədər
silah, patron gülləyiş aparırlar, bir az
gedəndən sonra atam gil hiss edirlər ki,
bunları öldürməyə aparırlar. atam
deyir İmamqulu gəl qaçaq
O, dedi bunların əlindən necə qaça
bilərik, bunları aparırlar Təpəsər
deyilən bir dağ var, burada güllələyəcək
bu anda Aslan Sultanov bir neçə
yoldaşları ilə həmin dağın ətəyində
imiş, birdən kənardan atam Mirzələsgəri
İmamqulunu tanıyır Aslan Sultanov
neçə qışqırıb səslənir ki ermənilərə
daşnak köpək uşağı əsir aparırsınız
bunları ermənilər özlərini itirib atəş
ata bilməyib qaçıblar, Aslan Sultanov
atama yaxınlaşıb deyib ki, anan
namaz üstəydi imkan vermədim, sizi
öldürsələr, atamı və İmamqulunu ölümdən xilas
ediblər.

Bir gün erməni nümayəndə heyəti ağ bayraqla Mac kəndinə gəlir. Aslan bəy onlara atəş açmaq istəyən dəliqanlı cavanları bu işdən çəkindirdi. Onlar erməni generalı Andronik Ozanyandan Aslan Sultanova məktub gətirmişdilər. Məktubda o, Andronikin Təpəsər adlanan yüksəklikdə yerləşən qərargahına dəvət olunurdu. Aslan bəy qısa məsləhətləşmədən sonra dəvətə müsbət cavab verdi. Görüş sabah saat 10.00-a təyin olundu.

Səhər saat 9.00-da Aslan bəy kiçik bir heyətlə yola düşdü. Görüşdə Qurdqalaq kənd sakini, Aslan bəyin əsgəri olmuş Geroy ləqəbli Əli də iştirak etmişdir. Hansı ki, 70-ci illərə qədər Gorusun Qurdqalaq kəndində yaşamışdır.

Geroy Əlinin dediyinə görə Aslan bəyin qəbulu üçün təmtəraqlı bir mərasim düzəldilmişdir. Aslan bəy mərasim qaydalarına riayət etmədən onu müşaiyət eləyən döyüşçüləri-lə birlikdə birbaşa qərargahın qarşısına yönəldi və Androniklə orada görüşdü. Andronik ona müraciət edərək dedi:

–Nə üçün imkan vermədiniz ki, bizim himnimiz səslənsin? Sizin də varsa himniniz, yoxdursa istədiyiniz musiqi parçası ifa olunsun.

Aslan bəy cavab verdi ki, biz dövlət yox, xalq qisasçılarıyıq. Sizin dediyiniz tərzdə olan görüş Azərbaycanda yeni hökümət bərqərar olduqdan sonra baş tuta bilər.

Erməni generalı dedi:

– Aslan bəy onda razısınızsa, birbaşa mətləbə keçək.

Aslan bəy:

– Sizi dinləyirəm.

– Mən öz qoşunlarımla birlikdə Şuşa şəhərinə general Dro ilə görüşə getmək istəyirəm. Ancaq sənin dəstən əlverişli vəziyyətdən istifadə edərək bizim dəstədə böyük tələfat yarada bilər. Ona görə də xahiş edirəm bizə itkisiz Şuşaya qədər getməyə şərait yaradın. Söz verirəm ki, bizim tərəfimizdən sizin

ətraf kəndlərinizə heç bir pislik olmayacaq. Bundan sonra Zəngəzur müsəlmanlarına qarşı bizim tərəfdən heç bir basqı olmayacaq.

Aslan bəy Andronikə dedi:

– Mən bu barədə düşünməliyəm. Üç gündən sonra sənə xəbər göndərərəm.

Andronik Aslan bəyi onun atının yanına qədər müşayət etdi. Aslan bəy qayıdandan dərhal sonra Xələcli Lətif ilə Xallavalı Kərimi yanına çağırıb dedi:

– Qardaşlarım, Andronik mənə təklif etdi ki, mən onun təhlükəsizliyinə təminat verim ki, itgisiz Susaya gedib generalı Dro ilə görüşə bilsin. Mən artıq bu barədə öz qərarımı vermişəm. Bu barədə öz hərbi planım da hazırdır. Bu hərbi plana görə Andranikin dəstəsi Laçının Mığı dərəsinə qədər getməli və orada mühasirəyə alınmalıdır. Bundan sonra bizimkilər planda göstərdiyim istiqamətlərdən hücuma keçməli və onları darmadağın etməlidir. Siz mənim çəkdiyim hərbi planı götürüb Laçına gedin və Sultan bəylə görüşün. Yaranmış vəziyyətin ciddiliyini ona başa salın və deyin ki, mən üç gündən sonra Andronikə xəbər göndərməliyəm.

Lətiflə Kərim həmin an atlanıb Ağbulaq yolu ilə Laçına yola düşdülər.

Bir müddətdən sonra Laçına çatıb, Sultan bəylə görüşdülər. Sultan bəy onları xüsusi hörmətlə qarşıladı. Lətiflə Kərim Aslan bəyin Androniklə görüşməsi və bu görüşdə müzakirə olunan məsələlər barədə Sultan bəyi məlumatlandırdılar. Aslan bəyin hərbi planı ilə onu tanış etdilər və bildirdilər ki, Aslan bəy daşnakları məhv etmək üçün ən münasib yer Mığı dərəsini seçib. Sultan bəy bir mənalı olaraq Aslan bəyin hərbi planını bəyəndiyini bildirdi. Sonra Lətiflə Kərimə dedi ki, Aslan bəyə bildirin, biz onun hərbi planı üzrə hərəkət etməyə hazırıq. Lətif və Kərim dərhal geriyə Aslan bəyin yanına

qayıtdılar və Laçındakı görüşləri barədə ona məlumat verdilər. Üç günün tamamında Aslan bəy Andronikin göndərdiyi nümayəndə heyətini qəbul etdi və onların təhlükəsiz hərəkətinə təminat verdi. Ancaq bir şərtlə: O, insanların şübhələrinin tamamilə götürülməsi üçün əvvəlcə silahlarını göndərməyi, sonra isə özlərinin hərəkət etmələrini şərt kimi irəli sürdü. Gələn adamlar bildirdilər ki, Andronik Aslan bəyin bütün şərtlərini qəbul etməyə hazırdır. Razılıq əsasında Andronik əvvəlcə silah-sursatı yola salır, sonra isə özləri hərəkət etməyə başlayırlar. Aslan bəy plana uyğun olaraq döyüşçülərinə göstəriş verir ki, Laçına – Mığı dərəsinə çatıncaya qədər heç kim daşnaklara toxunmasın. Andranik hiyləsinin baş tutduğunu düşünərək arxayınlıqla öz dəstəsiylə Laçına doğru hərəkət etməyə başladı. Bir nüddətdən sonra Mığı dərəsinə çatdıqda isə tamamilə başqa bir mənzərə ilə qarşılaşdı. Aslan bəyin planına uyğun olaraq daşnaklar üzük qaşı kimi mühasirəyə alınmışdı. Bir tərəfdən Lətiflə Kərimin, digər tərəfdən Sultan bəyin, başqa istiqamətdən Kəlbəcərdən və Zəngəzurun digər bölgələrindən gəlmiş igid oğulların mühasirəsində qalmış erməni daşnakları bu mənzərədən şok vəziyyətinə düşmüşdülər. Aslan bəyin hərbi planına uyğun olaraq müxtəlif istiqamətlərdən eyni zamanda hücum başlandı və daşnak ordusu tamamilə darmadağın edildi. Ancaq təəssüflər olsun ki, kiçicik bir dəstə ilə Andronik qaçıb canını qurtara bilmişdi. Bununla da onun Dro ilə görüşmək planı alt-üst olur və çox böyük bir məğlubiyyətə uğrayır.

****

Aslan bəy Əyin kəndində evdə oturmuşdu, qonşudan bərk qışqırıq səsi eşidir. Boğuq it səsi və bir kişinin yalvarışı eşidilir: ay Allahı sevən, qoymayın bizi it yedi…

Aslan bəy çölə çıxanda gördü ki, qonşu itini bir dilənçi kişinin üstünə salıb. Dilənçinin yanında nəvəsi də var imiş.

Kişi uşağı qorumaq üçün əynindəki çuxanı və başqa paltarlarını verir itin ağzına. Kişinin üst paltarları didik-didik olmuşdur. Aslan bəyin qonşusu, Çolaq Astan və onun qaynı Fərman durub bu mənzərəni həvəslə seyr edirlər. Ailənin o biri üzvləri də tamaşaçıların sırasındadır. Bu mənzərəni görən Aslan bəy bərk əsəbiləşərək gedib evdən tüfəngi götürür və tüfəngi qaldırmağı ilə itin beyninin dağılmağı eyni vaxta düşür. Çolaq Astan:

– Aslan bəy, qonşuyuq axı, iti niyə vurdun?- deməyi ilə, Aslan bəyin tüfəngi onlara tərəf tuşlaması çox çəkmədi.

Onlar qorxudan qaçıb evə doluşdular.

Aslan bəy deyir:

– Qırışmal köpəkuşağı, yolçunu itə yedirdir, özü də həzz alır, hələ deyir ki, iti niyə vurdun.

Aslan bəy yolçuların hər ikisini evə gətirib öz paltarlarından onlara geydirib bir az da pay-para verdikdən sonra yola salır.

Yeri gəlmişkən, bu xatirələri yazan Nuşirəvan müəllim Xələc kəndindəndir.

****

Mən yuxarıda Aslan bəyin əmisi oğlu çar generalı olan Calal bəy Sultanov barədə danışmışdım. İndi isə sizə onunla bağlı maraqlı bir əhvalatdan bəhs edəcəyəm.

O həmişə Zəngəzura gələndə Xələc kəndindən olan Məhəmməd kişinin müşayiəti ilə ətraf kənd və bölgələri gəzər və Rusiyaya yola düşməzdən əvvəl Məhəmməd kişiyə ailəsinə bir il bəs edəcək qədər pul verərdi.

Aslan bəy ilə əmioğlu olsalar da şıltaqlığına və rus təbiətli olmasına görə araları sərin idi. Məhəmməd kişi nəql edirdi ki, Gorusdakı mehmanxanadan Cəlal bəyi yola salırdım. Mehmanxanada başqa bir erməni generalı da var idi. Yaxınlıqdakı

evlərdən birində toy mərasimi keçirilirdi. Gəlib ermənini toya dəvət etdilər. Aradan bir az keçmiş Calal bəy mənə dedi ki, sən burada ol mən də gəlirəm. Calal bəy gedəndən sonra xeyli gözlədim qayıtmadı, ardınca çıxdım. Gördüm ki, toyun bişmiş qazanları və digər əşyalar evin qarşısındakı dərəyə tökülüb. Erməni generalı da daxil olmaqla bütün toy əhli Calal bəyə yalvarıb ondan üzr istəyirlər.

Bir gün Calal bəyi toy məclisinə dəvət edirlər. Bu vaxt bəyin yanında bir nəfər seyid də olur. Calal bəy çıxarıb seyidə bir onluq verir və deyir ki, məclisdə içki olacaq sən ora getmə.

İçki məclisi başlayandan sonra Calal bəy baxır ki, seyid də məclisdədir. O, seyidə müraciətlə deyir: – Axı, mən dedim ki, içki məclisi olduğuna görə siz bura gəlməyin.

Seyid deyir: – Əşi, nə olar gəlmişəm də.

Calal bəy deyir:

– Papağını qaldır, deyəcəm nə olacağını. Seyid papağını qaldıran kimi Cəlal bəy tapancasını çıxarıb seyidin alnından bir güllə vurur.

****

Qarıqışlaq kəndindən olan Qəhrəman əmi deyərdi.

Calal bəy Sultanovun el arasında ləqəbi piyanska idi. Bilsəniz o piyanska sözü hansı mənanı verir? Çünki onun vurub öldürdüyünə sorğu-sual yox idi. O Nikolayın sol böyründə oturur.

****

İndi sizin nəzərinizə daha bir maraqlı əhvalatı çatdırmaq istəyirik. Bir gün Cəlal bəy adamlarına əmr edir ki, toy gecəsi başa çatmamış gəlini götürüb mənim yanıma gətirin. Bundan xəbər tutan gəlinin valideynləri vahimə içində, ağlaya-ağlaya

özlərini Aslan bəyin yanına çatdırırlar: “Amandı, Aslan bəy! Namusumuz ayaqlar altına atılır. Sizin əminiz oğlu, general Calal bəy mühafizəçilərinə göstəriş verib ki, toy gecəsi gəlin birinci mənim yanıma gəlməlidir. Aslan bəy, sizə yalvarırıq. Ümidimiz göydə Allaha, yerdə sizədir. Ölmüşük, bizi yerdən götürün.” Bu xəbəri eşidən Aslan bəy bərk hiddətlənərək yüksək səslə bildirdi: “Biqeyrət, binamus. O, bizim nəslin adını biabır eləyir? Onun dərsini mən özüm verəcəm!” Və Aslan bəy dərhal adamlarına göstəriş verib Calal bəyin bütün mühafizəçilərini toy evindən oğurlatdırır. Toy axşamı Calal bəyə Aslan bəyin bir məktubu çatdırılır. Məktubda aşağıdakı sözlər yazılmışdı: “Biqeyrət, binamus. Sən bizim nəslin adını biabır eləyirsən? Bura Rusiya deyil, Zəngəzurdur. Burada namus məsələsi ilə əlaqədar olan bütün məsələlər Rusiya qanunları ilə deyil, şəriət qanunları ilə həll edilir. Ona görə də verdiyin sərəncamın nə ilə nəticələnməyini yadda saxla. Adamların hamısı salamatdır və toy gecəsindən sonra evlərinə buraxılacaqdır. Bundan sonra Zəngəzurda ya sən qalmalısan, ya mən!”

***Aslan bəy***

Bu hadisədən sonra Zəngəzurdan Calal bəyi qovur. Calal bəy işin nə ilə qurtaracağını bilərək qəzanı tərk edir.

Nuşirəvan müəllimin xatirələrində qeyd olunur ki, Aslan bəy Qarabağa və Zəngəzura rəhbərlik edərkən o bütün qəzaların mərkəzi olan Şuşa şəhərində oturudu. Şuşalıların dediyinə görə o zaman hər kəs ona Çaylı Aslan bəy dyə müraciət edirdi. Çaylı Aslan bəy həm daşnak quldurlarını, həm də içimizdə olan quldurları böyük igidliklə zərəsrsizləşdirir, onları məhv edir, həbs etdiklərini də ədalət məhkəməsinə təhvil verirdi. İndi də onun cəsurluğu və qəhrəmanlıqları haqqında Şuşanın yaşlı adamları ürək dolusu danışırlar. O vaxtlar Qa-

çaq Nəbiyə də Çaylı Nəbi deyərmişlər. Qubadlı camaatına Çaylı eli deyərmişlər. Çünki Qubadlı ərazisi Həkəri və Bərgüşad kimi iki gözəl çay  vadisində yerləşirdi.

Ermənistanın Əcənan dairəsində ermənilər azərbaycanlı kəndlərini mühasirəyə alıb uşaqdan böyüyə hamını qəddarcasına qırırdılar. Mahruzlu kəndində yaşayan Ədil danışırmış ki, kəndimizdə adamların çoxunu qırdılar. Mənim altı qardaşımı və bacım Mehribanı öldürdülər, meyitləri mənim üstümə yığdılar (Onlar məni ölü biliblər). Atam Kərbalayı Cavad qaçıb atını və yazdığı məktubu naxırçıya verir, deyir ki, Qubadlı səngərinə çapsın, məktubu Aslan bəyə çatdırsın. Naxırçı məktubu Əyin səngərində Aslan bəyə verir. O, adamları toplayıb məktubu onlara oxuyur. Səksən nəfərə yaxın adamla ora tələsir. Gedənlərin arasında Burcalı Hüseynov, Abbasəli Muradov, Şirin Həşimov və başqa igidlər silahlanıb Əcənan dairəsinə yollanır. Aslan bəy orada da ağıllı tədbir görür. On metr hündürlüyündə olan sıldırımla iyirmi səkkiz nəfərlə gedir. Qalan adamlara tapşırıq verir ki, Ermənilərin yaşadığı yeri mühasirəyə alsınlar. Onlara hər tərəfdən atəş açılsın. Özü isə çətin yolla, sıldırımla gedir. Ermənilərin bərk saydıqları keşikçi qoymadıqları yerdən hücuma keçən iyirmi səkkiz nəfər atəş açan kimi hər tərəfdən atəş davam etdirildi. Erməni quldur dəstəsi darmadağın edildi. Aslan bəyin dəstəsi itki vermədi. Qalan adamları, yaralı və ölənləri yeni hücum gözlənilən kənddən köçürüb gətirdilər. Ədil müalicə edildi, sağaldı. Onların qisasını daşnaklardan aldığı üçün Əcənan kəndinin camaatı Aslan bəyə təşəkkür və minnətdarlıq dolu məktublar yazdılar, onunla görüşlərində öz səmimi hisslərini dilə gətirməkdən çəkinmədilər.

Aslan bəy vurulandan sonra Pəyhan deyilən yerdə qayaların arasında gizlənmişdi. Yaralar olduqca ağır və ciddi idi. Belə bir vəziyyətdə yaxınlıqdakı "tısıx" ləqəbli birinin keçdi-

yini gördü və ondan evlərinə sifariş göndərmək üçün yanına çağırdı.”Tısıx” dünənki qarətçilərdən biri idi. Ona görə də heç kəsin olmadığını görüb qisasını almaq üçün Aslan bəyi iki dəfə güllələdi. Beləliklə Aslan bəy həlak oldu.

Artıq Aslan bəyin meyidinin yeri hamıya bəlli idi. Lakin hökumət adamları ciddi əmr vermişdilər ki, heç kim Aslan bəyin cəsədinə yaxın düşməsin. Buna baxmayaraq Aslan bəyin əmisi oğlu, vaxtilə onun işçisi olmuş Behbud bəy Sultanovun həyat yoldaşı Minə xanım heç nəyə məhəl qoymadan, öz həyatına risk edərək Aslan bəyin meyidinə yaxınlaşmışdır. Meyiti yuyub dəfn eləmək üçün Xələcli Abbasquluya adam göndərdilər. Meyit nəhayət ki, dəfnə hazır vəziyyətdə idi.

Əyin, Çardaxlı, Xələc Tarovlu, Misdan, Xallava, Qarıqışlaq, Hacılı, Məmmədli, Xudular, Qurdalaq, Şamsız, Ağbulaq camaatının demək olar ki, hamısı, qalan kəndlərin isə nümayəndə heyəti dəfndə iştirak edirdi. Qarağac kəndinin ərazisi insan dənizini xatırladırdı. Xalq öz qəhrəmanı, xilaskarı arxası, ümidi ilə vidalaşmağa gəlmişdi. Camaatın nəzərini cəlb edən ağlayanlardan biri Bayram kişi idi. O ermənilərlə vuruşda həlak olmuş tək oğlunun iyini Aslan bəydən alırdı. Aslan bəyin ölümü onun belini ikinci dəfə qırmışdı. Ağlayan ağbirçək analardan biri erməni əsarətindən ailəlikcə azad olduqlarına görə, digəri isə divansız bir yerlə haqqı-ədaləti bərpa etdiyinə görə Aslan bəyə dualar edir, rəhmətlər diləyirdilər. Təkcə bir nəfərin “tısıxın” nə üçün ağladığını bilmək mümkün deyildi. O, ya cinayətinin açılmaması üçün Allaha yalvarır və ya özü ölüm xofu ilə üzbəüz dayandığına görə kövrəlib yaş tökürdü.

1922-ci il oktyabrında Mac kəndində hökumətdən küsmüş vəziyyətdə, atası Kərbəlayi Hüseyn bəyin kəndi olan Macda dincələn Aslan bəyə mərkəzi hökumət başda Nəriman Nərimanov olmaqla ona müraciət etdi. Aslan bəy Zəngəzurda baş

qaldırmış separatizmin qarşısını almaq, bu diyarın qəhrəmanı olan Sizə tapşırılır. Bu gün hər vəchlə Azərbaycanın parçalanmasının qarşısı alınmalıdır. Mərkəzin bu müraciətinə cavab olaraq Aslan bəy ona sadiq olan bütün hərbi dəstələri qaldırır və qoçu Təhməzə öz tələbini göndərir. “Qoşu Təhməz, bu gün Azərbaycanın heç bir ad altında parçalanmasına yol vermək olmaz. Ona görə də, öz dəstənizi Zəngəzurun Qubadlı qəzasının mərkəzindən, Xanlıq kəndindən  çəkin, əks halda siz oradan zor gücünə çəkilmək məcburiyyəti qarşısında qalacaqsınız”. Bu tələbinə müsbət cavab almayan Aslan bəy bütün dəstəsini Xanlıq mərkəzinə yeridir Qoçu Təhməzi alnından vuraraq bu hərəkatı yatızdırır və bu bölgədə Azərbaycan hökumətini bərpa eləyir, buna görə də o ölkə rəhbərliyi tərəfindən mükafatlandırılır.

Deyilənləırə görə Qoçu Təhməz yaralanarkən öz yaxınlarına vəsiyyət edib ki, Aslan  bəyə mənim xahişimi çatdırın, məni özü dəfn etdirsin. Gədə-güdə atın quyruğuna bağlayıb sürüyərək məni biiman etməsinlər. Bu xahiş Aslan bəyə çatdırılan kimi göstəriş verir onu el adəti ilə dəfn etdirir. Bu əməl artıq bəyliyin fəlsəfəsini açır. Bütün bunları Savalan Şirinov danışarkən bir şeyi də xüsusi olaraq qeyd etdi. Aslan bəy Qoçu Təhməzi dəfn etdirərkən hamı çaşmışdı. Çünki birinci gülləni Təhməz ona atmışdı.

Bu illərlə bağlı aşağıdakı arxiv sənədi ilə tanış ola bilərsiniz. Çox təəssüflər olsun ki, xanlıq üsyanının yatırılmasını da kommunistlər öz adlarına çıxıblar. Həmin göstərdiyimiz sənəddən məlum olur ki, o vaxt Zəngəzur qəzasının fəal kommunistlərindən olan Aslan bəyin əmisioğlu Abbas Sultanov mərkəzə göndərdiyi məlumatında  bu üsyanın məhz Aslan bəy tərəfindən yatırılmasını gizli saxlamışdır. Səbəb də məlum idi.

Azərbaycan Respublikası Prezident Aparatının Siyasi Sənədlər Arxivi, **fond 1, siyahı 85, saxlama vahidi 214**

Перевод с тюркского языка.

Сахтинский Национальный Комитет.

18 октября напавшие на органы власти в Жеилуке членами партии защитников веры Абдулла и Молла Бахлулов с помощью ничтожной частью обманутаго населения распространялись прокламации с ниже приводимым содержанием. Всем советским работникам. Человечество без веры и религии обречено на верный гибель, народ с нами, а мы с ним с оружием в руках за веру и религию с большевизмом и коммунизмом поведем самую беспощадную борьбу и несомненно разобьем и достинем намеченной цели. Если еще найдутся мусульмане не солидарные с нами то они удостоятся аду. Тогда как убившие трех коммунистов заслужат райскую жизнь. И так вся сущность защитителей веры Сахтинского Национального комитета сводится к вышеприведенным обещаниям. Причиной же побудившей как будто бы появление организации являются мероприятия предприятые органами власти во время Магаррама, но если разобраться в сущности выпущенной в прокламации то несомненно можно констатировать несоответствие действительности распространяемой агитации. Народы Востока прекрасно понимают, что коммунизм в области вероисповедания представляет полную свободу действия всем гражданам в то же время стараясь во чтобы то ни стало добиться освобождения трудящихся масс от гнета эксплоататоров. Советская власть абсолютно ни в какие религиозные дела не вмешивается это подтверждается хотя бы тем, что до сих пор еще не было ни одного случая чтобы Советская власть закрывала мечети церкови или преследовала мулл и священников. Каждый верующий ~~ххххххххх~~ обычно и без всяких притеснений и совершает сове моблствие. Единственным упреком по адресу Советской власти может служить отсутствие приходских мулл содерживаемых государством. Это вполне понятно, что Советская власть уделяет максимум внимания на просвещение отсталого населения и если лжеверцы стараются доказать существование человечества зависит от религии и веры то они в конце концов должны понять что вера и право человечества может быть достигнуто путем просвещения отсталого населения поэтому путь избранный националистами достаточно ясно они по старой привычке стараются возможно чаще и больше грабить и подвергать неисчислиемым бедствиям измученное население. Отсталые и обманутые массы не верьте предателям и не будтье игрушкой в их руках для осуществления грабительских ...



национализмом и остерегайтесь себя от невинных жертв.

СУЛТАНОВ

Перевел / Гаджаев/

187
188

- Перевод с тюркского.

КЕРБАЛАЙ МАШАДИ ГАСАН БЕКУ.

О чем вы думаете, почему нет отклика с вашей стороны весь Аразский район
Карадонлу восстал и стремиться во чтобы то ни стало избавить родину и нац
оммунистов. К голосу Ага Шараб Гусейнцев в первую очередь должны присоеди
ся безусловно вы. О Ханлынских событиях вы слыхали мы приглашаем Вас идти
и рука об руку по пути изгнания коммунистов из нашей родины. Нам кажется
добиться победы во что бы то ни стало или погибнуть с честью за родину
вполне солидарны с восставшимся населением Аразского района требующим.
вки всех коммунистов в Ханлыхских органах власти и лишь оставить от них
воспоминания подобно затоптанным шапкам. Население от веры и религии ни-
не откажется они знают, что в Баку в траурные дни св. Сеида притесняли,
чиване мусульмане также траурные обычаи выполняли с криком и в отдаленн
т города садах. Довольно терпения или "вера и Шариат" или "смерть" мы ка
"Имама" смерти не стисняемся и есмья наша не дороже "Зейнаба и Сакины".
твета. Касум Курбаны.

197 199

Перевод с тюркского языка.

РУКОГОДИТЕЛЯМ СОВЕТСКОЙ ВЛАСТИ В ХАНЛУХЕ.

Виновниками Ханлухских событий являются находящиеся там коммунисты и бабтис… знаете что вера связана с жизнью человечества, человек без веры обречен на гибель каждая вера имеет источники и основания священных иедалов, настоящее врем… находящиеся в Ханлухе коммунисты игнорируют обычаи народа связанные с их веро… исповедыванием, тогда как советская Власть представляет каждому человеку свобо… действия в вопросе религиозного мышления. Сейчас только народ убедился в том, что Ханлухские коммунисты и бабтисты уничтожают священные права на вероисповедывание. Для ясности привожу два примера: первое: в день траура о "ШУРЕУ" всячес… противодействовали выполнениям обрядов и надсмеивались над священными вспоминаниями "имама" распространяя гнусные мысли о вере через издаваемые газеты, д… пример: очень часто почти всюду игнорируют существующие права бракосочетания и применяется способ угодный коммунистам и бабтистам подобный случай постиг… Кюкюру Мамед Гза оглы. Коммунисты и бабтисты отняли у него жену, не зная то, что народ лучше согласиться погибнуть, нежели лишаться священного закона. Теперь на… род усвоил себе и именно против Советской власти везде и всюду без инициативы возникают протесты. Подпись Зангезурлы.

197

Перевел: /Годжаев/.

****

Respublika Dövlət Elm və Texnika sənədlər arxivinin direktoru, əməkdar mədəniyyət işçisi Şahsuvar Həşimovun dedikləri də son dərəcə maraq doğurur və onun xatirələrinin hamısı faktlara söykənir. Qeyd etmək lazımdır ki, Şahsuvar Həşimov əslən Zəngəzurun Əyin kəndindəndir.

– Mən uşaq olanda yaşlıların söhbətlərini həvəslə dinləyərdim. Ən çox xoşuma gələn söhbətlər üzünü görməsəm də adını eşitdiyim yerli qəhrəman, igid şəxsiyyət Aslan bəy Sultanov haqqında idi.

Mən onun 20 metr məsafədən iynəni güllə ilə vurması, ceyranı görmədən uzaq məsafədən onun səsi ilə yerini müəyyənləşdirib güllə ataraq ovlayan və ətrafındakılara: "Mən onu başından vurmuşam, gedin gətirin",- deyən bir igid olması haqqında möcüzəyə, əfasnəyə oxşayan həqiqətləri az eşitməmişdim. Mən belə söhbətlərə saatlarla qulaq asmaqdan doymazdım. Eşitdiyim çoxsaylı söhbətlərdən biri bu gün də xatirimdədir.

Bir gün anama – Xalq yazıçısı Süleyman Rəhimovun böyük bacısı Qiymət xanıma yalvardım ki, keçmişdə gördüyü maraqlı hadisələrdən mənə danışsın. O tərəddüd etmədən həmyerlimiz Aslan bəy Sultanovdan söhbət açdı:

– Bala, Aslan bəy çox igid və cəngavər bir insan idi. Bilirsən, mən onun səviyyəsində başqa bir cəngavər eşitməmişəm. Aslan bəy hədsiz çevik, cəld, namuslu bir şəxsiyyət idi. Bizim elin insanları ona pərəstiş edirdilər. Ermənilər bizim Əyin kəndi ətrafında canfaşanlıq edərkən, müsəlman qadınların döşünü kəsir, uşaqları süngüyə keçirir, əsir götürdükləri azərbaycanlıların belinə qaynar samovar bağlayır, onlara ölənə qədər olmazın işgəncələr verirdilər. Bu zaman Aslan bəy əsl aslan kimi hərəkət edərək onların cavabını artıqlaması ilə

verərdi. Onun seçdiyi məkanlardan biri də, bizim uzun illər Ocaq zəmi adlandırdığımız sahə idi. Həmin Ocaq Zəmi ətraf kəndlərdən Ermənistana gedən yolun üstündəydi. Bu yoldan həm də Ermənistanın yaxın kəndlərindən gələrək bizim qonşu kəndlərdə canfəşanlıq edən, günahsız insanlara işgəncələr verən erməni daşnakları da keçərdi. Aslan bəy həmin daşnaklara layiqli cəzalarını vermək üçün təklikdə Ocaq Zəmiyə gedərək otlardan başna papaq düzəldib, bədəninə də otlardan örtük düzəldərək (komfulyaj) heç kəsin diqqətini cəlb etmədən zəminin ortasında özünə mövqe tutardı. Daşnak quldurları oradan keçərkən Aslan bəyin gülləsinə tuş gələr, məhv edilərdi. O zəminin ortasında tutduğu mövqedən o qədər təsəvvürolunmaz sürətlə qalxıb atəş açar, daşnakları vurar və yenidən mövqe tutardı ki, daşnaklar güllənin haradan atıldığını  təyin etməyə macal tapmazdılar. Bu metodla Aslan bəy orada olan daşnakların axırına çıxardı.

Ağsaqqallar deyirdilər ki, Aslan bəy Zəngəzurun hər bir yerində törədilən daşnak vəhşiliklərinin cavabını artıqlaması ilə verərdi. Ən çətin anlarında insanlar ümidlərini Asln bəyə bağlayar, ona – öz qəhrəman sərkərdələrinə arxalanardılar. Aslan bəy günahı olmayan heç kəsə, hətta günahsız erməniyə belə güllə atmazdı. Xalq arasında deyərmişlər ki, o ancaq zalımlara qarşı zalım olub.

Yaşlı adamlar deyərmiş ki, Aslan bəy yaxın ətrafları ilə oturub dərdləşərkən tez-tez bu el məsəlini işlədərmiş: “Keçmə namərd körpüsündən qoy aparsın sel səni, yatmam çaqqal yatağında aslanlar yesə məni.”

O dünyasını da  əsl aslan kimi, düşmən qabağında əyilmədən dəyişdi. Tülkülər, çaqqallar qarşısında ölümün gözlərinin içinə düz baxaraq  dəyişdi. Çünki qəhrəmanlıq missiyadır, o tanrı tərəfindən verilir, vəzifə tutmaq deyil. Seçilmiş qəhrəmanlar  ölərkən də öz ölümləri ilə son qəhrəmanlıqlarını edib

dünyadan köçürlər. Çünki şüurlu ölümdən qorxmayan insanlara mənəvi ölüm yoxdur. Əsl qəhrəmanlar şərəfli ölümü düşmən qarşısında əyilməkdən üstün tutanlardır! Qəhrəmanlığın fəlsəfəsi də elə budur.

Şahsuvar müəllim onu da dedi ki, o zamanlar məsul vəzifələr tutmuş İsmayıl Şəfiyevdən soruşanda ki, rəhbər vəzifə tutmuş komissarların xarakteri necəydi? İsmayıl müəllim belə cavab verdi: Onların hamısı kitablarda təsvir olunan kimi deyildilər. Məsələn, yollar və rabitə komissarı Çingiz İldırım M.Qorkinin təbirincə deyildiyi kimi şimşək, od, alov deyildi. Tez-tez yığıncaqlarda Çingiz İldırım müxtəlif vədlər verər, lakin bunlara əməl etməzdi. Mənim də iştirak etdiyim iclasların birində o yenə də vədbazlığını davam etdirdi. İclas zalından çölə çıxarkən biz hamımız onun xidməti avtomobilinin arxasında içində süpürgə olan bir vedrənin bağlandığını gördük. O xeyli əsəbiləşib bildirdi ki, məni təhqir edəni tapacam. İ.Şəfiyev onu sakitləşdirərək bildirir ki, sən onu tapa bilməzsən, çünki günahkar özünsən. Nə qədər yalançı vədlər vermək olar? Bu vedrəni bağlayan sənin yalançı vədlərindən təngə gələn sadə insanlardır.

Tarix boyu yalan vədlər vermiş hətta şahların belə atlarının quyruğuna süpürgə ilə vedrə bağlayırdılar ki, bir də yalandan vəd verməsin, camaatı aldatmasn.

****

Gorusun Qurdqalaq kəndində yaşamış, (vaxtilə Aslan bəyin milis işçilərindən biri olub) xalq arasında Geroy Əli ləqəbi ilə tanınan ağsaqqallardan birinin söhbətlərinə görə Qafanın Zeyvə kəndində Şamxal adlı bir gənci erməni daşnakları qətlə yetirmişdilər. Onun qohumları bu xəbəri Aslan bəyə çatdırırlar. Aslan bəy də öz növbəsində bu vəhşiliyə cavab olaraq həmin kənddə bu hadisəni törədənlərdən Şamxalın

qisasını alır, daşnak dəstəsinin üzvlərindən, qətlin iştirakçılarından 38 nəfərinin başını kəsdirərək onlara dağ çəkib, günahsız bir gəncin qanını alıb.

Gorusun Qurdqalaq kəndində anadan olmuş Rafiq Abdullayevin atası rəhmətlik Balaca Abdullayevdən eşitdiyi xatirələr də maraq doğurur. Rafiq müəllim deyir ki, atam Aslan bəyin mahir atıcılığı ilə bağlı bir çox maraqlı əhvalatları həmişə ürək dolusu ilə nəql edərdi.

Aliminiumdan olan qabı bir nəfər var gücü ilə havaya atar, qab yerə düşənə qədər Aslan bəy deyirmiş ki, o yerə çatana qədər onu neçə dəfə güllə ilə deşəcək. Qab yerə düşəndə Aslan bəyin verdiyi proqnoz tamamilə düz çıxarmış. Insanlar heyrətdən donub qalarmışlar.

Başqa bir söhbətində kişi deyərmiş ki, toyuq yumurtalarını yolun sağından-solundan müxəlif məsafələrdə düzərmişlər, Aslan bəy də atın belində sürətlə çaparaq gələr, düzülmüş yumurtaların hamısını güllə ilə vurarmış.

Bir dəfə Aslan bəy meşədə ağacın dibində namaz qılarkən onun düşmənlərindən biri bəyin namaz qıldığını görüb onu öldürmək fikrinə düşüb. Həmin adam onu öldürmək istəyərkən canına bir qorxu xofu dolub, düşünüb ki, birdən güllə açılmaz, ya da çaxmağı çəkərkən onun çıqqıltısını eşidə bilən Aslan bəy onu cəld bir hərəkətlə vurub öldürə bilər. Bu hadisəni sonralar həmin adamın özü etiraf edirmiş...

****

Rafiq müəllim atasından eşitdikləri xatirələrə istinad edərək maraqlı bir hadisə danışdı. Andronik dəstəsi ilə Türkiyə ərazisindən keçib Zəngəzur kəndlərini talan edib, yandırıb, camaata divan tutub, kəndləri viran edərək Gorusa qədər gəlib çıxmışdı. Ancaq o hiss etmişdi ki, Gorusdan Xankındinə keçmək üçün onun qarşısında Aslan bəy kimi keçilməz bir

qala var. Ona görə Aslan bəylə görüşmək üçün onun yanına elçilərini göndərir. Aslan bəy onunla görüşə razılıq verir, görüşə kiçik bir dəstə ilə gedir, görüş zamanı Andronk ondan Xankəndinə gedərkən yolunun kəsilməməsini xahiş edir, onun təhlükəsizliyinə təminat alır, əvəzində vəd edir ki, bundan sonra Zəngəzurun ərazisində bir müsəlmana da güllə atılmayacaq. Daşnak psixologiyasını dərindən bilən Aslan bəy kimi bir sərkərdə düşməni öz metodu ilə məhv etmək prinsipinə sadiq qalaraq Andronikin şərtləri ilə razılaşdığını bildirir. Amma qeyd edir ki, camaatın şübhələnməməsi üçün əvvəlcə silahları keçirsinlər, sonra da ordu keçsin. Aslan bəyin düşmənləri də yaxşı bilirdilər ki, o sözünə sadiq adamdır. Andronik də Aslan bəyin şərti ilə razılaşır. Aslan bəy də dərhal öz adamlarından bir-neçəsini Sultan bəyin yanına göndərir, ona hazır döyüş planını verir və tapşırır ki, bu plan əsasında hərəkətə keçsinlər. Onun təlimatına görə Mığı dərəsi Androniki "sürpriz qarşılama" üçün ən əlverişli yer idi. Daha sonra Aslan bəy öz ordusu ilə planını həyata keçirmək üçün hərəkətə keçir. Andronik ordusu öz əli ilə "bağışladığı" silahlarla tələyə salınaraq məhv edilir. Coğrafi cəhətdən Mığı dərəsi bir tərəfi sıldırım qayalar, digər tərəfi də sərt dağlarla əhatələnmiş dərədir. Daşnaklar atın, ulağın belində silah sursatı o tərəfə keçirdikdən sonra silahlar bizimkilərin əlinə düşür, bundan xəbərsiz olan daşnaklar yollarına davam etdikdə isə bir tərəfdən Aslan bəyin, digər tərəfdən də Sultan bəyin silahlılarının gülləsinə tuş gəlirlər. Maraqlısı odur ki, daşnakları məhv edən güllələr onların öz silahlarından atılırdı. O döyüşdə Andonik özünə sadiq kiçik bir dəstə ilə geriyə- Gorusa tərəf qaçıb canını qurtara bilirb. Bu hadisənin ən maraqllı və diqqəti çəkən cəhəti odur ki, Aslan bəy cəsarətini itirmədən Gorusun içində Androniklə görüşə gedib, daha sonra isə Androniki inandıra bilib ki, camaat inansın deyə əvvəlcə silah-

ları o tərəfə keçirmək lazımdır və Andronik də buna inanıb. Andronik də Aslan bəyi inandırmağa çalışıb ki, camaata xəbər verə bilər ki, bundan sonra daşnaklar Zəngəzurda müsəlman əhalisinə qarşı bir də zorakılıq etməyəcəklər. Aslan bəy bu daşnak tülkülərinin hiylələrindən yaxşı xəbərdar idi və bilirdi ki, əgər Andronik Xankəndinə, Qarabağa keçib Dro ilə birləşərsə Qarabağda qan su yerinə axacaq. Ona görə də Aslan bəy ilk baxışdan Andronikə inandığını göstərsə də Androniki silahları göndərməyə, sonra ordunu çəkib aparmağa razı salır və qurduğu plan əsasında daşnaklara ağır zərbə vurur. Bu döyüşdə Aslan bəyin dəstələrinə Kəlbəcərdən və ətraf yerlərdən də sayseçmə igidlər köməyə gəliblər. Aslan bəyin Andronik döyüşçülərini öz silahları ilə öldürməsi yerli camaat arasında şərəfli bir tarix kimi hörmətlə xatırlanıb.

****

Rafiq müəllim atası Balaca Abdullayevdən eşitdiyi bir xatirəni də həmişə sevgiylə danışmağı xoşlayardı. Atası Balaca kişi deyərmiş ki, Aslan bəyin general Semyonovla dostluğu bütün Zəngəzurda ağız-ağız gəzərdi. Bu dostluğun təməli Aslan bəy Ersevənikdə Semyonovu və onun ordusunu daşnak mühasirəsindən xilas etdikdən sonra qoyulmuşdu. Aslan bəy həmin mühasirədə Semyonovu real ölümdən xilas etmişdi. Bu hadisədən sonra Semyonovla Aslan bəyin arasında çox sıx dostluq münasibətləri qurulmuşdu.

Günlərin birində Aslan bəylə Semyonov ova çıxırlar. Meşənin dərinliyində olarkən onlar ceyran mələməsinin səsini eşidirlər. Aslan bəy Semyonovdan soruşur:

– O səsi eşidirsənmi?

Semyonov cavabında:

– Eşidirəm,- deyir.

Aslan bəyin silahı qaldırıb hazır saxladığını görən Semyonov maraqla xəbər alır:

– Nəyə güllə atmağa hazırlaşırsan?

Aslan bəy sakitcə:

– Ceyranın səsi bir də eşidiləndə onu vuracağam. Mən onun səsini müşahidə edirəm.

Semyonovu gülmək tutur:

– Bu mümkün deyil, heç meşənin dərinliyində görünməz olan bir heyvanı da səslə təyin edib vurmaq olar?- deyir.

Aslan bəy:

– Olar, mən onu başından vuracağam, – deyərək bu zaman ceyranın səsinə doğru atəş açır.

Güllə səsindən sonra bir anlıq sükut olur. Aslan bəy Semyonova deyir:

– Gedək ovumuzu götürək. Mən onu başından vurdum.

Semyonov dostunun bu sözlərini zarafat kimi başa düşür, onun dediklərinə qəti inana bilmir. Onlar birlikdə bir qədər əvvəl səsi eşidilən ceyrana doğru səmt alırlar. Azacıq vaxt ötdükdən sonra onlar ceyranın yanına yetişirlər. Bu zaman Semyonov gördüyü mənzərədən heyrətini gizlədə bilmir. Hər şey Aslan bəyin dediyi kimi idi – ceyran başından cəmi bir güllə ilə vurulmuşdu.

Bu mənzərəni görən Semyonov dostunun fitri atıcılıq məharətinə heyranlığını gizlədə bilmir. Aslan bəy Semyonovla dostluğu boyu onu dəfələrlə belə heyrətamiz atıcılıq məharəti ilə heyrətləndirə bilmişdi. Semyonov növbəti ovların birində Aslan bəyin dediyi kimi, səmada uçan ördəyi dimdiyindən vurmasını təsadüf kimi qəbul etmişdi. Aslan bəy Semyonova bunun təsadüf olmadığnı sübut etmək üçün dalbadal səmada uçan üç ördəyi də dimdiyindən vuraraq yerə salmışdı, bütün bunları görən Semyonov öz dostu Aslan bəy Sultanov

haqqında bir fikir deyirdi: "Ona Allah tərəfindən mahir atıcılıq istedadı verilib!"

****

Günlərin birində Aslan bəyin kəşfiyyatı iki daşnak zabiti ələ keçirir. Onları istintaq etmək Aslan bəyə həvalə olunur. Bu zaman Aslan bəy Semyonovla bir yerdə imiş. Söhbət əsnasında Aslan bəy Semyonova deyir ki, bunlar kəşfiyyatımızın ələ keçirdiyi daşnak zabitləridir.

Aslan bəy daşnak zabitləri ilə erməni dilində sorğu-suala başlayır. Sorğu-sual bitəndən sonra Semyonava işarə ilə bildirir ki, mən öz işimi bitirdim, indi növbə sizindir.

Bu mənzərənin şahidi olan və əsirlərlə çətinlik çəkmədən ermənicə danışdığını görən Semyonov daşnak zabitlərini rus dilində danışdırmağa başlayarkən onlardan aldığı ilk sual onu heyrətləndirir. Daşnak zabitləri maraqla xəbər alırlar:

– Bizi sorğu-sual edən o adam erməni idi?

Semyonov eşitdiyi sualdan heyrətlənir:

– Məgər siz onun danışığında heç bir ləhcə hiss etmədiniz?

Daşnaklar:

– Yox, qətiyyən, o təmiz erməni dilində danışırdı,- deyərək, cavab verirlər.

Aslan bəyin həm rus, həm erməni dilində heç bir ləhcə biruzə vermədən, sərbəst, səlis danışa bilməsi Semyonovda ona qarşı daha böyük pərəstiş hissi oyadır. Semyonov Aslan bəyin belə gözlənilməz xüsusiyyətlərini kəşf etdikcə ona daha da sıx bağlanırdı.

Aslan bəy Semyonovun onun erməni dilində sərbəst danışa bilməsinə təəccübləndiyini gördüyündə ona demişdi:

– Dostum, yadında saxla, düşmənini məhv etmək istəyirsənsə, ilk növbədə onun dilini yaxşıca bilməlisən!

****

Zəngəzur kəndlərindən birində maraqlı bir hadisə baş vermişdi. Günlərin birində quldurlardan biri qolunun zoruna arxayın olub camaatın mal-qarasını zorla günün günorta çağı əlindən alır. Camaat onun bu hərəkətinə etiraz edərək ona xəbərdarlıq ediblər ki, sənin bu hərəkətin barədə Aslan bəyə çatdıracaıq. Quldur da arxayın-arxayın deyib ki, gedin kimə nə deyirsiz deyin!

Mal-qarası oğurlanan adamlar özlərini ümid yerləri olan Aslan bəyə çatdırırlar və hadisəni olduğu kimi ona danışırlar. Bu xəbəri eşidən Aslan bəy bərk qəzəblənir və ona pənah gətirən adamlara deyir ki, narahat olmayın, o elədiyi hərəkətin cavabını alacaq.

Aslan bəy vaxt itirmədən elə həmin gecə bir-neçə yaxın adamı ilə quldurun evinə yollanır. Qapı-baca bağlı, həyətdə canavar kimi vəhşi itlər olan bir evin həyətinə girməyin mümkün olmadığını düşünən quldur evində arvad-uşağı ilə yatırmış. Aslan bəy əvvəlcə itləri zərərsizləşdirib, itlərin səsi belə çıxmadan hamısı öldürülür. Evin qapısını açaraq evə girən Aslan bəy hazır saxladığı tüfəngin lüləsini onun başına tuşlayır, bu zaman quldurun yanında yatan arvadını görəndə tüfəngini geri çəkir, patrondaşdan iki patron çıxarıb quldurun qulaqlarının dibinə qoyaraq evi tərk edir.

Səhər yuxudan ayılan quldurun arvadı yataqda olan patronları görəndə haray-həşir salır. Quldur yuxudan oyanıb patronlara baxanda məsələnin nə yerdə olduğunu anlayır. Bu hərəkəti ancaq Aslan bəyin edəcəyini başa düşən quldur vaxt itirmədən bir-neçə ağsaqqalını da götürüb Aslan bəyin görüşünə gedir. Quldur bəyin ayağına düşərək yalvarır və deyir:

– Bəy, məni öldürsəydin bundan yaxşı olardı. Mən sənin igidliyinin qarşısında baş əyirəm. Sən ki, məni arvadımın yanında vurub öldürmədin, ömrüm boyu sənə qulam.

Aslan bəy də ona:

– Səni bu ağsaqqallara bağışlayıram, bir də belə qələt eləmə! Camaatın malını apar özünə qaytar.

O da verdiyi sözü tutaraq malını əlindən aldığı adamlarla görüşüb, onlardan üzr istəyib və apardığı mal-qaranın hamısını onlara qaytarıb.

****

Deyilənlərə görə Zəngəzur kəndlərindən birində günlərin birində çox murdar bir hadisə baş verib. Bir evin qadınlarının zivədən asılan bütün alt paltarlarını gecə ikən gəlib oğurlayıb aparıblar. Bu fakt həmin dövrdə ailə üçün, bütün nəsil üçün böyük bir biabırçılıq hesab olunurdu. Səhər tezdən ev sahibi bu mənzərənin şahidi olur. Onlar bu hadisədən başlarını itirir, məyus olur, nə edəcəklərini bilmirlər. Bu şərəfsizliyi hansı düşmənlərinin onlara etdiyini yəqinləşdirməyə çalışırlar. Bu zaman oğlunun hadisədən az qala dəli olacağını görən anası yerindən qalxaraq deyir:

– Gedirəm Aslan bəyə hər şeyi deyəm... Bu xainlərin cəzasını ancaq o verəcək! Oğlum, Allahdan ümid kəsilməz.

Qadın vaxt itirmədən Aslan bəyin yanına gedir, bu vaxt Aslan bəy evdə yox imiş. Qadın hadisəni evdə olan yaşlı qadınlardan birinə danışır. Az sonra Aslan bəy də gəlib çıxır, evdə olan yad qadını gördükdə mehribanlıqla xəbər alır:

– Ay bacı, gəlişin xeyirdirmi?

Qadın cavab verməyə utandığından susur, bu vaxt evdəki yaşlı qadın astaca Aslan bəyə yaxınlaşıb hadisəni eşitdiyi kimi ona çatdırır, bu xəbərdən hiddətlənən bəy:

– Binamuslar! Biqeyrətlər! – deyərək ayağa qalxır, üzünü qadına tutur və əlavə edir: – Narahat olma, bacı, onlar etdikləri binamusluğun cavabını alacaqlar.

Aslan bəy dərhal yanındakı döyüşçülərinə “atlanın” əmrini verir. Aslan bəyin kəşfiyyatı tez bir zamanda hadisənin kimlər tərəfindən törədildiyini müəyyənləşdirir. Aslan bəy dərhal həmin adamları tapmağa yola çıxır. Şərəfsizlik edən adamların kəndlərinin girəcəyində, hündür bir təpənin üstünə çıxaraq havaya bir-neçə güllə atır. Kənd camaatı təşvişə düşür, elə zənn edirlər ki, kəndə basqın olub. Tez hər kəs silaha əl atıb atlanaraq Aslan bəygilin qərar tutduqları təpəyə doğru çapıblar. Bu zaman Aslan bəy uzaq məsafədən ona doğru gələn ilk atın alnının ortasından vuraraq atı öldürür. Daha sönra növbəti atları da eyni qayda ilə və eyni yerdən vuraraq öldürərək atlıları yerə sərir. Bu zaman heyrət içində olan kənd adamları bir-birlərinə sual edirlər ki, bu adam nədən bizi yox, atlarımızı vurub öldürür, burda nəsə bir iş var.

Bu vaxt haraya yetişən kənd ağsaqqaları gəlib bir-neçə atın eyni yerdən, eyni qayda ilə qaşqasından vurulduğunu görən kimi, hadisəni anlayıblar və hər kəsə deyiblər ki:

– Bu Aslan bəydir, xəbərdarlıq edir, nəsə ciddi bir şey olub!

Ağsaqqallar dərhal kənd camaatından xəbər alırlar ki, nə olub ki, Aslan bəy belə qəzəblənib, hər şeyi bilməliyik, yoxsa Aslan bəy hamımızı gülllədən keçirdəcək.

Bu vaxt qorxu içində olan kənd adamları gecəki hadisəni ağsaqqallara çatdırırlar. Ağsaqqallar əllərinə təslimçilik rəmzi sayılan ağ ələfəni başlarının üstünə qaldırıb Aslan bəyə doğru gedirlər.

Aslan bəylə görüşən ağsaqqallar onun ayaqlarına düşüb yalvarırlar ki:

– Bəy, kənd cavanlarının qanını bizim ağsaqqallığımıza keç. Onları balalarının başına dola, bağışla. Pal-paltarları da öz ağbirçəklərimizlə aparıb yiyəsinə çatdıracağıq...

Aslan bəy ağsaqqalların bu yalvarışlarına cavab olaraq deyir:

– Qoy qurban olsunlar sizə! Gedin camaatdan üzür istəyin, pal-paltarı da öz ağbirçəklərinizlə yiyələrinə qaytarın.

Bu hadisədən sonra şərəfi ləkələnmək təhlükəsindən qurtulan qadın yenidən Aslan bəyin evinə gələrək ona minnətdarlıq edir:

– Çox sağ ol, Aslan bəy, allah səni bu camaata çox görməsin! Az qala oğlum dəli olacaqdı. Ömrümüz boyu bu yaxşılığı itirmərik, dualarımız həmişə sizinlə olacaq.

****

Aslan bəyin uşaqlıq və yeniyetməlik illəri ilə bağlı da maraqlı xatirələr az deyil. Onlardan biri də Zəngəzurun yaşlı adamlarının indi də xatirində yaşayan bir əhvalatdır.

Bir gün kənd qadınlarından ikisi kəndin kənarındakı kolluqdan böyürtkən yığırmışlar. Bu zaman yekəpər bir erməni dığası qadınların yanında heç kəsin olmadığını gördükdə onlara sataşmaq fikrinə düşür, qadınlara hücum edir və təcavüz etməyə çalışır. Qadınlar da özlərini qorumaq üçün hay-həşir salır, ona müqavimət göstərməyə çalışırlar. Dığa qadınlardan birini zorla tutub yerə çırpanda yaxınlıqdan keçən doqquz yaşlı Aslan bunu görür, damarlarındakı qan coşur, erməni dığasının bu hərəkətini cavabsız qoya bilməyərək özünü itirmədən yerdəki iri payanı götürərək qadını yerə yıxmış dığanın peysərinə bir-neçə zərbə ilişdirir. Dığa qan içində özündən gedir və kənara aşır. Bu hadisədən heyrətlənən qadınlar balaca bir oğlan uşağının onların namusunu necə xilas edə bilməsindən çaşıb qalırlar, qadınlar balaca Aslanı bağırlarına basıb öz xilaskarlarını öpürlər və hələ də qorxu, həyəcan içində olan qadınlar deyirlər ki:

– Oğlum, gəl, qaçaq, yoxsa bu dığa durar bizi öldürər.

Balaca Aslan da cavabında onlara deyir ki:

– Daha o bizi öldürə bilməz! Çünki o özü ölüb...

Bu hadisə tez bir zamanda hər tərəfə yayılır. Doqquz yaşlı Aslanın etdiyi qəhrəmanlıq dillər əzbəri olur. Hamı deyirmiş ki, Kərbəlayi Hüseyn bəyin oğlu Aslan böyüyəndə qəhrəman olacaq.

Bəli tarix bunu göstərdi. İlk düşmənini xəyanət üstündə haqlayan balaca Aslan gələcək taleyini elə o vaxt seçmişdi. Allah onu Zəngəzur camatının xilaskarı kimi göndərmişdi.

****

Aslan bəyin xaincəsinə həlak olmasından sonra bütün ailə üzvləri və bütün qohum-əqrabası Azərbaycanın müxtəlif yerlərinə sürgün olunur. Ailənin özünü isə Nuxanın (indiki Şəki rayonu) Daşburun kəndinə sürgünə göndərirlər. Oradan isə onları Qazaxstana sürgün etmək planlaşdırılırmış. Ailə bir müddət Nuxada yaşadıqdan sonra Nuxanın yerli hakimiyyət nümayəndələri tərəfindən yayılan həyəcan dolu xəbərlər eşidirlər. Tezliklə onları Qazaxıstana sürgün edəcəklər.

Bu xəbərdən az sonra Azərbaycan Fövqəladə Komissiyasının sədri (o vaxtlar bu vəzifə Milli Təhlükəsizlik Nazirliyi səviyyəsində bir orqan olub) Mircəfər Bağırovun Nuxaya gələcəyi, sürgün olunmuş adamlarla görüşəcəyi barədə məlumat dolaşır və xəbər yayılır ki, Mircəfər Bağırovun Qazaxıstana sürgün olunacaq adamlarla görüşünün vaxtı barədə əlavə məlumat veriləcək. Elə də olur, xəbər verilən vaxt Qazaxıstana sürgün olunacaq adamlar meydana toplaşırlar. Bu zaman Mircəfər Bağırov izdiham qarşısında çıxış etməyə başlayır. Onun rus millətindən olan eynəkli yavəri adamlar arasında dolaşarkən qəfildən gözü Aslan bəyin qardaşı Süleyman bəyə sataşır. O çaşqın bir vəziyyətdə yaxınlaşaraq onu bərk-bərk

bağrına basaraq qucaqlayır. Bu vəziyyət bir-neçə dəfə təkrarlanır. Heyrətlə xəbər alır:

- Sizi bura kim sürgün edib?

Aslan bəyin qardaşı Süleyman bəy vəziyəti olduğu kimi ona danışır. Yavər iti addımlarla Mircəfər Bağırovun yanına gələrək hərbi təzim edir və deyir:

– Yoldaş Bağırov, bizi Zəngəzurda banditlər mühasirəyə alıb öldürmək istəyərkən real ölümün cəngindən bizi xilas edən Aslan bəy Sultanovun qardaşı Süleyman bəyi də bura sürgün ediblər. – Yavər əlavə edərək deyir ki: – Aslan bəy bizi xilas edərkən onun dəstəsindən olan üç nəfər igid banditlər tərəfindən öldürülmüşdü, o vaxt güllələrdən biri Aslan bəyə də dəyə bilərdi. O həyatına risk edərək bizi xilas etmişdi.

Bağırov bu xəbəri dinlədikdən sonra uca səslə deyir:

– Bu ola bilməz! Onun qardaşını təcili yanıma çağırın,- əmrini verdi.

Yavər Aslan bəyin qardaşı Süleyman bəyin qoluna girərək onu Mircəfər Bağırovun yanına gətirdi. Bu zaman Mirəfər Bağırov onunla son dərəcə səmimiyyətlə görüşərək əlini bir-neçə dəfə başının üstünə qaldırıb endirərək hadisənin necə olduğunu bir daha xəbər alır.

Prezident Aparatı Siyasi Sənədlər Arxivi sənədləri təsdiq edir ki, həmin dövrdə Mircəfər Bağırov da mərkəzi hakimiyyətin hədəfində olanlardan biriydi. Mərkəzi hökumət onu başından etmək üçün Gürcüstana dəxli olmayan su təsərrüfatı ilə bağlı bir adi işə göndərmişdilər. **(Fond 1. Siyahı 8. İş 14)**

Süleyman bəy Aslan bəyin ölümündən sonra baş verən hadisələri dəqiqliyi ilə Mircəfər Bağırova çatdırır. Bağırov onu diqqətlə dinlədikdən sonra əlini ərklə onun çiyninə toxunduraraq çox təəssüf etdiyini demiş, daha sonra da əmr verib deyir ki, onları dərhal sürgündən azad etsinlər. Bu insanların heç bir günahı yoxdur.

Daha sonra Mircəfər Bağırov Aslan bəyin qardaşı Süleyman bəylə mehribanlıqla görüşərək ayrılır. Ayrılarkən Mircəfər Bağırov əmr etdiyi adamlara bildirir ki, bu məsələnin icrasına şəxsən özüm nəzarət edirəm. Məsələ tam icra olunduqdan sonra mənə məlumat verin.

Bağırov getdikdən sonra Aslan bəyin ailə üzvləri bir-birlərini təbrik ediblər və rus yavərin onları xilas etməsindən məmnun qalıblar. Amma hər halda əmr icra olunana qədər içlərində bir tərəddüd də var idi. Səhərin alatoranında qapıya gələn iki yük maşınının və gələn faytonların atlarının səsi ev adamlarını yuxudan oyadır. Gələn hökumət nümayəndələri Mircəfər Bağırovun yazılı əmrini onlara təqdim edir. Bu əmri alan ailə üzvlərinin sevincləri yerə-göyə sığmır.

Bu zaman Aslan bəyin qardaşı Süleyman bəyin bir qız övladı dünyaya gəlir. Onun ayağı çox düşərli olduğuna görə adını Sayalı qoyurlar. O vaxtkı Nuxada (indiki Şəkidə) anadan olduğuna görə indi də hərdən zarafatla Sayalı xanımı "Nuxalı" deyə çağırırlar.

Yeri gəlmişkən Aslan bəyin Nuxanın Daşburun kəndində sürgün həyatı yaşayan ailə üzvləri həmişə Daşbulaq camaatını sevgiylə xatırlayardı. Onlar deyərdilər ki, Daşbulaqlılar bizə böyük hörmət göstərir, qayğımızı çəkir və ürək-dirək verərək deyərdilər ki: "Pis günün ömrü az olar". Aslan bəyin ailə üzvləri bu gün də Şəki camaatına, xüsusilə də Daşbulaq əhalisinə öz dərin minnətdarlığını bildirir.

Bu hadisəni xatırlayan Aslan bəyin qardaşı deyirdi ki, Bağırov və onu müşayiət edənləri quduz banditlərin caynağından xilas etdikdən sonra az öncə vəhşicəsinə öldürüləcəyi xofundan hələ də özünə gələ bilməyən Mircəfər Bağırov Aslan bəyi bağrına basaraq üzündən öpmüş, minnətdarlıq hissi ilə bildirmişdi:

– Aslan bəy, sənə bir can borcum var.

Bundan sonra süfrə açılmış, çörək kəsilmişdir. Yeməkdən sonra Bağırovun yavəri ilə mən onlardan icazə alaraq meşəyə çiyələk yeməyə getdik. Zəngəzur meşələrində çox ətirli yabanı çiyələklər bitərdi. Biz bu çiyələkləri dərib yeyirdik. Mircəfər Bağırovun yavəri tez-tez məni qucaqlayaraq onları ölümdən qurtardığımız üçün Aslan bəyə xüsusi minnətdarlığını bildirirdi. Bu zaman yavər Aslan bəyin necə qəhrəmanlıq göstərməsini, necə dəqiq hərbi taktika seçməsini, bir göz qırpımında vəhşiləşmiş banditləri gəbərtməsini, həmin döyüşdə Aslan bəyin cəsur döyüşçülərindən üçünün həlak olmasını danışıb, bütün bunlara görə ömrü boyu Aslan bəyə borclu olacağını bildirmişdi.

Bəli, zaman yetişdi və rus yavər Nuxada öz sədaqətini, verdiyi sözü kişi kimi tutmasını sübut etdi. Onu da qeyd etmək yerinə düşər ki, Savalan Şirinov və qeyriləri Mircəfər Bağırovun Aslan bəyin qəhrəmanlığına qibtə etdiyini və ona xüsusi rəğbəti olduğunu deyərdilər.

Bu faktı arxiv sənədi **(Fond 1. Siyahı 1. İş 126.)** də təsdiq edir. Mircəfər Bağırov 1920-ci ildə Qarabağda inqilab komitəsi sədrinin müavini işləyərkən Aslan bəy Sultanov Qarabağın və Zəngəzurun fövqəladə komissarı (ali rəhbəri) olub. Bu da o deməkdir ki, o zaman Mircəfər Bağırov Aslan bəyin tabeçiliyində işləmiş və onun bütün fəaliyyətini, qəhrəmalıqlarını, qeyri-adi sərkərdəlik istedadını şəxsən öz gözləri ilə görmüş, bütün bunlara görə də ona pərəstiş etmişdir.

Mircəfər Bağırov sonrakı fəaliyyətində də Aslan bəyə olan rəğbətini gizlətməmiş, belə ki, onları sürgündən azad etdikdən sonra nəslin ağsaqqalarına gizli olaraq tövsiyyə etmişdir ki, soyadlarını dəyişsinlər. Ona görə də Aslan bəyin qohum-

larının əksəriyyəti Sultanov soyadından Abdullayev soyadına keçmişdir. Bu soyadı da ona görə götürmüşdülər ki, Aslan bəyin atası Kərbəlayi Hüseyin bəyin babasının adı Abdulla bəy olmuşdur. Bu soyadı qəbul etdikdən sonra ailə sanki bəy damğasından qismən də olsa canını qurtara bilmişdir.

Mircəfər Bağırovun razılığı, xeyir-duası olmadan heç kəs bu soyadı dəyişməyə cürət etməzdi. Çünki birincisi Mircəfər Bağırov bu nəsli çox yaxşıl tanıyırdı, bilirdi ki, bu nəsil Azərbaycanın ən qədim zadəgan bəy nəsillərindən biridir. İkincisi isə Mircəfər Bağırov hüquq-mühafizə orqanlarının başında işləyən bir adam kimi kimin kimə necə bağlı olmağını dəqiqliklə bilirdi.

Bu fikirlərin təsdiqi kimi 50-ci illərdə onu ölümdən qurtaran Aslan bəyin doğma bacısı oğlu və əmisi nəvəsi Canbaxış Ab-
dullayevi maliyyə naziri, sonra Qutqaşen rayonunun (indiki Qəbələ rayonu) birinci katibi, qardaşı oğlu professor, tarix elmləri doktoru Həsi Abdullayevi Mərkəzi Komitənin şöbə müdiri vəzifəsinə təyin etmişdi. Mircəfər Bağırov çox yaxşı bilirdi ki, Həsi Abdullayevin atası Behbud bəy Sultanov hələ 1920-1921-ci illərdə Aslan Sultanovun işçisi olmuşdu. Canbaxış Abdullayev isə Abış bəy Sultanovun oğlu idi, yəni Aslan bəyin əmisi oğlunun oğlu idi. Bütün bunlar da Mircəfər Bağırovun Aslan bəyin unudulmaz xatirəsinə və onun ruhu qarşısında olan borcuna dərin hörmətin əksidir.

****

Deyilənlərə görə bir gün Aslan bəy Gürcüstana bir tədbirə dəvət olunur. Tədbirdə öz dövrünün yüksək hərbi vəzifələrini tutan adamlar iştirak edirlər. Tədbirin sonunda bir yarışma

təşkil olunur. Hədəfləri düzüb nişan almaq və hədfləri vurmaq şərt qoyulur. Hər kəs öz atılıcılıq məharətini göstərməyə çalışır. Atəş açanlar hədəfləri yüksən ustalıqla vura bilirlərmiş. İşi belə görən Aslan bəy qərara alır ki, burada qeyri-adi bir şücaət göstərsin. Ona görə də növbə ona çatanda tüfəngi qaldırıb hədəfi nişan almaq əvəzinə hər kəsdən fərqli olaraq öz yerini alaraq hədəfə diqqətlə baxmağa başlayır. Ətrafda olanlar təəccüblərini gizlədə bilmirlər. Maraqla onun hərəkətlərinə göz qoyurlar. Bu zaman Aslan bəy arxasını hədəfə sarı tutaraq tüfəngi çiyni üstən qaldırıb hədəfi arxası tərəfə vurub aşırır. Onun hədəfi arxası tərəfə vurub aşırması ora toplaşanların hamısını təəccübləndirir. Onun qeyri-adi atıcılıq qabiliyyəninə həsəd aparırlar.

****

Bir gün Aslan bəyin atası Hüseyn bəy anası Mülkü Cahan xanımla birlikdə müqəddəs Kərbəlaya ziyarətə getməyi qərara alırlar. Allah bu ziyarəti onlara qismət edir. Ziyarəti başa vurduqdan sonra geri dönüb evlərinə qayıtdıqları vaxt kənd adamlarından biri hər kəsi qabaqlayaraq bəyin atının başından tutur və üzünü bəyə tutaraq deyir:

– Ay Kərbəlayi Hüseyn bəy, allah mənə də belə bir at qismət eləsin, mən də Kərbəlanı ziyarət edim.

Bu vaxt Kərbəlayi Hüseyn bəy gülümsəyərək ona cavab verir:

– Allah belə bir atı sənə qismət elədi. Bu at bu gündən sənindir.

Sevincindən çaşıb qalan bu sadə kənd adamı üzünü məyus-məyus Kərbəlayiyə tutaraq susur. Onun bu mənalı baxışlarını görən Kərbəlayi Hüseyn bəy məsələnin nə yerdə oldu-

ğunu başa düşür. Yenə özünəməxsus bir təbəssümlə, həm də zarafatla bildirir:

– Təkcə Kərbəlayi mən deyiləm ki... Qoy qalan tədarükü də Kərbəlayi Mülki Cahan xanım eləsin!

Bəli... O sadə adamın sevincinin həddi-hüdudu yox idi. Belə səxavətli və allahsevər bir insanların qarşısında olmasından, onlardan gördüyü xeyirxahlıqdan allaha şükür edirdi.

İlk növbədə qadir Allanın rizası və yerdə isə Kərbəlayi Hüseyn bəylə Kərbəlayi Mülkü Cahan xanımın vasitəçiliyi ilə Kərbəla ziyarəti arzusunda olan həmin adama Kərbəla ziyarəti qismət oldu!

Bu yerdə əlavə etməyi vacib bilirik ki, Kərbəladan qayıdan Kərbəlayi Hüseyn bəy Mac kəndini öz pulu ilə alaraq öz ətrafında ehtiyacı olan insanlara təmənnasız olaraq ehsan kimi paylayıb. Mac kəndinin gözəlliyi və füsunkar təbiəti barədə isə o kəndi öz gözləri ilə görmüş Nuşirəvan Əsədovun xatirələrində ətraflı məlumat verilmişdir.

****

